# HƏQİQƏTDƏN DOĞAN ƏFSANƏ

Ömər bin əl-Xəttab və
Ümmü Gülsümün nigahı

Seyid əl-Hüseyni əl-Qəzvini və
Seyid Əli əl-Milaninin tədqiqatları əsasında

Bakı, 2014

www.313news.net

# HƏQİQƏTDƏN DOĞAN ƏFSANƏ

## Ömər bin əl-Xəttab və Ümmü Gülsümün nigahı

Seyid əl-Hüseyni əl-Qəzvini və
Seyid Əli əl-Milaninin tədqiqatları əsasında

Bakı, 2014

## Ön söz

İslam tarixi mənbələrində, xüsusi ilə şiə dünyasında danışılanlara görə ikinci xəlifə Ömər bin əl-Xəttab ilə Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) arasında bir çox ixtilaflar yaşanıb. Deyilənlərə əsasən, onların ixtilafı Allah Rəsulunun (s) yeganə qızı və ciyər-parası xanım Fatimənin (ə) şəhadətindən sonra düşmənçilik həddinə çatmışdır.

Başqa bir tərəfdən isə bəzi tarixçilərin yazdığı iddialara görə, İmam Əli bin Əbi Talib (ə) öz qızı Ümmü Gülsümü Ömər bin əl-Xəttaba ərə verərək dostluqlarını yenidən bərpa etmişdir. Bu iki iddia hər iki məzhəbin gündəmini məşğul edərək, bir çox mübahisələrə yol açmışdır.

Yaranan şübhə bundan ibarətdir:

«Ömər bin əl-Xəttab xanım Fatimənin (ə) şəhid edilməsində günahkar hesab edilirsə, necə ola bilər ki, İmam Əli (ə) məhz o xanımdan olan qızı Ümmü Gülsümü anasının qatilinə ərə verir?»

Bu şübhə bəzi insanların bu mübhəm[1] mövzudan istifadə edərək şiə alimlərinin iddia etdiyi İmam Əli bin Əbi Talibin (ə) vilayətinin qəsb edilməsini və xanım Fatimənin (ə) şəhadətini təkzib etməyə çalışırlar. Əhli-sünnə alimləri sözügedən bu evlilik ilə Ömər bin əl-Xəttab ilə İmam Əli (ə) arasında yaşananların dostluq və səmimiyyətdən başqa bir şey olmadığı qənaətindədirlər.

Elə bu səbəbdən biz də bir müsəlman olaraq iki məzhəb arasında yaranan ixtilafı aradan qaldırmaq və bu qaranlıq mövzunu aydınlatmaq naminə istər şiə, istərsə də əhli-sünnə mənbələri əsasında araşdırma aparmaq qərarına gəldik.

Bu məsələ haqqında çox danışılıb və müxtəlif fikirlər bildirilib. Bir çox rəddiyyələr və məqalələr yazılaraq müəyyən istidlallar edilib. Onların hər birinin də qaneedici olduğu inkar edilməz bir həqiqətdir.

Lakin, xüsusi ilə Rəzi əd-Din əl-Hilli, Əllamə Muqərrəm, Əllamə Baqir Şərif əl-Qurəşi kimi böyük din alimlərinin bu haqda yazdıqları daha çox maraq doğurur. Çünki adı çəkilən alimlər ümumiyyətlə xanım Fatimənin (ə) Ümmü Gülsüm adlı qızının varlığını inkar ediblər. Onlar öz iddialarını sübuta yetirəcək kifayət qədər dəlillər də irəli sürüblər.

[1] *Anlaşılmaz, qeyri-müəyyən, hər cür yozula bilən*

Bir sıra alimlər, o cümlədən Şeyx əl-Mufid, Seyid Nasir Hüseyn əl-Hindi və Seyid Əli əl-Milani bu evlilik haqqında nəql edilən rəvayətlərdə üzə çıxan təzadları ön plana çıxarmış və bu iddianın əsassız olması qənaətinə gəlmişlər.

Seyid Murtəza isə digərlərindən fərqli olaraq, bu evliliyin baş tutduğunu, lakin hədə-qorxu və zor tətbiq etmə yolu ilə həyata keçirildiyini önə sürmüşdür.

Şiə və əhli-sünnə alimlərindən ibarət bir qism Ömər bin əl-Xəttabın Ümmü Gülsüm adlı həyat yoldaşının olduğunu yazmış və bu qadının Əbu Bəkrin qızı olduğunu bildirmişlər. Muhy əd-Din Yəhya bin Şərəf ən-Nəvəvi, Ayətullah Mərəşi ən-Nəcəfi bu haqda bir çox tarixi faktlar və həmin faktları sübut edəcək sənədlər üzə çıxarmışlar.

Bütün bu iddialar ilə sizi ətraflı tanış edəcəyimiz və mövzu barədəki digər rəvayətlər haqqında da bəhs edəcəyimiz bu kitabda İslam ümməti arasında ixtilafa səbəb olan bu qarışıqlığın aydınlığa qovuşacağına ümid bəsləyirik.

# I FƏSİL
# Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) və xanım Fatimənin (ə) qızı Ümmü Gülsüm kimdir?

## Şiə alimlərinin fikirləri

Şiə dünyasının bəzi təhqiqatçı alimləri Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) və Xanım Fatimənin (ə) Xanım Zeynəbdən başqa Ümmü Gülsüm adlı qızlarının olmadığı və «Ümmü Gülsüm» adının məhz Xanım Zeynəbə aid olduğunu bildiriblər. Onların irəli sürdükləri tarixi faktlara əsasən İmam Əli bin Əbi Talib (ə) və Xanım Fatimənin (ə) beş övladının olmasını, yəni İmam Həsən (ə), İmam Hüseyn (ə), Möhsün (dünyaya gəlmədən xanımın bətnində vəfat etmişdir), Zeynəb və Ümmü Gülsüm kimi tanıdanlar bəzi rəvayətlərin qarışıqlığından səhvə yol vermişlər. Belə ki, bir çox rəvayətlərdə Zeynəb xanım «Ümmü Gülsüm» adı ilə yad edilmişdir. Məhz xanım Zeynəbin iki adla məşhur olması bir çox tarixçi və mühəddisləri səhvə sürükləmişdir.

Şiə dünyasının ən tanınmış alimlərindən biri olan mərhum Rəziyyədin əl-Hilli İmam Əli bin Əbi Talibin (ə) övladları haqqında apardığı araşdırmada yazır:

كان له ( عليه السلام ) سبعة وعشرون ذكرا وأنثى: الحسن، والحسين، وزينب الكبرى المكناة بأم كلثوم من فاطمة بنت رسول الله ( صلى الله عليه وآله ) ....

*«Onun[2] övladlarının sayı qız və oğlanları daxil olmaqla, iyirmi yeddi nəfərdir. Onlardan yalnız (üç nəfər) Həsən, Hüseyn və Ümmü Gülsüm ləqəbi ilə tanınan Zeynəb əl-Kübra Fatimənin (ə.s) övladları və Allah Rəsulunun (s) nəvələri olublar.»*[3]

Nəcəf şəhərində yaşayan müasir təhqiqatçı alim Baqir Şərif əl-Qurəşi bu haqda belə deyir:

ليس لصديقة الطاهرة بنت غير السيدة زينب. و أنها تكنّا بأُمّ كلثوم. كما ذكرنا اليه بعض المحققين. و علي ايّ حال فإنّي اذهب بغير تردد اذا ان الصديقة الطاهرة الزهراء ليس عندها بنت تسمّي بأُم كلثوم.

*«Xanım Fatimənin (ə) Zeynəbdən başqa bir qızı olmayıb. Onun künyəsi Ümmü Gülsüm idi. Bəzi təhqiqatçılar da eyni fikirdədirlər. Hər halda mən tərəddüdsüz deyə bilərəm ki, xanım Fatimənin (ə) Ümmü Gülsüm adlı qızı yox idi.»*[4]

---

[2] *İmam Əli (ə) nəzərdə tutulur*

[3] *Rəziyəddin əl-Hilli, əl-Ədəd əl-qaviyyə li-difaa əl-məxavif əl-yəvmiyyə, s.242*

[4] *Baqir Şərif əl-Quraşi, Həyat Seyyidə ən-nisa Fatimə əz-Zəhra (s.ə), s.219*

## Əhli-sünnə alimlərinin fikirləri

Bəzi əhli-sünnə alimləri də xanım Fatimənin (ə) övladlarının sayını üç, yaxud dörd nəfər olaraq qeyd etsələr də, Ümmü Gülsüm adını hallandırmamışlar.

Muhəmməd bin Yusif əs-Salihi əş-Şami yazır:

الثاني: في ولده – رضي الله تعالى عنهم – له من الولد الحسن والحسين ومحسن وزينب الكبرى من فاطمة – رضي الله تعالى عنهم – وله أولاد من غيرها كثيرون.

*«İkincisi: Əlinin (r.a) Fatimədən (r.a) olan övladları Həsən, Hüseyn, Möhsün və Zeynəb əl-Kubradır. O biri zövcələrindən də övladı çox olmuşdur.»*[5]

Şəhab əd-Din əl-Qəlyubi «Haşiyə əl-Qəlyubi əla şərh Cəlal əd-Din əl-Məhəlli əla Minhac ət-talibin» kitabında İmam Əli bin Əbi Talibin (ə) övlad sayını üç nəfərdən ibarət olduğunu yazmışdır. Cəlal əd-Din əs-Suyuti də bu mətləbi ondan belə nəql edir:

قوله: ( والاعتبار بالأب ) أي إلا في حقه (ص) فإن أولاد بنته فاطمة وهم الحسن والحسين وأولادهما من الذكور ينتسبون إليه، وهم الأشراف في عرف مصر وإن كان الشرف أصالة لقبا لكل من أهل البيت، وأما أولاد زينب بنت فاطمة، وكذا أولاد بنات الحسن والحسين وأولادهما من غيرهم، فإنهم ينتسبون إلى آبائهم وإن كان يقال للجميع أولاده (ص) وذريته.

فائدة: قال الجلال السيوطي رحمه الله لم يعقب من أولاده (ص) إلا فاطمة الزهراء فإنها ولدت من علي رضي الله عنه الحسن والحسين وزينب، وتزوجت زينب هذه بابن عمها عبد الله فولد له منها علي وعون الأكبر وعباس ومحمد وأم كلثوم، وكل ذرية فاطمة يقال لهم أولاده (ص) وذريته لكن لا ينسب إليه منهم إلا الذكور من أولاد الحسن والحسين خاصة لنصه على ذلك ا هـ.

*Övladın ataya nisbət verilməsi Allah Rəsulu (s) istisna olmaqla (hər kəsin barəsində) doğrudur. Çünki Fatimənin övladları, yəni Həsən ilə Hüseyn və bir də onların övladları o Həzrətə nisbət verilmişdir. Misir xalqının ürfündə onlara «Əşraf» deyilir. Baxmayaraq ki, «Əşraf» Əhli-beytdən olan hər kəsin ləqəbidir.*

*Lakin Fatimənin qızı Zeynəbin övladları və Həsən ilə Hüseynin övladlarının qızları Əhli-beytdən deyillər və atalarına nisbət verilirlər. Baxmayaraq ki, onların hamısına Allah Rəsulunun (s) züriyyələri və övladları deyilir.*

*Cəlal əd-Din əs-Suyuti (r) deyib: «Allah Rəsulunun (s) Fatimədən başqa övladı yox idi. Fatimə əz-Zəhra Əli (r.a) ilə evləndikdən sonra Həsən, Hüseyn və Zeynəb adlı övladları dünyaya gəldi. Zeynəb öz əmisinin oğlu Abdullah ilə evləndi. Onun*

[5] *Muhəməd bin Yusif əs-Salihi əş-Şami, Subul əl-huda və əl-rəşad fi sirat Xəyr əl-ibad, c.11, s.288*

*da Əli, Aun, Abbas, Muhəmməd və Ümmü Gülsüm adlı övladları vardı. Fatimənin bütün övladlarına da Allah Rəsulunun (s) övladları deyirlər. Lakin O Həzrətə nisbət verilən oğul övladları Həsən və Hüseyndən olan övladlardır. Çünki Allah Rəsulu (s) özü bu mövzunu açıq şəkildə buyurmuşdur.»*[6]

Misirli əhli-sünnə alimi Şeyx Muhəmməd əl-Xizəri yazır:

زواج علي بفاطمة عليهما السلام. وفي هذه السنة تزوج علي بن أبي طالب وعمره إحدى وعشرون سنة بفاطمة بنت رسول الله، وسنها خمس عشرة سنة، وكان منها عقب رسول الله صلى الله عليه وسلم بنوه: الحسن والحسين وزينب.

*«Hicrətdən üç il sonra Əli iyirmi bir yaşında ikən on beş yaşında olan Fatimə (ə.s) ilə evləndi. Allah Rəsulunun (s) övladları, yəni Həsən, Hüseyn və Zeynəb də bu evliliyin nəticəsində oldular.»*[7]

## Bu iddianı dəstəkləyən dəlillər

***a. Ümmü Gülsüm və Zeynəb adlarının bir yerdə çəkildiyi səhih sənədli rəvayət yoxdur.***

Xanım Fatimənin (ə) Zeynəbdən başqa bir qızının olmadığına və «Ümmü Gülsüm» isminin o xanımın ləqəbi olduğuna birinci dəlil heç bir səhih sənəddə bu iki adın bir yerdə zikr edilməməsidir. Xanım Fatimənin (ə) həyatı və onun başına gələn hadisələr haqqında yazılan heç bir şiə mənbəsində Zeynəb ilə Ümmü Gülsüm adı bir yerdə yazılmamışdır. Ancaq ya Zeynəb, ya da Ümmü Gülsüm olaraq qeyd edilmişdir.

Başqa sözlə desək, şiə mənbələrində səhih sənədlə nəql olunan heç bir rəvayətdə ikinci xəlifə Ömər bin əl-Xəttabla evlənən qızın məhz xanım Fatimənin (ə) övladı olması barədə məlumat yoxdur.

Bu günə qədər bir çoxları tərəfindən istidlal olunan sənədlər isə bəzi alimlərin şəxsi düşüncə və fikirləri olmuşdur ki, onlar da heç kim üçün höccət hesab edilə bilməz.

***b. Abdullah bin Cəfər kiminlə evləndi?***

Abdullah bin Cəfərin kiminlə evlənməsi bu mövzuda mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Məhz buna görə də bəzi müasir əhli-sünnə

---

[6] *Şəhabəddin əl-Qəlyubi, Haşiyə əl-Qəlyubi əla şərh Cəlaluddin əl-Məhəlli əla Minhac ət-talibin, c.3, s.236*
[7] *Muhəmməd əl-Xizəri, Nur əl-yəqin fi sirat seyyid əl-mürsəlin, c.1, s.111*

tədqiqatçıları mövcud çıxılmaz vəziyyətdən çıxış yolu axtarmış və bir çox klassik alimlərin fikirlərini rədd etməli olmuşlar.

İnternet şəbəkələrində yayılmış ən məşhur məqalələrdən birindən sitat:

*«Şübhələrdən də biri budur ki, mənbələrdən bəzilərində Abdullah bin Cafərin Zeynəb bint Əli öldükdən sonra onun bacısı Ümmü Gülsüm bint Əli ilə evləndiyi qeyd olunur. Ümmü Gülsüm Zeynəbdən əvvəl öldüyü halda bu, necə mümkündür?*

*İbn Sad və əd-Darəqutni kimi alimlər Ümmü Gülsümün Abdullah ilə evləndiyini deyirlər və bu barədə zəif xəbərlərə əsaslanıblar. Bu, sadəcə olaraq ravilərin xətasıdır. Bunun xəta olduğu isə ortadadır, çünki onlar deyirlər ki, Zeynəbdən sonra Abdullah Ümmü Gülsüm ilə evlənmişdir, lakin tarix bunu inkar edir. Çünki Ümmü Gülsüm Zeynəbdən əvvəl ölmüşdür.*

*Bundan başqa bu evlilik haqqındakı məlumat dəqiq deyildir. əl-Hafiz «Təhzib ət-Təhzib» əsərində Qasəm bin Luluə haqqında danışaraq deyir: «əl-Buxarinin nigah babının əvvəllərində sənədsiz olaraq rəvayət etdiyi əsərdə onun adı keçmişdir; dedi: Abdullah bin Cafər eyni zamanda həm Əlinin qızı, həm də onun (onun dul buraxdığı) qadını ilə evli olmuşdur. Said bin Mənsur bu əsəri Muğira bin Muqassim yolu ilə həmin bu Qasəm bin Luluədən isnadı ilə rəvayət etmişdir: «Abdullah bin Cafər eyni zamanda həm Əlinin (dul buraxdığı) qadını Leyla bint Məsud ən-Nəhşəliyyə, həm də Əlinin Fatimədən olan qızı Ümmü Gülsüm ilə evli olmuşdur. Abdur-Rahmən bin Mehranın tərcümeyi-halında buna bənzər bir əsər qeyd olundu, lakin orada Zeynəb bint Əli qeyd olunmuşdu. əz-Zuhri bu fərqli əsərləri birləşdirərək dedi: «Bir çox kəs mənə xəbər vermişdir ki, Abdullah bin Cafər eyni zamanda Əlinin qızı və Əlinin (dul buraxdığı) qadını ilə evli olmuşdur. Əlinin həmin qızı öldükdən sonra, digər qızı ilə evlənmişdir.» Bunu əl-Beyhəqi öz sənədi ilə rəvayət etmişdir.»*[8]

*Üstəlik tarix kitablarının çoxu Abdullah bin Cafərin tərcümeyi-halında onun Zeynəb ilə evliliyini qeyd edirlər, lakin Ümmü Gülsüm ilə evliliyindən bir şey yazmırlar. Nəticə olaraq deyə bilərik ki, bəzi tarixçilərin dəlilsiz-sübutsuz iddiası isbat olunmuş tarixi faktı inkar etməz.»*

Elə biz də məhz bu tarixi ziddiyyətlərdən danışacağıq.

---

[8] *İbn Həcər əl-Əsqəlani, Təhzib ət-təhzib, c.8, s.324*

Əhli-sünnə mənbələrində səhih sənədlə qeyd olunan rəvayətlərdə Abdullah bin Cəfərin eyni zamanda həm İmam Əlinin (ə) vaxtilə zövcəsi olmuş xanımla, həm də İmam Əlinin (ə) qızı ilə evli olduğu yazılmışdır. Bu rəvayətlərin bəzilərində həmin qızın adı Ümmü Gülsüm, bəzilərində isə Zeynəb olaraq nəql edilmişdir.

Muhəmməd bin İsmayil əl-Buxari yazır:

وَجَمَعَ عبد اللَّهِ بن جَعْفَرٍ بين ابْنَةِ عَلِيٍّ وَامْرَأَةِ عَلِيٍّ.

*«Abdullah bin Cəfər (bir zaman) Əlinin zövcələrindən (olmuş) bir xanımla və qızı ilə eyni zamanda evli idi.»*[9]

***<u>Əhli-sünnə alimlərinin bu məsələdən çıxış yolları:</u>***

***A.Abdullah bin Cəfər onlarla biri digərinin ardınca ailə qurdu.***

Bu rəvayətin şərhində bəzi əhli-sünnə alimləri bu qızın adını Zeynəb olaraq qeyd etmişlər:

İbn Həcər əl-Əsqəlani yazır:

وجمع عبد الله بن جعفر بين بنت علي وامرأته أما امرأة علي فهي ليلى بنت مسعود وأما بنته فهي زينب.

*«Abdullah bin Cəfər (bir zaman) Əlinin zövcələrindən (olmuş) bir xanımla və qızı ilə eyni zamanda evli idi. Onun (Əlinin) arvadının adı Leyla bint Məsud, qızının adı isə Zeynəb idi.»*[10]

Səid əl-Xorasani Abdullah bin Cəfərin evləndiyi və İmam Əli bin Əbi Talibin (ə) xanım Fatimədən (ə) olan qızının adını Ümmü Gülsüm olaraq qeyd etmişdir:

حَدَّثَنَا سعيد حَدَّثَنَا جَرِير بن عَبد الحميد عَن قثم مولى آل العباس قال جمع عَبد الله بن جعفر بين ليلى بنت مَسعود النهشلية وكانت امرأة على وبين أم كلثوم بنت على لفاطمة بنت رسول الله صلى الله عليه وسلم فكانتا امرأتيه.

*«Bizə Səid rəvayət etdi (və dedi:) Cərir bin əl-Humeyd bizə İbn Abbasın azadlığa buraxdığı köləsi Qasımdan onun belə dediyini rəvayət etdi: Abdullah bin Cəfər (bir zamanlar) Əlinin zövcəsi olmuş Leyla bint Məsud və Allah Rəsulunun (s) qızı Fatimənin övladı olan Ümmü Gülsüm bint Əli ilə eyni zamanda evli olmuşdur.»*[11]

Bu rəvayətin sənədi də əhli-sünnə standartlarına əsasən tam şəkildə səhihdir. İbn Həcər əl-Əsqəlani bu rəvayəti nəql etdikdən sonra deyir:

---

[9] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, Nigah kitabı, c.5. s.1963*

[10] *İbn Həcər əl-Əsqəlani, Hadi əs-sari müqəddimə Fəth əl-bari, c.1, s.321*

[11] *Səid bin Mənsur əl-Xorasani, Sünən Səid b. Mənsur, c.1, s.286, h.1011*

وقال بن سيرين لا بأس به وصله سعيد بن منصور عنه بسند صحيح

*«İbn Sirin dedi: Bu hədisdə heç bir problem yoxdur. Həmçinin Səid bin Mənsur da onu səhih sənədlə nəql etmişdir.»*[12]

Əhməd bin Hənbəlin oğlu Abdullah bin Əhməd də o qızın adını Ümmü Gülsüm ləqəbi ilə yazmışdır:

كانت عند عبد الله بن جعفر أم كلثوم بنت علي وليلى بنت مسعود وامرأة علي النهشلية.

*«Əlinin qızı Ümmü Gülsüm və bir zamanlar onun həyat yoldaşı olan Leyla bint Məsud əl-Nəhşəliyyə eyni zamanda Abdullah bin Cəfərin evində idilər və onun zövcəsi idilər.»*[13]

Əhli-sünnənin məşhur alimi əl-Beyhəqi də iki kitabında Abdullah bin Cəfərin zövcəsinin adını Ümmü Gülsüm olaraq nəql etmişdir:

جمع عبد الله بن جعفر بين ليلى بنت مسعود والنهشلية وكانت امرأة علي وبين أم كلثوم بنت علي لفاطمة فكانتا امرأتيه.

*«Abdullah bin Cəfər (vaxtilə) Əlinin zövcəsi olmuş Leyla bint Məsud və Fatimədən olan qızı Ümmü Gülsüm bint Əli ilə eyni zamanda evli idi.»*[14]

Əhli-sünnə alimlərinin adından zikr etdiyimiz bu rəvayətlərdə bir daha şahid oldunuz ki, bir qadın iki ad ilə təqdim edilmişdir. Bu mənbələr də Zeynəbi eyni şiə mənbələri kimi Ümmü Gülsüm olaraq tanıtdırıb. Lakin bu rəvayətlərin həqiqətini etiraf etmək əvəzinə, qəbul edilməsi çətin olan (izahı irəlidə gələcək) açıqlama və şərh verənlər də olmuşdur.

İbn Həcər əl-Əsqəlani yazır:

ولا تعارض بين الروايتين في زينب وأم كلثوم لأنه تزوجهما واحدة بعد أخرى مع بقاء ليلى في عصمته.

*«(Eyni məzmunlu rəvayətlərin) birində Zeynəb, digərində Ümmü Gülsüm adının zikr edilməsi, bu iki rəvayət arasında heç bir ziddiyət yaratmır. Çünki Abdullah bin Cəfər əvvəlcə biri ilə, sonra isə digəri ilə evlənmişdir.»*[15]

Bu şərhdən iki ehtimal ortaya çıxır:

a) Abdullah əvvəlcə xanım Zeynəb ilə, ondan sonra Ümmü Gülsüm ilə evlənib.
b) Əvvəlcə Ümmü Gülsüm ilə, ondan sonra xanım Zeynəb ilə ailə qurub.

---

[12] *İbn Həcər əl-Əsqəlani, Fəth əl-bari, c.9, s.155*
[13] *Abdullah bin Əhməd bin Hənbəl, Məsail Əhməd bin Hənbəl, c.1, s.349*
[14] *Əbu Bəkr əl-Beyhəqi, Sünən əl-kübra, c.7, s.167; Marifət əs-sünən vəl-əsər an əl-İmam əş-Şafei, c.5, s.294*
[15] *İbn Həcər əl-Əsqəlani, Fəth əl-bari, c.9, s.155*

Qarşıda nəql edəcəyimiz rəylərdən də görəcəksiz ki, əhli-sünnə alimləri daha çox birinci ehtimalı dəstəkləyirlər.

İkinci ehtimala gəlincə isə bu, aşağıda qeyd edəcəyimiz əhli-sünnə tarixçilərinin rəvayətləri ilə və ilk ehtimalla ziddiyət təşkil edir. Buna həmçinin başqa iradlar da mövcuddur.

Əhli-sünnə mənbələrində məşhur nəzərə görə, Ümmü Gülsüm İmam Həsənin (ə) sağlığında vəfat etmişdir. O zamana qədər də Abdullah bin Cəfərin zövcəsi hesab edilib. Belə olduqda, Abdullah bin Cəfərin xanım Zeynəb ilə evliliyinin İmam Əlinin (ə) zamanında olması mümkün deyildir. Çünki iki bacının eyni vaxtda bir şəxsdə ərdə olması şübhəsi yaranır, bu isə Qurani-Kərimin Nisa surəsinin 23-cü ayəsinə əsasən haramdır. Lakin, yenə əhli-sünnə mənbələrinə əsasən Abdullah bin Cəfər İmam Əlinin (ə.s) sağlığında Zeynəb xanımla evli idi.

Nümunə olaraq, Əbu Bəkr əl-Acurinin İbn Mülcəmin (l.ə) öldürülməsi hadisəsi haqqında dediyi kəlamı qeyd edirik:

فعجل عليه عبد الله بن جعفر وكانت زينب بنت علي تحته

*«Abdullah bin Cəfər Zeynəb bint Əlinin əri olduğu vaxtda İbn Mülcəmi öldürməyə qalxdı.»*[16]

***B. Abdullah bin Cəfər Ümmü Gülsümü boşadıqdan sonra Zeynəblə ailə qurdu.***

Bəzi əhli-sünnə alimləri iddia ediblər ki, Abdullah bin Cəfər xanım Zeynəbi boşadıqan sonra Ümmü Gülsüm ilə evlənmişdir. Məsələn, İbn Həzm deyir:

وتزوج أم كلثوم بنت علي بن أبي طالب، بنت بنت رسول الله – صلى الله عليه وسلم – عمر بن الخطاب، فولدت له زيداً لم يعقب، ورقية؛ ثم خلف عليها بعد عمر – رضي الله عنه – عون بن جعفر بن أبي طالب؛ ثم خلف عليها بعده محمد بن جعفر بن أبي طالب؛ ثم خلف عليها بعده عبد الله بن جعفر ابن أبي طالب، بعد طلاقه لأختها زينب.

*«Ömər bin əl-Xəttab Allah Rəsulunun (s) qızı Ümmü Gülsüm bint Əli ilə evləndi, Zeyd və Ruqəyyə adlı övladları oldu. (O xanım) Ömərdən (r.a) sonra Aun bin Cəfər bin Əbi Talib ilə, sonra Muhəmməd bin Cəfər bin Əbi Talib ilə evləndi. Sonra isə Abdullah bin Cəfər bin Əbi Talib (Ümmü Gülsümün) bacısı Zeynəbi boşadıqdan sonra (Ümmü Gülsümlə) evləndi.»*[17]

[16] *Əbu Bəkr əl-Acuri, əş-Şəriət, c.4, s.2108*
[17] *İbn Həzm, Cəmhərət ənsab əl-ərəb, c.1, s.38*

Şiə və əhli-sünnə rəvayətlərinə əsasən, Abdullah bin Cəfər Əmir əl-möminin İmam Əlinin (ə) sağlığında xanım Zeynəb ilə evləndi. Tarixi mənbələrin yazdığına görə, o xanım ömrünün sonuna qədər[18] Abdullah bin Cəfərin zövcəsi idi.

Belə olduqda, Ümmü Gülsüm ikinci dəfə dünyaya gəlməlidir ki, xanım Zeynəbdən sonra Abdullah bin Cəfər ilə evlənsin. Çünki bu iddianı irəli sürən mənbələr Ümmü Gülsümün xanım Zeynəbdən qabaq vəfat etdiyini yazırlar.

əl-Beyhəqi yazır:

فأما زينب فتزوجها عبد الله بن جعفر فماتت عنده

*«Zeynəb, Abdullah bin Cəfər ilə evləndi və yaşadığı müddət ərzində (vəfat edənə qədər) onun zövcəsi oldu.»*[19]

Bu rəvayətlər ilə yola çıxsaq belə, Abdullah bin Cəfərin xanım Zeynəbdən boşandıqdan sonra Ümmü Gülsüm ilə evlənməsi də təsdiq edilmir. O zaman geriyə bir yol qalır. O da bundan ibarətdir ki, Abdullah bin Cəfər Ümmü Gülsüm ilə Xanım Zeynəb vəfat etdikdən sonra evlənmiş olsun.

***C.Abdullah bin Cəfər Ümmü Gülsümlə xanım Zeynəb vəfat etdikdən sonra ailə qurdu.***

Bədr əd-Din əl-Əyni «Səhih əl-Buxari»nin şərhində bu haqda belə yazır:

أن ابن جعفر تزوج زينب بنت علي وتزوج معها امرأته ليلى بنت مسعود، وقال ابن سعد: فلما توفيت زينب تزوج بعدها أم كلثوم بنت علي بنت فاطمة، رضي الله تعالى عنهم.

*«Abdullah bin Cəfər Zeynəb bint Əli və Əlinin (keçmiş) zövcəsi Leyla bint Məsudla evləndi. İbn Səd deyir: «O, Zeynəb vəfat etdikdən sonra Əli və Fatimənin qızı Ümmü Gülsüm ilə evləndi.»*[20]

Qeyd olunanlardan belə nəticəyə gəlirik ki, əhli-sünnənin nəzərində Ümmü Gülsüm xanım Zeynəbin ata-ana bir doğma bacısıdır. O xanım Ömər bin əl-Xəttab ilə evlənərək iki övlad sahibi olmuşdur. Ömər bin əl-Xəttabın ölümündən sonra xanım Zeynəb əri Abdullah bin Cəfərdən boşanmış, Ümmü Gülsüm də Abdullah bin Cəfərin həyat yoldaşı olmuşdur. Amma bu məsələdə daha bir maraqlı məqam var ki, yuxarıda aldığımız nəticəni qeyd edən əhli-sünnənin etibar etdiyi mənbələrin yazdığına görə, Ümmü Gülsüm İmam Həsən (ə) həyatda ikən oğlu

---

*[18] İmam Hüseynin (ə) şəhadətindən sonrakı tarixlərdə - təqribən h.q. 61-ci ildən sonrakı illərdə də*

*[19] Əbu Bəkr əl-Beyhəqi, Dəlail ən-nübuvvət, c.7, s.283; Sünən əl-Kübra, c.7, s.70, h.13201; İbn Əsakir, Tarix mədinəti Diməşq, c.69, s.176*

*[20] Bədr əd-Din əl-Əyni, Umdət əl-qari şərh səhih əl-Buxari, c.20, s.101*

Zeyd ilə birlikdə vəfat etmiş və İmam Həsən (ə) onun cənazə namazında iştirak etmişdir.

Muhəmməd bin Həbib əl-Bağdadi «əl-Munəmməq», İbn Əsakir əd-Diməşqi «Tarixi Diməşq» və əs-Səfadi «əl-Vafi əl-vəfayat» kitabında bu haqda belə yazırlar:

وقد ذكر بعض أهل العلم أنه وأمه أم كلثوم بنت علي بن أبي طالب رحمة الله عليهم وكانت تحت عبد الله بن جعفر بن أبي طالب عليه مرضاً جميعاً وثقلاً ونزل بهما وأن رجالاً مشوا بينهما لينظروا أيهما يموت قبل صاحبه فيرث منه الآخر وأنهما قبضا في ساعة واحدة ولم يدر أيهما قبض قبل صاحبه فلم يتوارثا.

*«Elm əhlindən bəziləri demişdir ki, O (Zeyd) və anası Ümmü Gülsüm bint Əli bin Əbi Talib (r.a) Abdullah bin Cəfər bin Əbi Talibin zövcəsi olduğu zaman hər ikisi xəstələndi və eyni gündə vəfat etdilər. Bir dəstə onların evlərinin arasında get-gəl edirdilər ki, ilk hansının vəfat etdiyini müəyyən edə bilsinlər və bununla da kimin kimdən irs aparacağı aydın olsun. Lakin onlar ikisi eyni anda vəfat etdiyindən və hansının tez öldüyünü müəyyənləşdirmək mümkün olmadığından heç biri digərindən irs aparmadı.»*

Muhəmməd bin Səd «Təbəqat əl-kubra»-da bu haqda üç rəvayət nəql edib:

عن عامر عن بن عمر أنه صلى على أم كلثوم بنت علي وابنها زيد وجعله مما يليه وكبر عليهما أربعا أخبرنا وكيع بن الجراح عن زيد بن حبيب عن الشعبي بمثله وزاد فيه وخلفه الحسن والحسين ابنا علي ومحمد بن الحنفية وعبد الله بن عباس وعبد الله بن جعفر.

أخبرنا عبيد الله بن موسى أخبرنا إسرائيل عن جابر عن عامر عن عبد الله بن عمر أنه كبر على زيد بن عمر بن الخطاب أربعا وخلفه الحسن والحسين.

أخبرنا عبيد الله بن موسى أخبرنا إسرائيل عن السدي عن عبد الله البهي قال شهدت بن عمر صلى على أم كلثوم وزيد بن عمر بن الخطاب فجعل زيدا فيما يلي الإمام وشهد ذلك حسن وحسين.

*«Amirdən rəvayət edilir ki, Abdullah bin Ömər Əlinin qızı Ümmü Gülsüm və oğlu Zeydə cənazə namazı qıldı. Namazda dörd təkbir dedi. Vəki bin əl-Cərrahın bizə Zeyd bin Həbibdən, onun da əş-Şəbidən nəql etdiyi rəvayət belə bir əlavə ilə gəlmişdir ki, Həsən, Hüseyn, Muhəmməd əl-Hənəfiyyə, Abdullah bin Abbas, Abdullah bin Cəfər (namazı Abdullah bin Ömərin imamlığı ilə qıldılar.)*

*Bizə Ubeydullah bin Musa rəvayət etdi (və dedi:) İsrail bizə Cabirdən, o da Amirdən rəvayət etdi ki, Abdullah bin Ömər Zeydə (cənazə namazı qılanda) 4 dəfə təkbir dedi. Həsən və Hüseyn də onun imamlığı ilə namazı qıldı.*

*Bizə Ubeydullah bin Musa rəvayət etdi (və dedi:) İsrail bizə əs-Sudidən, o da Abdullah əl-Bəhidən onun belə dediyini rəvayət edir: Mən Abdullah bin Ömərin Ümmü Gülsüm və Zeyd bin Ömər bin əl-Xəttaba cənazə namazı qıldığını gördüm. Həsən və Hüseyn də onun namaz qılmasının şahidi oldular.»*[21]

əz-Zəhəbi isə yazır ki, Səid bin əl-As o zaman Mədinə valisi idi. Odur ki, Ümmü Gülsümün cənazə namazını o qıldı:

وقال حماد بن سلمة، عن عمار بن أبي عمار، إن أم كلثوم وزيد بن عمر ماتا فكفنا، وصلى عليهما سعيد بن العاص، يعني إذ كان أمير المدينة.

*«Həmmad bin Sələmə, Əmmar bin Əbi Əmmardan rəvayət edir ki, Ümmü Gülsüm və Zeyd bin Ömər eyni anda öldü və bilikdə kəfənləndi. Onlara Səid bin əl-As namaz qıldı. Yəni, o zaman Səid bin əl-As Mədinənin valisi idi.»*[22]

Qeyd edək ki, Səid bin əl-As Muaviyənin zamanında Mədinə valisi olmuşdu. O, hicrətin 59-cu ilində dünyadan getmişdir. əz-Zəhəbi yazır:

حوادث سنة تسع وخمسين. فيها توفي: سعيد بن العاص الأموي، على الصحيح.

*«Səhih nəqlə əsasən, Səid bin əl-As əl-Əməvi hicrətin 59-cu ilində vəfat etmişdir.»*[23]

Gəldiyimiz nöqtəni bir daha xatırladaq. Buraya qədər belə məlum olur ki, Ümmü Gülsüm ilə Abdullah bin Cəfərin evləndiyi tarix Kərbəlada iştirak edən və ondan sonra bir qədər yaşayan xanım Zeynəbin vəfatından sonra baş tutmuşdur. Halbuki, Ümmü Gülsüm İmam Həsən (ə), və yaxud əz-Zəhəbinin yazdığına əsasən Muaviyənin zamanında vəfat etmişdir. Bu evliliyin baş tutması üçün Ümmü Gülsüm adlanan qadının yenidən dirilməsi lazım gəlir.

Doğrusunu Allah bilir!

***c. Bir nəfərin adından iki xütbə***

Çox maraqlıdır ki, tarix kitablarında Kufə və Şamda deyilən və iki şəxsə aid edilən bir xütbəyə rast gəlirik.

«خطبة ام كلثوم بنت علي» و «خطبة زينب بنت علي»

*«Əlinin qızı Ümmü Gülsümün xütbəsi» və «Əlinin qızı Zeynəbin xütbəsi»*

Yəni, Xanım Zeynəbdən nəql edilən xütbəni eyni ilə Ümmü Gülsümün xütbəsi kimi zikr etmişlər.

---

[21] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.464*

[22] *Şəms əd-Din əz-Zəhəbi, Tarix əl-İslam, c.4, s.138*

[23] *Şəms əd-Din əz-Zəhəbi, Tarix əl-İslam, c.4, s.138*

IV əsrin alimlərindən olan İbn Təyfur, Əbu Sad əl-Əbi və İbn Həmdun Ümmü Gülsümün Kufədə dediyi xütbəsini belə nəql edirlər:

ورأيت أم كلثوم عليها السلام ولم أر خفرة والله أنطق منها كأنما تنطق وتفرغ على لسان أمير المؤمنين عليه السلام وقد أومأت إلى الناس أن اسكتوا فلما سكنت الأنفاس وهدأت الأجراس قالت أبدأ بحمد الله والصلاة والسلام على جدي أما بعد يا أهل الكوفة يا أهل الختر والخذل إلا فلا رفأت العبرة ولا هدأت الرنة إنما مثلكم كمثل التي نقضت غزلها من بعد قوة أنكاثاً.

*«Ümmü Gülsümü (ə) gördüm. Onun kimi gözəl danışanı görməmişdim. Elə bil Əmir əl-muminin Əlinin (ə) dili ilə danışırdı. Xalqa sakit dayanmaları üçün işarə etdi. Xalq sakit olduqdan sonra hətta zınqırovların da səsi kəsildi. O dedi: «Sözümü Allaha həmd etmək və cəddim olan Allah Rəsuluna salam və salavat göndərmək ilə başlayıram. Ey Kufə əhli! Ey hiylə və yalan əhli! Gözünüzün yaşı həmişə axsın! Qəmli nalələriniz heç vaxt dayanmasın! Siz ipi əyirib bərkidəndən sonra didişdirib bir-birindən ayırana bənzəyirsiniz...»*[24]

Şeyx əl-Mufid və digər tarixçi alimlər eyni xütbəni xanım Zeynəbin dilindən nəql etmişlər:

ورأيت زينب بنت علي عليهما السلام ولم أر خفرة قط أنطق منها كأنها تفرغ عن لسان أمير المؤمنين عليه السلام. قال: وقد أومأت إلى الناس أن اسكتوا، فارتدت الأنفاس وسكنت الأصوات فقالت: الحمد لله والصلاة على أبي رسول الله، أما بعد يا أهل الكوفة، ويا أهل الختل والخذل، فلا رقأت العبرة، ولا هدأت الرنة، فما مثلكم إلا " كالتي نقضت غزلها من بعد قوة أنكاثا، تتخذون أيمانكم دخلا بينكم.

*«Zeynəb bint Əlini (ə) gördüm. Onun kimi gözəl danışanı görməmişdim. Elə bil Əmir əl-muminin Əlinin (ə) dili ilə danışırdı. Xalqa sakit dayanmaları üçün işarə etdi. Xalq sakit olduqdan sonra hətta zınqırovların da səsi kəsildi. O dedi: «Sözümü Allaha həmd etmək və cəddim olan Allah Rəsuluna salam və salavat göndərməklə başlayıram. Ey Kufə əhli! Ey hiylə və yalan əhli! Gözünüzün yaşı həmişə axsın! Qəmli nalələriniz heç vaxt dayanmasın! Siz ipi əyirib bərkidəndən sonra didişdirib bir-birindən ayırana bənzəyirsiniz...»*[25]

Həmçinin Kərbəla hadisəsindən sonra Əhli-beytdən olan uşaqlara Kufəlilərin sədəqələrini yeməyi qadağan etmə hadisəsini nəql edən şəxsi bəzi alimlər xanım

---

[24] *İbn Təyfur, Baləğat ən-nisa, s.24; Əbu Sad əl-Əbi, Nəsr əd-durr fi əl-muhazarat, c.4, s.19; İbn Həmdun, Təzkirət əl-Həmduniyyə, c.6, s.265; Əhməd Zəkir Səfvat, Cəmhərət xutab əl-ərəb, c.2, s.134*

[25] *Şeyx əl-Mufid, əl-Əmali, s.322*

Zeynəb, digərləri isə Ümmü Gülsüm kimi qeyd etmişlər. Mərhum Şeyx əl-Ənsari bu haqda yazır:

وقد اشتهر حكاية منع سيدتنا زينب أو أم كلثوم عليهما السلام للسبايا عن أخذ صدقات أهل الكوفة معللتين بكونها صدقة.

*«Əsirlərin Kufəlilərdən sədəqə almasınının qadağan olunma hadisəsi xanım Zeynəb, və ya Ümmü Gülsümün adı ilə məşhur olmuşdur. (Əhli-beytin) sədəqə alması haram olduğu üçün o, bunu qadağan etdi.»*[26]

### d. Ümmü Gülsümün Xanım Fatimə (ə) üçün əzadarlığı

Muhəmməd bin Fital ən-Nisaburi «Rəuzə əl-vaizin»-də yazır :

ثم توفيت صلوات الله عليها وعلى أبيها، وبعلها وبنيها فصاحت أهل المدينة صيحة واحدة واجتمعت نساء بني هاشم في دارها، فصرخن صرخة واحدة كادت المدينة ان تزعزع من صراخهن وهن يقلن: يا سيدتاه يا بنت رسول، واقبل الناس مثل عرف الفرس إلى علي " عليه السلام " وهو جالس، والحسن والحسين عليهما السلام بين يديه يبكيان فبكى الناس لبكائهما، وخرجت أم كلثوم وعليها برقعة وتجر ذيلها، متجللة برداء عليها تسحبها وهي تقول: يا أبتاه يا رسول الله، الآن حقا فقدناك فقدا لالقاء بعده ابدا واجتمع الناس فجلسوا، وهم يرجون وينظرون ان تخرج الجنازة، فيصلون عليها وخرج أبو ذر فقال: انصرفوا فإن ابنة رسول الله ( صلى الله عليه وآله ) قد أخر اخراجها في هذه العشية فقام الناس وانصرفوا.

*«Fatimə (ə) vəfat etdikdən sonra Mədinə xalqı birlikdə nalə səsi ucaltdı. Bəni-Haşim qadınları o xanımın evində toplandı və hər yerdə eşidiləcək bir fəryad etdilər. Elə oldu ki, Mədinə onların nalə və fəryadından lərzəyə gəldi. Onlar deyirdilər: «Ey bizim seyyidəmiz və sərvərimiz! Ey Allah Rəsulunun qızı!» Xalq dəstə-dəstə Əlinin yanına gəlirdi. Həsən və Hüseyn də o həzrətin qabağında əyləşib ağlaşırdılar. Xalq da o iki balanın ağlamağından giryan olurdu. Ümmü Gülsüm üzündə rubəndi olan ərəb çadırını başına salmışdı. Evdən çıxdı və fəryad etdi: «Ey ata! Ey Allahın Rəsulu! İndi həqiqətən sənin haqqını əldən verdim və səni bir daha görməyəcəyik.» Mədinə xalqı toplanıb Fatimənin cənazəsinin bayıra çıxacağı və ona namaz qılmalarını gözləyirdilər. Əbuzər əl-Ğəffari evdən çıxdı və dedi: «Hər kəs geri qayıtsın! Çünki bu gecə Fatimənin cismi dəfn olunmayacaq və təxirə düşüb.» Camaat da dağılışdı.»*[27]

Bu rəvayətdə iki əsas nöqtə var:

---

[26] *Şeyx Murtəza əl-Ənsari, Kitab əz-zəkat, s.353*

[27] *Muhəmməd bin əl-Fital ən-Nisaburi, Rəuzə əl-vaizin, s.152*

1) Diqqətlə oxuduqda görürük ki, bu rəvayətdə xanım Fatimənin (ə) övladlarından yalnız üç nəfərin - Həsən, Hüseyn və Ümmü Gülsümün adı hallanmışdır. Xanım Zeynəbin adı nədənsə heç çəkilmir.
2) Ümmü Gülsümün varlığı haqqında iddia qaldıranların nəzərinə görə, o, Allah Rəsulunun (s) ömrünün son illərində dünyaya gəlmişdir. Ən yaxşı halda onun iki yaşı ancaq olardı. Lakin bu rəvayətin mətninə əsasən iki yaşında bir qız uşağının bu cür sözlərlə nalə etməsi mümkün görünmür. Bütün bunları nəzərə aldıqda, Ümmü Gülsüm ilə xanım Zeynəbin eyni şəxs olmasında heç bir tərəddüd qalmır.

***e. Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) zərbələndiyi günün gecəsi kimin qonağı idi?***

Bir çox rəvayətlərə görə Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) Ramazan ayında hər gecə övladlarının birinin evində iftar edirdi. Bir gecə İmam Həsənin (ə), başqa bir gecə İmam Hüseynin (ə) və ondan sonrakı gecə isə Xanım Zeynəbin əri Abdullah bin Cəfərin evinə qonaq olardı. Bu minvalla İmam Əli (ə) mehrabda zərbələnən gecə bütün mənbələrə görə Ümmü Gülsümün qonağı olmuş və onun evindən çıxıb məscidə gəlmişdir. Yaxşı, bəs Ümmü Gülsüm özü həmin gün adı çəkilən şəxslərdən kimin evində və kimin zövcəsi idi?

Şeyx əl-Mufid «əl-İrşad»-da yazır:

لما دخل شهر رمضان، كان أمير المؤمنين عليه السلام يتعشى ليلة عند الحسن وليلة عند الحسين وليلة عند عبد الله بن جعفر، وكان لا يزيد على ثلاث لقم، فقيل له في ليلة من تلك الليالي في ذلك، فقال: " يأتيني أمر الله وأنا خميص، ...

*Mübarək Ramazan ayı idi. Əmir əl-mömininin (bu ayı) bir gecə Həsənin, bir gecə Hüseynin və bir gecə də Abdullah bin Cəfərin (Xanım Zeynəbin əri) evində keçirərdi. Üç tikədən artıq (iftarda) yemək yeməzdi. Ramazan ayının gecələrinin birində soruşdular ki, niyə az yemək yeyirsən? Buyurdu: «Allahın əmri məni tapacaq (şəhid olacağını nəzərdə tuturdu). İstəyirəm ac qarın ilə görüşə gedim»...*[28]

Qutb əd-Din ər-Ravəndi yazır:

وكان يفطر في هذا الشهر ليلة عند الحسن، وليله عند الحسين، وليلة عند عبد الله ابن جعفر زوج زينب بنته لأجلها، لا يزيد على ثلاث لقم، فقيل له في ذلك، فقال: يأتيني أمر الله وأنا خميص، إنما هي ليلة أو ليلتان،

[28] *Şeyx əl-Mufid, əl-İrşad, c.1, s.14*

فأصيب من الليل. وقد توجه إلى المسجد في الليلة التي ضربه الشقي في آخرها، فصاح الإوز في وجهه، فطردهن الناس، فقال: دعوهن فإنهن نوائح.

*«Əmir əl-mömininin (bu ayı) bir gecə Həsənin, bir gecə Hüseynin və bir gecəni də Zeynəbə görə əri Abdullah bin Cəfərin evində keçirərdi. Üç tikədən artıq (iftarda) yemək yeməzdi. Ondan bunun səbəbi soruldaqda buyurdu: «Allahın əmri məni tezliklə tapacaq (şəhid olacağını nəzərdə tuturdu). İstəyirəm ac qarın ilə görüşə gedim. Bu iş ya bir, ya da iki gecəyə təsadüf edəcək....» Başından zərbə aldığı gecənin sonunda (sübh çağı) məscidə tərəf getdi. Quşlar onun qabağında səs-küy saldılar. Camaat ördəkləri uzaqlaşdırdılar. (O Həzrət) buyurdu: «Buraxın! Onlar mənim üçün nohəxanlıq edirlər.»*[29]

Əhli-sünnə alimləri də o günləri bu şəkildə nəql ediblər:

كان علي لما دخل رمضان يتعشى ليلة عند الحسن وليلة عند الحسين وليلة عند أبي جعفر لا يزيد علي ثلاث لقم يقول أحب أن يأتيني أمر الله وأنا خميص.

*«Mübarək Ramazan ayı idi. Əli bir gecə Həsənin, bir gecə Hüseynin və bir gecə də Abdullah bin Cəfərin evində iftar edərdi. Üç tikədən artıq yemək yeməzdi və deyərdi: «İstəyirəm ac qarın ilə məbudumun görüşünə gedim»*[30]

Bir başqa rəvayətlərə görə isə Əmir əl-möminin İmam Əli (ə) axırıncı gecə Ümmü Gülsümün evində qonaq idi:

قالت أم كلثوم بنت أمير المؤمنين صلوات الله عليه: لما كانت ليلة تسع عشرة من شهر رمضان قدمت إليه عند إفطاره طبقا فيه قرصان من خبز الشعير وقصعة فيها لبن وملح جريش.

*«Ümmü Gülsüm dedi: «Ramazan ayının on doqquzuncu gecəsi idi. İftar vaxtı hazırladığım süfrədə iki tikə arpa çörəyi, bir qab süd və bir miqdar da duz var idi.»*[31]

Qeyd olunan bu rəvayətlərdən belə qənaətə gəlmək olar ki, İmam Əlinin (ə) Ramazan ayında proqramı hər gecəni bir övladının evində iftar etmək olub. Belə ki, bir gecə İmam Həsən (ə), bir gecə İmam Hüseyn (ə) və bir başqa gecəni də Abdullah bin Cəfərin evində keçirərmiş. Bunların arasında Ümmü Gülsümün adının zikr olunması isə qeyd etdiyimiz rəvayətlərə ziddiyət təşkil edir. Çünki

---

[29] *Qutb əd-Din ər-Ravəndi, əl-Xəraiv və cəraih, c.1, s.201*

[30] *İbn əl-Əsir, Usd əl-ğabə fi marifət əs-səhabə, c.4, s.128; əl-Kamil fi ət-tarix, c.3, s.254; Şihab əd-Din ən-Nuvəyri, Nihayət əl-ərəb, c.3, s.312;*

[31] *Əllamə əl-Məclisi, Bihar əl-ənvar, c.42, s.276*

rəvayətlərdə İmam Əlinin iftar etdiyi üçüncü ev Abdullah bin Cəfərin evi kimi təqdim edilmişdir ki, bu da qızı xanım Zeynəbə işarədir. Əgər o həzrətin Zeynəbdən başqa Ümmü Gülsüm adlı qızı olsaydı, o zaman onun da ərinin adı zikr edilmiş olardı. Başqa sözlə, əgər İmam Əlinin (ə) Ümmü Gülsüm adlı qızı olmuş olsaydı, o həzrət gecələrdən birini digər övladları kimi ona da həsr etməli idi. Rəvayətlərdə İmam Əlinin (ə) başqa bir dördüncü qapıya, yəni ikinci bir qızının evinə iftar üçün getməsi öz isbatını tapmadığı üçün «Bihar əl-ənvar»dan gətirilən sitatda Ümmü Gülsüm adı ilə məhz xanım Zeynəbin nəzərdə tutulduğu aşkara çıxır.

***f. Ümmü Gülsüm İmam Əlinin (ə) ən yaxşı qızı idi?***

Qazi ən-Numan əl-Məğribi şiə aləminin IV əsr alimlərindəndir. O, İmam Əlinin (ə) Ümmü Gülsümə buyurduğu kəlamı qeyd edərkən, o xanımı Həzrətin ən yaxşı qızı kimi təqdim etmişdir:

قالت: قال علي عليه السلام يوما لابنته أم كلثوم . وكانت خير بناته .: يا بنية ما أراني إلا أقل ما أصحبك.....

*«Əli (ə) bir gün ən yaxşı qızı olan Ümmü Gülsümə dedi: «Biz çox az görüşürük...»*[32]

Bununla belə, İmam Əlinin (ə) ən yaxşı qızının «Əqilə əl-Haşimiyyə» ləqəbi ilə tanınan xanım Zeynəb olması barədə heç bir şübhə yoxdur. Bu rəvayətdə isə Ümmü Gülsüm adı hallanır. Deməli, bu rəvayətdə də xanım Zeynəb məhz Ümmü Gülsüm künyəsi ilə zikr edilmişdir.

***g. Muaviyə kimin qızına elçilik etdi?***

Bir çox əhli-sünnə rəvayətlərinə görə, Muaviyə bin Əbu Sufyan Abdullah bin Cəfərin qızını öz oğlu Yəzid bin Muaviyəyə almaq üçün elçilik etmişdi. Lakin İmam Hüseynin (ə) müdaxiləsindən sonra Muaviyənin planı pozuldu. Sonra İmam Hüseyn (ə) həmin qızı Qasim bin Muhəmməd bin Cəfər üçün aldı.

O qızın kim olduğu və kimdən olduğu məsələsinə gəlincə isə qarşımıza maraqlı bir mənzərə çıxır. Belə ki, əhli-sünnə mənbələrində sözü gedən qızın kimliyi haqqında iki nəzər mövcuddur:

1) Ümmü Gülsüm bint Zeynəb bint Fatimə (ə)
2) Zeynəb bint Ümmü Gülsüm bint Fatimə (ə)

---

[32] *Qazi Numan əl-Məğribi, Şərh əl-əxbar fi fəzail əl-əimmə əl-əthar, c.2, s.452*

Məhz iki adın – «Zeynəb» və «Ümmü Gülsüm»-ün yer dəyişməsi rəvayətlər arasında da ixtilafa səbəb olmuşdur. Bu baxımdan da, xanım Zeynəb və ləqəbi olan Ümmül Gülsüm arasında nə qədər çaşqınlıq və təhriflərin olduğunu daha aydın görə bilirik.

əl-Bəlazuri və əl-Həməvi birinci ehtimala üstünlük verərək yazmışlar:

كتب معاوية إلى مروان وهو على المدينة أن يخطب أم كلثوم بنت عبد الله بن جعفر، وأمها زينب بنت علي. وأمها فاطمة بنت رسول الله صلى الله عليه وسلم، على ابنه يزيد.

*«Muaviyə Mədinəyə vali təyin etdiyi Mərvan bin əl-Həkəmə yazdığı məktubda ondan Əli və Fatimənin qızı Zeynəbin övladı olan Ümmü Gülsüm bint Abdullah bin Cəfəri oğlu Yəzidə almaq üçün elçilik etməsini istədi.»*[33]

əl-Həməvi yazır:

وتحدث الزبيريون أن معاوية كتب إلى مروان بن الحكم وهو والي المدينة أما بعد فإن أمير المؤمنين قد أحب أن يرد الألفة ويسل السخيمة ويصل الرحم فإذا وصل إليك كتابي فاخطب إلى عبد الله بن جعفر ابنته أم كلثوم على يزيد ابن أمير المؤمنين.

*«əz-Zubeyrilər rəvayət ediblər ki, Muaviyə Mədinənin valisi Mərvan bin əl-Həkəmə məktub yazdı: «Kin-küdurətin bitməsini və qohumluq əlaqəsinin güclənməsini istəyirəm. Məktubu oxuduqdan sonra Abdullah bin Cəfərin yanına get və qızı Ümmü Gülsümü oğlum Yəzid üçün istə!»*[34]

Lakin qeyd etdiyimiz kimi, əhli-sünnənin digər alimləri həmin qızın adını Abdullah bin Cəfərin və zövcəsi Ümmü Gülsümün qızı Zeynəb kimi təqdim etmişlər.

IV əsr əhli-sünnə alimlərindən Əbu əl-Fərəc ən-Nəhrəvani yazır:

عن أم بكر بنت المسور بن مخرمة قالت سمعت أبي يقول كتب معاوية إلى مروان وهو على المدينة أن يزوج ابنه يزيد بن معاوية زينب بنت عبد الله بن جعفر وأمها أم كلثوم بنت علي وأم أم كلثوم فاطمة بنت رسول الله.

*«Ümmü Bəkr bint əl-Musəvvər bin Məxrəmə dedi: Atamın belə dediyini eşitdim: «Muaviyə Mədinənin valisi Mərvana məktub yazaraq ondan Əli və Fatimənin qızı Ümmü Gülsümün övladı Zeynəb bint Abdullah bin Cəfəri (oğlu Yezidə almaq) üçün elçilik etməsini istədi!»*[35]

---

[33] *Əhməd əl-Bəlazuri, Ənsab əl-əşraf, c.2, s.127*

[34] *Əbu əl-Fərəc əl-Həməvi, Mucəm əl-buldan, c.1, s.469*

[35] *Əbu əl-Fərəc ən-Nəhrəvani, əl-Cəlis əs-salih əl-kafi və əl-ənis ən-nasih əş-şafi, c.1, s.107*

İbn Əsakir əd-Diməşqi də o qızın adını və kimliyini eyni şəkildə nəql etmişdir.[36]

***h.* Şamda dəfn olunan kimdir?**

İbn Bətutə Şam (Dəməşq) şəhərinə səfər edərkən ziyarət etdiyi İmam Əlinin (ə) qızı xanım Zeynəbin hərəmindən yazır:

وبقرية قبلي البلد وعلى فرصخ منها مشهد أم كلثوم بنت علي بن أبي طالب من فاطمة عليهم السلام ويقال أن اسمها زينب وكناها النبي صلى الله عليه وسلم أم كلثوم لشبهها بخالتها أم كلثوم بنت الرسول....

*«(Dəməşq) şəhərinin bir fərsəx yaxınlığında, Əli bin Əbi Talibin Fatimədən (ə) olan qızı Ümmü Gülsümün ziyarətgahı var. Bəziləri onu Zeynəb adlandırıblar. Xalasına oxşadığı üçün Allah Rəsulu (s) ona Ümmü Gülsüm künyəsi vermişdir.»*[37]

əl-Həməvi də «Mucəm əl-buldan»-da Ümmü Gülsümün hərəminin Dəməşq ətrafında olduğunu yazıb.[38]

İbn Cubeyr əl-Kinani də səfərnaməsində yazır:

ومن مشاهد أهل البيت رضى الله عنهم مشهد أم كلثوم ابنة علي بن أبي طالب رضى الله عنهما ويقال لها زينب الصغرى وأم كلثوم كنية اوقعها عليها النبي صلى الله عليه وسلم لشبهها بابنته أم كلثوم رضى الله عنها والله اعلم بذلك ومشهدها الكريم بقرية قبلي البلد تعرف براوية على مقدار فرسخ وعليه مسجد كبير....

*«Əhli-beytin (r.a.) ziyarətgahlarından biri də Əli bin Əbi Talibin (r.a.) qızı Ümmü Gülsümün qəbridir. Ona Zeynəb əs-Suğra da deyirlər. «Ümmü Gülsüm» isə (Peyğəmbərin) qızı Ümmü Gülsümə bənzədiyi üçün Allah Rəsulunun (s) ona verdiyi bir ləqəbdir. Allah daha yaxşı bilir. Bu ziyarətgah Dəməşq şəhərinin girəcəyinə bir fərsəx qalmış yerləşən Raviyə adlı kənddədir. Onun üçün orada böyük bir məscid tikilib.....»*[39]

XIV əsr alimlərindən Əbd ər-Rəzzaq əl-Bəytar Ümmü Gülsümün həmin xanım Zeynəb olduğunu və Şamdakı qəbrin ona aid olduğunu açıq şəkildə bəyan etmişdir:

راوية، وهي قرية من جهة الشرق إلى القبلة من الشام، بينها وبين الشام نحو ثلاثة أميال، وقد دفن في هذه القرية السيدة زينب أم كلثوم بنت الإمام علي بن أبي طالب، أمها فاطمة الزهراء بنت رسول الله.

[36] *İbn Əsakir əd-Diməşqi, Tarix Mədinəti Diməşq, c.57, s.245*
[37] *İbn Bətutə, Tuhfə ən-nəzzar fi ğəraib əl-əmsar və əcaib əl-əsfar, c.1, s.113*
[38] *Əbu əl-Fərəc əl-Həməvi, Mucəm əl-buldan, c.3, s.20*
[39] *İbn Cubeyr əl-Kinani, Rihlət İbn Cubeyr, c.1, s.196*

*«Raviyə - Şam şəhərinin şərqində və qiblə səmtində yerləşən bir kənddir. Onun Şam şəhəri ilə məsafəsi üç mildir. Həmin bu kənddə Əli bin Əbi Talib və Fatimə əz-Zəhranın qızı «Ümmü Gülsüm» ləqəbli Zeynəb dəfn olunmuşdur.»*[40]

Əhli-sünnənin məşhur tarixçi alimi İbn Əsakir əd-Diməşqi qələmə aldığı «Tarix mədinəti Diməşq» kitabında yazır:

مسجد راوية مستجد على قبر أم كلثوم وأم كلثوم هذه ليست بنت رسول الله صلى الله عليه وسلم التي كانت عند عثمان لأن تلك ماتت في حياة النبي صلى الله عليه وسلم ودفنت بالمدينة ولا هي أم كلثوم بنت علي من فاطمة التي تزوجها عمر بن الخطاب رضي الله تعالى عنه لأنها ماتت هي وابنها زيد بن عمر بالمدينة في يوم واحد ودفنا بالبقيع....

*«Raviyə məscidi yeni təsis edilmiş və Ümmü Gülsümün qəbri üzərində tikilən bir məsciddir. Bu Ümmü Gülsüm Allah Rəsulunun (s) Osmanın zövcəsi olan qızı deyil. Çünki o, Allah Rəsulunun (s) sağlığında vəfat etdi və Mədinə şəhərində dəfn olundu. Həmçinin, Ömər bin əl-Xəttabın (r.a) zövcəsi Ümmü Gülsüm bint Əli də deyil. Çünki o da oğlu Zeyd bin Ömərlə bir gündə Mədinədə vəfat etdi və Bəqidə dəfn olundu.»*[41]

Bütün bu rəyləri birləşdirəndə əldə olunan nəticə budur ki, Raviyə deyilən kənddə (Şamda) dəfn olunan xanım heç şübhəsiz ki, xanım Zeynəbdir. Lakin tarixçilərin o xanımı Ümmü Gülsüm adlandırması İbn Bəttutənin sözünü təsdiq edir. Aydın olur ki, Ümmü Gülsüm Allah Rəsulu (s) tərəfindən Zeynəbə verilən bir ləqəbdir. Allah Rəsulu (s) onu öz qızı Ümmü Gülsümə oxşatdığı üçün ona belə bir ləqəb vermişdir. Ona görə də Ömərin zövcəsi Ümmü Gülsümün xanım Fatimənin (ə) qızı olması mümkün deyildir. Çünki o xanım Şamda deyil, Mədinədə Bəqi qəbristanlığında dəfn olunmuşdur. Bütün bu dəlillər Ümmü Gülsümün elə xanım Zeynəb olduğunu bir daha sübut edir.

***i. Kərbəlada əsir olan qadınlar***

Qazi Numan əl-Məğribi «Şərh əl-əxbar» kitabında Kərbəlada əsir olan bütün qadınların adını qeyd etmişdir. Çox maraqlıdır ki, Şama qədər şəhidlərin yetimlərinə və dul qalmış qadınlarına himayədarlıq edib onlara bir növ başçılıq edən xanım Zeynəbin həmin qadınların arasında adı «Zeynəb» olaraq zikr edilməyib:

---

[40] *Əbd ər-Rəzzaq əl-Bəytar, Hilyət əl-bəşər fi tarix əl-qərn əs-salis əşər, c.3, s.99*

[41] *İbn Əsakir əd-Diməşqi, Tarix Mədinəti Diməşq, c.2, s.309*

والذين أسروا منهم بعد من قتل منهم يومئذ: علي بن الحسين عليه السلام وكان عليلا دنفا... ومن النساء أم كلثوم بنت علي بن أبي طالب. وأم الحسن بنت علي بن أبي طالب. وفاطمة. وسكينة ابنتا الحسين بن علي.

*«Aşura günü əsir olan şəxslərdən biri Əli bin əl-Hüseyndir (ə). O (həmin gün) xəstə idi. Qadınlardan isə Əli bin Əbi Talibin (ə) qızları Ümmü Gülsüm və Ümmü Həsən, Hüseyn bin Əlinin (ə) qızları Fatimə və Səkinə idi.»*[42]

Bu siyahıya diqqətlə nəzər yetirdikdə xanım Zeynəbin adının zikr edilməməsi və Əli bin Əbi Talibin (ə) qızı kimi Ümmü Gülsümün adının yer alması bir daha bu ismin xanım Zeynəbə verilən bir ləqəb olduğunu sübut edir. Belə ki, «Kərbəla əsirləri» dedikdə, ilk ağla gələn adın xanım Zeynəb olduğu halda, əsirlər siyahısında o xanımın adının olmaması qeyri-mümkündür.

***j. Ümmü Gülsüm xanım Fatimənin (ə) tək varisidir***

Əllamə Məclisi «Misbah əl-ənvar»-dan nəql edərək yazır:

عن أبي عبد الله، عن آبائه قال: إن فاطمة عليها السلام لما احتضرت أوصت عليا عليه السلام فقالت: إذا أنت مت فتول أنت غسلي، وجهزني وصل على وأنزلني قبري، وألحدني وسو التراب على واجلس عند رأسي قبالة وجهي فأكثر من تلاوة القرآن والدعاء، فإنها ساعة يحتاج الميت فيها إلى انس الاحياء وأنا أستودعك الله تعالى وأوصيك في ولدي خيرا ثم ضمت إليها أم كلثوم فقالت له: إذا بلغت فلها ما في المنزل ثم الله لها.

*«Əbi Əbdillah (ə.s) atalarından (ə.s) rəvayət edir: «Xanım Fatimə (ə) son nəfəsində Əliyə (ə) (vəsiyyət edərək) buyurdu: «Mən vəfat etdikdən sonra özün məni qüsl et, kəfənlə və cənazəmə namaz qıl. Məni qəbrə sal və ləhəd (sinə) daşını qoy. Üstümə torpaq tök və başım üstə oturaraq çoxlu Quran, dua oxu. Çünki o anda meyidin yaşayan şəxslərə çox ehtiyacı olur. Ey Əli! Səni Allaha, balalarımı da sənə tapşırıram. Onlara yaxşı bax.» Sonra xanım Fatimə (ə) Ümmü Gülsümü qucaqladı və buyurdu: «Mənim bu qızım yetkinlik yaşına çatdıqda evimin bütün əşyaları onun malıdır. Onu da Allaha tapşırıram!»*[43]

Bu rəvayətdə olunan vəsiyyətə görə, xanım Fatimənin (ə) evinin bütün əşyaları Ümmü Gülsümə çatır. Belə bir halda, o xanımın iki qızının olduğunu necə düşünmək olar? Onu da nəzərə alaq ki, deyilənlərə əsasən, guya xanım Zeynəb Ümmü Gülsümdən də yaşca böyük olub.

Bununla da bir daha sabit olur ki, xanım Fatimənin (ə) tək qızı var idi. Onun adı Zeynəb, ləqəbi isə Ümmü Gülsüm idi.

---

[42] *Qazi Numan əl-Məğribi, Şərh əl-əxbar fi fəzail əl-əimmə əl-əthar, c.3, s.198*

[43] *Əllamə əl-Məclisi, Bihar əl-ənvar, c.79, s.27*

***k. Ömər bin əl-Xəttabın zövcəsi Zeynəb***

Bəzi əhli-sünnə alimlərinə görə ikinci xəlifə Ömər bin əl-Xəttab xanım Zeynəb ilə evlənmişdir.

Əbd əl-Həy əl-Kəttani yazır:

ذكر الشيخ المختار الكنتي في الاجوبة المهمة نقلا عن الحافظ الدميري اعظم صداق بلغنا خبره صداق عمر لما تزوج زينب بنت علي فانه أصدقها اربعين الف دينار فقيل له في ذلك فقال والله ما في رغبة إلى النساء ولاكني سمعت رسول الله صلى الله عليه وسلم يقول كل سبب ونسب ينقطع يوم القيامة الا سببي ونسبي فأردت تاكيد النسب بيني وبينه صلى الله عليه وسلم فأردت أن أتزوج ابنته كما تزوج ابنتي وأعطيت هذا المال العريض اكراما لمصاهرتي اياه صلى الله عليه وسلم. منها هذا مع كون عمر نهى عن المغالات في المهر .

*«Şeyx əl-Muxtar əl-Kunti «əl-Əcvəbət əl-muhimmə»də Hafiz əd-Dəmiridən nəql edərək yazır: «Bu günə qədər eşitdiyim ən böyük mehriyyə Ömərin Zeynəb bint Əli ilə evləndiyi zaman verdiyi məbləğdir. Onun məbləği qırx min dinar idi. Bu ağır mehriyyə haqqında ondan soruşduqda belə cavab verdi: «And olsun Allaha ki, mənim qadınlara meylim yoxdur. Lakin Allah Rəsulundan (s) belə eşitmişəm ki, buyurub: «Mənim qohumluq əlaqələrimdən başqa, bütün qohumluq əlaqələri – istər nəsəblə (qan qohumluğu) olsun, istər səbəblə (evlənmək və s. kimi) - qiyamət günü qırılacaq.» Ona görə Allah Rəsulu (s) ilə öz aramdakı qohumluq bağını möhkəmləndirmək istədim və onun qızı ilə evləndim. Necə ki, o da mənim qızımla evlənmişdi. Bu ağır mehriyyəni də Allah Rəsulunun (s) kürəkəni olacağıma görə verirəm.» Halbuki, Ömər öz zamanında mehriyyədə həddi keçməyi qadağan etmişdi.»*[44]

Bu rəvayətdən də xanım Zeynəb ilə Ümmü Gülsümün eyni şəxs olması nəticəsinə gəlirik. Xanım Zeynəbin Ömər bin əl-Xəttab ilə evlənmədiyini nəzərə alaraq, qəti şəkildə bəyan etmək olar ki, ümumiyyətlə Ömər bin əl-Xəttabın Əlinin (ə) qızı ilə evlənməsi əfsanədən başqa bir şey deyildir.

***l.* Ümmü Gülsüm Kərbəlada**

Ümmü Gülsümün xanım Zeynəb yox, məhz tamamilə başqa bir qadın olduğu fikrində olanlar onun İmam Həsənin (ə) dövründə Mədinədə vəfat etdiyini və Bəqi qəbristanında oğlu ilə bilrikdə dəfn olduğunu iddia edirlər. Lakin əhli-sünnə

[44] *Əbd əl-Həy əl-Kəttani, Nizam əl-hukumət ən-Nəbəviyyə, c.2, s.405*

mənbələri də daxil olmaqla, bir çox mənbələrə görə Ümmü Gülsüm Kərbəla vaqiəsində iştirak etmişdir:

Ümmü Gülsümün Kufədə oxuduğu xütbəsi «Bəlağat ən-nisa»-da qeyd olunub:

قالت أبدأ بحمد الله والصلاة والسلام على جدي أما بعد يا أهل الكوفة...

*«Sözümü Allaha həmd etmək və cəddim olan Allah Rəsuluna salam və salavat göndərmək ilə başlayıram. Ey Kufə əhli!....»*[45]

Əhli-sünnə aləminin VI əsr alimlərindən Cəmal əd-Din əl-Bəğdadi yazır:

فظللن ورأس الحسين بينهن مصلوب تسع ساعات من النهار وإن أم كلثوم رفعت رأسها فرأت رأس الحسين فبكت وقالت يا جداه تريد رسول الله صلى الله عليه وسلم هذا رأس حبيبك الحسين مصلوب.

*«Hüseynin başını doqquz saat ərzində əsirlərin gözünün önündə nizə ucunda saxladılar. Ümmü Gülsüm yuxarı baxaraq, Hüseynin başını görüb ağladı və cəddinə müraciət edərək dedi: «Ey cəddim! Ey Allahın Rəsulu! Nizənin ucuna keçirilmiş bu baş sənin sevdiyin Hüseynə məxsusdur.»*[46]

Xüsusilə son rəvayətdən də görüdüyümüz kimi, Kərbəlada Ümmü Gülsüm öz cəddinə şikayət edir. Əgər Ömərin zövcəsi olan Ümmü Gülsüm İmam Həsənlə (ə) İmam Hüseynin (ə) sağlığında vəfat etmişdisə, onun Kərbəlada olması necə mümkün ola bilər? Bu rəvayətlərdən alınan nəticəyə görə də «Ümmü Gülsüm» xanım Zeynəbə verilən bir ləqəbdir. Bunun başqa izahı da ola bilməz.

Kitabımızın ilk fəslində qeyd etdiyimiz bütün rəvayətlər xanım Fatimənin (ə) xanım Zeynəbdən başqa ikinci, yəni Ümmü Gülsüm adlı qızının olmamasına şahidlik etmişdir. Əgər Ümmü Gülsüm deyiləndə xanım Zeynəb nəzərdə tutulursa, o da Ömər bin əl-Xəttab ilə əsla evlənməmişdir. Çünki hamı təsdiq edir ki, Abdullah bin Cəfər onun yeganə əri olub.

## Əhli-sünnə alimlərinin etirafları

Bəzi əhli-sünnə alimlərinin bu haqda yazdıqlarından belə anlaşılır ki, Əhli-beyt (ə) arasında da bu mövzunu inkar edənlər olmuşdur. İbn Həcər əl-Heysəmi «əs-Səvaiq əl-muhriqə» adlı kitabında bu haqda Əhli-beytdən (ə) zəif sənədlə nəql olunan rəvayəti qeyd etdikdən sonra yazır:

---

[45] *İbn Təyfur, İbn Təyfur, Baləğat ən-nisa, s.24*
[46] *Cəmal əd-Din əl-Bağdadi, Bustan əl-vaizin və riyaz əs-samiin, c.1, s.264*

وفي رواية أخرجها البيهقي والدارقطني بسند رجاله من أكابر أهل البيت أن عليا عزل بناته لولد أخيه جعفر فلقيه عمر رضي الله تعالى عنهما فقال له يا أبا الحسن أنكحني ابنتك أم كلثوم بنت فاطمة بنت رسول الله صلى الله عليه وسلم فقال قد حبستها لولد أخي جعفر فقال عمر إنه والله ما على وجه الأرض من يرصد من حسن صحبتها ما أرصد فأنكحني يا أبا الحسن فقال قد أنكحتكها فعاد عمر إلى مجلسه بالروضة مجلس المهاجرين والأنصار فقال رفئوني قالوا بمن يا أمير المؤمنين قال بأم كلثوم بنت علي وأخذ يحدث أنه سمع رسول الله صلى الله عليه وسلم يقول ( كل صهر أو سبب أو نسب ينقطع يوم القيامة إلا صهري وسببي ونسبي ) وأنه كان لي صحبة فأحببت أن يكون لي معها سبب

وبهذا الحديث المروي من طريقة أهل البيت يزداد التعجب من إنكار جماعة من جهلة أهل البيت في أزمنتنا تزويج عمر بأم كلثوم؛ لكن لا عجب لأن أولئك لم يخالطوا العلماء ومع ذلك استولى على عقولهم جهلة الروافض فأدخلوا فيها ذلك فقلدوهم فيه وما دروا أنه عين الكذب ومكابرة للحس إذ من مارس العلم وطالع كتب الأخبار والسنن علم ضرورة أن عليا زوجها له وأن إنكار ذلك جهل وعناد ومكابرة للحس وخبال في العقل وفساد في الدين.

*«əl-Beyhəqi və Darəqutninin Əhli-beytin böyüklərindən gələn sənədlə nəql etdikləri rəvayətə görə, Əli öz qızlarını Cəfərin övladları ilə evləndirmək üçün saxlamışdı. Ömər (r.a) onu yolda gördü və dedi: «Ey Həsənin atası! Allah Rəsulunun (s) övladı Fatimənin (ə) qızı Ümmü Gülsümü mənə ver.» O (həzrət) buyurdu: «Mən öz qızlarımı qardaşım Cəfərin övladları ilə evləndirmək üçün saxlamışam.» Ömər dedi: «Allaha and olsun! Yer üzündə elə bir şəxs yoxdur ki, mənim kimi onunla gözəl rəftar etsin. Onu mənə ver, ey Həsənin atası» Əli (ə) dedi: «Mən onu sənə nigahladım.» Sonra Ömər Mühacir və Ənsarlardan olan səhabələrin oturduqları Rəvza adlanan yerdə bir məclisə gəldi və dedi: «Məni evləndiyim üçün təbrik edin.» (Məslisdəkilər) dedilər: «Kiminlə evləndin?» (Ömər cavabında) dedi: «Əlinin qızı Ümmü Gülsüm ilə!» Sonra dedi ki, Allah Rəsulundan (s) belə buyurduğunu eşidib: «Mənim səbəb və nəsəbimdən başqa bütün səbəb və nəsəblər kəsiləcək.» (Ömər davam edərək dedi:) Mən Allah Rəsulunun (s) səhabələrindən idim. İstəyirdim ki səbəb əlaqəm də olsun.*

*Əhli-beytin vasitəsi ilə nəql olunan bu rəvayətə baxmayaraq, bizim dövrümüzdə Əhli-beytdən olan cahil bir camaat  Ömər və Ümmü Gülsümün evləndiyini inkar etdikləri üçün təəccübümüz artır. Lakin təəccüb etmək lazım deyil. Çünki onlar alimlərlə oturub-durmayıblar. Cahil rafizi tayfası onların ağlına hakim olub və bu hadisənin inkarını onların beyinlərinə yeridiblər. Bu səbəbdən onlar da rafizilərin*

*fikirlərini təqlid ediblər. Onlar rafizilərin bu hadisəni inkar etmələrinin yalan olmasını və açıq-aşkar görünən bir şeyi inkar etmək olduğunu bilmirlər. Odur ki, hədis və sünən kitablarını oxuyan kimsə Ömər və Ümmü Gülsümün evləndiyini və bu mətləbi inkar etməyin cahillik, inad, açıq-aşkar görünən bir şeyi inkar, əqli xəstəlik və dində fəsad olmasını anlayar.»*[47]

İbn Həcər əl-Heysəmini özü təəccüb içində olsa da, məhz elə onun sözləri bizdə təəccüb doğurdu. Çünki məlumdur ki, bir kəsin hər hansı iddianı qəbul etməsi üçün məhz onun etibar etdiyi mənbələrdən dəlil gətirilməlidir. İbn Həcərin qeyd etdiyi mənbələrin Əhli-beytdən (ə) olan camaat arasında heç bir dəyəri olmadığı halda necə onları qəbul edə bilər? Bundan əlavə, aşağıda qeyd edəcəyimiz İmam Zeyn əl-Abidindən (ə) nəql edilən rəvayət əhli-sünnənin öz hədis elmi standartlarına əsasən mürsəldir və əksər əhli-sünnə alimləri tərəfindən mürsəl rəvayət dəlil kimi qəbul edilmir.

İbn Həcərin dövründə yaşayan Əhli-beytdən olan camaatın bu nigahın baş verdiyini qəbul etməməsi isə tarixin ən gözəl şahidliyidir. O şəxslər öz ailə üzvlərinin, ata-babalarının tərcümeyi-hallarına və tarixinə hər kəsdən daha yaxşı bələd idilər. Onların bu nigahın olmadığını demələri niyə təəccüb doğursun ki?

Çox maraqlıdır! İbn Həcərin iddiasına baxmayaraq, nə əl-Beyhəqi, nə də əd-Darəqutni onun iddia etdiyi məzmunda rəvayət nəql etməmişdirlər. Bilinən odur ki, bu barədə rəvayəti İbn İshaq bir sənəd və əd-Daruqutni iki mursəl sənədlə nəql edib ki, onlardan biri yenə İbn İshaqdan götürülmüşdür. Rəvayətin mətni isə İbn Həcərin qeyd etdiyi mətndən fərqlidir:

أخبرنا أبو عبد الله الحافظ ثنا الحسن بن يعقوب وإبراهيم بن عصمة قالا ثنا السري بن خزيمة ثنا معلى بن أسد ثنا وهيب بن خالد عن جعفر بن محمد عن أبيه عن علي بن الحسين ح وأخبرنا أبو عبد الله الحافظ ثنا أبو العباس محمد بن يعقوب ثنا أحمد بن عبد الجبار ثنا يونس بن بكير عن بن إسحاق حدثني أبو جعفر عن أبيه علي بن الحسين قال لما تزوج عمر بن الخطاب رضي الله عنه أم كلثوم بنت علي رضي الله عنهم أتى مجلسا في مسجد رسول الله صلى الله عليه وسلم بين القبر والمنبر للمهاجرين لم يكن يجلس فيه غيرهم فدعوا له بالبركة فقال أما والله ما دعاني إلى تزويجها إلا أني سمعت رسول الله صلى الله عليه وسلم يقول كل سبب ونسب منقطع يوم القيامة إلا ما كان من سببي ونسبي لفظ حديث بن إسحاق وهو مرسل حسن

[47] *İbn Həcər əl-Heysəmi, əs-Səvaiq əl-muhriqə, c.2, s.456*

*«Əbu Abdullah əl-Hafiz (yəni, əl-Hakim ən-Nisaburi) bizə xəbər verdi: əl-Həsən bin Yaqub və İbrahim bin Asamə rəvayət etdilər, dedilər: əs-Səri bin Xuzəymə bizə rəvayət etdi; Məla bin Əsəd bizə rəvayət etdi; Vuheyb bin Xalid bizə Cəfər bin Muhamməddən, o isə atasından, o da Əli bin əl-Hüseyndən rəvayət etdi: H (yəni, digər sənədi bununla birləşdirir) Əbu Abdullah əl-Hafiz bizə xəbər verdi; Əbu əl-Abbas Muhəmməd bin Yaqub bizə rəvayət etdi: Əhməd bin Əbd əl-Cabbar bizə rəvayət etdi: Yunus bin Bukeyr bizə İbn İshaqdan rəvayət etdi: Əbu Cəfər mənə atası Əli bin əl-Hüseyndən rəvayət etdi, dedi: Ömər bin əl-Xattab (r.a) Ümmü Gülsüm bint Əli (r.a) ilə evləndikdə Allah Rəsulunun (s) məscidində qəbri ilə minbəri arasındakı mühacirlərin məclisinə gəldi, orada onlardan başqa heç kəs oturmamışdı. Ona xeyir dua verdilər. Dedi: «Allaha and olsun ki, onunla yalnız ona görə evləndim ki, Allahın Elçisindən (s.ə.s) belə dediyini eşitdim: «Qiyamət günü mənim səbəb və nəsəbimdən başqa bütün səbəb və nəsəblər kəsiləcək.» (əl-Beyhəqi deyir): Hədisin ləfzi İbn İshaqa aiddir və o, mürsəl həsəndir.»*[48]

Qeyd etdiyimiz kimi, əksər əhli-sünnə alimləri tərəfindən mürsəl rəvayət dəlil kimi qəbul edilmir. Mürsəl rəvayət qəbul edilsə, bu nigahın baş vermədiyi çox daha asan yollarla isbat olunardı.

---

[48] *Əbu Bəkr əl-Beyhəqi, Sünən əl-kübra, c.7, s.63*

## II-ci fəsil
## Ümmü Gülsüm kimin qızıdır?

Əhli-sünnədən fərqli olaraq, şiə mənbələrində Ömər bin əl-Xəttabın zövcəsinin eyni zamanda İmam Əli (ə) və xanım Fatimənin (ə) qızı olması haqqında heç bir məlumat yoxdur. Lakin Əmir əl-möminin İmam Əli bin Əbi Talibin (ə) evində xanım Fatimədən (ə) olmayan Ümmü Gülsüm adlı qızın olması barədə məlumatlar vardır. Hətta o qızın Ömər bin əl-Xəttab ilə evlənməsini də yazanlar var. Onların yazdığına görə, Ömər öldükdən sonra İmam Əli (ə) onu evinə gətirdi.

Bir zəif ehtimala görə, bu qızın İmam Əlinin (ə) başqa bir zövcəsindən olan öz qızı olması mümkündür. Ancaq bu iddianın da isbata ehtiyacı var və ehtimaldan başqa bir şey deyildir.

Amma bu haqda əhli-sünnə alimləri daha ağlabatan bir ehtimal irəli sürüblər. Onlar deyirlər ki, Ömər bin əl-Xəttabın evləndiyi Ümmü Gülsüm adlı qız Əbu Bəkrin qızı idi.

### Muhy əd-Din ən-Nəvəvi: «Ömər bin əl-Xəttab Əbu Bəkrin kürəkənidir...»

Qeyd etdiyimiz kimi, bəzi əhli-sünnə alimləri Ömər bin əl-Xəttabın evləndiyi qızın Əbu Bəkrin qızı Ümmü Gülsüm olduğunu deyiblər. Muhy əd-Din ən-Nəvəvi «Təhzib əl-əsma» adlı kitabında açıq-aşkar yazır ki, Ömər bin əl-Xəttab Əbu Bəkrin qızı Ümmü Gülsüm ilə evlənmişdir:

أختا عائشة: اللتان أرادهما أبو بكر الصديق، رضى الله عنه، بقوله لعائشة: إنما هما أخواك وأختاك، قالت: هذان أخواى، فمن أختاى؟ فقال: ذو بطن بنت خارجة، فإنى أظنها جارية. ذكر هذه القصة فى باب الهبة من المهذب، وقد تقدم بيانهما فى أسماء الرجال فى النوع الرابع فى الأخوة، وهاتان الأختان هما أسماء بنت أبى بكر، وأم كلثوم، وهى التى كانت حملاً، وقد تقدم هناك إيضاح القصة، وأم كلثوم هذه تزوجها عمر بن الخطاب، رضى الله عنه.

*«Aişənin iki bacısı: Əbu Bəkr əs-Siddiqin (r.a) Aişəyə etdiyi vəsiyyətdə məqsədi həmin o iki nəfər idi. (Əbu Bəkr xanım Aişəyə) dedi: «İki qardaşın və iki bacın (məndən irs aparacaqlar).» (Aişə) dedi: «Bu iki nəfər mənim qardaşlarımdır. Bəs iki bacım kimlərdir? (yəni mənim ancaq bir bacım var)» (Əbu Bəkr cavabında) dedi: «Xaricənin qarnında olandır. Mən onun qız olduğunu güman edirəm.»*

*Bu hadisə «əl-Muhəzzəb» kitabının «Hibə» babında qeyd edilmişdir. O iki bacı (Aişə xanımın bacıları) haqqında dördüncü babda «Əsma ər-Rical»–da danışdıq.*

*Bu iki bacı Əsma bint Əbu Bəkr və Ümmü Gülsümdür. Anasının qarnında olan qız da həmin (Ümmü Gülsüm adlı) qızdır. Əvvəldə onun barəsindəki hadisənin izahını verdik. Bu Ümmü Gülsüm Ömər bin əl-Xəttabın evləndiyi qızdır.»*[49]

Bu açıqca olunan etiraf bir çox həqiqətləri aydınlatmış və İmam Əlinin (ə) xanım Fatimədən (ə) olan qızı ilə Ömər bin əl-Xəttabın evlənməsinin əfsanə olduğunu sübut etmişdir. Bu rəvayətdə yazılan evlilik tarixi həqiqətlərlə də tam uyğun gəlir. Çünki birinci xəlifə Əbu Bəkr, ikinci xəlifə Ömər ilə qədim və möhkəm dost idilər. Təbiidir ki, Əbu Bəkrin ölümündən sonra Ömər özündə onun ailəsini qorumaq və himayədarlıq etmək məsuliyyətini hiss edərək, onun qızı ilə evlənmişdir. Bir ailəyə yaxın olmaq və nəzarət etmək üçün də bundan əlverişli fürsət ola bilməzdi.

***<u>Əbu Bəkrin qızı üçün elçilik edilməsi haqqında rəvayətin təhlili:</u>***

Yuxarıdakı iddianın əksinə olaraq, bəziləri Ömərin o qız üçün ancaq elçilik etdiyini, lakin evlənmədiyini göstərməyə çalışıblar. Lakin bu elçilik rəvayəti elə bir şəkildə nəql olunub ki, heç bir məzhəb – nə şiə, nə də əhli-sünnə bunu qəbul etməz.

Əhli-sünnə alimləri nəql ediblər ki, Ömər bin əl-Xəttab Əbu Bəkrin qızı Ümmü Gülsüm üçün elçilik etmişdir. Lakin onun sərt əxlaqına görə razılaşma əldə olunmamışdır. Sonra Aişə xanım guya Əhli-beyt (ə) ilə düşmənçiliyi məşhur olan Əmr əl-Asın vasitəsi ilə Ömərə İmam Əlinin (ə) qızını təklif etmişdir.

Əbu Cəfər ət-Təbəri yazır:

وخطب أم كلثوم بنت أبي بكر وهي صغيرة وأرسل فيها إلى عائشة فقالت الأمر إليك فقالت أم كلثوم لا حاجة لي فيه فقالت لها عائشة ترغبين عن أمير المؤمنين قالت نعم إنه خشن العيش شديد على النساء.

فأرسلت عائشة إلى عمرو بن العاص فأخبرته فقال أكفيك فأتى عمر فقال يا أمير المؤمنين بلغني خبر أعيذك بالله منه قال وما هو قال خطبت أم كلثوم بنت أبي بكر قال نعم أفرغبت بي عنها أم رغبت بها عني قال لا واحدة ولكنها حدثة نشأت تحت كنف أم المؤمنين في لين ورفق وفيك غلظة ونحن نهابك وما نقدر أن نردك عن خلق من أخلاقك فكيف بها إن خالفتك في شيء فسطوت بها كنت قد خلفت أبا بكر في ولده بغير

[49] *Muhy əd-Din ən-Nəvəvi, Təhzib əl-əsma və əl-lüğət, c.2, s.630, r.1224*

ما يحق عليك قال فكيف بعائشة وقد كلمتها قال أنا لك بها وأدلك على خير منها أم كلثوم بنت علي بن أبي طالب.

*«Ömər bin əl-Xəttab əvvəlcə Əbu Bəkrin qızı Ümmü Gülsümə elçilik etdi. Aişə də bu təklifi öz bacısı ilə paylaşdı. (Ümmü Gülsüm də) cavabında dedi: «Mənim onunla heç bir işim ola bilməz.» Aişə dedi: «Sən Əmir əl-mömininini istəmirsən?» O dedi: «Bəli istəmirəm. O, həyatda sərt və zəhmlidir. Qadınlarla kobud və sərt rəftar edir.»*

*Aişə bir nəfəri Əmr əl-Asın yanına göndərərək hadisəni ona çatdırdı. Əmr As dedi: «Mən bu məsələni həll edərəm.» Sonra Ömərin yanına getdi və dedi: «Ey Əmir əl-möminin! Bir xəbər eşitmişəm, Allah eləsin heç doğru olmasın.» (Ömər) dedi: «Nədir?»(Əmr As) dedi: «Əbu Bəkrin qızı Ümmü Gülsüm üçün elçilik etmisən?»(Ömər) dedi: «Bəli! Məni onun üçün bəyənmirsən, yoxsa onu mənim üçün bəyənmirsən?» (Əmr əl-As) dedi: «Heç biri deyil, lakin o kiçikdir və möminlər anası Aişənin sayəsində naz-qəmzə ilə böyümüşdür. Sən isə sərt xasiyyətlisən və hətta biz də səndən qorxuruq, səni adətlərindən də çəkindirə bilmirik. Sən onunla evləndikdən sonra, o, sənin sözündən çıxsa və sən onu vursan, Əbu Bəkrə övladları barəsində xilaf etmiş olarsan ki, bu da sənə yaraşmaz.» Ömər dedi: «Bəs Aişəni necə edək? Axı mən onunla sözləşmişəm.» Əmr əl-As dedi: «Mən ondan yaxşısını sənə göstərərəm – Əli bin Əbi Talibin qızı Ümmü Gülsüm...»*[50]

Görəsən əhli-sünnə alimləri qəbul edirlər ki, Ömərin Əbu Bəkrin qızına etdiyi elçilik rəvayətdə deyildiyi kimi o qədər vahiməli olmuşdur ki, Əmr əl-As ondan Allah pənah aparsın? Lakin həmin şəxs təklif edir ki, xəlifə Ömər İmam Əlinin (ə) qızına elçilik etsin. Belə çıxır ki, Əbu Bəkrin qızının hörməti xanım Fatimənin (ə), yəni Allah Rəsulunun (s) qızının hörmətindən daha vacibdir? Yəni, Əbu Bəkrin qızını incitmək olmaz, amma İmam Əlinin (ə) qızını incitməyin heç bir eybi yoxdur?

Məgər əhli-sünnə camaatı qəbul edir ki, xanım Fatimənin (ə) ruhu incisə bir şey olmaz, təki Əbu Bəkrin ruhu inciməsin? Halbuki, əhli-sünnə kitablarında

---

[50] *Əbu Cəfər ət-Təbəri, Tarix ər-rusul və əl-muluk və əl-xulafa, c.2, s.564; İbn Əbd Rəbbih, əl-İqd əl-fərid, c.6, s.99; İbn əl-Əsir, əl-Kamil fi ət-tarix, c.2, s.451*

səhih sənədlə nəql olunan rəvayətdə deyilir ki: *«Fatiməni incidən, Allah Rəsulunu (s) incitmiş kimidir.»*[51] Lakin Əbu Bəkr haqqında belə bir rəvayət mövcud deyildir.

Axı Ömər bin əl-Xəttabdan nəql olunan: *«Allah Rəsulunun (s) ailəsi mənim üçün öz ailəmdən daha əhəmiyyətlidir»* sözləri məhz əhli-sünnə mənbələrində qeyd edilmişdir.

Hansı əhli-sünnə qəbul edər ki, Ömər Əbu Bəkrin ailəsinə qarşı ehtiram saxlayıb, ancaq Allah Rəsulunun (s) ailəsinin ehtiramına göz yumub? Əbu Bəkrin qızı Ömərin tünd və zəhmli xasiyyətinə görə ondan imtina etiyi halda, o, Allah Rəsulunun (s) övladı ilə evlənməkdə qərarlı olub?

Odur ki, əgər biz bu rəvayəti səhih qəbul etsək, əhli-sünnə üçün çox iradlar yarana bilər. Yox, əgər bu rəvayət saxta hesab edilsə, onun saxta olmasının səbəbi də aydınlaşmış olar. Çünki, bu əfsanədən ibarət rəvayətin saxta olması qəbul edildiyi halda, Ömərin İmam Əlinin (ə) deyil, Əbu Bəkrin qızı ilə evlənməsi üzə çıxar.

Heç təsadüfü deyil ki, şiə alimlərindən olan nəsəbşünaslar əhli-sünnə alimi ən-Nəvəvinin sözünü təsdiq etmiş kimi, Ömərin zövcəsi Ümmü Gülsümün İmam Əlinin (ə) qızı olduğunu qəbul etmirlər.

Əhli-beyt xanədanının bütün şəcərəsi əlində olan nəsəbşünas şiə alimi mərhum Ayətullah Şihab əd-Din əl-Mərəşi ən-Nəcəfi «İhqaq əl-həqq» kitabının şərhinin haşiyəsində bu mətləbə toxunmuşdur:

هاجرت مع زوجها إلى الحبشة، ثم إلى المدينة المنورة، تزوجها بعد جعفر أبو بكر، فتولدت له منها عدة أولاد منهم أم كلثوم وهي التي رباها أمير المؤمنين عليه السلام وتزوجها الثاني، فكانت ربيته عليه السلام وبمنزلة إحدى بناته، وكان عليه السلام يخاطب محمد بابني وأم كلثوم هذه بنتي، فمن ثم سرى الوهم إلى عدة من المحدثين والمؤرخين فكم لهذه الشبهة من نظير، ومنشأ الأكثر الاشتراك في الاسم أو الوصف، ثم بعد موت أبي بكر تزوجها مولانا علي عليه السلام.

*«(Muhəmməd bin Əbu Bəkrin anası) Əri (Cəfər bin Əbi Talib) ilə birlikdə Həbəşistana hicrət etmiş və sonra Mədinəyə gəlmişdir. Cəfərdən sonra Əbu Bəkr onunla evlənmişdir. Ondan bir neçə övladı dünyaya gəldi ki, onlardan biri də Ümmü Gülsümdür. O, Əmir əl-muminin İmam Əlinin (ə) böyütdüyü və ikinci xəlifə ilə evlənmiş həmin qadındır. O, İmam Əlinin (ə) qızlığı idi, lakin öz qızı kimi idi. İmam Əli (ə) Muhəmmədə oğlu, bacısı Ümmü Gülsümə də öz qızı kimi xitab*

---

[51] *Səhih əl-Buxari, Səhih Müslim və s.*

*edərdi. Elə bu üzdən bir çox mühəddis və tarixçilər bir-birinə dəyiblər. Bu qalmaqalın yaranmasına əsas səbəb müəyyən oxşarlıqlar, eyni adın və simanın hər iki tərəfdə olmasından irəli gəlir. Əbu Bəkr öləndən sonra Əmir əl-muminin İmam Əli (ə) (onun zövcəsi) Əsma ilə evlənmişdir.»*[52]

Artıq Əbu Bəkrin qızı Ümmü Gülsümün İmam Əlinin (ə) evində olması və Ömər bin əl-Xəttab ilə evlənməsi məsələsi qismən də olsa aydınlaşdı. Əbu Bəkr vəfat etdikdən sonra onun bəzi zövcələri İmam Əli (ə) ilə evləndilər. Elə bu səbəbdən Əbu Bəkrin övladlarının bir çoxu o həzrətin evində böyümüşdür. Muhəmməd bin Əbu Bəkr və Ümmü Gülsüm də onlardandır.

Bu nəzərin qarşısında sadəcə iki irad qaldı.

Bəzilərinin iddiasına görə, bu qız Əmir əl-muminin İmam Əlinin (ə) böyütdüyü qız deyil. Çünki bəzi əhli-sünnə qaynaqlarına görə Əbu Bəkrin qızı Ümmü Gülsümün qızının anası Həbibə bint Xaricədir. O da Əbu Bəkr vəfat etdikdən sonra İmam Əli (ə) ilə deyil, Xəbib bin Əsafla evlənmişdir.

Bu irada cavab olaraq bildiririk ki, bu xanımın Xəbib bin Əsaf ilə evlənməsi belə bu qalmaqalın içində yaşanan yalan parçalarından biridir. Məqsəd bütün həqiqətlərin üzə çıxmasının qarşısını almaqdır. Bu yalan pərdəsi mövzunun üzərindən çəkildikdən sonra hadisənin həqiqəti gün kimi aydın olacaqdır.

Əhli-sünnənin etibar etdiyi qədim tarixi mənbələr Xəbib bin Əsafın Əbu Bəkrin xilafəti dövründə baş verən Yəmamə döyüşündə öldüyünü yazmışdır. Muhəmməd bin Həbib əl-Bəğdadi «əl-Muhəbbər»-də yazır:

خبيب بن اساف قتل يوم اليمامة.

*«Xəbib bin Əsaf Yəmamə döyüşündə öldürüldü.»*[53]

Əgər Xəbib bin Əsaf Əbu Bəkrin xəlifəliyi dövründə öldürülmüşdürsə, Əbu Bəkrin ölümündən sonra necə Həbibə bint Xaricə ilə evlənə bilər?

Bəziləri isə Ümmü Gülsüm bint Əbu Bəkrin Təlhə bin Ubeydullahla ailə qurduğunu, buna görə də Ömər bin əl-Xəttabın onun nigahının mümkün ola bilməyəcəyini qeyd etmişlər. Bunun üçün aşağıdakı dəlilləri qeyd edirlər:

*İbn Xəllikan öz tarix kitabında*[54] *Ümmü Gülsüm bint Əbi Bəkr haqqında deyir: «Onunla Təlhə bin Ubeydullah evlənmişdir və ondan Muhamməd adında oğlu*

---

[52] *Şihab əd-Din əl-Mərəşi, Şərh ihqaq əl-həqq, c.30, s.315*

[53] *Əbu Cəfər əl-Bəğdadi, əl-Muhəbbər, c.1, s.403*

[54] *İbn Xəllikan, Vəfəyat əl-əyan və ənba əbna əz-zəman c.3, s.7*

*olmuşdur, Məkkənin valisi idi və ondan həm də Zəkəriyya və Aişə'ni dünyaya gətirmişdir. Sonra Təlhə qətl edilir və onunla Abdur-Rahmən bin Abdullah bin Əbi Rabia əl-Məxzumi evlənmişdir.» əş-Şeyx əş-Şəblənci «Nur əl-Əbsar» kitabında deyir: «Ümmü Gülsüm onun (Əbu Bəkrin) qızları içində ən kiçiyidir. Anasının adı Həbibə bint Xaricə bin Zeyddir. Əbu Bəkr ölərək onu dul buraxmışdır və o, bu zaman Ümmü Gülsümdən hamilə idi. Əbu Bəkrin vəfatından sonra dünyaya gəlmişdir və onunla Təlhə bin Ubeydullah evlənmişdir.»*[55]

Amma burada da ziddiyyətlər davam edir. Çünki hər kəsə məlumdur ki, Muhəmməd bin Təlhə bin Ubeydullahın anası Həmnə bint Cəhş idi.

## İki Ümmü Gülsümdən bir rəvayət

Bir daha əhli-sünnə mənbələrinə müraciət etdikdə bir rəvayətin bir ravidən amma iki fərqli sima ilə nəql olunduğunu görürük. Yəni, eyni rəvayət həm Əbu Bəkrin qızı Ümmü Gülsümdən, həm də İmam Əlinin (ə) qızı Ümmü Gülsümdən nəql edilmişdir. Bu nəyi göstərir? Bu onu göstərir ki, Əmir əl-muminin İmam Əlinin (ə) qızı kimi tanınan Ümmü Gülsüm Əbu Bəkrin öz qızıdır. Nümunə olaraq həmin rəvayətləri də qeyd edirik ki, mövzu tam aydın olsun.

İbn Əbi Şəybə aşağıdakı rəvayəti Əbu Bəkrin qızı Ümmü Gülsümdən nəql etmişdir:

حدثنا عفان حدثنا حماد بن سلمة أخبرنا جبر بن حبيب عن أم كلثوم بنت أبي بكر عن عائشة أن رسول الله صلى الله عليه وسلم علمها هذا الدعاء اللهم إني أسألك من الخير كله عاجله وآجله ما علمت منه وما لم أعلم وأعوذ بك من الشر كله ما علمت منه وما لم أعلم اللهم إني أسألك من خير ما سألك عبدك ونبيك وأعوذ بك من شر ما عاذ به عبدك ونبيك اللهم إني أسألك الجنة وما قرب إليها من قول أو عمل وأعوذ بك من النار وما قرب إليها من قول أو عمل وأسألك أن تجعل كل قضاء تقضيه لي خيرا.

*«Bizə Əffan rəvayət etdi (və dedi): bizə Həmmad bin Sələmə xəbər verdi (və dedi): Cəbr bin Həbib, bizə Ümmü Gülsüm bint Əbu Bəkrdən, o da Aişədən belə rəvayət etmişdir ki, Allah Rəsulu (s)...»*[56]

Diqqət edin: Eyni rəvayət eyni ad ilə, lakin bu dəfə Əlinin (ə) qızı Ümmü Gülsümdən nəql edilir.

---

[55] *əş-Şəblənci, Nur əl-əbsar, s. 701*

[56] *İbn Əbi Şeybə, əl-Musənnəf, c.6, s.44, h.29345; Əhməd bin Hənbəl, əl-Müsnəd, c.6, s.133; Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Ədəb əl-Mufrəd, c.1, s.222*

İshaq bin Rahəveyh yazır:

أخبرنا النضر نا شعبة نا جبر بن حبيب قال سمعت أم كلثوم بنت علي تحدث عن عائشة أن رسول الله صلى الله عليه وسلم ليكلمه في حاجة وعائشة تصلي فقال رسول الله صلى الله عليه وسلم يا عائشة عليك بالجوامع والكوامل قولي اللهم إني أسألك من الخير كله عاجله وآجله ما عملت منه وما لم أعلم وأعوذ بك من الشر كله عاجله وآجله ما عملت منه وما لم أعلم اللهم إني أسألك الجنة وما قرب إليها من قول أو عمل وأعوذ بك من النار وما قرب إليها من قول أو عمل اللهم إني أسألك مما سألك منه محمد وأعوذ بك مما استعاذ منه محمد صلى الله عليه وسلم اللهم ما قضيت لي من قضاء فاجعل عاقبته لي رشدا

*«Bizə ən-Nəzr xəbər verdi (və dedi): bizə Şubə xəbər verdi (və dedi): bizə Həbib bin Cəbr xəbər verdi və dedi: Ümmü Gülsüm bt. Əli Aişədən belə rəvayət etdiyini eşitdim: Allah Rəsulu (s)...»*[57]

[57] *İshaq bin Rahəveyh, Müsnəd İshaq bin Rahəveyh, c.2, s.590, h.1165*

# III FƏSİL
## Təzadlar

Ömər və Ümmü Gülsümün evlənməsi hadisəsinin əfsanə olduğunu sübut edən dəlillərdən ən əsası o haqda nəql olunan rəvayətlər arasında ziddiyətlərin mövcud olmasıdır. Bu təzadlar elə bir şəkildə gözə çarpır ki, rəvayətlərin səhih olmadığını çox rahat anlamaq mümkündür.

Şeyx əl-Mufid (rəh) nigahın baş verməsi haqqında nəql edilmiş rəvayəti qeyd etdikdən sonra, bu barədə olan ixtilaflar və təzadlar haqqında yazır:

والحديث بنفسه مختلف، فتارة يروى: أن أمير المؤمنين عليه السلام تولى العقد له على ابنته. وتارة يروى أن العباس تولى ذلك عنه. وتارة يروى: أنه لم يقع العقد إلا بعد وعيد من عمر وتهديد لبني هاشم. وتارة يروى أنه كان عن اختيار وإيثار.

ثم إن بعض الرواة يذكر أن عمر أولدها ولدا أسماه زيدا. وبعضهم يقول: إنه قتل قبل دخوله بها. وبعضهم يقول: إن لزيد بن عمر عقبا. ومنهم من يقول: إنه قتل ولا عقب له. ومنهم من يقول: إنه وأمه قتلا. ومنهم من يقول: إن أمه بقيت بعده. ومنهم من يقول: إن عمر أمهر أم كلثوم أربعين ألف درهم. ومنهم من يقول: مهرها أربعة آلاف درهم. ومنهم من يقول: كان مهرها خمسمائة درهم.

وبدو هذا الاختلاف فيه يبطل الحديث، فلا يكون له تأثير على حال.

*«Bu hədis özü-özlüyündə ixtilaflıdır. Bəzən Əmir əl-mömininin (ə) özünün bu əqdi bağladığı, bəzən Abbasın bu işi öhdəsinə götürdüyü, bəzən Ömərin Bəni-Haşimi təhdidindən sonra bu nigahın baş tutduğu, bəzən isə bu nigahın (Əlinin) öz ixtiyarı və seçimi ilə olduğu rəvayət edilir.*

*Daha sonra bəzi rəvayətçilər Ömərin ondan Zeyd adlı oğlu olduğunu demiş, bəziləri isə: «Ömər Ümmü Gülsüm ilə yaxınlıq etmədən əvvəl öldürüldü» - deyə rəvayət etmişlər. Bəziləri: «Zeyd bin Ömərin nəsli davam etdi» - söyləmiş, bəziləri isə: «O, qətlə yetirilmiş və övladı olmamışdır» - demişlər. Kimisi: «O və anası qətlə yetildilər» demiş, kimisi də «Anası ondan sonra da yaşamışdır» - söyləmişdir. Bəzilərinə görə Ömər Umm Gülsümə qırx min dinar, bəzilərinə görə isə dörd min dinar mehriyyə vermişdir. Bəzilərinə görə də mehriyyə əlli min dinar olmuşdur. Bu ixtilaflar hədisin batil olmasına səbəb olur. Odur ki, bu rəvayətin heç bir təsiri yoxdur.»*[58]

[58] *Şeyx əl-Mufid, əl-Məsail əs-sərəviyyə, s.90*

Məşhur şiə alimi Şeyx əl-Mufidin qeyd etdikləri bu rəvayətdə mövcud olan ixtilafların sadəcə cüzi bir hissəsidir. Əslində burdakı ixtilafların hamısını yazmaq istəsək, bütün kitabı onlara həsr etmək lazım gələcək. Odur ki, çox təfərrüata girmədən, onlardan bəzilərinin sənədlərini və əhli-sünnə kitablarındakı ünvanlarını qeyd edirik.

**Ümmü Gülsüm Ömərdən sonra kiminlə evləndi?**

Əhli-sünnə alimləri Ümmü Gülsümün Ömərdən sonra yaşadığını və onun dəfələrlə ərə getməsini qeyd etmişlər. Onlardan bu məsələni qeyd edən ilk şəxs «Təbəqat əl-kubra» kitabının sahibi Muhəmməd bin Səd əz-Zuhri (vəfatı 230 h.q.) olmuşdur. Sonrakı əhli-sünnə alimləri isə sadəcə onu izləmişlər. Muhəmməd bin Səd yazır:

أم كلثوم بنت علي بن أبي طالب بن عبد المطلب بن هاشم بن عبد مناف بن قصي وأمها فاطمة بنت رسول الله وأمها خديجة بنت خويلد بن أسد بن عبد العزى بن قصي تزوجها عمر بن الخطاب وهي جارية لم تبلغ فلم تزل عنده إلى أن قتل وولدت له زيد بن عمر ورقية بنت عمر ثم خلف على أم كلثوم بعد عمر عون بن جعفر بن أبي طالب بن عبد المطلب فتوفي عنها ثم خلف عليها أخوه محمد بن جعفر بن أبي طالب بن عبد المطلب فتوفي عنها فخلف عليها أخوه عبد الله بن جعفر بن أبي طالب بعد أختها زينب بنت علي بن أبي طالب.

*«Ümmü Gülsüm bint Əli bin Əbi Talib bin Əbd əl-Mutəllib bin Haşim bin Əbd əl-Mənaf bin Qusai. Onun anası Allah Rəsulunun (s) qızı Fatimə idi. Fatimənin anası isə Xədicə bint Xuvəylid bin Əsəd bin Əbd əl-Uzza bin Qusai idi. (Ümmü Gülsüm) yetkinlik yaşına çatmamış Ömər bin əl-Xəttab onunla evlənmişdi. Ömər qətlə yetirilənədək onunla yaşadı və bu nigahdan Zeyd bin Ömər ilə Ruqəyyə bint Ömər dünyaya gəldi. Ömər öldükdən sonra Aun bin Cəfər bin Əbi Talib bin Əbd əl-Mutəllib, onun ölümündən sonra qardaşı Muhəmməd bin Cəfər bin Əbi Talib bin Əbd əl-Mutəllib ilə ailə qurdu. Muhəmməd bin Cəfər vəfat etdikdən sonra qardaşı Abdullah bin Cəfər bin Əbi Talib Ümmü Gülsümün bacısı Zeynəb bint Əli bin Əbi Talibin vəfatından sonra onunla evləndi.»*[59]

Oxuduğunuz kimi, bu rəvayətdə Ümmü Gülsümün Ömər bin əl-Xəttabdan sonra öz əmisi oğlu Aun bin Cəfər bin Əbi Talib, sonra Muhəmməd bin Cəfər bin

[59] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.463; Əhməd əl-Bəlazuri, Ənsab əl-əşraf, c.1, s.178*

Əbi Talib, sonra da Abdullah bin Cəfər bin Əbi Talib ilə evləndiyi yazılmışdır. Amma ravinin unutduğu bir məsələ var ki, Aun bin Cəfər və Muhəmməd bin Cəfər hicrətin 16-17-ci illərində ikinci xəlifə Ömər bin əl-Xəttabın dövründə Tustər döyüşündə şəhid olmuşdular. Belə çıxır ki, Ümmü Gülsümün ikinci və hətta üçüncü əri birinci ərindən əvvəl ölmüşdülər.

Etiraz edilə bilər ki, İbn Həcər əl-Əsqəlani Muhəmməd bin Cəfərin Tustərdə şəhid edildiyini əl-Vaqididən nəql etsə də, sonda bəzi arqumentlər qeyd edərək bu fikri qəbul etməmişdir. Etirazçıların dəlil olaraq qeyd etdikləri arqument aşağıdakılardan ibarətdir:

محمد بن جعفر بن أبي طالب بن عبد المطلب... وذكر أبو عمر عن الواقدي أنه يكنى أبا القاسم ، وأنه تزوج أم كلثوم بنت عليّ بعد عمر. قال : واستشهد بتستر. وقيل : إنه عاش إلى أن شهد صفين مع عليّ. قال الدارقطني في كتاب الإخوة : يقال : إنه قتل بصفين ، اعترك هو وعبيد الله بن عمر بن الخطاب فقتل كل منهما الآخر. وذكر المرزباني في معجم الشعراء : أنه كان مع أخيه محمد بن أبي بكر بمصر ، فلمّا قتل اختفى محمد بن جعفر ، فدل عليه رجل من عك ثم من غافق ، فهرب إلى فلسطين ، وجاء إلى رجل من أخواله من خثعم ، فمنعه من معاوية ، فقال في ذلك شعراً. وهذا محقق يرد قول الواقدي أنه استشهد بتستر.

*«Muhəmməd bin Cəfər bin Əbi Talib bin Əbd əl-Muttəlib... Əbu Ömər, əl-Vaqididən nəql edir ki, onun künyəsi Əbul-Qasim idi və o, Ömərdən sonra Əlinin qızı Ümmü Gülsüm ilə evlənmişdi. Dedi: «Tustərdə şəhid olmuşdur.» Onun Siffində Əli ilə birlikdə iştirak edənə qədər yaşadığı da deyilmişdir. əd-Dəraqutni «əl-İxva» kitabında deyir: «Onun Siffində qətl edildiyi, onun Abdullah bin Ömər bin əl-Xattab ilə döyüşdüyü və bir-birilərini öldürdüyü söylənmişdir.» əl-Mərzəbani «Mucəm əş-Şuəra» kitabında zikr edir ki, o, qardaşı Muhamməd bin Əbi Bəkr ilə birlikdə Misirdə olmuşdur. Muhamməd bin Əbi Bəkr öldürüldükdə gizlənmişdir. Ak şəhərindən, sonra isə Ğafiq şəhərindən bir nəfər onun yerini göstərmişdi, daha sonra Fələstinə qaçmışdır. Sonra Xasəmdəki dayılarının yanına gəlmiş, onlar da onu Muaviyyədən qorumuşlar. Bu barədə şer yazmışdır. Bu təhqiq əl-Vaqidinin onun Tustərdə şəhid düşməsi barəsindəki sözünü rədd etməkdədir.»*[60]

Cavab olaraq bildiririk ki, ümumiyyətlə əd-Darəqutninin «əl-İxva»da qeyd etdiyi fikrin kimə məxsus olduğu qeyd edilməmişdir. əl-Mərzəbaninin şairlər haqqında yazdığı kitabdan gətirilən sitatın qəbul edilməsi üçün isə ən azı onun mötəbərliyi sübut edilməlidir. Çünki əl-Vaqidi hədis rəvayətində Əhməd bin Hənbəl, Muhəmməd bin İsmayıl əl-Buxari, Əhməd ən-Nəsai, Yəhya bin Məin,

[60] *İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.6, s.8, r.7769*

Əbu əl-Həsən əd-Darəqutni, Muhəmməd bin İdris əş-Şafei kimi hədis alimləri tərəfindən tənqid edilməsinə baxmayaraq, tarixçi kimi böyük şöhrətə sahibdir və fikirləri mühüm əhəmiyyət kəsb edir. Həmçinin bir sıra tədqiqatçılar əl-Vaqidinin tənqid edilmə səbəbləri üzrə araşdırma aparmış və bir çoxunun əsassız olduğu qənaətinə də gəlmişlər. Ancaq biz bu məsələnin üzərində çox dayanıb oxucuları da yormaq fikrində deyilik.

Əl-Vaqidi özü proseslərə digərlərindən daha yaxın dövrdə (130-207 h.) yaşamışdır və təsadüfi deyil ki, əhli-sünnə nəzdində ilk islam tarixçisi hesab edilmişdir. Bir çox əhli-sünnə alimi onu məğazi və siyər mövzularının mütəxəssisi hesab etmiş və ona istinad etmişlər.

İbn Həcər əl-Əsqəlani deyib: *«Bizim əshabımıza görə məğazi mövzusunda məqbul hesab edilir. Allah daha yaxşı bilir.»* [61] İbn Kəsir də onu doğru sözlü, məğazi mövzusunda öndə gələn alimlərdən hesab etmişdir.[62] Şəms əd-Din əz-Zəhəbi onu hədisdə zəif saysa da, məğazi mövzusunda müdafiə etmişdi.[63] əz-Zəhəbi həmçinin deyir: *«O elm damarlarından biridir, lakin hədisdə bacarıqsızdır. Bununla belə, məğazi və siyər mövzularında rəhbərdir.»*[64] Həmçini deyir: *«Səduqdur, onun yaddaşı tarix, siyər, məğazi, hadisələr, insanların əlamətdar günləri, fiqh və sair mövzularda öz potensialının zirvəsində idi.»* [65] Muhəmməd bin Səlam əl-Cuməhi, İbrahim əl-Hərbi, əd-Dəravurdi, Mücahid bin Musa, Musəb əz-Zubeyri, Yəzid bin Harun[66] və s. bir sıra alimlər onu müxtəlif yöndən tərifləmişdirlər.

Digər bir əhli-sünnə alimi İbn Əbd əl-Birr də bu mövzuda əl-Vaqidi ilə eyni fikirdədir. O, Muhəmməd bin Cəfərin qardaşı Aunun tərcümeyi-halında yazır:

عون بن جعفر بن أبي طالب ولد على عهد رسول الله صلى الله عليه وسلم أمه وأم أخويه عبد الله ومحمد بنى جعفر بن أبي طالب أسماء بنت عميس الخثعمية واستشهد عون بن جعفر وأخوه محمد بن جعفر بتستر ولا عقب له.

*«Aun bin Cəfər bin Əbi Talib Peyğəmbərin (s) zamanında dünyaya gəlmişdir. Onun və iki qardaşı Abdullah və Muhəmmədin anası Əsma bt. Umeys əl-*

[61] *İbn Həcər əl-Əsqəlani, Təlxis əl-həbir, c.7, s.57*
[62] *İbn Kəsir əd-Diməşqi, əl-Bidayə və ən-nihayə, c.3, s.288*
[63] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.9, s.454*
[64] *Şəms əd-Din əz-Zəhəbi, Təzkirət əl-huffaz, c.1, s.348*
[65] *Şəms əd-Din əz-Zəhəbi, Mizan əl-itidal, c.3, s.663*
[66] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.9, s.457-461, İbn Həcər əl-Əsqəlani, Təhzib ət-təhzib, c.9, s.325, r.606*

*Xəsamiyyə idi. Aun bin Cəfər və qardaşı Muhəmməd bin Cəfər Tustər döyüşündə şəhid oldular və özlərindən sonra bir övlad buraxmadılar.»*[67]

İbn Həcər əl-Əsqəlani də Aun bin Cəfər haqqında bunları yazır:

استشهد عون بن جعفر في تستر وذلك في خلافة عمر وما له عقب.

*«Aun bin Cəfər Ömərin xilafəti zamanında baş vermiş Tustər döyüşündə şəhid oldu. Onun heç bir övladı yox idi.»*[68]

Deməli, Aun bin Cəfərin Tustərdə şəhid olması İbn Əbd əl-Birr və İbn Həcər əl-Əsqəlaninin fikirləri ilə isbatını tapdı. Qardaşı Muhəmməd bin Cəfərin haqqında isə ixtilaf olmasına baxmayaraq, bu mövzunun mütəxəssislərinin fikirlərini daha üstün hesab edərək, onun da Tustərdə şəhid olması qənaətinə gəldik.

**Belə bir sual yaranır:**

**Əgər Muhəmməd və Aun Ömərin zamanında Tustərdə şəhid olmuşdusa, Ömərin ölümündən sonra Ümmü Gülsüm ilə necə evləndilər?**

Digər tərəfdən isə Ümmü Gülsümün xanım Zeynəbin əri Abdullah bin Cəfər ilə evlənməsi qətiyyən mümkün deyildir. Birincisi, o zaman belə çıxır ki, Abdullah bin Cəfər Quran ayəsinə zidd olaraq, eyni zamanda iki bacı ilə evli olmuşdur. Çünki deyilənlərin əksinə olaraq, xanım Zeynəb Kərbəla vaqiəsindən sonra da Abdullah bin Cəfərin zövcəsi olaraq yaşamışdır, ona görə də «*Zeynəbin ölümündən sonra Abdullah Ümmü Gülsümlə evləndi*» sözləri reallığı əks etdirmir. İkincisi, əhli-sünnənin mənbələrində Ümmü Gülsüm kimi tanınan qadın İmam Həsənin (ə) dövründə Mədinədə vəfat etmişdir. Bu barədə aidiyyəti mənbələri əvvəlki səhifələrdə qeyd etmişdik.

Bəzi alimlər isə bəlkə də Ümmü Gülsümün yaşadığı evliliklərdə təzadları gördükləri üçün Aun və Muhəmmədi aradan çıxarıb, onun Ömər bin əl-Xəttabdan sonra təkcə Abdullah bin Cəfər ilə evləndiyini yazırlar:

ثم هلك عمر عن أم كلثوم فتزوجها عبد الله بن جعفر فلم تلد منه.

*«Ömər öldükdən sonra Ümmü Gülsüm Abdullah bin Cəfər ilə evləndi. Lakin övlad sahibi olmadı.»*[69]

---

[67] *İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.3, s.315*

[68] *İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.4, s.744*

[69] *əz-Zubeyr bin Bəkkar, Muntəxəb min kitab əzvac ən-Nəbi, c.1, s.31*

Əvvəldə də qeyd etdiyimiz kimi, əhli-sünnə və şiə mənbələrinə əsasən xanım Zeynəb atası İmam Əlinin (ə) zamanında Abdullah bin Cəfər ilə evlənmiş və ömrünün sonuna qədər də onun zövcəsi olmuşdur. Odur ki, bu mənbələrin də nəql etdikləri rəvayət və fikirlər təzad yaratdığı üçün etibar edilmir.

**Ümmü Gülsüm evlənərkən neçə yaşı var idi?**

Ümmü Gülsümün Ömər bin əl-Xəttab ilə neçə yaşında evlənməsi barədə də əhli-sünnə arasında müxtəlif fikirlər səslənmişdir. Bir qism alimlər Ümmü Gülsümün çox kiçik yaşda olduğunu və kişidə şəhvət oyandırmadığı üçün Ömərin onu öpməsi, qucaqlaması və hətta baldırını soyundurmasının haram olmadığını iddia etmişlər. İbn Həcər əl-Heysəmi yazır:

وتقبيله وضمه لها على جهة الإكرام لأنها لصغرها لم تبلغ حدا تشتهى حتى يحرم ذلك....

*«Ömər bin əl-Xəttabın Ümmü Gülsümü (nigahdan əvvəl) öpüb-qucaqlaması hörmət mənasında olub. Ümmü Gülsüm az yaşlı idi və təklif həddinə çatmamışdı ki, öpülməsi və qucaqlanması onun üçün haram olsun.»*[70]

Əbd ər-Rəzzaq əs-Sənani yazır:

تزوج عمر بن الخطاب أم كلثوم بنت علي بن أبي طالب وهي جارية تلعب مع الجواري....

*«Ömər bin əl-Xəttab Əli bin Əbi Talibin qızı Ümmü Gülsüm ilə evlənəndə o, kənzilərlə oynayırdı.»*[71]

İbn Səd əz-Zuhri yazır:

تزوجها عمر بن الخطاب وهي جارية لم تبلغ.

*«Ömər bin əl-Xəttab Ümmü Gülsüm ilə evlənəndə o hələ yetkinlik yaşına çatmamışdı.»*[72]

Başqa bir rəvayətdə yazır:

لما خطب عمر بن الخطاب إلى علي ابنته أم كلثوم قال يا أمير المؤمنين إنها صبية.

*«Ömər bin əl-Xəttab Əlinin qızı Ümmü Gülsüm üçün elçilik edəndə, o buyurdu: «Ey əmir əl-möminin, o hələ uşaqdır.»*[73]

İbn Əsakir[74] və İbn əl-Cəuzi[75] də öz kitablarında eyni mətləbi nəql ediblər.

[70] *İbn Həcər əl-Heysəmi, əs-Səvaiq əl-muhriqə, c.2, s.457*

[71] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.6, s.164*

[72] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.463*

[73] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.464*

[74] *İbn Əsakir, Tarix mədinəti Diməşq, c.19, s.485*

əl-Bəlazuri, İbn Əbd əl-Birr, əz-Zəməxşəri və s. alimlər Ömər ilə evlənəndə Ümmü Gülsümün «səğirə» (az yaşlı qız uşağı) olduğunu deyiblər:

خطب عمر بن الخطاب أم كلثوم بنت علي – رضي الله تعالى عنهم – فقال: إنها صغيرة.

*«Ömər bin əl-Xəttab (r.a) Əlinin qızı Ümmü Gülsümü istəyəndə, o buyurdu: «O hələ uşaqdır.»[76]*

İbn əl-Cəuzi deyir:

وفي هذه السنة (17هـ) تزوج عمر رضي الله عنه أم كلثوم بنت علي رضي الله عنه... فزوجها إياه ولم تكن قد بلغت فدخل بها في ذي القعدة ثم ولدت له زيدا.

*«Ömər (r.a) Əlinin (r.a) qızı Ümmü Gülsümlə hicrətin on yeddinci ilində evləndi... bu nigah baş tutanda o hələ yetkinlik yaşına çatmamışdı. Ömər onunla ilk dəfə Zilqədə ayında yaxınlıq etdi və ondan Zeyd adlı oğlu dünyaya gəldi.»[77]*

Lakin təzadlar ilə baş döndərən bu rəvayətdə İbn Həcər əl-Əsqəlani kimi bəzi əhli-sünnə alimləri Ümmü Gülsümün Ömərdən uşağı olduğunu da isbat etmək üçün yaşının azlığının hamilə olmasına imkan vermədiyini gördükdə onun on yaşında olduğunu bildirmişlər:

أم كلثوم بنت علي بن أبي طالب الهاشمية أمها فاطمة بنت رسول الله صلى الله عليه وسلم ولدت في أواخر عهد النبي صلى الله عليه وسلم وتزوجها عمر بن الخطاب ولها عشر سنين أو أكثر فولدت له زيدا وماتت هي وابنها زيد في يوم واحد

*«Əli bin Əbi Talib əl-Haşiminin (ə) qızı Ümmü Gülsüm Allah Rəsulunun (s) ömrünün son illərində Fatimə bint Rəsulullahdan (ə) dünyaya gəlmişdir. Ömər bin əl-Xəttab da onunla evləndi. O zaman qızın yaşı 10, yaxud daha çox idi. O, Ömər üçün Zeydi dünyaya gətirdi. Sonra oğlu Zeyd ilə bir gündə vəfat etdi.»[78]*

əz-Zəhəbi Ümmü Gülsümün hicrətin 6-cı ilində dünyaya gəldiyini yazmışdır:

أم كلثوم بنت علي بن أبي طالب بن عبد المطلب بن هاشم الهاشمية شقيقة الحسن والحسين ولدت في حدود سنة ست من الهجرة ورأت النبي صلى الله عليه وسلم ولم ترو عنه شيئا. خطبها عمر بن الخطاب وهي صغيرة.

*«Ümmü Gülsüm bint Əli bin Əbi Talib bin Əbd əl-Mutəllib bin Haşim əl-Haşimiyyə, Həsən (ə) və Hüseynin (ə) bacısı hicrətin 6-cı ilində doğulmuşdur. O,*

---

[75] *İbn əl-Cəuzi, əl-Muntəzəm, c.4, s.237*
[76] *Əhməd əl-Bəlazuri, Ənsab əl-əşraf, c.1, s.296; İbn Əbd əl-Birr, əl-İstiab, c.4, s.1954; əz-Zəməxşəri, Rəbi əl-əbrar, c.5, s.261*
[77] *İbn əl-Cəuzi, əl-Muntəzəm, c.4, s.237*
[78] *İbn Həcər əl-Əsqəlani, əl-İsar bi-mərifət ruvat əl-əsar, c.1, s.211 və s. 328*

*Allah Rəsulunu (s) görüb, lakin ondan rəvayət nəql etməmişdir. Az yaşlı uşaq olarkən Ömər bin əl-Xəttab onun üçün elçilik etdi.»*[79]

Əgər bu evlilik əhli-sünnənin dediyi kimi hicrətin 17-ci ilində olmuşdursa, o zaman Ümmü Gülsümün 11 yaşı var idi.

Həmçinin əz-Zəhəbi digər bir kitabında yazır ki, Ümmü Gülsüm Allah Rəsulunu (s) görmüşdür və Ömər ilə evlənəndə az yaşlı idi:

أم كلثوم بنت علي بن أبي طالب الهاشمية. ولدت في حياة جدها صلى الله عليه وسلم، وتزوجها عمر وهي صغيرة.

*«Ümmü Gülsüm bint Əli bin Əbi Talib əl-Haşimiyyə babasının (s) sağlığında dünyaya gəldi və o az yaşılı olarkən Ömərlə ailə qurdu.»*[80]

Göründüyü kimi, əhli-sünnə mənbələrində Ümmü Gülsümün ərə getdiyi vaxt neçə yaşında olması barədə müxtəlif fikirlər var. Bu müxtəlif fikirlər 7 ilə 11 yaş arasında dəyişir.

## Ömər Ümmü Gülsüm üçün nə qədər mehriyyə vermişdi?

Ümmü Gülsümün mehriyyəsinin miqdarı haqqında əhli-sünnənin rəyləri digər təzadlar kimi bir-birilə uyğun gəlmir. Bəzilərinin 10.000 dediyi mehriyyəyə digərləri 40.000 dinar demişdir. əl-Yəqubi özünün «ət-Tarix» kitabında yazır:

فتزوجها وأمهرها عشرة آلاف دينار.

*«Ömər onunla evlənəndə onun üçün 10.000 dinar mehriyyə təyin etdi.»*[81]

Əbd əl-Həy əl-Kəttani yazır:

لما تزوج زينب بنت علي فانه أصدقها اربعين الف دينار.

*«Ömər Əlinin qızı Zeynəb ilə evləndikdə ona 40.000 dinar mehriyyə verdi.»*[82]

Bəziləri isə bu rəqəmi 40 000 dirhəm olaraq yazmışlar:

أن عمر تزوج أم كلثوم على أربعين ألف درهم

*«Ömər Əlinin qızı Ümmü Gülsüm ilə 40.000 dirhəm qarşılığında evləndi.»*[83]

---

[79] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.3, s.500*

[80] *Şəms əd-Din əz-Zəhəbi, Tarix əl-İslam, c.4, s.137*

[81] *Əhməd əl-Yəqubi, Tarix əl-Yəqubi, c.2, s.150*

[82] *Əbd əl-Həy əl-Kəttani, Nizam əl-hukumət, c.2, s.405*

[83] *İbn Əbi Şeybə, əl-Musənnəf, c.3, s.494; Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.463; İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.4, s.1955; İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.8, s.293*

Mehriyyənin miqdarında təzadların yaranmasından əlavə, Ümmü Gülsüm üçün həddən artıq yüksək mehriyyə təyin olması da ayrı bir problemdir. Çünki əhli-sünnənin kitablarında yer alan və öz şərtlərinə əsasən səhih hesab olunan rəvayətlərə görə, xəlifə Ömər özü digərlərinin yüksək miqdarda mehriyyə verməsinin qarşısını alırdı:

İbn Macə əl-Qəzvini «Sünən»-də yazır:

حدثنا أبو بَكْرِ بن أبي شَيْبَةَ ثنا يَزِيدُ بن هَارُونَ عن بن عَوْنٍ ح وحدثنا نَصْرُ بن عَلِيٍّ الْجَهْضَمِيُّ ثنا يَزِيدُ بن زُرَيْعٍ ثنا بن عَوْنٍ عن مُحَمَّدِ بن سِيرِينَ عن أبي الْعَجْفَاءِ السُّلَمِيِّ قال قال عُمَرُ بن الْخَطَّابِ لَا تُغَالُوا صَدَاقَ النِّسَاءِ فَإِنَّهَا لو كانت مَكْرُمَةً في الدُّنْيَا أو تَقْوَى عِنْدَ اللَّهِ كان أَوْلَاكُمْ وَأَحَقَّكُمْ بها مُحَمَّدٌ صلى الله عليه وسلم ما أَصْدَقَ امْرَأَةً من نِسَائِهِ ولا أُصْدِقَتْ امْرَأَةٌ من بَنَاتِهِ أَكْثَرَ من اثْنَتَيْ عَشْرَةَ أُوقِيَّةً وَإِنَّ الرَّجُلَ لَيُثَقِّلُ صَدَقَةَ امْرَأَتِهِ حتى يَكُونَ لها عَدَاوَةٌ في نَفْسِهِ وَيَقُولُ قد كَلِفْتُ إِلَيْكِ عَلَقَ الْقِرْبَةِ أو عَرَقَ الْقِرْبَةِ وَكُنْتُ رَجُلًا عَرَبِيًّا مَوْلِدًا ما أَدْرِي ما عَلَقُ الْقِرْبَةِ أو عَرَقُ الْقِرْبَةِ.

*Bizə Əbu Bəkr bin Əbi Şeybə rəvayət etdi (və dedi): Yezid bin Harun bizə İbn Aundan (birinci sənəd burda bitir)... Bizə Nəsr bin Əli əl-Cəhzəmi rəvayət etdi (və dedi): bizə Yəzid bin Zurəyh rəvayət etdi (və dedi): İbn Aun bizə Muhəmməd bin Sirindən, o da Əbi əl-Əcfa əs-Suləmidən belə dediyini rəvayət etdi: Ömər bin əl-Xəttab dedi: «Qadınların mehriyyəsində ifrata varmayın, çünki əgər mehriyyənin yüksək olması dünya həyatında tərifl ənəcək bir şey, və ya Allah qatında bir təqva hesab edilsəydi, bu işi etmək üçün ən layiqli şəxs Muhəmməd (s.ə.s) idi. O, zövcələri və qızları üçün 12 uqiyyədən çox mehriyyə təyin etmədi. Şübhəsiz ki, kişi qadına yüksək miqdarda mehriyyə versə, ürəyində (zövcəsinə qarşı) bir düşmənlik yaranar və deyər: «Mən sənin üçün «ələq əl-qirba», və ya «ərəq əl-qirba»ya çatana qədər hər şeyin çətininə girişdim. (Əbu əl-Əcfa dedi:) Mən doğuşdan ərəb olsam da «ələq əl-qirba», və ya «ərəq əl-qirba»nın nə olduğunu başa düşmədim.»*[84]

Nasir əd-Din əl-Albani bu rəvayəti «Səhih İbn Macə» kitabında (1532-ci hədis) səhih hesab etmişdir.

Əbu Davud «Sünən»-də yazır:

حدثنا محمد بن عُبَيْدٍ ثنا حَمَّادُ بن زَيْدٍ عن أَيُّوبَ عن مُحَمَّدٍ عن أبي الْعَجْفَاءِ السُّلَمِيِّ قال خَطَبَنَا عُمَرُ رَحِمَهُ الله فقال ألا لَا تُغَالُوا بِصُدُقِ النِّسَاءِ فَإِنَّهَا لو كانت مَكْرُمَةً في الدُّنْيَا أو تَقْوَى عِنْدَ اللَّهِ لَكَانَ أَوْلَاكُمْ بها النبي

[84] *İbn Macə, Sünən, c.1, s.607, h.1887*

صلى الله عليه وسلم ما أَصْدَقَ رسول اللَّهِ صلى الله عليه وسلم امْرَأَةً من نِسَائِهِ ولا أُصْدِقَتْ امْرَأَةٌ من بَنَاتِهِ أَكْثَرَ من ثِنْتَيْ عَشْرَةَ أُوقِيَّةً

*Bizə Muhəmməd bin Ubeyd rəvayət etdi (və dedi): Həmmad bin Zəyd bizə Əyundan, o da Muhəmməddən, o da Əbi əl-Əcfa əs-Suləmidən belə dediyini rəvayət etdi: Ömər bin əl-Xəttab xütbəsində dedi: «Qadınların mehriyyəsində ifrata varmayın, çünki əgər mehriyyənin yüksək olması dünya həyatında təriflənəcək bir şey, və ya Allah qatında bir təqva hesab edilsəydi, bu işi etmək üçün ən layiqli şəxs Peyğəmbər (s.ə.s) idi. O, zövcələri və qızları üçün 12 uqiyyədən çox mehriyyə təyin etmədi.»*[85]

Nasir əd-Din əl-Albani bu rəvayəti «Səhih Sünən Əbu Davud» kitabında (1852-ci hədis) səhih hesab etmişdir.

ət-Tirmizi də eyni rəvayəti nəql etmiş və mötəbər olduğunu bildirmişdir:

حدثنا بن أبي عُمَرَ حدثنا سُفْيَانُ بن عُيَيْنَةَ عن أَيُّوبَ عن بن سِيرِينَ عن أبي الْعَجْفَاءِ السُّلَمِيِّ قال قال عُمَرُ بن الْخَطَّابِ ألا لَا تُغَالُوا صَدُقَةَ النِّسَاءِ فَإِنَّهَا لو كانت مَكْرُمَةً في الدُّنْيَا أو تَقْوَى عِنْدَ اللَّهِ لَكَانَ أَوْلَاكُمْ بها نَبِيُّ اللَّهِ صلى الله عليه وسلم ما عَلِمْتُ رَسُولَ اللَّهِ صلى الله عليه وسلم نَكَحَ شيئا من نِسَائِهِ ولا أَنْكَحَ شيئا من بَنَاتِهِ على أَكْثَرَ من ثِنْتَيْ عَشْرَةَ أُوقِيَّةً.

قال أبو عِيسَى هذا حَدِيثٌ حَسَنٌ صَحِيحٌ وأبو الْعَجْفَاءِ السُّلَمِيُّ اسْمُهُ هَرِمٌ وَالْأُوقِيَّةُ عِنْدَ أَهْلِ الْعِلْمِ أَرْبَعُونَ دِرْهَمًا وَثِنْتَا عَشْرَةَ أُوقِيَّةً أربعمائة وَثَمَانُونَ دِرْهَمًا

*Bizə İbn Əbi Ömər rəvayət etdi (və dedi): Sufyan bin Uyəynə bizə Ayundan, o da Əbi əl-Əcfa əs-Suləmidən belə dediyini rəvayət etdi: Ömər bin əl-Xəttab dedi: «Qadınların mehriyyəsində ifrata varmayın, çünki əgər mehriyyənin yüksək olması dünya həyatında təriflənəcək bir şey, və ya Allah qatında bir təqva hesab edilsəydi, bu işi etmək üçün ən layiqli şəxs Peyğəmbər (s) idi. O, zövcələri və qızları üçün 12 uqiyyədən çox mehriyyə təyin etmədi.»*

*Əbu İsa dedi: Bu hədis həsən səhihdir. Əbu əl-Əcfa əs-Suləminin adı Hərimdir. Elm əhlinə görə, 1 uqiyyə 40 dirhəmdir, 12 uqiyyə isə 480 dirhəm edir.»*[86]

Cəlal əd-Din əs-Suyuti «əl-Cami əl-əhadis»-də yazır:

---

[85] *Əbu Davud əs-Sicistani, Sünən, c.2, s.235, h.2106*

[86] *Əbu İsa ət-Tirmizi, əl-Cami əs-səhih, c.3, s.422, h.1114*

عن مسروقٍ قَالَ: رَكِبَ عُمَرُ بنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ المِنْبَرَ ثُمَّ قَالَ: أَيُّهَا النَّاسُ مَا إِكْثَارُكُمْ في صِدَاقِ النسَاءِ وَقَدْ كَانَ رَسُولُ اللَّهِ وَأَصْحَابُهُ وَإِنَّمَا الصداقُ فِيمَا بَيْنَهُمْ أَرْبَعُمَائَةُ دِرْهَمٍ فَمَا دُونَ ذالِكَ، فَلَوْ كَانَ الإِكْثَارُ في ذالِكَ تَقْوَى عِنْدَ اللَّهِ أَوْ مَكْرُمَةً لَمْ تَسْبِقُوهُمْ إِلَيْهَا ) ( ص، ع.)

*Məsruqdan rəvayət olunub ki, Ömər bin əl-Xəttab (r.a) minbərdən dedi: «Ay camaat sizə nə olub ki, qadınlarınızın mehriyyəsini yüksək tutursuz? Axı Allah Rəsulu (s) və səhabələri dörd yüz dirhəm və ondan aşağı miqdarda təyin edirdilər. Əgər mehriyyənin yüksək olması Allah qatında təqva hesab edilsəydi, və ya şərəfli bir şey olsaydı, yəqin ki, onlar sizdən qabaq (sizin kimi) edərdilər.»*[87]

Odur ki, Ümmü Gülsümün mehriyyəsi ilk növbədə Allah Rəsulunun (s) sünnəsinə müxalif miqdarda təyin edilib. Çünki rəvayətlərdən də göründüyü kimi, Allah Rəsulu (s) zövcələrinin və qızlarının mehriyyəsini yüksək məbləğdə təyin etməmişdir.

İkincisi, bu məbləğdə mehriyyə Ömər bin əl-Xəttabın özünün sirə və sünnəsinə ziddir. Çünki Ömər özü mehriyyənin yüksək miqdarda təyin edilməsindən ötrü xalqı qınamış və Allah Rəsulunu (s) nümunə göstərmişdir.

Əgər əhli-sünnə alimləri bütün bunlardan sonra yenə də Ömər bin əl-Xəttab və Ümmü Gülsüm bint Əli bin Əbi Taliblə evlənməsinə inanırlarsa, Ömər bin əl-Xəttabı Allah-Təalanın bu kəlamı ilə qınaq obyektinə çevirmiş olurlar:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ , كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ.

*«Ey iman gətirənlər, etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi deməyiniz Allahın yanında çox böyük nifrətlə qarşılanır.»*[88]

## Ömərin Ümmü Gülsümdən övladı olubmu?

Bu evlilikdə sual yaradan mövzulardan biri də Ümmü Gülsümün övladlarının olub-olmamasıdır. Bəziləri Ümmü Gülsümün övladının olmadığını yazarkən, digərləri Zeyd adlı bir oğlunun olduğunu yazmış, bəziləri Ruqəyyəni də əlavə edərək iki övladının olduğunu iddia etmişlər. Hətta Fatimə adlı üçüncü övladının olduğunu yazanlar da var.

***a) Övladı yox idi:***

Əli əl-Məsudi əş-Şafei Ömər bin əl-Xəttabın övladları haqqında yazır:

---

[87] *Cəlal əd-Din əs-Suyuti, Cami əl-əhadis, c.14, s.271, h.3318*

[88] *əs-Saff surəsi, 2 və 3-cü ayələr*

أولاد عمر. وكان له من الولد: عبد اللّه، وحفصة زوج النبي صلى الله عليه وسلم، وعاصم، وعبيد اللّه، وزيد، من أُمٍ، وعبد الرحمن، وفاطمة، وبنات آخر، وعبد الرحمن الأصغر – وهو المحدود في الشراب، وهو المعروف بأبي شحمة – من ام.

*«Ömərin övladları: Buraya daxildir: Abdullah, Allah Rəsulunun (s) zövcəsi Həfsə, Asim, Ubeydullah və Zeyd – bunlar eyni bir anadan, Əbd ər-Rəhman, Fatimə və başqa qızları, Əbi Şəhmə adı ilə tanınmış Əbd ər-Rəhman əl-Əsğər (şərab içdiyi üçün hədd cəzası almışdı) – bunlar da digər bir eyni anadandırlar.»*[89]

Bu nöqteyi-nəzərdən ikinci xəlifənin Zeyd adlı bir övladı olub və o, Asim və Ubeydullahın qardaşı idi. Onların da anası Cərulun qızı Ümmü Gülsüm olub. İmam Əlinin (ə) qızı Ümmü Gülsümdən övladı olması haqqında isə burada heç bir söz deyilmir.

***b) Bir övladı olub:***

Əhli-sünnənin bir çox alimləri isə ancaq bir övladının olduğunu yazırlar. Əbu Bəkr əl-Beyhəqi «Sunən əl-kubra»-da yazır:

وأما أم كلثوم فتزوجها عمر بن الخطاب رضي الله عنه فولدت له زيد بن عمر ضرب ليالي قتال بن مطيع ضربا لم يزل ينهم له حتى توفي ثم خلف على أم كلثوم بعد عمر عون بن جعفر فلم تلد له شيئا حتى مات.

*«Ümmü Gülsüm Ömər bin əl-Xəttab (r.a) ilə evləndi və Zeyd bin Ömər adlı oğlu oldu. (Zeyd) İbn Muti qarşıdurmasının gecəsi bir zərbə aldı və ölənə qədər o zərbənin əziyyətini çəkdi. Ümmü Gülsüm Ömərdən sonra Aun bin Cəfər ilə evləndi, lakin ondan övlad sahibi olmadan vəfat etdi.»*[90]

ən-Nuvəyri yazır:

وتزوج أم كلثوم عمر بن الخطاب فولدت له زيد بن عمر، ثم خلف عليها بعده عون بن جعفر فلم تلد له حتى مات.

*«Ümmü Gülsüm Ömər bin əl-Xəttab ilə evləndi və onun Zeyd bin Ömər adlı övladı oldu. Ömərdən sonra Aun bin Cəfər ilə evləndi, lakin ondan övlad sahibi olmadan vəfat etdi.»*[91]

Səlah əd-Din əs-Səfədi yazır:

وأم كلثوم تزوجها عمر بن الخطاب رضي الله عنه فولدت له زيدا.

---

[89] *Əli əl-Məsudi, Muruc əz-zəhəb, c.2, s.253*
[90] *Əbu Bəkr əl-Beyhəqi, Sünən əl-kubra, c.7, s.70*
[91] *Şihab əd-Din ən-Nuvəyri, Nihayət əl-ərəb, c.18, s.142*

*«Ümmü Gülsüm Ömər bin əl-Xəttab (r.a) ilə evləndi və onun Zeyd adlı övladı oldu.»*[92]

İbn Kəsir əd-Diməşqi yazır:

وأما أم كلثوم فتزوجها أمير المؤمنين عمر بن الخطاب فولدت له زيدا ومات عنها فتزوجت بعده ببني عمها جعفر واحدا بعد واحد....

*«Ümmü Gülsüm Əmir əl-möminin Ömər bin əl-Xəttab ilə evləndi və onun Zeyd adlı övladı oldu. Ömər öldükdən sonra Ümmü Gülsüm əmisi Cəfərin oğlanları ilə bir-birinin ardınca evləndi...»*[93]

***c) İki övladı olub:***

Əhli-sünnə alimlərindən bir qrupu da onların iki övladı olduğunu yazırlar.

وزيد الأكبر لا بقية له ورقية وأمهما أم كلثوم بنت علي بن أبي طالب بن عبد المطلب بن هاشم وأمها فاطمة بنت رسول الله.

*«Və Zeyd əl-Əkbər: onun övladı yox idi; və Ruqəyyə: Bunların anası Allah Rəsulunun (s) qızı Fatimə ilə Əli bin Əbi Talib bin Əbd əl-Muttəlib bin Haşimin övladı olan Ümmü Gülsümdür.»*[94]

***d) Üç övladı olub:***

əl-Bəlazuri «Ənsab əl-əşraf»-da Ümmü Gülsümün Ömərdən olan qızlarının iki nəfər olduğunu qeyd edib. Onun yazdığına görə, Ümmü Gülsümün Zeyd ilə birlikdə üç övladı olub:

عبد الرحمن بن زيد بن الخطاب: كانت تحته فاطمة بنت عمر، وأمها أم كلثوم، بنت علي بن أبي طالب، وجدتها فاطمة بنت رسول الله صلى الله عليه وسلم، وأخوها لأبيها وأمها زيد بن عمر بن الخطاب، فولدت لعبد الرحمن: عبدَ الله وابنةً. وإبراهيم بن نعيم النحام بن عبد الله بن أسيد بن عبد بن عوف بن عبيد بن عويج بن عدي بن كعب، كانت عنده رقية بنت عمر، أخت حفصة لأبيها، وأمها: أم كلثوم بنت علي.

*«Əbd ər-Rəhman bin Zeyd bin əl-Xəttab: Onun zövcəsi Ömərin qızı Fatimədir. Anası Əli bin Əbi Talibin qızı Ümmü Gülsümdür. Nənəsi Allah Rəsulunun (s) qızı Fatimədir. Ata və ana bir qardaşı Zeyd bin Ömərdir. Onun Əbd ər-Rəhmandan Abdullah adlı bir oğlu və iki qızı var idi.*

[92] *Səlah əd-Din əs-Səfədi, əl-Vafi bi əl-vəfəyat, c.1, s.79*

[93] *İbn Kəsir əd-Diməşqi, əl-Bidayə və ən-nihayə, c.5, s.293*

[94] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.3, s.265; əl-Musəb əz-Zubəyri, Nəsəb Qurəyş, c.10, s.349; İbn Hibban, əs-Siqat, c.2, s.144; Əbu Cəfər ət-Təbəri, Tarix ər-rusul və əl-muluk və əl-xulafa, c.2, s.564; İbn əl-Əsir, əl-Kamil fi ət-tarix, c.2, s.450*

*İbrahim bin Nuəym bin Abdullah bin Usəyd bin Əbd bin Auf bin Ubəyd bin Uvəyc bin Ədiy bin Kəb: O, Ömərin qızı Ruqəyyənin əri idi. Ata bir bacısı Həfsə və anası Əli bin Əbi Talibin qızı Ümmü Gülsümdür.»*[95]

## Zeyd Ömərin övladıdır, yoxsa qardaşı?

İbn Əsakirin nəql etdiyi bir rəvayət isə daha bir çaşqınlığa səbəb olur. Bu rəvayətə əsasən Ümmü Gülsüm Ömər bin əl-Xəttabın deyil, atası əl-Xəttabın arvadı olub. Bu rəvayətdə Zeyd Ömərin oğlu yox, qardaşı kimi göstərilib:

وحدثني عمر بن أبي بكر المؤملي حدثني سعيد بن عبد الكبير عن عبد الحميد بن عبد الرحمن بن زيد بن الخطاب وأمه أم كلثوم بنت علي بن أبي طالب ...

*«Mənə Ömər bin Əbu Bəkr əl-Muaməli rəvayət etdi (və dedi): Səid bin Əbd əl-Kəbir mənə Əbd əl-Həmid bin Əbd ər-Rəhman bin Zeyd bin əl-Xəttabdan, hansı ki, anası Əli bin Əbi Talibin qızı Ümmü Gülsüm idi....»*[96]

## Zeyd əl-Əsğər Zeyd əl-Əkbərdən böyük idi?

Bundan başqa xüsusi bir nöqtəyə işarə etmək istəyirik ki, bu barədə əhli-sünnə alimlərinin rəyi çox maraqlıdır.

Belə ki, əhli-sünnə alimləri Ömər bin əl-Xəttabın Zeyd adlı iki övladı olduğunu nəql ediblər. Onlardan birinin anası Cərul əl-Xuzainin qızı Ümmü Gülsüm, digərinin anası isə Əli bin Əbi Talibin (ə) qızı Ümmü Gülsümdür. Cərulun qızı Ümmü Gülsüm ilə Ömər cahiliyyət dövründə evlənmişdi. İslamı qəbul etdikdən sonra ondan ayrıldı və başqa biri ilə evləndi:

وأمُّ عبيد الله أم كلثوم: واسمها مليكة بنت جرول الخزاعية، وكانت على شركها حين نزلت «ولا تمسكوا بعصم الكوافر» فطلقها عمر فتزوجها أبو فهم بن حذيفة صاحب الخميصة

*«Ubeydullahın anası Ümmü Gülsüm: Adı Məleykə bint Cərul əl-Xuzai idi. «Kafir qadınları öz kəbininiz altında saxlamayın» ayəsi nazil olduqda, Ömər onu boşadı. O da Əbu Fəhm bin Huzeyfə ilə evləndi.»*[97]

İbn Həcər əl-Əsqəlani yazır:

---

[95] *Əhməd əl-Bəlazuri, Ənsab əl-əşraf, c.1, s.189*

[96] *İbn Əsakir, Tarix mədinəti Diməşq, c.19, s.487*

[97] *Muhəmməd ət-Tilimsani, əl-Cəvhərət fi nəsəb ən-Nəbi və əshabihi, c.2, s.151*

زيد بن عمر بن الخطاب القرشي العدوي شقيق عبد الله بن عمر المصغر أمهما أم كلثوم بنت جرول كانت تحت عمر ففرق بينهما الإسلام لما نزلت ولاتمسكوا بعصم الكوافر فتزوجها أبو الجهم بن حذيفة وكان زوجها قبله عمر ذكر ذلك الزبير وغيره فهذا يدل على أن زيدا ولد في عهد النبي.

*«Zeyd bin Ömər bin əl-Xəttab əl-Qurəşi əl-Ədəvi – Abdullah bin Ömər əl-Əsğərin qardaşıdır, anaları isə Cərulun qızı Ümmü Gülsümdür. İslamın onları ayırmasına səbəb olan «Kafir qadınları öz kəbininiz altında saxlamayın.» ayəsi nazil olana qədər o, Ömərin zövcəsi idi. Sonra o Əbu Cəhm bin Huzeyfə ilə evləndi. Ondan qabaq Ömərin zövcəsi idi. Zubeyr və qeyriləri bu mətləbi zirk etmişlər. Bu da göstərir ki, Zeyd (əl-Əsğər) Allah Rəsulunun (s) zamanında doğulmuşdu.»*[98]

Bu rəvayətlərdən belə çıxır ki, Cərulun qızı Ümmü Gülsüm Allah Rəsulunun (s) dövründə dünyaya gətirdiyi oğlunun adını Zeyd əl-Əsğər (yəni, kiçik Zeyd) qoymuşdur. Lakin digər rəvayətlərdə Əli bin Əbi Talibin (ə) qızı Ümmü Gülsümün oğlunun adı Zeyd əl-Əkbərdir (yəni, böyük Zeyd). Bu məsələnin ortaya çıxması İmam Əlinin (ə) qızı Ümmü Gülsümün Zeyd adlı oğlu olduğu haqqında iddiaları şübhə altına salır. Böyük oğlun adını Zeyd əl-Əsğər (kiçik Zeyd) qoyarkən, kiçik oğlun adını necə Zeyd əl-Əkbər (böyük Zeyd) qoymaq olar??

Əhli-sünnə alimlərinin bu barədə təkid etmələri doğrusu təəccüb doğurur:

وزيد الأكبر ورقية وأمهم أم كلثوم بنت علي بن أبي طالب وأمها فاطمة بنت رسول الله صلى الله عليه وسلم وزيد الأصغر وعبيدالله وأمهما أم كلثوم بنت جرول. وفرق الإسلام بين عمر وبين أم كلثوم بنت جرول

*«Zeyd əl-Əkbər ilə Ruqəyyənin anası Əli bin Əbi Talibin qızı Ümmü Gülsümdür. Onun anası Allah Rəsulunun (s) qızı Fatimədir. Zeyd əl-Əsğər ilə Ubeydullahın anası Cərulun qızı Ümmü Gülsümdür. Ömərlə Ümmü Gülsüm bint Cərulun ayrılmasına səbəb İslam dini oldu.»*[99]

Əlbəttə, əhli-sünnə alimləri Ömərin Ümmü Gülsüm adlı digər zövcəsi haqqında da rəvayətlər nəql etmişlər. Əbd əl-Məlik əl-İsami əl-Məkki Ömərin zövcələrinin sayı haqqında yazır:

والرابع عاصم أمه أم كلثوم جميلة بنت عاصم بن ثابت بن أبى الأفلح حمى الدبر.

[98] *İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.2, s.628, r.2961*
[99] *İbn əl-Cəuzi, əl-Muntəzəm fi tarix əl-muluk və əl-umam, c.4, s.131*

*«Asim (Ömərin) dördüncü oğludur. Onun anası Ümmü Gülsüm Cəmilə bint Asim bin Sabit bin Əbi Əfləhdir.»*[100]

Əhli-sünnə alimlərinin qeydləri əsasında Ömər bin əl-Xəttabın zövcələrindən dördünün adının Ümmü Gülsüm olduğu meydana çıxır:

a. Cərulun qızı Ümmü Gülsüm;
b. Əbu Bəkrin qızı Ümmü Gülsüm;
c. Asim bin Sabitin qızı Ümmü Gülsüm;
d. Əli bin Əbi Talibin (ə) qızı Ümmü Gülsüm.

## Ömər qızı Rüqəyyəni İbrahim bin Nəim ilə evləndirib?

İmam Əlinin (ə) Ümmü Gülsüm adlı qızı ilə Ömər bin əl-Xəttabın evləndiyi haqqında nəql olunan rəvayətlərin saxta olmasını üzə çıxaran mövzulardan biri də həmin qadından doğulan qızı Ruqəyyənin İbrahim bin Nəim adlı biri ilə evlənməsidir.

İbn Quteybə əd-Dinəvəri yazır:

ويقال إن اسم بنت أم كلثوم من عمر رقية وأن عمر زوجها إبراهيم بن نعيم النحام فماتت عنده ولم تترك ولدا.

*«Ümmü Gülsümün Ömərdən olan qızının adının Ruqəyyə olduğu deyilmişdir. Ömər onu İbrahim bin Nəim ən-Niham ilə evləndirdi. O da İbrahimin yanında vəfat etdi və övlad sahibi olmadı.»*[101]

İbn Əsir əl-Cəziri deyir:

وقد ذكر الزبير بن أبي بكر أن عمر بن الخطاب زوج ابنته رقية من إبراهيم بن نعيم بن عبد الله النحام

*«Zubeyr bin Əbi Bəkr deyib ki, Ömər bin əl-Xəttab öz qızını İbrahim bin Nəim bin Abdullah ən-Niham ilə evləndirdi.»*[102]

İbn Həcər əl-Əsqəlani bu haqda yazır:

وقال الزبير زوج عمر بن الخطاب إبراهيم هذا ابنته قلت وعند البلاذري أنه كانت عنده رقية بنت عمر من أم كلثوم بنت علي.

*«əz-Zubeyr deyib ki, Ömər bin əl-Xəttab öz qızını İbrahim ilə evləndirdi. Həmçinin əl-Bəlazuri deyib ki, Ömərin qızı Ruqəyyəni Ümmü Gülsüm bint Əli dünyaya gətirmişdi.»*[103]

---

[100] *Əbd əl-Məlik əl-İsami, Səmt ən-nucum, c.2, s.508*
[101] *İbn Quteybə, əl-Məarif, c.1, s.185*
[102] *İbn əl-Əsir, Usd əl-ğabə fi marifət əs-səhabə, c.1, s.71*

Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi, əhli-sünnə alimlərinin iddialarına görə, Ömər bin əl-Xəttab Ümmü Gülsüm ilə hicrətin 17, və yaxud 18-ci ilində evləndi və hicrətin 23-cü ilində öldü. Yəni, Ömərin Ümmü Gülsüm ilə evli olaraq yaşaması cəmi 6, və ya 7 il olmuşdur. Demək ki, Ömərin evləndiyi il övladı dünyaya gəlmişdisə, öldüyündə onun ilk övladının 5, ya da 6 yaşı olmalı idi. Bu arada unutmayaq ki, əhli-sünnənin iddiasına görə, onun ilk övladı ömrünün son illərində dünyaya gəlmişdir. O zaman ilk övladının yaşı 1, və ya 2 yaşdan çox deyil.

Biz yenə də bu iddianı nəzərə almadan hesablayaq. Yenə əhli-sünnə alimlərinin iddiasına görə, onun ilk övladı Zeyd adlı oğludur. O zaman ikinci övladı Ruqəyyənin 2, və ya 3 yaşı olub. Belə olduqda, Ömər bin əl-Xəttab iki-üç yaşında qızı kiminlə evləndirmişdir? Bu hansı məntiqə sığar?

İbn Həcər Zeydin dünyaya gəlməsi haqqında deyir:

وكان مولده في آخر حياة أبيه سنة ثلاث وعشرين.

*«(Zeydin) atası Ömərin ömrünün sonunda, hicrətin 23-cü ilində dünyaya gəlmişdir.»*[104]

İbn Həcərin nəql etdiyi bu rəvayətə qalsa, Ömərin Ümmü Gülsümdən heç Ruqəyyə adlı qızı olmayıb. Çünki ilk övladı Zeydin dünyaya gəldiyi hicrətin 23-cü ili eyni zamanda Ömərin də öldüyü vaxta təsadüf edir. Ən yaxşı halda, Ruqəyyə dünyaya gələrkən Ömər həyatda yox idi. O zaman Ruqəyyəni İbrahim adlı şəxs ilə necə evləndirə bilər?

Təəssüf hissi ilə qeyd etmək istəyirik ki, bəzi alimlər yalançı ravilərin qurbanına çevrilərək bu cür xətalara yol vermişlər. Doğrusunu Allah bilir!

## Ümmü Gülsüm və Zeydin ölüm tarixləri

Ümmü Gülsüm və Zeydin vəfat etdiyi tarix haqqında da rəvayətlər müxtəlifdir. Bəziləri İmam Həsənin (ə) zamanında, bəziləri isə Əbd əl-Məlik bin Mərvanın dövründə onun tərəfindən zəhərlənərək vəfat etdiklərini yazır.

***a. Əbd əl-Məlik bin Mərvanın dövründə (73-86-cı h.q.-də) vəfat etdilər:***

Əbd ər-Rəzzaq əs-Sənani onların Əbd əl-Məlik bin Mərvanın höküməti zamanında onun tərəfindən zəhrələnərək öldüklərini yazır. Əbd əl-Məlik bin

---

[103] *İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.1, s.178*

[104] *İbn Həcər əl-Əsqəlani, əl-İsar bi-mərifət ruvat əl-əsar, c.1, s.79*

Mərvan on üç illik hakimiyyətindən sonra hicrətin 86-cı ilində vəfat edib. Bu nəzərə görə, Ümmü Gülsüm və Zeyd ən azı hicrətin yetmiş üçüncü ilinə qədər, yəni Əbd əl-Məlikin hakimiyyətinin ilk ilinə qədər yaşayıblar.

قال عبد الرزاق وأم كلثوم من فاطمة بنت رسول الله صلى الله عليه وسلم ودخل عليها عمر وأولد منها غلاما يقال له زيد فبلغني أن عبد الملك بن مروان سمهما فماتا وصلى عليهما عبد الله بن عمر وذلك أنه قيل لعبد الملك هذا بن علي وبن عمر فخاف على ملكه فسمهما.

*«Əbd ər-Rəzzaq dedi: Allah Rəsulunun (s) qızı Fatimədən olan Ümmü Gülsüm Ömər ilə evləndi və ondan Zeyd adlı oğlu oldu. Bizə gəlib çatan xəbərə görə, Əbd əl-Məlik bin Mərvan onlara zəhər verib öldürtdü. Abdullah bin Ömər onlara namaz qıldı. Əbd əl-Məlikə deyilmişdi ki, Zeyd Əli və Ömərin oğludur. Ona görə də, o, öz hakimiyyətinə görə (Zeyddən) qorxduğu üçün zəhər verib öldürtdü.»*[105]

***b. Səid bin əl-Asın hakimiyyəti dövründə (48-54-cü h.q.-də) vəfat etdilər:***

Məşhur rəvayətlərə görə, onların hər ikisi Mədinənin o zamankı əmiri Səid bin əl-Asın hakimiyyəti dövründə, yəni hicrətin 48-54-cü illəri arasında vəfat etmişlər.

əs-Səfədi yazır:

وتوفي زيد رحمه الله شابا في حدود الخمسين للهجرة.

*«Zeyd  təqribən hicrətin 50-ci ilində cavan yaşda vəfat edib.»*[106]

İbn Həcər əl-Əsqəlani deyir:

زيد بن عمر بن الخطاب القرشي العدوي أمه أم كلثوم بنت علي بن أبي طالب مات مع أمه في يوم واحد وكان مولده في آخر حياة أبيه سنة ثلاث وعشرين ومات وهو شاب في خلافة معاوية في ولاية سعيد بن العاص على المدينة

*«Zeyd bin Ömər bin əl-Xəttab əl-Qurəşi əl-Ədəvi anası Əli bin Əbi Talibin qızı Ümmü Gülsüm ilə bir gündə vəfat etdi. Zeyd atası Ömərin ömrünün sonunda, hicrətin 23-cü ilində dünyaya gəlmişdi. O, Muaviyənin xilafəti və Səid bin əl-Asın Mədinədə valiliyi dövründə cavan yaşda vəfat etdi.»*[107]

Diqqətlə oxuyun! Əhli-sünnə alimlərinin nəql etdiyi bu iki rəvayət arasında ən az iyirmi il fərq var.

[105] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.6, s.164*
[106] *Səlah əd-Din əs-Səfədi, əl-Vafi bi əl-vəfayat, c.15, s.24*
[107] *İbn Həcər əl-Əsqəlani, əl-İsar bi-mərifət ruvat əl-əsar, c.1, s.79*

***c. Kərbəla hadisəsindən sonra vəfat etmişdir:***

İbn Təyfurun nəql etdiyi Kufədə oxunan xütbənin Ümmü Gülsüm tərəfindən olduğunu nəzərə alarsaq, onun vəfat tarixi Kərbəla hadisəsindən sonrakı tarixlərə təsadüf edir:

قالت أبدأ بحمد الله والصلاة والسلام على جدي أما بعد يا أهل الكوفة...

*O dedi: «Sözümü Allaha həmd etmək və cəddim olan Allah Rəsuluna salam və salavat göndərmək ilə başlayıram. Ey Kufə əhli!...»*[108]

## Zeyd bin Ömərin vəfat səbəbi

Ömər bin əl-Xəttabın oğlu Zeydin ölüm səbəbi haqqında da müxtəlif nəzərlər və təzadlar var. Onun xəstəlik, aldığı daş və ox zərbəsi və sair digər müxtəlif səbəblər üzündən vəfat etdiyi nəql edilib.

***a. Xəstəlik üzündən vəfat edib:***

Muhəmməd bin Həbib əl-Bəğdadi, İbn Əsakir və əs-Səfədi yazırlar:

وقد ذكر بعض أهل العلم أنه وأمه أم كلثوم بنت علي بن أبي طالب رحمة الله عليهم وكانت تحت عبد الله بن جعفر بن أبي طالب عليه مرضاً جميعاً وثقلاً ونزل بهما وأن رجالاً مشوا بينهما لينظروا أيهما يموت قبل صاحبه فيرث منه الآخر وأنهما قبضا في ساعة واحدة ولم يدر أيهما قبض قبل صاحبه فلم يتوارثا.

*«Elm əhlindən bəziləri demişdir ki, o (Zeyd) və anası Ümmü Gülsüm bint Əli bin Əbi Talib Abdullah bin Cəfərin zövcəsi olduğu müddətdə xəstələndilər və ikisi də eyni vaxtda vəfat etdilər. Bəziləri hansının daha tez öləcəyini bilmək və hansının digərindən irs aparacağını müəyyən etmək üçün onların evlərinin arasında get-gəl edirdilər. Lakin ikisi də eyni vaxta öldülər. Onlar da hansının tez öldüyünü və kimin kimdən irs apardığını bilmədilər.»*[109]

***b.* Aldığı daş zərbəsi üzündən vəfat edib:**

İbn Hibban yazır:

فأما أم كلثوم فزوجها على من عمر فولدت لعمر زيدا ورقية وأما زيد فأتاه حجر فقتله.

*«Əli Ümmü Gülsümü Ömər ilə evləndirdi. Ondan da Zeyd və Rüqəyyə dünyaya gəldi. Amma Zeyd başına vurulan daş zərbəsi ilə öldürüldü.»*[110]

---

*[108] İbn Təyfur, Baləğat ən-nisa, s.24*

*[109] Muhəmməd bin Həbib əl-Bağdadi, əl-Munəmməq fi əxbar Qurəyş, c.1, s.312; ; İbn Əsakir, Tarix mədinəti Diməşq, c.9, s.487; Səlah əd-Din əs-Səfədi, əl-Vafi bi əl-vəfayat, c.15, s.24*

*[110] İbn Hibban, əs-Siqat, c.2, s.144*

İbn Quteybə Zeydin Bəni-Uvəyc və Bəni-Rizah qəbilələri arasında baş verən müharibədə öldüyünü yazır:

وأما زيد بن عمر بن الخطاب فرمى بحجر في حرب كانت بين بني عويج وبين بني رزاح فمات ولا عقب له ويقال أنه مات هو وأم كلثوم أمه في ساعة واحدة فلم يرث واحد منهما من صاحبه...

*«Amma Zeyd bin Ömər bin əl-Xəttab Bəni-Uvəyc və Bəni-Rizah qəbilələri arasında baş verən müharibədə başına aldığı daş zərbəsi nəticəsində öldü. Onun övladı da yox idi. Həmçinin onun öz anası ilə eyni saatda vəfat etdiyi və birinin digərindən irs aparmadığı da deyilib.»*[111]

Əhli-sünnənin bəzi alimləri isə Zeydin Bəni-Ədiy qəbiləsi arasında baş verən müharibədə öldüyünü qeyd ediblər:

وتوفيت أم كلثوم وابنها زيد في وقت واحد وقد كان زيد أصيب في حرب كانت بين بني عدي ليلا كان قد خرج ليصلح بينهم فضربه رجل منهم في الظلمة فشجه وصرعه فعاش أياما ثم مات وهو وأمه في وقت واحد وصلى عليهما ابن عمر...

*«Ümmü Gülsüm və oğlu Zeyd eyni vaxtda vəfat etdilər. Zeyd gecə yarısı Bəni-Ədiy qəbiləsi arasında baş verən müharibəyə sülh yaratmaq üçün getdiyində qaranlıqda başından bir zərbə alaraq yaralandı. Zeyd o hadisədən sonra bir neçə gün yaşadı və anası ilə bir gündə vəfat etdi. Abdullah bin Ömər onlara cənazə namazı qıldı....»*[112]

***c. Aldığı ox zərbəsindən vəfat etdi:***

Bəziləri isə bu iddiada olublar:

فولدت له زيد بن عمر وهو زيد الأكبر ورقية بنت عمر وكانت وفاتها ووفاة ابنها في ساعة واحدة وكان سبب موته سهما أصابه ليلا في ثائرة وقعت بين عدي وبني حذيفة

*«Zeyd bin Ömər dünyaya gəldi, o, Zeyd əl-Əkbər deyilən həmin oğuldur. (Sonra) Ruqəyyə bint Ömər dünyaya gəldi. Onlar eyni vaxtda dünyadan köçdülər. Zeydin ölüm səbəbi Bəni-Ədiy və Bəni-Huzeyfə arasında gecə yarı baş verən müharibədə ona dəyən ox idi.»*[113]

***d. Zəhərlənmişdir:***

Muhəmməd bin İsmayıl əl-Buxarinin ustadı Əbd ər-Rəzzaq əs-Sənani yazır:

---

[111] *İbn Quteybə, əl-Məarif, c.1, s.188*

[112] *İbn Əbd əl-Birr, əl-İstiab, c.4, s.1956; İbn əl-Əsir, Usd əl-ğabə fi marifət əs-səhabə, c.7, s.425*

[113] *Əbd ər-Rəhamn əs-Suhəyli, əl-Fərazi və şərh ayət əl-vəsiyyət, c.1, s.138*

قال عبد الرزاق وأم كلثوم من فاطمة بنت رسول الله صلى الله عليه وسلم ودخل عليها عمر وأولد منها غلاما يقال له زيد فبلغني أن عبد الملك بن مروان سمهما فماتا وصلى عليهما عبد الله بن عمر وذلك أنه قيل لعبد الملك هذا بن علي وبن عمر فخاف على ملكه فسمهما.

*«Əbd ər-Rəzzaq dedi: Allah Rəsulunun (s.ə.s) qızı Fatimədən olan Ümmü Gülsüm Ömər ilə evləndi və Zeyd adlı oğlu oldu. Bizə gəlib çatan xəbərə görə, Əbd əl-Məlik bin Mərvan onlara zəhər verib öldürtdü. Abdullah bin Ömər onlara namaz qıldı. Əbd əl-Məlikə deyilmişdi ki, Zeyd Əli (ə) və Ömərin oğludur. Ona görə də, o, öz hakimiyyətinə görə Zeyddən qorxduğu üçün zəhər verib öldürtdü.»*[114]

## Zeydin övladı var idimi?

Zeyd bin Ömərin övladı olub-olmadığı haqqında da müxtəlif fikirlər var. Bəziləri onun övladının olduğunu desə də, digərləri qətiyyətlə övladının olmadığını yazıblar.

***a. Zeyd bin Ömərin övladı olmayıb:***

وزيد الأكبر لا بقية له ورقية وأمهما أم كلثوم بنت علي بن أبي طالب بن عبد المطلب بن هاشم وأمها فاطمة بنت رسول الله.

*«Özündən sonra nəsli davam etməyən Zeyd əl-Əkbərlə Ruqəyyənin anası Ümmü Gülsüm bint Əli bin Əbi Talib bin Əbd əl-Muttəlib bin Haşimdir. Onun da anası Allah Rəsulunun qızı Fatimədir.»*[115]

***b. Zeyd bin Ömərin bir neçə övladı olub:***

Hənbəli məzhəbinin fəqihi İbn Qudamə əl-Məqdisi onun övladlarının olduğu inancındadır:

وأما حديث عمار ، فالصحيح فيه أنه جعلها مما يلي القبلة ، وجعل ابنها مما يليه . كذلك رواه سعيد ، وعمار مولى بني سليم ، عن عمار مولى بني هاشم . وأخرجه كذلك أبو داود ، والنسائي ، وغيرهما ، ولفظه قال : شهدت جنازة صبي وامرأة ، فقدم الصبي مما يلي القوم ، ووضعت المرأة وراءه وفي القوم أبو سعيد الخدري ، وابن عباس ، وأبو قتادة ، وأبو هريرة ، فقلنا لهم ، فقالوا : السنة . وأما الحديث الأول فلا يصح ; فإن زيد بن عمر هو ابن أم كلثوم بنت علي ، الذي صلي عليه معها ، وكان رجلا له أولاد . كذلك قال الزبير بن بكار.

---

[114] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.6, s.164*

[115] *Əbu Zeyd ən-Numəyri, Tarix əl-Mədinə əl-Munəvvərə, c.1, s.345*

*«Əmmarın hədisinə gəlincə, doğru olan budur ki, o, qadını qibləyə tərəf uzatdı. Uşağı isə ondan sonra qoydu. Necə ki, Səid və Bəni Səlimin azad etdiyi kölə Əmmar Bəni Haşimin azad etdiyi kölə olan Əmmardan belə nəql etmişdir. Əbu Davud, ən-Nəsai və başqaları da rəvayəti belə nəql etmişlər. Onun (Əmmarın) sözü belədir: «Bir uşaq və bir qadın cənazəsinə şahid oldum. Uşaq camaatın qabağına qoyulmuşdu. Qadın da ondan sonra qoyulmuşdu. Bu camaatın içərisində Əbu Səid Xudri, İbn Abbas, Əbu Qutadə və Əbu Hureyrə də var idi. Biz olnardan səbəbin soruşduq. Onlar da dedilər ki, sünnədir.» Bu rəvayətə əsasən, ilk hədis hədis doğru deyildir. Çünki Əlinin qızı Ümmü Gülsümün oğlu Zeyd bin Ömərə anası ilə birgə onlara belə namaz qılınmışdır. O, övlad sahibi olan bir kişi idi. Necə ki, bunu Zubeyr bin Bəkkar da deyib.»*[116]

İbn Əsakir əd-Diməşqi isə tam fərqli bir rəvayət nəql edir:

قال الزبير وأما زيد بن عمر بن الخطاب فكان له ولد فانقرضوا

*«əz-Zubeyr deyib ki, Zeyd bin Ömər bin əl-Xəttabın özündən sonra övladları qaldı. Lakin onun nəsli davam etmədi.»*[117]

## Zeyd neçə yaşında vəfat etdi?

Zeyd bin Ömərin neçə yaşında vəfat etməsi sualına «صغير» - «Səğir» (uşaq), «شاب» - «Şab» (cavan) və «كان رجلا» - «Kanə rəculən» (böyük yaşda) şəklində müxtəlif cavablar veriblər.

***a. Uşaq idi:***

Əbi Hatim və İbn Əsakir əd-Diməşqi onun uşaq yaşda öldüyünü yazıb:

زيد بن عمر بن الخطاب من أم كلثوم بنت على سمعت أبى يقول ذلك ويقول توفى هو وأمه أم كلثوم في ساعة واحدة وهو صغير لا يدرى أيهما مات أول

*«Zeyd bin Ömər bin əl-Xəttabın anası Əlinin qızı Ümmü Gülsümdür. Atamdan belə dediyi eşitmişəm: «O, uşaq olanda anası ilə birlikdə eyni vaxtda vəfat etdi. Lakin hansının daha tez öldüyü məlum olmadı.»*[118]

***b. Cavan idi:***

əz-Zəhəbi və İbn Həcər onun cavan yaşda öldüyünü yazıblar:

---

*[116] İbn Qudamə əl-Məqdisi, əl-Muğni fi fiqh əl-İmam Əhməd bin Hənbəl, c.2, s.221; Şərh əl-Kəbir, c.2, s.345*

*[117] İbn Əsakir, Tarix mədinəti Diməşq, c.19, s.483*

*[118] İbn Əbi Hatim ər-Razi, əl-Cərh və ət-tədil, c3, s.568, r.2576; İbn Əsakir, Tarix mədinəti Diməşq, c.19, s.484*

زيد بن عمر بن الخطاب، القرشي العدوي، وأمه أم كلثوم بنت فاطمة الزهراء. قال عطاء الخراساني: توفي شاباً ولم يعقب.

*«Zeyd bin Ömər bin əl-Xəttab əl-Quraşi əl-Ədəvinin anası Fatimə əz-Zəhranın qızı Ümmü Gülsümdür. Əta əl-Xorasani dedi ki, o, cavan yaşında vəfat etdi və övladı da yox idi.»*[119]

İbn Həcər deyir:

زيد بن عمر بن الخطاب القرشي العدوي أمه أم كلثوم بنت علي بن أبي طالب مات مع أمه في يوم واحد وكان مولده في آخر حياة أبيه سنة ثلاث وعشرين ومات وهو شاب في خلافة معاوية في ولاية سعيد بن العاص على المدينة

*«Zeyd bin Ömər bin əl-Xəttab əl-Quraşi əl-Ədəvinin anası Ümmü Gülsüm bint Əli bin Əbi Talibdir. O, anası ilə birlikdə eyni gündə vəfat etdi. Zeyd Ömərin ömrünün son vaxtlarında, hicrətin 23-cü ilində dünyaya gəlmişdi. Muaviyəni xilafəti və Səid bin əl-Asın Mədinədə valiliyi zamanında cavan yaşında vəfat etdi.»*[120]

***c. Böyük yaşlarda idi:***

Bir çoxları da onun böyük yaşlarda öldüyünü qeyd edir. Xətib əl-Bəğdadi yazır:

فولدت له زيد بن عمر بن الخطاب فعاش حتى كان رجلا ثم مات

*«(Ümmü Gülsüm) Ömər üçün Zeydi dünyaya gətirdi. Zeyd böyük kişi yaşlarına qədər yaşadı və sonra vəfat etdi.»*[121]

İbn Əsakir əd-Diməşqi Zeydin Muaviyənin hüzurunda göstərdiyi şücaət barədə nəql etdiyi rəvayətdən məlum olur ki, o, kifayət qədər böyük yaşlarda olub:

حدثني رجل من الأنصار عن أبيه قال وفاقا مع زيد بن عمر بن الخطاب وأمه أم كلثوم بنت علي بن أبي طالب وأمها فاطمة بنت رسول الله ص إلى معاوية بن أبي سفيان فأجلسه على السرير وهو يومئذ من أجمل الناس وأشبههم فبينا هو جالس قال له بسر بن أرطأة يا ابن أبي تراب فقال له أإياي تعني لا أم لك لك أنا والله خير منك وأزكى وأطيب فما زال الكلام بينهما حتى نزل زيد إليه فخنقه حتى صرعه وبرك على صدره فنزل معاوية عن سريره فحجز بينهما وسقطت عمامة زيد فقال زيد والله يا معاوية ما شكرت الحسنى ولا

---

[119] *Şəms əd-Din əz-Zəhəbi, Tarix əl-İslam, c.4, s.58*

[120] *İbn Həcər əl-Əsqəlani, əl-İsar bi-mərifət ruvat əl-əsar, c.1, s.79*

[121] *əl-Xətib əl-Bəğdadi, Tarix Bağdad, c.6, s.182*

حفظت ما كان منا إليك حيث تسلط علي عبد بني عامر فقال معاوية أما قولك يا ابن أخي أني لكفرت الحسنى فوالله ما استعملني أبوك إلا من حاجة إلي وأما ما ذكرت من الشكر فوالله لقد وصلنا أرحامكم وقضينا حقوقكم وإنكم لفي منازلكم فقال زيد أنا ابن الخليفتين والله لا تراني بعدها أبدا عائدا إليك وإني لأعلم أن هذا لم يكن إلا عن رأيك قال وخرج زيد إلينا وقد تشعث رأسه وسقطت عمامته.

*«Ənsardan bir nəfər mənə atasından rəvayət edərək dedi: «Əli bin Əbi Talib və Fatimənin qızı olan Ümmü Gülsümün oğlu Zeyd bin Ömər bin əl-Xəttab ilə birlikdə Muaviyənin yanına getdik. Muaviyə ona öz taxtında yer verdi. Zeyd ordakıların ən yaraşıqlısı idi. Zeyd taxtda olduğu bir vaxtda Busr bin Ərtat gələrək ona dedi: «Ey Əbu Turabın oğlu!» Zeyd dedi: «Ay anasız, mənimləsən? Allaha and olsun, mən səndən daha yaxşı, pak və üstünəm!» Onların arasında elə sərt söhbət oldu ki, Zeyd taxtdan düşərək Busru yerə yıxıb onun sinəsində oturdu. Muaviyə də taxtından düşdü və onları ayırdı. (Bu zaman) Zeydin əmmaməsi yerə düşdü.*

*Zeyd dedi: «Ey Muaviyə! Bizim yaxşılıqlarımıza yaxşı qiymət vermədin, sənə verdiyimizi layiqincə qorumadın və Bəni-Amirdən bir nökərin mənim üzərimdə ağalığına şərait yaratdın.»*

*Muaviyə dedi: «Sən mənə yaxşılıqlarınıza layiqli qiymət vermədiyimi dedin, ancaq bil ki, sənin atan mənə ehtiyacı olduğu üçün (rəhbər) təyin edib. Qaldı ki, mənə verdiyinizi yaxşı qorumamağıma, Allaha and olsun ki, biz sizinlə qohumluq bağlarını birləşdirdik, sizin hüququnuzu yerinə yetirdik (haqqınızı ödədik), siz öz məqamınızdasınız.»*

*Zeyd dedi: «Mən iki xəlifənin oğluyam! Allaha and olsun ki, bir daha sənin yanına gəlməyəcəyəm! Bilirəm ki, Busrun o sözü və rəftarı sənin planın idi.»*

*Sonra Zeyd saçları dağılmış və əmmaməsi düşmüş vəziyyətdə bizim yanımıza gəldi.»*[122]

Bu hadisəni əl-Bəlazuri «Ənsab əl-Əşraf»-da[123], əz-Zəməxşəri «Rəbi əl-əbrar»-da[124], İbn Həmdun «ət-Təzkirət əl-həmduniyyə»-də[125], İbn əl-Əsir «əl-Kamil fi ət-

[122] *İbn Əsakir, Tarix mədinəti Diməşq, c.19, s.484*

[123] *Əhməd əl-Bəlazuri, Ənsab əl-əşraf, c.2, s.86*

[124] *əz-Zəməxşəri, Rəbi əl-əbrar, c.5, s.261*

[125] *İbn Həmdun, ət-Təzkirət əl-Həmduniyyə, c.9, s.309*

tarix»-də[126] və əz-Zəhəbi «Siyər əlam ən-nubəla»-da[127] mətnində müəyyən ixtisar və fərqlərlə nəql etmişlər.

Bir məsələni də xüsusi olaraq qeyd edək ki, əvvəla Zeyd uşaq, və ya cavan olsaydı, Muaviyənin hüzurunda onun qoşununun sərkərdəsi Busru o şəkildə yerə vurub ardından belə bir nitq söyləyə bilməzdi.

İkincisi, əhli-sünnə alimlərinin dediyi kimi, Zeyd Ömərin öldürüldüyü ildə dünyaya gəlmişdirsə, o zaman ölümü Səid bin əl-Asın hökuməti zamanına təsadüf etdikdə yaşı təxminən iyirmi səkkizi keçmiş olur. Əgər Zeydi Əbd əl-Məlik bin Mərvanın öldürdüyünü qəbul etsək, o zaman öldüyündə əllidən çox yaşı olmuş olar.

Doğrusunu Allah bilir.!

**Zeyd və Ümmü Gülsümün cənazə namazını kim qıldı?**

Zeyd bin Ömərin cənazə namazını kimin qıldığı haqqında nəql olunan müxtəlif rəvayətləri diqqətinizə çatdırırıq:

***a. Abdullah bin Ömər:***

İbn Həcər əl-Əsqəlani deyir ki, səhih rəvayətə əsasən Zeyd bin Ömər və Ümmü Gülsümün cənazə namazını Abdullah bin Ömər qılmışdır:

وأخرج بسند صحيح أن بن عمر صلى علي أم كلثوم وابنها زيد فجعله مما يليه وكبر أربعا

*«Səhih sənədlə rəvayət olunub ki, İbn Ömər Ümmü Gülsüm və oğlu Zeydə namaz qıldı. Zeydi özünə yaxın qoyaraq dörd təkbir dedi.»*[128]

Əhli-sünnənin II əsr alimlərindən Muhəmməd bin Həsən əş-Şeybani yazır:

عن عامر الشعبي، قال: صلى ابن عمر رضي الله عنه على أم كلثوم بنت علي رضي الله عنه وزيد بن عمر رضي الله عنه ابنها، فجعل أم كلثوم تلقاء القبلة، وجعل زيدا مما يلي الإمام

*«Amir əş-Şəbidən rəvayət olunub ki, dedi: «İbn Ömər (r.a) Ümmü Gülsüm bint Əliyə (r.a) və oğlu Zeyd bin Ömərə (r.a) namaz qıldı. O, Ümmü Gülsümü qibləyə yaxın, Zeydi isə imama yaxın yerləşdirdi.»*[129]

Muhəmməd bin Səd və Əbd ər-Rəzzaq əs-Sənani yazırlar:

عبد الرزاق عن الثوري عن أبي حصين وإسماعيل عن الشعبي أن بن عمر صلى على أم كلثوم بنت علي بن أبي طالب وزيد بن عمر فجعل زيدا يليه والمرأة أمام ذلك.

---

*[126] İbn əl-Əsir, əl-Kamil fi ət-tarix, c.3, s.373*

*[127] Şəms əd-Dİn əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.3, s.502*

*[128] İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.8, s.294*

*[129] Muhəmməd bin Həsən əş-Şeybani, əl-Əsar li-Muhəmməd ibn əl-Həsən, c.2, s.142*

*«Əbd ər-Rəzzaq bizə əs-Səuridən, o da Əbi Husəyn və İsmayıldan, onlar da əş-Şəbidən rəvayət edir ki, İbn Ömər Ümmü Gülsüm bint Əli bin Əbi Talibə və Zeyd bin Ömərə namaz qıldı. O, Zeydi özünə yaxın, qadını isə ondan sonra yerləşdirdi.»*[130]

əl-Buxari «Tarix əl-əusət»-də yazır:

حدثنا محمد بن الصباح ثنا إسماعيل بن زكريا عن رزين البزاز حدثني الشعبي قال توفى زيد بن عمر وأم كلثوم فقدموا عبد الله بن عمر وخلفه الحسن والحسين ومحمد بن الحنفية وعبد الله بن جعفر.

*«Bizə Muhəmməd bin Səbbah rəvayət etdi (və dedi): İsmayıl bin Zəkəriyya bizə Rəzin əl-Bəzzazdan rəvayət etdi (və dedi): mənə əş-Şəbi rəvayət etdi və dedi: «Zeyd bin Ömər və Ümmü Gülsüm vəfat etdilər. Xalq Abdullah bin Öməri (namaza imamlıq üçün) irəli keçirdi. Onun arxasında Həsən, Hüseyn, Muhəmməd əl-Hənəfiyyə və Abdullah bin Cəfər dayandı.»*[131]

***b. Səid bin əl-As:***

Əlbəttə Səid bin əl-Asın o zamanlar Mədinədə hökumət başçısı olduğu halda Abdullah bin Ömərin onlara namaz qılması mümkün görünmür. Heç təsadüfi deyil ki, Səid bin əl-Asın namaz qıldığı haqqında da çox rəvayət nəql edilib:

İbn Əbi Şeybə yazır:

حدثنا حَاتِمُ بن وَرْدَانَ عن يُونُسَ عن عَمَّارٍ مولى بَنِي هَاشِمٍ قال شَهِدْت أُمَّ كُلْثُومٍ وَزَيْدَ بن عُمَرَ مَاتَا في سَاعَةٍ وَاحِدَةٍ فاخرجوهما فَصَلَّى عَلَيْهِمَا سَعِيدُ بن الْعَاصِ فَجَعَلَ زَيْدًا مِمَّا يَلِيهِ وَجَعَلَ أُمَّ كُلْثُومٍ بين يَدَيْ زَيْدٍ وفي الناس يَوْمَئِذٍ نَاسٌ من أَصْحَابِ النبي صلى الله عليه وسلم وَالْحَسَنُ وَالْحُسَيْنُ في الْجِنَازَةِ.

*«Hatim bin Vərdan bizə Yunusdan, o da Bəni-Haşimin azad edilmiş köləsi Əmmardan rəvayət edərək dedi: «Ümmü Gülsüm və Zeyd bin Ömərin eyni vaxtda vəfat etdiklərinin şahidi oldum. Camaat onları bayıra çıxartdı və Səid bin əl-As onlara namaz qıldı. Zeydi özünə yaxın, Ümmü Gülsümü ondan sonra yerləşdirdi. O zaman camaatın arasında Peyğəmbərin (s.ə.s) səhabələri, Həsən və Hüseyn də var idi.»*[132]

Hənbəli məzhəbinin imamı Əhməd bin Hənbəl yazır:

عن عمار مولى بني هاشم قال شهدت وفاة أم كلثوم بنت علي وزيد بن عمر قال فصلى عليهما سعيد بن العاص وقدم أم كلثوم بين يدي زيد بن عمر.

---

*[130] Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.3, s.465, h.6336; Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.464*

*[131] Muhəmməd bin İsmayıl əl-Buxari, ət-Tarix əl-əusət, c.1, s.102*

*[132] İbn Əbi Şeybə, əl-Musənnəf, c.3, s.8, h.11568*

*«Bəni-Haşimin azad etdiyi köləsi Əmmardan belə dediyi rəvayət olunub: «Əlinin qızı Ümmü Gülsüm və Zeyd bin Ömər öldüklərində mən orada idim. Səid bin əl-As onlara namaz qıldı və (onları) elə qoydu ki, (namaz vaxtı) Ümmü Gülsümün cənazəsi Zeyd bin Ömərdən sonra idi.»*[133]

Muhəmməd bin Əli əş-Şəvkani yazır:

وَعَنْ الشَّعْبِيِّ أَنَّ أُمَّ كُلْثُومٍ بِنْتَ عَلِيٍّ وَابْنَهَا زَيْدَ بن عُمَرَ تُوُفِّيَا جميعا فَأُخْرِجَتْ جِنَازَتَاهُمَا فَصَلَّى عَلَيْهِمَا أَمِيرُ الْمَدِينَةِ فَسَوَّى بين رؤوسهما وَأَرْجُلِهِمَا حين صلى عَلَيْهِمَا

*«əş-Şəbidən rəvayət olunub ki, Əlinin qızı Ümmü Gülsüm və oğlu Zeyd bin Ömər hər ikisi vəfat etdi. Camaat onların cənazələrini bayıra çıxartdı. Mədinənin əmiri onlara namaz qıldı. Onların baş və ayaqlarını bir istiqamətdə qoydu və namazlarını qıldı.»*[134]

Çox maraqlıdır! Mədinə əmirinin cənazələrə namaz qılmasını bəyan edən bu rəvayət də əş-Şəbidən nəql olunub. Amma diqqət etdinizsə, bundan qabaq əş-Şəbidən nəql olunan rəvayətlərdə namazı Abdullah bin Ömərin qıldırdığı nəql olunmuşdu. Qısası, əş-Şəbidən iki təzadlı rəvayət nəql olunub.

ən-Nəsai bu haqda belə yazır:

وَوُضِعَتْ جَنَازَةُ أُمِّ كُلْثُومِ بِنْتِ عَلِيٍّ امْرَأَةِ عُمَرَ بن الْخَطَّابِ وبن لها يُقَالُ له زَيْدٌ وُضِعَا جميعا وَالْإِمَامُ يَوْمَئِذٍ سَعِيدُ بن الْعَاصِ وفي الناس بن عُمَرَ وأبو هُرَيْرَةَ وأبو سَعِيدٍ وأبو قَتَادَةَ فَوُضِعَ الْغُلَامُ مِمَّا يَلِي الْإِمَامَ.

*«Ömər bin əl-Xəttabın zövcəsi Ümmü Gülsüm bint Əli və Zeyd adlı oğlunun (cənazələrini) yerə qoydular. O günün imam-camaatı Səid bin əl-As idi. (Arxada dayanan) camaatın arasında Abdullah bin Ömər, Əbu Hureyrə, Əbu Səid və Əbu Qətadə də var idi. Cavan olanın cənazəsini imama yaxın yerləşdirdilər.»*[135]

Maliki məzhəbinin imamı Malik bin Ənəs yazır:

عن نافع عن بن عمر قال وضعت جنازة أم كلثوم بنت علي بن أبي طالب من فاطمة بنت رسول الله صلى الله عليه وسلم وهي امرأة عمر بن الخطاب وبن لها يقال له زيد فصفا جميعا والإمام يومئذ سعيد بن العاص فوضع الغلام مما يلي الإمام وفي الناس بن عباس وأبو هريرة وأبو سعيد وأبو قتادة فقالوا هي السنة.

*«ən-Nafidən, o da İbn Ömərdən onun belə dediyi nəql edib: «Əli bin Əbi Talibin Allah Rəsulunun (s) qızı Fatimədən (ə) olan qızı və Ömər bin əl-Xəttabın zövcəsi Ümmü Gülsümün cənazəsini Zeyd adlı oğlu ilə birlikdə yerə uzatdılar. Zeydi*

---

[133] *Əhməd bin Hənbəl, əl-İləl və marifət ər-rical, c.1, s.140*

[134] *Muhəmməd əş-Şəvkani, Nəyl əl-əvtar, c.4, s.110*

[135] *Əhməd bin Şuəyb ən-Nəsai, əl-Müctəba min əs-sünən, c.4, s.71*

*imama yaxın yerləşdirdilər. O günün imamı Səid bin əl-As idi. Xalq arasında İbn Abbas, Əbu Hureyrə, Əbu Səid və Əbu Qətadə də var idi. Onlar dedilər ki, belə olması sünnədir.»*[136]

Əbd ər-Rəzzaq əs-Sənani də eyni rəvayəti nəql etmişdir.[137]

İbn əl-Muləqqin əl-Ənsari Səid bin əl-Asın onlara cənazə namazı qılması barədə rəvayəti səhih hesab edərək yazır:

أثر سعيد بن العاص أنه صلى على زيد بن عمر بن الخطاب وأمه أم كلثوم بنت علي فوضع الغلام بين يديه والمرأة خلفه وفي القوم نحو من ثمانين نفسا من أصحاب النبي صلى الله تعالى عليه وسلم فصوبوه وقالوا هو السنة رواه البيهقي وبنحوه أبو داود والنسائي بإسناد صحيح.

*«Zeyd bin Ömər bin əl-Xəttab və anası Ümmü Gülsüm bint Əliyə Səid bin əl-Asın namaz qılması, cavanı imama yaxın, qadını ondan sonra qoyması, camaatın arasında səksən nəfərdən çox Allah Rəsulunun (s) səhabəsinin olması və onların bu əməlin sünnə olduğunu demələri haqqında nəql olunan rəvayəti əl-Beyhəqi, onun oxşarını Əbu Davud və ən-Nəsai səhih sənədlə nəql etmişdirlər.»*[138]

## Əbu Qətadənin camaat namazında iştirakı

Ümmü Gülsümün vəfatı haqqında nəql olunan rəvayətlərdə olan təzadlardan biri də Əbu Qətadə əl-Bədrinin onun cənazə namazında iştirak etməsidir. Əbu Bəkr əl-Beyhəqi «Mərifət əs-sunən və əl-əsar» kitabında bu məsələyə işarə edib:

وروينا في كتاب الجنائز عن ابن جريج وأسامة بن زيد عن نافع مولى ابن عمر في اجتماع الجنائز أن جنازة أم كلثوم بنت علي إمرأة عمر بن الخطاب وابنها زيد بن عمر وضعتا جميعا والإمام يومئذ سعيد بن العاص وفي الناس يومئذ ابن عباس وأبو هريرة وأبو سعيد وأبو قتادة فوضع الغلام مما يلي الإمام ثم سئلوا فقالوا: هي السنة.

وقد ذكرنا أن إمارة سعيد بن العاص إنما كانت من سنة ثمان وأربعين إلى سنة أربع وخمسين وفي هذا الحديث الصحيح شهادة نافع بشهود أبي قتادة هذه الجنازة التي صلى عليها سعيد بن العاص في إمارته على المدينة.

وفي كل ذلك دلالة على خطأ رواية موسى بن عبد الله ومن تابعه في موت أبي قتادة في خلافة علي. ويشبه أن تكون رواية غلط من قتادة بن النعمان أو غيره ممن تقدم موته إلى أبي قتادة .فقتادة بن النعمان قديم

---

[136] *Malik bin Ənəs, əl-Mudəvvənə əl-kubra, c.1, s.182*

[137] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.3, s.465*

[138] *Ömər bin Əli əl-Muləqqin, Xulasat əl-Bədr əl-munir, c.1, s.138*

الموت وهو الذي شهد بدرا منهما. إلا أن الواقدي ذكر أنه مات في خلافة عمر وصلى عليه عمر وذكر هذا الراوي أن أبا قتادة صلى عليه علي. والجمع بينهما متعذر.

*«Cənaiz» kitabında İbn Cureyc və Usamə bin Zeyddən, onlar da İbn Ömərin azad etdiyi köləsi ən-Nafidən cənazələrin birləşdirilməsi haqqında nəql edib ki, Ömərin zövcəsi Ümmü Gülsüm bint Əlinin və oğlu Zeydin cənazəsini yan-yana qoydular və (cənazə namazının) imamı Səid bin əl-As idi. Xalqın içində isə İbn Abbas, Əbu Hureyrə, Əbu Səid və Əbu Qətadə var idi. Cavanın cənazəsini imama yaxın yerləşdirdilər. Sonra səhabələrdən soruşuldu və onlar da cavab verdilər: «Bu, sünnədir.»*

*Biz demişik ki, Səid bin əl-Asın hökuməti hicrətin 48-ci ilindən 54-cü ilinə qədər davam etmişdi. Bu səhih rəvayətə əsasən, ən-Nafi Səid bin əl-Asın öz əmirliyi zamanında qıldığı cənazədə namazında Əbi Qətadənin iştirak etdiyini görüb.*

*Bütün bunlar göstərir ki, Əbu Qətadənin ölüm tarixinin Əlinin xəlifəliyi dövrünə təsadüf etməsi barədə Musa bin Abdullahın və (bu məsələdə) ona tabe olanların rəvayəti səhvdir. Bu da rəvayətin yanlış olma şübhəsini yaradır, çünki Əbu Qətadədən qabaq ölən şəxs Qətadə bin Numan, ya da başqası olub. Belə ki, Qətadə bin Numan bu tarixdən çox qabaq dünyadan köçmüş, həmçinin Bədr döyüşündə iştirak etmişdir. Lakin əl-Vaqidi deyir ki, o, Ömərin xəlifəliyi dövründə ölmüşdür və Ömər də ona namaz qılmışdır. Bu ravi deyib ki, Əbu Qətadəyə Əli namaz qılmışdır. Bu iki rəvayəti bir yerə toplamaq (və ortaq məxrəcə gəlmək) mümkün deyildir.»*[139]

Yəni, əhli-sünnənin nəzərinə görə, Əbu Qətadə İmam Əlinin (ə) xilafəti zamanı ölüb və o həzrət də Əbu Qətadəyə namaz qılmışdır. Lakin bu rəvayətə görə, Əbu Qətadə Ümmü Gülsümə namaz qılanların arasında yer almışdır. əl-Beyhəqi bu təzadı həll etmək üçün İmam Əlinin (ə) Əbu Qətadəyə namaz qılması barədə rəvayəti yanlış hesab edir. Ancaq biz bu rəvayətin qərinələrinə əsasən deyirik ki, yanlış olan Əbu Qətadənin Ümmü Gülsüm və Zeydin cənazə namazında iştirakıdır.

[139] *Əbu Bəkr əl-Beyhəqi, Mərifət əs-sünən və əl-əsar, c.1, s.559*

## Ömər bin əl-Xəttab Ümmü Gülsümlə, yoxsa Zeynəblə evləndi?

Əhli-sünnənin bu haqda nəql etdiyi rəvayətlərdə mövcud olan təzadlar və ixtilaflar elə bir həddə çatmışdır ki, alimlər özləri də Ömərin İmam Əlinin (ə) hansı qızı ilə evlənməsini müəyyən etməkdə çətinliklərlə üzləşmişlər. Əbd əl-Həy yazır ki, guya Ömər xanım Zeynəb ilə evlənmişdir:

ذكر الشيخ المختار الكنتي في الاجوبة المهمة نقلا عن الحافظ الدميري اعظم صداق بلغنا خبره صداق عمر لما تزوج زينب بنت علي فانه أصدقها اربعين الف دينار فقيل له في ذلك فقال والله ما في رغبة إلى النساء ولاكني سمعت رسول الله صلى الله عليه وسلم يقول كل سبب ونسب ينقطع يوم القيامة الا سببي ونسبي فأردت تاكيد النسب بيني وبينه صلى الله عليه وسلم فأردت أن أتزوج ابنته كما تزوج ابنتي وأعطيت هذا المال العريض اكراما لمصاهرتي اياه صلى الله عليه وسلم هـ منها هذا مع كون عمر نهى عن المغالات في المهر.

*«Şeyx Muxtar əl-Kunti «əl-Əcvibət əl-muhimmə»də əl-Hafiz əd-Dəmiridən nəql edir ki, Əlinin qızı Zeynəb üçün Ömərin təyin etdiyi mehriyyədən yüksək mehriyyə eşitməmişəm. O mehriyyənin məbləği 40.000 dinar idi. Bu yüksək mehriyyə haqqında ondan (Ömərdən) soruşanda, belə cavab verdi: «And olsun Allaha, mənim qadınlara meylim yoxdur. Lakin Allah Rəsulundan (s.ə.s) eşitmişəm ki: «Qiyamət günü mənim səbəb və nəsəbimdən başqa bütün səbəb və nəsəblər kəsiləcək.» Bu üzdən istəyirəm ki, Allah Rəsulu (s.ə.s) ilə öz aramdakı münasibəti möhkəmləndirim. Odur ki, o mənim qızım ilə evləndiyi kimi, mən də onun qızı ilə evləndim və bu yüksək məbləğli mehriyyəni Allah Rəsulunun (s.ə.s) kürəkənliyi naminə öhdəmə aldım.» Halbuki, Ömər qadınların mehriyyəsində həddi aşmağı qadağan etmişdir.»*[140]

## Cənazə namazına imamı kim təyin etdi?

Bu əfsanə rəvayəti Əhli-beyt (ə) tərəfdarları üçün inandırıcı vəziyyətə salmaq üçün iddia ediblər ki, Ümmü Gülsümün cənazə namazında İmam Həsən (ə) və İmam Hüseyn (ə) da iştirak etmişdir. Ümmü Gülsümün qardaşları İmam Həsən (ə) və İmam Hüseyn (ə) kimi şəxslərin iştirak etdiyi bir namazda Səid bin əl-As, yaxud Abdullah bin Ömərin imamlıq etməsi şübhə doğurur. Lakin diqqət etsəniz,

[140] *Əbd əl-Həy əl-Kəttani, Nizam əl-hukumət ən-Nəbəviyyə, c.2, s.405*

bu şübhəni də aradan aparmaq üçün belə bir iddia edilib ki, Abdullah bin Ömər, yaxud Səid bin əl-Asın namazda imam olmasını guya onlar özləri istəyiblər. Onlardan hansı birinin bunu istədiyi haqqında müxtəlif rəvayətlər var. Bəziləri İmam Həsənin (ə) istədiyini yazsa da, İmam Hüseynin (ə) istədiyini nəql edənlər də var.

1. ***İmam Həsən (ə) istədi:***

İbn Əbd əl-Birr «əl-İstiab»-da yazır:

وتوفيت أم كلثوم وابنها زيد في وقت واحد وقد كان زيد أصيب في حرب كانت بين بني عدي ليلا كان قد خرج ليصلح بينهم فضربه رجل منهم في الظلمة فشجه وصرعه فعاش أياما ثم مات وهو وأمه في وقت واحد وصلى عليهما ابن عمر قدمه الحسن بن علي.

*«Ümmü Gülsüm və oğlu Zeyd eyni vaxtda vəfat etdilər. Zeyd gecə yarısı Bəni-Ədiy qəbiləsi arasında baş verən müharibəyə sülh yaratmaq üçün getdiyində, qaranlıqda başından bir zərbə alaraq yaralandı. Zeyd o hadisədən sonra bir neçə gün yaşadı və anası ilə bir gündə vəfat etdi. Abdullah bin Ömər onlara cənazə namazı qıldı. Həsən bin Əli onu namaz qılmaq üçün irəli göndərdi.»*[141]

Muhib əd-Din ət-Təbəri yazır:

وحكى الدولابي وغيره القولين في موتها عنده أوموته عندها قال أبو عمر ماتت أم كلثوم وابنها زيد في وقت واحد وكان زيد قد أصيب في حرب بين بني عدي ليلا فخرج ليصلح بينهم فضربه رجل منهم في الظلمة فشجه وصرعه فعاش أياما ثم مات هو وأمه في وقت واحد وصلى عليهما ابن عمر قدمه الحسن بن علي فكانت فيهما سنتان فيما ذكروا لم يورث أحدهما من الآخر.

*«əd-Dulabi və ondan başqaları hekayə edirlər ki, Ümmü Gülsüm Zeydin yanında, yaxud Zeydin Ümmü Gülsümün yanında öldüyünü yazan iki rəvayət vardır. Əbu Ömər deyib ki, Ümmü Gülsüm və oğlu Zeyd eyni vaxtda vəfat etdilər. Zeyd Bəni-Ədiy arasında gecə baş verən döyüşdə onların aralarını düzəltmək üçün getdiyində, gecənin qaranlığında başından aldığı bir zərbə ilə yerə sərildi. Zeyd o hadisədən sonra bir neçə gün yaşadı. Sonra anası ilə bir gündə vəfat etdi. İbn Ömər onlara namaz qıldı. Həsən bin Əli onu namaz qılmaq üçün qabağa göndərdi...»*[142]

Əbd əl-Məlik əl-İsami əl-Məkki deyir:

---

[141] *İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.4, s.1955*

[142] *Muhid əb-Din ət-Təbəri, Zəxair əl-uqba, c.1, s.17*

وكان موتها هي وولدها من عمر المسمى زيدا الأكبر المقتول خطأ بيد خالد بن اسلم مولى زوجها عمر رضي الله عنه في وقت واحد وصلى عليهما ابن عمر قدمه الحسن بن علي.

*«Ümmü Gülsümün ölümü ilə Ömərdən olan Zeyd əl-Əkbər adlı oğlunun Ömərin zövcəsinin qulamı Xalid bin Əsləmin səhvən öldürülməsi eyni vaxta təsadüf edir. İbn Ömər onlar üçün namaz qıldı. Həsən bin Əli onu (namaza imamlıq etmək üçün) irəli göndərdi.»*[143]

**2. *İmam Hüseyn (ə) istədi:***

Bəzi rəvayətlərə görə Abdullah bin Öməri cənazə namazı qılmaq üçün qabağa çəkən şəxs İmam Hüseyn (ə) olub. Yuxarıdakılardan fərqli olaraq, bu rəvayətlərdə İmam Həsənin (ə) adı çəkilmir.

Muhəmməd bin Yusif əl-Əbdəri yazır:

وقد قدم الحسين عبد الله بن عمر للصلاة على جنازة أخته أم كلثوم وابنها زيد بن عمر قال ابن رشد: وهذا لا حجة فيه إذ يحتمل أنه قدمه لسنه ولإقراره بفضله لا لأنه أحق

*«Hüseyn, bacısı Ümmü Gülsümlə onun oğlu Zeyd bin Ömərə cənazə qılmaq üçün Abdullah bin Öməri irəli göndərdi. İbn Rüşd deyib ki, Hüseynin bu işi höccət deyildir. Çünki ola bilsin o, İbn Öməri sünnəni həyata keçirmək və özündən üstün olduğunu etiraf elətdirmək üçün qabağa çəkmişdir. Belə ki, İbn Ömər bu işə hamıdan çox layiq idi.»*[144]

Bəzi rəvayətlərdə ümumiyyətlə İmam Həsən bin Əlinin (ə) adı heç çəkilməyib. Həmin rəvayətlərdən belə bir nəticə çıxır ki, bacısı Ümmü Gülsümün cənazə namazında İmam Həsən (ə) iştirak etməyib. Ancaq İmam Hüseynin (ə) adı hallanmışdır.

Muhəmməd Ziya əl-Azəmi deyir:

الشعبي قال: صَلّى ابن عمر على زيد بن عمر وأمه أم كلثوم بنت علي، فجعل الرجل مما يلي الإمام والمرأة من خلفه، فصَلَّى عليهما فكبر أربعاً وخلفه ابن الحنفية، والحسين بن علي، وابن عباس.

*«əş-Şəbi dedi: İbn Ömər Zeyd bin Ömərə və anası Ümmü Gülsüm bint Əliyə cənazə namazı qıldı. O, kişini özünə yaxın, qadını isə kişinin cənazəsindən sonra qoyaraq hər ikisinə cənazə namazı qıldı və dörd dəfə təkbir dedi. Onun arxasında Muhəmməd əl-Hənəfiyyə, Hüseyn bin Əli və İbn Abbas dayanmışdı.»*[145]

---

[143] *Əbd əl-Məlik əl-İsami, Səmt ən-nucum, c.1, s.534*

[144] *Muhəmməd bin Yusif əl-Əbdəri, əl-Tac və əl-əklil li-muxtəsər cəlil, c.2, s.252*

[145] *Muhəmməd Ziya əl-Azəmi, əl-Minnət əl-kübra şərh və təxric əs-sünən əs-suğra, c.3, s.52*

əl-Beyhəqinin də rəvayətindən belə məlum olur ki, İmam Həsən (ə) cənazə namazında və dəfndə iştirak etməmişdir:

أخبرنا أبو الحسين بن الفضل أنبأ عبد الله بن جعفر ثنا يعقوب بن سفيان ثنا أبو نعيم ثنا رزين بياع الرمان عن الشعبي قال صلى بن عمر على زيد بن عمر وأمه أم كلثوم بنت علي فجعل الرجل مما يلي الإمام والمرأة من خلفه فصلى عليهما أربعا وخلفه بن الحنفية والحسين بن علي وبن عباس رضي الله عنهما

*«Bizə Əbu əl-Hüseyn bin əl-Fəzl xəbər verdi (və dedi): bizə Abdullah bin Cəfər (xəbər verdi (və dedi): bizə Yəqub bin Sufyan rəvayət etdi (və dedi): bizə Əbu Nəim rəvayət etdi (və dedi): nar taciri Rəzin bizə əş-Şəbidən onun belə dediyini rəvayət etdi: İbn Ömər Zeyd bin Ömər və anası Ümmü Gülsüm bint Əliyə cənazə namazı qıldı. O, kişinin cənazəsini özümə yaxın, qadının cənazəsini isə ondan sonra qoyaraq hər ikisinə namaz qıldı və dörd dəfə təkbir dedi. Onun arxasında Muhəmməd əl-Hənəfiyyə, Hüseyn bin Əli və İbn Abbas dayanmışdı.»*[146]

**3. *Xalq istədi:***

əl-Buxari «Tarix əl-əusət»-də yazır:

حدثنا محمد بن الصباح ثنا إسماعيل بن زكريا عن رزين البزاز حدثني الشعبي قال توفى زيد بن عمر وأم كلثوم فقدموا عبد الله بن عمر وخلفه الحسن والحسين ومحمد بن الحنفية وعبد الله بن جعفر.

*«Bizə Muhəmməd bin Səbbah rəvayət etdi (və dedi): İsmayıl bin Zəkəriyya bizə Rəzin əl-Bəzzazdan rəvayət etdi (və dedi): mənə əş-Şəbi rəvayət etdi və dedi: «Zeyd bin Ömər və Ümmü Gülsüm vəfat etdilər. Xalq Abdullah bin Öməri (namaza imamlıq üçün) irəli keçirdi. Onun arxasında Həsən, Hüseyn, Muhəmməd əl-Hənəfiyyə və Abdullah bin Cəfər dayandı.»*[147]

[146] *Əbu Bəkr əl-Beyhəqi, Sünən əl-kübra,c.4, s.38, h.6743*
[147] *Muhəmməd bin İsmayıl əl-Buxari, Tarix əl-əusət, c.1, s.102*

# IV FƏSİL

## Allah Rəsulunun (s.ə.a) namusuna atılan iftira

Ömər bin əl-Xəttab və Ümmü Gülsümün evlənməsi haqqında yazan bəzi əhli-sünnə qaynaqları bu evliliyi isbat etmək naminə saxta rəvayətlər uyduran ravilərdən Allah Rəsulunun (s.ə.a) namusuna iftira xarakteri daşıyan rəvayətlər nəql etmişlər. Bu rəvayətləri eşidən, və ya oxuyan hər bir qeyrətli müsəlmanın təəssüf etməsi təbiidir. İnsan o rəvayətləri oxuduqda, utanc və peşmanlıq təri axıdır. Axı bir məsələnin isbatı üçün belə biyabırçı və saxta rəvayətləri ən pis ifadələrlə nəql etmək hansı insani vicdana və İslami əxlaqa sığar?

Bu rəvayətləri nəql edən ravilər Allah Rəsuluna (s) və İmam Əliyə (ə), onların ailələrinə iftira ataraq ən böyük xəyanəti etmişlər. Bu rəvayətlər, eyni zamanda, ikinci xəlifə Ömər bin əl-Xəttabın da abır-həyasını ləkələyir.

Ümmü Gülsümün Ömər bin əl-Xəttab ilə evlənməsinin mümkünsüzlüyünə dəlil olan önəmli nöqtələrdən biri, bəlkə də ən önəmlisi Allah Rəsulunun (s) namusuna xəyanət mənzərəsinin yaranmasıdır. Əhli-sünnə qardaşlarımızın da bu problemli rəvayətləri bu şəkildə qəbul edəcəklərinə inanmırıq.

## Ömər bin əl-Xəttabın Ümmü Gülsümlə rəftarı

Rəvayət edildiyinə görə, guya Ömər bin əl-Xəttab Ümmü Gülsüm ilə evlənməzdən öncə seçim etmək üçün onun baldırını açıb baxmışdır. Bu iyrənc və iftira dolu rəvayəti əhli-sünnə alimləri arasında sayılıb-seçilən şəxslərindən olan İbn Həcər əl-Əsqəlani də daxil olmaqla, çox sayda hədisşünasılar öz kitablarında qeyd etmişlər:

عن مُحَمَّدِ بن عَلِيٍّ بن الْحَنَفِيَّةِ أَنَّ عُمَرَ خَطَبَ إِلَى عَلِيٍّ ابْنَتَهُ أُمَّ كُلْثُومٍ فذكر له صِغَرَهَا فقال أَبْعَثُ بها إِلَيْك فَإِنْ رَضِيت فَهِيَ امْرَأَتُك فَأَرْسَلَ بها إِلَيْهِ فَكَشَفَ عن سَاقِهَا فقالت لَوْلَا أَنَّك أَمِيرُ الْمُؤْمِنِينَ لَصَكَكْت عَيْنَك وَهَذَا يُشْكَلُ على من قال إِنَّهُ لَا يَنْظُرُ غير الْوَجْهِ وَالْكَفَّيْنِ.

*Muhəmməd bin Əli əl-Hənəfiyyədən nəql olunub ki, Ömər Ümmü Gülsümü Əlidən istəmək üçün elçilik etdi. Əli də onun az yaşlı olduğunu xatırladaraq buyurdu: «Mən Ümmü Gülsümü sənin yanına göndərərəm. Əgər bəyənsən, sənin zövcən olsun.» Əli onu Ömərin yanına göndərdi. Ömər onun paltarını qaldırıb baldırını açdı. Ümmü Gülsüm dedi: «Əgər möminlərin əmiri olmasaydın, gözünü*

*çıxardardım» Bu söz «Ömər əllərdən və üzdən başqa (naməhrəm qadının) heç bir yerinə baxmır» deyən şəxs üçün işkallıdır»*[148]

Bu hərəkət naməhrəm qadına nisbətdə *«üz və əldən başqa yerə baxmaq olmaz»* deyən Allah Rəsuluna (s) qarşı bir etiraz, bir üsyandır. Əsla qəbul ediləcək bir şey deyil.

Əhli-sünnənin digər bir hədisşünas alimi Şəms əd-Din əz-Zəhəbi də bu iftiranı fərqli şəkildə nəql etmişdir:

قال عمر لعلي: زوجنيها أبا حسن، فإني أرصُدُ من كرامتها مالا يرصد أحد، قال: فأنا أبعثها إليك، فإن رضيتها، فقد زَوَّجْتُكها، يعتل بصغرها، قال: فبعثها إليه ببُرْدٍ، وقال لها: قولي له: هذا البرد الذي قلت لك، فقالت له ذلك. فقال: قولي له: قد رضيت رضي الله عنك، ووضع يده على ساقها، فكشفها، فقالت: أتفعل هذا؟ لولا أنك أمير المؤمنين، لكسرت أنفك، ثم مضت إلى أبيها، فأخبرته وقالت: بعثتني إلى شيخ سوء.!

*Ömər Əliyə dedi: «Ey Həsənin atası, (Ümmü Gülsümü) mənə ver, mən onun hörmətini hər kəsdən daha yaxşı saxlayaram.» Əli dedi: «Mən onu sənin yanına göndərərəm. Əgər razı qalsan, onu sənə ərə verərəm.» Ümmü Gülsümün az yaşlı olduğunu bəhanə etsə də, Əli Ümmü Gülsümü parça ilə Ömərin yanına göndərdi və dedi: «Mənim adımdan (Ömərə) de ki, bu ona haqqında danışdığım parçadır». Ümmü Gülsüm də Əlinin sözünü Ömərə çatdırdı. Ömər dedi: «Atana mənim adımdan de ki, mən razı qaldım, Allah da səndən razı olsun!» Sonra əlini onun baldırının üstünə qoydu və paltarını kənara çəkdi. Ümmü Gülsüm dedi: «Niyə belə edirsən? Əgər möminlərin əmiri olmasaydın, burnunu sındırardım.» Sonra atasının yanına qayıtdı və baş verənləri danışıb dedi: «Məni yaramaz bir qocanın yanına göndərmişdin.»*[149]

Bir başqa iftira dolu rəvayəti əl-Xətib əl-Bəğdadi nəql etmişdir:

---

*[148] İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.8, s.293; Təlxis əl-həbir, c.3, s.147; Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.6, s.163, h.10352; Səid bin Mənsur, Sünən, c.1, s.173, h.1011; İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.4, s.1955; Muhəmməd ət-Tilimsani, əl-Cəvhərət fi nəsəb ən-Nəbi və əshabihi, c.2, s.154 İbn Qudamə əl-Məqdisi, əş-Şərh əl-kəbir, c.7, s.343; Cəlal əd-Din əs-Suyuti, Cami əl-əhadis, c.14, s.265; Muhəmməd əş-Şəvkani, Nəyl əl-əvtar, c.6, s240*

*[149] Şəms əd-Din əz-Zəhəbi, Tarix əl-İslam, c.4, s.138; Siyər əlam ən-nubəla, c.3, s.501; əl-Musəb əz-Zubeyri, Nəsəb Qureyş, c.10, s.349; İbn Əsakir, Tarix mədinəti Diməşq, c.19, s.483; İbn əl-Cəuzi, əl-Muntəzəm fi tarix əl-muluk və əl-umam, c.4, s.237; İbn Həmdun, ət-Təzkirət əl-Həmduniyyə, c.9, s.309; İbn əl-Əsir, Usd əl-ğabə fi marifət əs-səhabə, c.7, s.425; Səlah əd-Din əs-Səfədi, əl-Vafi bi əl-vəfayat, c.24, s.272; Bədr əd-Din əl-Əyni, Umdət əl-qari şərh Səhih əl-Buxari, c.14, s.168; Əbd ər-Rəhman əs-Səffuri, Nuzhət əl-məcalis və muntəxəb əl-nəfais, c.2, s.438*

فقام على فأمر بابنته من فاطمة فزينت ثم بعث بها إلى أمير المؤمنين عمر فلما رآها قام إليها فأخذ بساقها وقال قولي لأبيك قد رضيت قد رضيت قد رضيت فلما جاءت الجارية إلى أبيها قال لها ما قال لك أمير المؤمنين قالت دعاني وقبلني فلما قمت اخذ بساقي وقال قولي لأبيك قد رضيت فأنكحها إياه.

*«Əli Fatimədən olan qızına bəzənməsini əmr etdi, sonra isə əmir əl-möminin Ömərin yanına göndərdi. Ömər onu görüb yaxınlaşdı və baldırından tutaraq dedi: «Atana de ki, mən razı qaldım (üç dəfə təkrar edir).» Ümmü Gülsüm atasının yanına gəldikdə (Əli) ondan soruşdu: «Əmir əl-möminin sənə nə dedi?» Ümmü Gülsüm dedi: «O məni yanına çağırdı və öpdü. Ayağa duranda baldırımdan tutdu və dedi: «Atana de ki, mən razıyam.» Beləliklə də, Əli qızını onunla evləndirdi.»*[150]

## Şəriətdən kənar bu rəftar Ömər bin əl-Xəttabın ardıcılları üçün şəriət hökmünə çevrilir

Allah Rəsulundan (s.ə.a) sonra xilafəti yürüdən üç xəlifə özlərini onun mütləq və qanuni canişini hesab edir, həmçinin düşünürdülər ki, Allah Rəsulunun (s.ə.a) etdikləri ümmət üçün sünnə hesab edildiyi kimi onların da əməlləri şəriət qanunu ola bilər, və ya onlar da yeni şəriət qanunu qəbul edə bilərlər. Əhli-sünnə kitablarında nəql olunan rəvayətlət bu məsələnin isbatı üçün ən sağlam şahiddir. Məsələn: Azan və iqamədən «Həyya əla xəyril-əməl» cümləsinin çıxarılması, sübh azanlarına «Əs-səlatu xəyrun min ən-nəum» ifadəsinin əlavə edilməsi, həmçinin namaz, həcc, zəkat və sair əməllərdə dəyişilik və əlavələrin varlığı 25 illik xəlifəlik dövrünün yadiğarıdır.

Onlar şəriət qanunlarını necə təbliğ edirdisə, xalq da o şəkildə riayət edirdi. Vəziyyət o yerə çatmışdı ki, Əbu Bəkr və Ömərin sünnəsi Quran və Allah Rəsulunun (s.ə.a) sünnəsinə əməl etmək qədər mötəbər və vacib hesab edilmişdi. Bəzən insanlar bu yeni şəriətlərə əməl etməyin dərəcəsində xəlifələri də ötüb keçmişdir. Şeyx Sədinin buyurduğu kimi:

اگر ز باغ رعيت ملك خورد سيبي
برآورند غلامان او درخت از بيخ

*Şah xalqın bağından meyvə dərəndə,*
*Nökərlər ağacı kökündən dərər.*

[150] *əl-Xətib əl-Bağdadi, Tarix Bağdad, c.6, s.182*

Mövzumuza gəlincə, əhli-sünnənin Ömərə nisbət verərək şəriət qanunu bildikləri əməllərindən biri də «كشف ساق» - yəni, «baldıra baxmaq»dır. Bu, ikinci xəlifənin sünnəsi kimi bilinən əməllərdən sadəcə bir nümunədir.

Hətta əhli-sünnə qaynaqları nəql edir ki, Ömərin oğlu Abdullah atasının bu əməlini təkrar etmiş və daima əməl etmişdir. O, qız və kəniz alarkən onların baldırına baxmağı öz haqqı hesab edirdi.

Əbd ər-Rəzzaq əs-Sənani yazır:

عبد الرزاق عن عبد الله بن عمر عن نافع عن بن عمر ومعمر عن أيوب عن نافع عن بن عمر كان إذا اراد أن يشتري جارية فراضاهم على ثمن وضع يده على عجزها وينظر إلى ساقيها وقبلها يعني بطنها.

*«Əbd ər-Rəzzaq Abdullah bin Ömərdən, o da Nafidən, o da İbn Ömərdən, həmçinin Muamər Əyyubdan, o da Nafidən, o da İbn Ömərdən rəvayət edir ki, o, kəniz almaq istədikdə, qiyməti barədə söhbət başa çatdıqdan sonra əlini kənizin ombasına qoyaraq, baldırı və qabağına, yəni qarnına baxırdı.»*[151]

«قُبُل» - *«qubul»* sözünün ərəb dilində xüsusi mənası var. Bu kəlmə əslində qadının qarnı deyil, onun cinsi orqanı mənasında işlənir. Lakin bu rəvayətdə niyə «بطن» - *«bətn»*, yəni *«qarın»* mənasında işlənməsinin səbəbi məlum deyil. Bu haqda araşdırma aparmağa belə lüzum görmürük. Fikrimizcə, bu məsələni Abdullah bin Ömərin əməlini müdafiə edənlərdən soruşmaq daha məqsədəuyğun olardı.

Başqa bir rəvayətdə yazır:

عبد الرزاق عن معمر عن عمرو بن دينار عن مجاهد قال مر بن عمر على قوم يبتاعون جارية فلما رأوه وهم يقلبونها أمسكوا عن ذلك فجاءهم بن عمر فكشف عن ساقها ثم دفع في صدرها وقال اشتروا قال معمر وأخبرني بن أبي نجيح عن مجاهد قال وضع بن عمر يده بين ثدييها ثم هزها.

*«Əbd ər-Rəzzaq Muamərdən, o da Amr bin Dinardan, o da Mücahiddən belə dediyini rəvayət edir: «Kəniz alan bir qrup İbn Öməri yanlarından keçərkən gördükdə, əllərini kənizin bədən əzalarından çəkdilər. İbn Ömər onların yanına gəldi və kənizin baldırını soyundurdu. Sonra əli ilə sinəsinə vurdu və dedi: «Onu alın!» Muamər dedi: Əbi Nacih mənə Mücahiddən belə dediyini rəvayət etdi: «İbn Ömər əlini kənizin iki döşü arasına qoydu və silkələdi.»*[152]

Digər rəvayətdə belə nəql edilir:

---

[151] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.7, s.286, h.13200*
[152] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.7, s.286, h.13202*

عبد الرزاق عن بن جريج عن نافع أن بن عمر كان يكشف عن ظهرها وبطنها وساقها ويضع يده على عجزها.

*«Əbd ər-Rəzzaq İbn Cureycdən, o da Nafidən belə rəvayət edir: İbn Ömərdən nəql olunub ki, o kənizin arxasını, qarnını və baldırını soyundurur, əlini onun ombasına qoyardı.»*[153]

İkinci xəlifəyə nisbət verilən bu əməl ondan sonra insanlar üçün sünnə halına gəlmiş və ardıcılları olaraq onun bu əməlinə ehtiram göstərmək məqsədilə icra etməyi lazım bilmişlər. İslam tarixinin məşhur cinayətkarlarından Busr bin Ərtat Muaviyyənin göstərişi ilə eyni əməli müsəlman qadınlarının üzərində icra edərdi.

İbn Əbd əl-Birr «əl-İstiab» kitabında yazır:

عن أبي ارباب وصاحب له أنهما سمعا أبا ذر رضى الله عنه يدعو و يتعوذ في صلاة صلاها أطال قيامها وركوعها وسجودها قال فسألناه مم تعوذت وفيم دعوت فقال تعوذت بالله من يوم البلاء ويوم العورة فقلنا وما ذاك قال أما يوم البلاء فتلتقي فتيان من المسلمين فيقتل بعضهم بعضا .وأما يوم العورة فإن نساء من المسلمات ليسبين فيكشف عن سوقهن فأيتهن كانمت أعظم ساقا اشتريت على عظم ساقها فدعوت الله ألا يدركني هذا الزمان ولعلكما تدركانه قال فقتل عثمان ثم ارسل معاوية بسر بن ارطاة إلى اليمن فسبى نساء مسلمات فأقمن في السوق.

*«Əbu Ərbab və dostundan rəvayət olunub ki, Əbu Zərrin (r.a) haqqında namazın qiyamı, ruku və səcdələrini uzadaraq Allaha pənah apardığını eşidiblər. Ondan «Nədən Allaha pənah aparırsan?» - deyə soruşduqda, «Bəla və övrət günündən» - deyə cavab verdi. Dedik: «Bu iki gün nə gündür?» (Cavabında ) dedi: «Bəla günü iki müsəlman dəstənin bir-biri ilə döyüşdükləri və bir-birlərini öldürdükləri gündür. Övrət günü isə müsəlman qadınları əsir edərək bazarda onların baldırlarının soyundurulduğu gündür. Baldırı ən yaxşı olanını alırdılar. Allahdan istədim ki, o dövrü görməyi mənə nəsib etməsin, amma bəlkə siz o dövrü gördünüz. Çox keçmədi ki, Osman öldü və Muaviyyə Busr bin Ərtatı Yəmənə göndərdi və müsəlman qadınlarını əsir edərək bazara gətirdilər.»*[154]

Əhli-sünnə alimləri sözü gedən həmin bu əməli şəriətdən hesab edərək, kişinin evlənmədən öncə aldığı qadının bədəninə baxmasının müstəhəb olduğu düşüncəsindədirlər. Muhəmməd bin İsmayil əs-Sənani yazır:

---

[153] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.7, s.286, h.13205*
[154] *İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.1, s.161*

دلت الأحاديث على أنه يندب تقديم النظر إلى من يريد نكاحها وهو قول جماهير العلماء والنظر إلى الوجه والكفين لأنه يستدل بالوجه على الجمال أو ضده والكفين على خصوبة البدن أو عدمها .وقال الأوزاعي ينظر إلى مواضع اللحم. وقال داود ينظر إلى جميع بدنها. والحديث مطلق فينظر إلى ما يحصل له المقصود بالنظر إليه ويدل عليه فهم الصحابة لذلك ما رواه عبد الرزاق وسعيد بن منصور أن عمر كشف عن ساق أم كلثوم بنت علي.

*«Hədislər dəlalət edir ki, evləniləcək qadının bədəninə baxmaq müstəhəbidir. Bu, bütün alimlərin nəzəridir. Lakin bu baxış üz və biləyə qədər əllərə olar. Çünki bir qadının üzü onun gözəl, və ya çirkinliyini, əlləri isə arıq, və ya kök olmasını göstərir. əl-Əuzai deyib ki, bədənin ət gələn hər yerinə baxmaq olar. Davud deyib ki, bütün bədənə baxmaq olar. Rəvayət mütləq olduğu üçün evlənmək fikrindən daşındıran hər yerə baxmaq olar. Bunun dəlili isə səhabənin fəhmidir. Belə hallardan biri Əbd ər-Rəzzaq və Səid bin Mənsurun rəvayət etdikləri «Ömər Ümmü Gülsüm bint Əlinin baldırını soyundurdu» rəvayətidir.»*[155]

***<u>Bu əməlin digər əhli-sünnə alimləri tərəfindən izahı:</u>***

Bəzi əhli-sünnə alimləri bu rəvayətlərdən çıxan nəticənin Allah Rəsulunun (s.ə.a) namusuna iftira olduğunu dərk etdikləri üçün ikinci xəlifəni müdafiə etmək və abrını qorumaq naminə məlum rəvayətlərə müxtəlif izahlar veriblər. Amma təəssüf ki, həmin rəvayətlər nə qədər çirkindirsə, ətrafında dolaşan izahlar da bir o qədər gülüncdür.

İbn Həcər əl-Heysəmi yazır:

وتقبيله وضمه لها على جهة الإكرام لأنها لصغرها لم تبلغ حدا تشتهى حتى يحرم ذلك....

*«Ömər bin əl-Xəttabın Ümmü Gülsümü (nigahdan əvvəl) öpüb-qucaqlaması hörmət mənasında olub. Ümmü Gülsüm az yaşlı idi və təklif həddinə çatmamışdı ki, öpülməsi və qucaqlanması onun üçün haram olsun.»*[156]

Yuxarıda təqdim etdiyimiz rəvayətlərdən bir neçəsində Ömər bin əl-Xəttabın Ümmü Gülsümə qarşı qeyri-etik münasibətlərinin müqabilində onun xəlifəyə qarşı sərt şəkildə qarşı çıxmasını xüsusi ilə xatırlatmaq istərdik. Əgər Ümmü Gülsüm o qədər kiçik idisə, xəlifənin çirkin əməlinin haram olduğunu necə anladı və «gözünü çıxarardım», «burnunu sındırardım» kimi ifadələri niyə işlətdi?

---

[155] *Muhəmməd b. İsmayıl əs-Sənani, Subul əs-səlam şərh Buluğ əl-məram, c.3, s.113*

[156] *İbn Həcər əl-Heysəmi, əs-Səvaiq əl-muhriqə, c.2, s.457*

Əgər xəlifənin Ümmü Gülsümü öpməsi hörmət mənasında olubsa, bəs baldırını soyundurması nəyə görə idi? Görəsən bu izahı verən, və yaxud bu izah ilə qane olanlar qız uşağına ehtiram bəsləmək niyyətilə onun baldırını soyundurmasını da qəbul edirlərmi? Maraqlıdır ki, əl-Heysəminin izahına görə, yetkinlik yaşına çatmayan kiçik qız uşağı olduğu üçün xəlifənin şəhvətini oyatmayan Ümmü Gülsüm, rəvayətlərdə qeyd olunduğu kimi, qısa müddət ərzində üç övlad dünyaya gətirdi.

***Bu əməlin çirkin olduğunu qeyd edən əhli-sünnə alimləri:***

Məlum əməlin çirkinliyini etiraf edən əhli-sünnə alimləri də olmuşdur. Onlar bu əməli xəlifəyə yaraşdırmadıqlarını və qəbahət olduğunu açıq bəyan ediblər. Sibt bin əl-Cəuzi bu haqda yazır:

ذكر جدي في كتاب منتظم ان علياً بعثها لينظرها و ان عمر كشف ساقها و لمسها بيده، هذا قبيح والله. لو كانت امة لما فعل بها هذا. ثم باجماع المسلمين لايجوز لمس الاجنبيه.

*«Mənim babam (yəni, İbn əl-Cəuzi) «Muntəzəm» kitabında nəql etmişdir ki, Əli Ümmü Gülsümü görməsi üçün Ömərin yanına göndərdi. Lakin Ömər onun baldırını soyundurdu və əli ilə toxundu. Allaha and olsun ki, bu iş çirkindir. Əgər o kəniz olsaydı belə, (Ömərin) bu işi görməyə haqqı yox idi. Çünki müsəlmanların icmasına əsasən, naməhrəm qadına əl vurmaq icazəli deyildir.»*[157]

***Şiə alimlərinin bu barədə fikirləri:***

Şəhid Qazi Nurullah ət-Tustəri bu barədə yazır:

وإني لأقسم بالله على أن ألف ضربة على جسده عليه السلام وأضعافه على جسد أولاده أهون عليه من أن يرسل ابنته الكريمة إلى رجل أجنبي قبل عقدها إياه ليريها فيأخذها ذلك الرجل ويضمها إليه ويقبلها ويكشف عن ساقها وهل يرضى بذلك من له أدنى غيرة من آحاد المسلمين.

*«Allaha and olsun ki, əmir əl-möminin Əlinin (ə) bədəninə min zərbə, övladlarının bədəninə isə ondan da çox zərbə vurulsaydı, onlar üçün hörmətli qızını kəbindən qabaq naməhrəm bir kişiyə göstərmək üçün yanına göndərməkdən və onun qızı qucaqlayıb öpməsindən, baldırını soyundurmaqdan daha rahat olardı. Görəsən bu işə razı ola bilən qeyrətli müsəlman varmı?»*[158]

Seyyid Nasir Hüseyn əl-Hindi yazır:

---

[157] *Sibt b. əl-Cəuzi, Təzkirət əl-xəvvas, s.288-289*

[158] *Qazi Nurullah ət-Tustəri, əs-Səvarim əl-muhriqə fi nəqd əs-səvaiq əl-muhriqə, s.200*

ومن العجائب أن واضع هذ الخبر لقلة حيائه قد افترى أن سياقه المنكر أن عمر بن الخطاب معاذ الله قد كشف ساق سيدتنا أم كلثوم (ع) وهذا كذب عظيم، وبهتان جسيم، تقشعر منه الجلود، وتنفر عنه كل قلب ولو كان الجلمود، ولعمري إن هذا المفتري الكذاب قد فاق في الفرية والفضيحة وبالجرأة والجسارة على مختلق السياق السابق الذي أورده ابن عبد البر، أولا بغير سند، فإن ذلك المختلق المدحور قد ذكر في سياق المذكور وضع اليد على الساق....

ومن البين أن وضع اليد على الساق وإن كان منكرا قبيحا جدا، ولكن هذا الخبيث الذي يقول: فكشف عن ساقها، يظهر خبثه صراحة ...

*«Təccüblüdür ki, həyasızlığına görə bu rəvayəti uyduran mətni qəbul görülməyən bir yalan rəvayət nəql edib ki, Ömər bin əl-Xəttab (məazəllah) Ümmü Gülsümün baldırını soyundurmuşdur. Bu böyük yalan və çirkin töhmət insanın bədənini lərzəyə gətirir, qəlbləri kədərə qərq edir.*

*Canıma and olsun! Bu yalançı özündən qabaq bu rəvayəti sənədsiz olaraq nəql edən yalançı və həyasız İbn Əbd əl-Birrdən daha çox cürət tapmış və cəsarət etmişdir. Çünki o yalançı ancaq əlini baldırına qoyduğunu nəql etmişdir.*

*Aydındır ki, baldırına əl qoymaq özü belə qəbahətdir. Lakin bu alçaq deyir ki, o Ümmü Gülsümün baldırın soyundurdu. Bu yalançı ravi öz gizli xəbisliyini aşkar etdi.»*[159]

Ey insaf əhli, heç əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) kimi bir şəxsiyyət belə bir çirkin iftiraya layiqdirmi? Heç elə bir şəxs öz qızını evlənmədən və kəbin olmadan belə bir utanc verici görüşə göndərə bilərmi?

Biz belə rəvayətlərin saxta olduğuna, uydurulduğuna qətiyyən şübhə etmirik. Lakin əhli-sünnənin bəzi tanınmış alimləri, o cümlədən əz-Zəhəbi və İbn Həcər əl-Əsqəlani kimi şəxslər bu mətləbi allı-güllü açıq bəyan etmişlər. Odur ki, biz də onlardan soruşuruq:

Hesab edək ki, İmam Əli (ə) daim haqqın səsi olmuş və haqq uğrunda mübarizə apararaq dostdan çox düşmən qazanmışdır. Sonra da biriləri düşmənçilik üzündən o həzrətə qarşı belə bir iftira uydurmuşdur. Yaxşı bəs özünü əhli-sünnə hesab edən və hər məqamda xəlifələrin müdafiəsinə qalxanlar niyə ikinci xəlifə Ömər bin əl-Xəttaba belə bir iyrənc töhmət vurublar? Əhli-sünnəyə

[159] *İfham əl-ədai və əl-xusum, c.1, s.169*

görə Allah Rəsulunun (s.ə.a) canişini olan Öməri bu əmələ layiq görənlər əslində kimi töhmət altında buraxırlar?

Necə olur ki, az yaşlı bir qız uşağı həmin çirkin əməlin haram olduğunu düşünərkən, müsəlmanların xəlifəsi o günahın fərqinə belə varmamışdır? İzah edə bilərsinizmi? Hər halda, bu şəkildə cəsarət edərək Allah Rəsulunun (s) namusuna iftira yaxanlar üçün başqalarının kim olduğu o qədər də əhəmiyyətli olmasın gərək...

## Ümmü Gülsümün Öməri «möminlərin əmiri» adlandırması

Bu əfsanədə təəccüb doğuran bir başqa məqam Ümmü Gülsümün Öməri «əmir əl-möminin», yəni «möminlərin əmri» adlandırmasıdır. Rəvayətə görə ikinci xəlifə Ümmü Gülsümün baldırını soyundurub üzündən öpərkən Ümmü Gülsüm bu əməlin çirkinliyini anladığından xəlifənin gözünü kor etmək istəyini bəyan edib. Amma bunla belə eyni zamanda onu «əmir əl-möminin» adlanıdırıb.

Anlamaq mümkün deyil ki, iyrənc əməl sahibi və harama əl uzadaraq üzərinə götürdüyü vəzifə baxımından müsəlmanların etimadına xəyanət edən bir şəxsə Ümmü Gülsüm necə təqva və iman sahiblərinin ağası kimi müraciət etmişdir?

Seyid Nasir Hüseyn əl-Hindi yazır:

ومما يدل على قلة حياء هؤلاء الكذابين أنهم ينسبون إلى سيدتنا أم كلثوم ( ع ) أنها وصفت عمر بن الخطاب بأمير المؤمنين ولا يشعرون أن السيدة التي ولدت في بيت النبوة وترعرعت من جرثومة الرسالة كيف تخاطب رجلا وضع يداه على ساقها، أو كشف ساقاها، واستحق عنده أن يكسر أنفه أو يلطم عينيه بهذا الخطاب الجليل.

ولعمري أن الواضع للسياق الأول أحق بالتعسير والتنديد، حيث أورد في سياقه بعد ذكر التشوير والتهديد، أنها لما جاءت أباها أخبرته الخبر، وقال: بعثتني إلى شيخ سوء، أفيكون هذا الشيخ الذي أسوأ المجسم مستحقا للوصف بأمرة المؤمنين؟ حاشا وكلا إن هذا لاختلاق واضح والله لا يهدي كيد الخائنين.

*«Bu yalançıların utanmadan nəql etdikləri rəvayətdə bir mətləb də var ki, guya Ümmü Gülsüm xanım Öməri «əmir əl-möminin» adlandırmışdır. Lakin onlar bilmirlər ki, o, nübuvvət evində böyümüş və risalət bulağından sirab olmuşdur. O, baldırına əl uzadan, yaxud onu soyunduran şəxsi öz nəzərində gözü çıxarılmağa, yaxud burnu sındırılmağa layiq bildiyi halda, necə bu cür hörmətamiz xitabla çağıra bilər?*

*Birinci rəvayəti uyduran daha çox əzaba layiqdir. Çünki öz yazısında Ümmü Gülsümün sözlərini və Öməri təhdid etməsini bitirir, sonra atasının yanına gələrək başına gələnləri ona danışır: «Məni pis qoca kişinin yanına göndərmişdin.»*

*Bəs görəsən bu qədər çirkin əməl edən bu qoca kişiyə «əmir əl-möminin» sifəti ilə müraciət etmək layiqdirmi?*

*Heç şübhə yoxdur ki, bu, açıq-aşkar yalandır. Allah xainləri xəyanətlərinə çatdırmaz.»*[160]

## Muğəyrənin xəyanətinə Ömərin münasibəti

Əhli-sünnə iddia edir ki, Ömər Ümmü Gülsüm ilə evlənmişdir. Əgər doğurdan bu iddia həqiqətdirsə, niyə Muğəyrə bin Şöbə Ümmü Gülsümü təhqir edərkən Ömər qeyrətinə sığışdırdı və öz zövcəsini müdafiyə etmədi?

İbn Xəllikan yazır:

ثم إن أم جميل وافقت عمر بن الخطاب رضي الله عنه بالموسم والمغيرة هناك فقال له عمر أتعرف هذه المرأة يا مغيرة قال نعم هذه أم كلثوم بنت علي فقال له عمر أتتجاهل علي والله ما أظن أبا بكرة كذب عليك وما رأيتك إلا خفت أن أرمى بحجارة من السماء.

*«Ummu Cəmil (barəsində üç nəfər şahidlik etdi ki, Muğeyrə onunla zina edib. Dördüncü şəxsin şahidlikdən imtina etməsi onu şərii cəzadan bəraət qazandırdı) Ömər ilə birlikdə həccdə olanda, Muğəyrə də Məkkədə idi. Ömər Muğeyrəyə (Ummu Cəmili göstərərək) dedi: «Bu qadını tanıyırsan?»*

*Muğəyrə cavabında dedi: «Bəli! Bu, Əlinin qızı Ümmü Gülsümdür.» Ömər dedi: «Sən özünü bilməməzliyə vurursan? Allaha and olsun! Belə güman edirəm ki, Əbu Bəkr sənin haqqında yalan deməyib. Mən hər dəfə səni görəndə qorxuram ki, göydən başıma daş düşər!»*[161]

Əbu əl-Fərəc əl-İsfəhani yazır:

حدثنا ابن عمار والجوهري قالا حدثنا عمر بن شبة قال حدثنا علي بن محمد عن يحيى بن زكريا عن مجالد عن الشعبي قال كانت أم جميل بنت عمر التي رمي بها المغيرة بن شعبة بالكوفة تختلف إلى المغيرة في حوائجها فيقضيها لها قال ووافقت عمر بالموسم والمغيرة هناك فقال له عمر أتعرف هذه قال نعم هذه أم كلثوم

[160] *İfham əl-ədai və əl-xusum, c.1, s.169*

[161] *İbn Xəllikan, Vəfəyat əl-əyan və ənba əbna əz-zəman, c.6, s.366*

بنت علي فقال له عمر أتتجاهل علي والله ما أظن أبا بكرة كذب عليك وما رأيتك إلا خفت أن أرمى بحجارة من السماء

*«Bizə İbn Əmmar əl-Cəuhəri rəvayət etdi və dedi: bizə Ömər bin Şəbbə rəvayət etdi və dedi: Əli bin Muhəmməd bizə Yəhya bin Zəkəriyyadan, o da Mucaliddən, o da əş-Şəbidən rəvayət etdi və dedi: Ümmü Cəmil bint Ömər həmin şəxsdir ki, Muğəyrəni onunla zina etməkdə ittiham etmişdilər. O, Kufədə Muğəyrənin yanına gedir və işlərini görürdü. Bu qadın həcc zamanı Ömər və Muğəyrə ilə yoldaş oldu. Ömər (Ümmü Cəmili göstərərək) Muğəyrəyə dedi: «Bu qadını tanıyırsan?» Cavab verdi: «Bəli, Əlinin qızı Ümmü Gülsümdür!» Ömər dedi: «Mənim qabağımda özünü bilməməzliyə qoyursan? Allaha and olsun, belə güman edirəm ki, Əbu Bəkr sənin haqqında yalan deməyib. Mən hər dəfə səni görəndə göydən başıma daş düşəcəyindən qorxuram!»*[162]

Muğəyrənin Ümmü Cəmil ilə zina etməsi isbat olunmasa da məşhur və məlum məsələdir. Onun necə mənfur şəxs olduğunu hər kəs bilir. Amma oxuduğunuz kimi, elə bir şəxs Allah Rəsulunun (s) qızını zina etdiyi qadınla müqayisə edərək açıq-aşkar təhqir edir, amma ikinci xəlifə Ömər onu cəzalandırmır. Həqiqətən əgər Ümmü Gülsüm onun zövcəsi idisə, gərək ən azı qeyrətə gəlib zövcəsini müdafiə edərdi. Görünən budur ki, Ömər bu haqda bir kəlmə söz belə etmir.

---

[162] *Əbu əl-Fərəc əl-İsfahani, əl-Əğani, c.16, s.109*

# V FƏSİL
## Ömər bin əl-Xəttabın evlənmək üçün etdiyi təklifin təhlili və araşdırılması

İddia olunur ki, ikinci xəlifə Ömər bin əl-Xəttab Ümmü Gülsümə elçilik etmək istədikdə, İmam Əli (ə) onun az yaşlı olduğunu bəhanə edir və Ömərin təklifini qəbul etməkdən çəkinir. Amma xəlifə təkid edərək dəlil göstərdiyi üçün İmam (ə) qəbul edir.

Əbd ər-Rəzzaq əs-Sənani yazır:

تزوج عمر بن الخطاب أم كلثوم بنت علي بن أبي طالب وهي جارية تلعب مع الجواري فجاء إلى أصحابه فدعوا له بالبركة فقال إني لم أتزوج من نشاط بي ولكن سمعت رسول الله صلى الله عليه وسلم يقول إن كل سبب ونسب منقطع يوم القيامة إلا سببي ونسبي فأحببت أن يكون بيني وبين نبي الله صلي الله عليه وسلم سبب ونسب

*«Ömər bin əl-Xəttab Əli bin Əbi Talibin qızı Ümmü Gülsüm ilə evləndi. Ümmü Gülsüm kiçik bir qız olduğu üçün digər qızlar ilə oynayırdı. Ömər öz dostlarının yanına gəldi və onlar da onun üçün bərəkət duası etdilər. Ömər dedi: «Mənim evlənməyimdən məqsədim cavanlıq həvəsi və şövqünə görə deyil. Lakin Allah Rəsulundan (s) eşitmişəm ki, buyurdu: «Mənim səbəb (qohumluq) və nəsəb əlaqələrimdən başqa qiyamət günü bütün səbəb və nəsəblər kəsiləcək.» Mən də istədim ki, mənimlə Allah Rəsulu (s) arasında səbəb və nəsəb olsun»*[163]

Bütün mənbələrin yazdığı tarixi fakta əsasən, Allah Rəsulu (s.ə.a) Ömərin qızı Həfsə xanım ilə evlənmişdi. Yəni, artıq bir şəkildə Allah Rəsulu (s) və Ömər arasında səbəb və nəsəb əlaqələri var idi. Belə olduqda, hansı dəlilə görə yenidən Ümmü Gülsümlə evlənməlidir?

Səbəb və nəsəbdə nə fərqi var ki, kimsə sənin kürəkənin olsun, və yaxud sən kiminsə kürəkəni olasan? Hər bir halda qohumluq yaranmışdır. Əgər Allah Rəsulu (s) ilə qohum olmağın qiyamət günü bir faydası varsa, allah Rəsulunun (s) Həfsə xanımla evlənməsi baş tutmuşdu.

Elə bu üzdən, Allah Rəsulu (s) ilə qohumluğu bəhanə edərək, Ümmü Gülsüm ilə evlənmək üçün deyilən dəlil (əgər Ömər belə bir dəlil gətiribsə) aşkar yalandır. Səbəbi yalan olunca, həmin evliliyin özü də yalandan ibarət olur.

Seyyid Nasir Hüseyn əl-Hindi bu haqda yazır:

---

[163] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.6, s.164*

وأما ما وقع في هذا الخبر المكذوب أن عمر قال للأصحاب: إن رسول الله ( ص ) قال: كل نسب وسبب منقطع يوم القيامة إلا نسبي وسببي، وكنت قد صحبته فأحببت أن يكون هذا أيضا.

فمردود لأن اتصال السبب من رسول الله ( ص ) لعمر بعد الصحبة كان حاصلا بلا شبهة عند أهل السنة من جهة أبنته حفصة: فإنها كانت من أزواج رسول الله ( ص )، وهذا الاتصال يكفي له أن كان عمر بن الخطاب مؤمنا مصدقا لقوله، وإن لم يكن مؤمنا مصدقا للرسول ( ص ) فما يزيده هذا الاتصال الذي طلبه من علي ( ع )

*«Bu yalan rəvayətdə nəql olunub ki, Ömər öz dostlarına dedi: Allah Rəsulundan (s) eşitmişəm ki, buyurdu: «Mənim səbəb və nəsəb əlaqələrimdən başqa qiyamət günü bütün səbəb və nəsəblər kəsiləcək.» Mən (sadəcə) səhabə idim və istədim ki, mənimlə Allah Rəsulu (s) arasında səbəb və nəsəb olsun.»*

*Bu, qəbul edilməz dəlildir. Çünki Ömər səhabə olduqdan sonra əhli-sünnənin də heç bir şübhə etmədiyi kimi Allah Rəsulunun (s) onun qızı Həfsə xanımla evlənməsindən onlar arasında səbəb və nəsəb hasil olmuşdur. Həfsə xanım Allah Rəsulunun (s) zövcələrindən biri idi və bu da Allah Rəsulu (s) ilə qohumluq yaratmaq üçün kifayətdir. Belə ki, bu bağlılıq Ömərin Allah Rəsulunun (s) buyruqlarına iman etdiyi vaxtda olmuşdur.*

*Əgər Allah Rəsulunun sözlərinə imanı yoxdursa, bir də bu bağlılığı yaratmaq üçün Əlinin (ə) qızına elçi getməyin nə faydası var?»*[164]

Allah-Təala Qurani-Kərimdə buyurur:

فَإِذَا نُفِخَ فِي الصُّورِ فَلَا أَنْسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلَا يَتَسَاءَلُونَ

*«Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar.»*[165]

Əbu Hureyrədən nəql edilir ki, Peyğəmbər (s) buyurdu:

وَمَنْ بَطَّأَ بِهِ عَمَلُهُ لَمْ يُسْرِعْ بِهِ نَسَبُهُ

*«Kimin əməli onu yavaşladıb geri salarsa, nəsəbi onun surətləndirib önə keçirməz.»*[166]

Bundan əlavə, İbn Teymiyyə deyir:

وأما أهل السنة فإنما يعظمون بالتقوى لا بمجرد النسب قال تعالى إن أكرمكم عند الله أتقاكم

---

[164] *İfham əl-ədai və əl-xusum, c.1, s.140*

[165] *Muminun, 101*

[166] *Müslim bin Həccac ən-Nisaburi, əl-Cami əs-Səhih, c.4, s.2074, h.2699*

*«Əhli-sünnənin (nəsəb barədə) nəzərinə gəldikdə isə onlar insanları özü-özlüyündə nəsəb baxımından yox, təqva baxımından uca sayarlar. Bu barədə Allah-Təala buyurur: «Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır.(Hucurat, 13)»*[167]

Həmçinin deyir:

أهل السنة لا يفضلون الرجل إلا بنفسه فلا ينفع محمدا قربه من أبي بكر وعائشة ولا يضر معاوية أن يكون ذلك أفضل نسبا منه وهذا أصل معروف لأهل السنة

*«Əhli-sünnə şəxsi ancaq şəxsən kəsb etdiyi təqvasından ötrü ucaldarlar. Muhəmməd (bin Əbu Bəkrin) Əbu Bəkr və Aişəyə olan yaxınlığının ona faydası olmadığı kimi nəsəbcə Muaviyədən üstün olması da Muaviyəyə zərər verməz və bu, əhli-sünnənin bilinən üsuludur.»*[168]

Beləliklə, həm Quran, həm hədis, həm də alimlərin sözləri Ömər bin əl-Xəttabın evlilik üçün gətirdiyi dəlili kökündən inkar edir.

[167] *İbn Teymiyyə əl-Hərrani, Minhac əs-sünnə ən-Nəbəviyyə, c.4, s.212*
[168] *İbn Teymiyyə əl-Hərrani, Minhac əs-sünnə ən-Nəbəviyyə, c.4, s.213*

## VI FƏSİL
## Allah Rəsulunun (s) sünnəsi ilə müxalifətçilik

Allah (əzzə və cəllə) Qurani-Kərimdə buyurur:

لَّقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُواْ اللَّهَ وَ الْيَوْمَ الآخِرَ وَ ذَكَرَ اللَّهَ كَثِيرًا

*«Şübhəsiz, Allaha və axirət gününə (qəlbdə və əməldə) ümid bəsləyən və Allahı çox zikr edənlər üçün Allah Rəsulunun rəftarında həyat örnəyi və nümunəsi vardır.»*[169]

Allah Təbarək və Təala bu ayə ilə bütün möminlərə xitab edərək İslamın əziz Peyğəmbərini (s) bütün möminlərə «usvətul-həsənə» ifadəsi ilə parlaq bir nümunə olaraq təqdim edir. Allah Rəsulu (s) haqqında buyrulan «usvətul-həsənə» sözündə məqsəd hər bir əməlimizdə ona təqlid etmək mənasını çatdırmaqdır. «Ləkum fi Rəsulillah» ifadəsi istiqrar və davamiyyəti ifadə edir. Bu, vəzifəmizin sabit və davamlı olmasının zəruriliyini bizə göstərmək üçündür. Yəni, Allah Rəsulu (s) bizin üçün daima nümunə olmalıdır. Allah Rəsulunun (s) risalətinin fəlsəfəsi yalnız iman etməklə məhdudlaşmır. Eyni zamanda, o həzrətin dediklərinə və etdiklərinə əməl etmək deməkdir. Elə bu da ayənin ümumi mənasıdır.

### Allah Rəsulunun (s) rədd etdiyi elçilər

Bildiyiniz kimi, Əbu Bəkr və Ömər bir zamanlar Xanım Fatimə (ə) üçün Allah Rəsuluna (s) elçi gəlmişdilər. Lakin Allah Rəsulu (s) onların hər ikisini rədd edərək təkliflərini qəbul etməmişdi. Bəlkə də onlarla bu şəkildə qohum olmalarını məsləhət bilmədi. Peyğəmbər (s) o xanımın yaşı, imanı, əxlaqı və fiziki xüsusiyyətləri ilə bu iki nəfərin xüsusiyyətlərinin münasib olmamasını bildiyi üçün layiq görmədi. İbn Həcər əl-Heysəmi «əs-Səvaiqul-muhriqə» kitabının 11-ci babında yazır:

وأخرج أبو داود السجستاني أن أبا بكر خطبها فأعرض عنه صلى الله عليه وسلم ثم عمر فأعرض عنه فأتيا عليا فنبهاه إلى خطبتها فجاء فخطبها.

*«Əbu Davud əs-Sicistani nəql edib ki, Əbu Bəkr Fatimə (ə) üçün elçilik etdikdə, Allah Rəsulu (s) ondan üz çevirdi. Sonra Ömər elçilik etdikdə, Allah Rəsulu (s)*

[169] *əl-Əhzab surəsi, 21-ci ayə*

*ondan da üzünü çevirdi. Sonra onlar hər iksi Əlinin (ə) yanına gələrək, ona xanım Faimə (ə) üçün elçilik etməsini təklif etdilər, o da qəbul etdi.»*[170]

İbni Hibban «əs-Səhih» adlandırdığı əsərində və ən-Nəsai öz «Sünən» kitabında yazır:

أخبرنا الْحُسَيْنُ بن حُرَيْثٍ قال حدثنا الْفَضْلُ بن مُوسَى عن الْحُسَيْنِ بن وَاقِدٍ عن عبد اللَّهِ بن بُرَيْدَةَ عن أبيه قال خَطَبَ أبو بَكْرٍ وَعُمَرُ رضي الله عنهما فَاطِمَةَ فقال رسول اللَّهِ صلى الله عليه وسلم أنها صَغِيرَةٌ فَخَطَبَهَا عَلِيٌّ فَزَوَّجَهَا منه.

*«Bizə əl-Husəyn bin Hurəys xəbər verdi və dedi: əl-Fəzl bin Musa bizə əl-Husəyn bin Vaqiddən, o da Abdullah bin Burəydədən, o da atasından nəql edir ki, Əbu Bəkr və Ömər Fatimə (ə) üçün elçilik etdilər. Allah Rəsulu onlara buyurdu: «Fatimənin yaşı azdır» Sonra Əli (ə) elçilik etdi. Allah Rəsulu (s) onu Əli (ə) ilə evləndirdi.»*[171]

Hakim ən-Nisaburi bu hədisi qeyd etdikdən sonra yazır:

هذا حديث صحيح على شرط الشيخين ولم يخرجاه.

*«Bu hədis iki şeyxin (əl-Buxari və Muslimin) şərtlərinə görə səhihdir, lakin onlar bunu (kitablarında) nəql etməmişlər.»*[172]

Ayədə də oxuduğumuz kimi, Allah Rəsulunun (s) bütün etdikləri bütün möminlər üçün nümunədir. Həyatın hər mərtəbəsində O Həzrətdən bəhrələnmək və onun sünnəsinə uyğun şəkildə həyat tərzi qurmaq lazımdır.Bu məsuliyyəti bizlər bu qədər dərk ediriksə necə oldu ki,İmam Əli (ə) kimi ilahi və nurani bir şəxsiyyət qızını Ömərə verərək bu sünnətə əməl etmədi? Əgər Əhlibeytdən Əbu Bəkr və Ömərə qız vermək məsləhət olsaydı hər kəsdən əvvəl bunu Allah Rəsulu (s) özü edərdi.Yox əgər Allah Rəsulu (s) etmədisə İmam Əli (ə) kimi bir müsəlman bunu heç vaxt etməz.Hətta İmam Əi (ə) etsəydi belə bu Allah Rəsuluna (s) müxalifətçilik və onun sünnətinə laqeydlik olardı. Bunlar da İmam Əli (ə) kimi bir şəxsin barəsində əsla söylənilməz xüsuslardır.

---

*[170] İbn Həcər əl-Heysəmi, əs-Səvaiq əl-muhriqə, c.2, s.471*

*[171] İbn Hibban , əs-Səhih, c.15, s.399; Əhməd b. Şuəyb ən-Nəsai, Xəsais Əmir əl-möminin Əli bin Əbi Talib, c.1, s.136; əl-Muctəba min əs-sünən, c.6, s.62; Nur əd-Din əl-Heysəmi, Məvarid əz-zəman ila zəvaid İbn Hibban, c.1, s.549; İbn Həcər əl-Əsqəlani, ən-Nukat əz-ziraf əla əl-ətraf, c.2, s.83; Əli əl-Qari, Mirqat əl-məfatih şərh mişkat əl-məsabih, c.11, s.259*

*[172] əl-Hakim ən-Nisaburi, əl-Mustədrək əla əs-səhiheyn, c.2, s.181*

## Ömər bin əl-Xəttab və cahiliyyət adətləri

Ömərin Ümmü Gülsüm ilə evlənməsində problem yaradacaq faktlardan biri onun İslamın zühurundan 30 il keçməsinə baxmayaraq, yenə də cahiliyyət dövrünün adətlərinə sadiq qalmasıdır. Uzun illər müsəlmanların xəlifəsi olan bir şəxsin cahiliyyətin qadağan olunmuş adətlərini təbliğ etməsi ağıl qəbul etmir.

İbn Səd «Təbəqat əl-kubra» kitabında yazır ki, Ömər bin əl-Xəttab Ümmü Gülsüm üçün elçilik etdikdən sonra Allah Rəsulunun (s) məzarı başında əyləşən mühacir və ənsara dedi:

رفئوني فرفؤوه وقالوا بمن يا أمير المؤمنين قال بابنة علي بن أبي طالب.

*«Məni təbrik edin!»*[173] *Onu təbrik etdilər və səbəbin soruşdular: «Kimin haqqında təbrik deyək, ey Əmir əl-möminin?» Ömər dedi: «Əlinin qızı ilə evləndiyim üçün»*[174]

Bunu hər kəs bilməlidir ki, «Rəffiuni», və yaxud «Bir-rəfa vəl-bənin» ifadələri ilə təbrik etmək cahiliyyət dövrünə məxsus idi. Allah Rəsulu (s) İslam dinini təbliğ etməyə başladıqdan sonra bu əməli də qadağan etdi. Necə ki, ən-Nəvəvi yazır:

وكانت ترفئة الجاهلية أن يقال ( بالرفاء والبنين ) ثم نهى النبي صلى الله عليه وسلم عنها.

*«Cahiliyyət dövrünün təbrik etməsi üslubu şəkildə idi: «Bir-rəfa vəl-bənin». Sonra Allah Rəsulu (s.ə.s) onu nəhy etdi.»*[175]

Səhih əl-Buxarinin şərhçilərindən olan Bədr əd-Din əl-Əyni yazır:

قوله: ( بارك الله لك ) وهذه اللفظة ترد القول: بالرفاء والبنين، لأنه من أقوال الجاهلية، والنبي صلى الله عليه وسلم كان يكره ذلك لموافقتهم فيه، وهذا هو الحكمة في النهي.

*«Barəkəllah ləkə» ifadəsi «Bir-rəfa vəl-bənin» deməyi rədd edir. Çünki bu cümlə cahiliyyət dövrünə xasdır. Allah Rəsulu (s) bunu xoşlamırdı və xoşlamağının səbəbi cahiliyyət dövrünün sünnəsinə qarşı olması idi. Bu da onun qadağan edilməsinin səbəbi idi.»*[176]

---

[173] «رفئوني» - *«Raffiuuni», yəni* «بالرفاء والبنين» - *«birrifəi vəl-bəniin» - tərcüməsi: «xoşbəxtlik və övladlar arzulayıram» söyləyərək məni təbrik edin. Bu ifadə cahiliyyət dövrünə aid təbrik üslubu idi. Peyğəmbər (s) onu qadağan etmişdi.*

[174] *Muhəmməd bin Səd, Təbəqat əl-kubra, c.8, s.463; İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.8, s.294; Səlha əd-Din əs-Səfədi, əl-Vafi əl-vəfəyat, c.15, s.23; Muhəmməd ət-Tilimsani, əl-Cəvhərət fi nəsəb ən-Nəbi və əshabihi, c.2, s.154; İbn əl-Əsir, Usd əl-Ğabə fi marifət əs-səhabə, c.7, s.425; İbn Həmdun, Təzkirət əl-Həmduniyyə, c.9, s.309; İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.4, s.1955; Səid bin Mənsur, Sünən, c.1, s.172*

[175] *Muhy əd-Din ən-Nəvəvi, əl-Məcmu, c.16, s.205*

[176] *Bədr əd-Din əl-Əyni, Umdət əl-qari şərh Səhih əl-Buxari, c.20, s.146*

«Bəs görəsən indi əhli-sünnə alimləri Ömər bin əl-Xəttabın Allah Rəsulunun (s) sünnəsinə qarşı gələrək cahiliyyət dövrünün nəhy edilmiş, və ya haram olunmuş bir əməlini bərpa edərək ona əməl etməsini qəbul edirlərmi?

Maraqlısı burasıdır ki, əhli-sünnə alimlərinin əksəriyyəti bu əməlin Allah Rəsulunun (s) sünnəsinə tam müxalif olduğunu təsdiq edirlər. Lakin ikinci xəlifə Ömər bin əl-Xəttabın abrı naminə müxtəlif bəhanələr də yazmamış deyillər. Lakin bu bəhanələr «üzrü günahından ağırdır» misalı kimi ikinci xəlifəni daha çıxılmaz bir vəziyyətə salır. Gəlin bu məsələ ilə daha  yaxından tanış olaq. Hələbi öz «Sirə»-sində yazır:

أن سيدنا عمر بن الخطاب رضي الله عنه جاء إلى مجلس المهاجرين الأولين في الروضة فقال رفئوني فقالوا ماذا يا أمير المؤمنين قال تزوجت أم كلثوم بنت على هذا كلامه ولعل النهى لم يبلغ هؤلاء الصحابة حيث لم ينكروا قوله كما لم يبلغ سيدنا عمر رضي الله تعالى عنهم.

*«Bizim sərvərimiz Ömər bin əl-Xəttab Allah Rəsulunun(s) qəbri və mehrabı arasında əyləşən ilk mühacirlərin məclisinə gəldi və dedi: «Mənə «Bir-rəfa vəl-bənin» deyin!»*

*Onlar dedilər: «Ey əmir əl-möminin, nə olub?» Cavabında dedi: «Mən Əlinin (ə) qızı Ümmü Gülsümlə evləndim»*

*Ola bilər orda əyləşən səhabələr (Bir-rəfa vəl-bənin) kəlməsini Allah Rəsulunun (s) qadağan etdiyini bilmirdilər. Yoxsa bunu Ömərə irad bildirərdilər. Həmçinin ola bilərdi ki, sərvərimiz Ömərin də bu qadağadan xəbəri yox idi.»*[177]

Lakin elə əhli-sünnənin öz mənbələrində qeyd olunan bir rəvayətə görə, hicrətin səkkizinci ilindən sonra düçar olduğu xəstəlik üzündən o zamanın bir çox hadisələrindən və Allah Rəsulunun (s) xütbələrindən uzaqda qalmış Əqil bin Əbi Talib (Əlinin (ə) qardaşı) bu qadağadan xəbərdar idi:

خرج إلى رسول الله مهاجرا في أول سنة ثمان فشهد غزوة مؤتة ثم رجع فعرض له مرض فلم يسمع له بذكر في فتح مكة ولا الطائف ولا خيبر ولا في حنين

*«O (Əqil bin Əbi Talib) hicrətin səkkizinci ilinin əvvələrində hicrət etdi və Mutə döyüşündə iştirak etdi. Sonra qayıtdı və xəstələndi. O üzdən daha Məkkənin fəthi, Taif, Xeybər və Huneyn kimi vacib döyüşlərdə ondan bir xəbər olmadı.»*[178]

Əhməd bin Hənbəl yazır:

---

[177] *Əli bin Burhan əd-Din əl-Hələbi, əs-Sirə əl-Hələbiyyə ən-Nəbəviyyə, c.2, s.42*

[178] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.4, s.43*

حدثنا عبد اللَّهِ حدثني أبي ثنا الْحَكَمُ بن نَافِعٍ حدثنا إسماعيل ابن عَيَّاشٍ عن سَالِمِ بن عبد بن عبد اللَّهِ عن عبد اللَّهِ بن مُحَمَّدِ بن عَقِيلٍ قال تَزَوَّجَ عَقِيلُ بن أبي طَالِبٍ فَخَرَجَ عَلَيْنَا فَقُلْنَا بِالرِّفَاءِ وَالْبَنِينِ فقال مَهْ لاَ تَقُولُوا ذلك فان النبي صلى الله عليه وسلم قدنهانا عن ذلك وقال قُولُوا بَارَكَ الله فِيكَ وَبَارَكَ الله فيها

*«Bizə Abdullah rəvayət etdi (və dedi): mənə atam rəvayət etdi (və dedi): bizə əl-Həkim bin Nafi rəvayət etdi (və dedi): İsmayıl bin Əyyaş bizə Salim bin Əbd bin Abdullahdan, o da Abdullah bin Muhəmməd bin Əqildən belə dediyini rəvayət etdi: Əqil bin Əbi Talib evləndi. Biz ona «Bir-rəfa vəl-bənin» dedik. O bizə dedi: «Əsla belə söz deməyin! Allah Rəsulu (s) bizə bu sözü qadağan etmişdir. Deyini ki, Allah sənə və o qadına bərəkət versin!»*[179]

Müşahidə etdiyiniz kimi, əməlin özü nə qədər böyük qəbahət olsa da bəhanəsi ondan da böyük qəbahətdir. Həqiqətən çox gülünc bir vəziyyət yaranır. Əgər bu hadisənin olmadığını iddia etsələr, o zaman Ümmü Gülsümlə evliliyin yalan olması öz təsdiqin tapır. Lakin bunu etməmək üçünsə ikinci xəlifə Öməri töhmət altında buraxan bir rəvayəti daha da gülünc bəhanələr ilə izah etməyə çalışırlar. Yəni, Əqil bin Əbi Talib kimi hər hadisədən və xütbələrdən uzaq düşmüş bir şəxs bu şəkildə təbrik deməyin haram olduğunu bildiyi halda, aralarında ilk hicrət edən mühacirlərin də olduğu səhabələr məclisində bir nəfərin bu qadağadan xəbəri yox idi. Daha aydın desək, iyirmi ildən yuxarı Allah Rəsulunun (s) hər sözünü dinləyən o qədər səhabənin belə bir qadağadan məlumatsız olması qəribədir. Başqa bir tərəfdən, bu ifadəni işlədərək səhabələrə bu şəkildə təbrik edilməsini istəyən Ömər bin əl-Xəttab da bundan xəbərsiz imiş. Neçə il müsəlmanlara xəlifəlik edən bir şəxsin Allah Rəsulunun (s) əmrləri və qadağalarından məlumatsız olmasını necə izah etmək olar? Sünnə və şəriətdən bu qədər xəbərsiz olan şəxs müsəlmanların xəlifəsi necə oldu? O müsəlmanları bu şəkildə necə hidayətə qovuşdura bilər? Ömər bin əl-Xəttabın ikinci xəlifə olaraq başqa daha nələri unutmadığına, və yaxud xəbərsiz olduğuna kim zəmanət verə bilər?

---

[179] *Əhməd bin Hənbəl, əl-Musnəd, c.1, s.201, h.1738*

## Allah Rəsulunun (s) qızı ilə Allah düşməninin qızına birlikdə evlənmək haramdır

Əhli-sünnə üləması Əmir əl-möminin İmam Əli (ə) haqqında nəql ediblər ki, guya o, xanım Fatimə (ə) ilə evli olduğu halda, Əbu Cəhlin qızı üçün elçilik etmişdi. Bu hadisə xanım Fatimənin (ə) narahatçılığına səbəb olmuş və atası Allah Rəsuluna (s) şikayət etmişdir. Allah Rəsulu (s) da xəbər tutan kimi qəzəbli halda məscidə gələrək buyurmuşdu:

وَإِنَّ فَاطِمَةَ بَضْعَةٌ مِنِّي، وَإِنِّي أَكْرَهُ أَنْ يَسُوءَهَا، وَاللَّهِ لاَ تَجْتَمِعُ بِنْتُ رَسُولِ اللَّهِ صلى الله عليه وسلم وَبِنْتُ عَدُوِّ اللَّهِ عِنْدَ رَجُل وَاحِد ". فَتَرَكَ عَلِيٌّ الْخِطْبَةَ.

*«Fatimə mənim bədənimin bir parçasıdır. Onu kiminsə narahat etməsini sevmirəm. Allaha and olsun ki, Allah Rəsulunun (s) qızı Allahın düşməninin qızı ilə bir yerdə ola bilməz.» Elə bu üzdən Əli (Əbu Cəhlin qızına) elçilik firkindən daşındı.»*[180]

İkinci rəvayətdə Allah Rəsulundan (s) nəql olunur:

إِنَّ بَنِي هِشَامِ بن الْمُغِيرَةِ اسْتَأْذَنُوا في أَنْ يُنْكِحُوا ابْنَتَهُمْ عَلِيَّ بن أبي طَالِبٍ فلا آذَنُ ثُمَّ لَا آذَنُ ثُمَّ لَا آذَنُ إلا أَنْ يُرِيدَ بن أبي طَالِبٍ أَنْ يُطَلِّقَ ابْنَتِي وَيَنْكِحَ ابْنَتَهُمْ فَإِنَّمَا هِيَ بَضْعَةٌ مِنِّي يُرِيبُنِي ما أَرَابَهَا وَيُؤْذِينِي ما آذَاهَا.

*«Hişam bin Muğəyrənin övladları məndən icazə aldılar ki, öz qızlarını Əli bin Əbi Talib ilə evləndirsinlər. (Üç dəfə təkrar edərək) İcazə vermədim. İcazə vermədim. İcazə vermədim. Əbi Talibin oğlu onların qızı ilə evlənmək üçün mənim qızımı boşamalıdır. Fatimə mənim bədənimin bir parçasıdır. Onu narahat edən, məni narahat etmişdir. Ona əziyyət verən, mənə əziyyət vermişdir.»*[181]

Bəziləri İmam Əlidə (ə) nöqsan tutmaq üçün bu rəvayətləri ağız dolusu və müxtəlif yollarla nəql etmişlər. Bu rəvayətləri dəlil göstərərək xanım Fatiməni (ə) incidən şəxs kimi İmam Əlini (ə) hədəfə almışlar.

Lakin biz soruşuruq. Madam ki, Allah Rəsulunun (s) qızı ilə Allah düşmənin qızının bir ailədə olması Allah Rəsulunu (s) bu qədər narahat etmiş və o Həzrət də bu əməli qadağan etmişdirsə, bəs niyə ikinci xəlifə özü bu əməli etmişdir?

Belə ki, ikinci xəlifə Ömər bin əl-Xəttab hicrətin on səkkizinci ilində, yəni Ümmü Gülsüm ilə evli olduğu vaxt Vəlid bin Muğəyrənin qızı Fatimə ilə evlənmişdir. Həmin Vəlid bin Muğəyrə isə Qureyşin kafirlər yaşayan kəndindəndir. O, Bədr döyüşündə İslam qoşunu tərəfindən öldürüldü. Bəzi

[180] Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih , c.3, s.1364, h.3523
[181] Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih , c.5, s.2004, h.4932

təfsirlərə görə: «ذَرْنِي وَمَنْ خَلَقْتُ وَحِيدًا» *«Məni Öz yaratdığım kimsə ilə tək burax» (Muddəsir, 11)* ayəsi də onun haqqında nazil olmuşdur.

İbn Səd «ət-Təbəqat əl-Kubra»-da yazır:

عبد الرحمن بن الحارث بن هشام بن المغيرة بن عبد الله بن عمر بن مخزوم بن يقظة بن مرة وأمه فاطمة بنت الوليد بن المغيرة بن عبد الله بن عمر بن مخزوم ويكنى عبد الرحمن أبا محمد وكان بن عشر سنين حين قبض النبي صلى الله عليه وسلم ومات أبوه الحارث بن هشام في طاعون عمواس بالشام سنة ثماني عشرة فخلف عمر بن الخطاب على امرأته فاطمة بنت الوليد بن المغيرة وهي أم عبد الرحمن بن الحارث

*«Əbdur-Rəhman bin Haris bin Hişam bin Muğəyrə...onun anası Vəlid bin Muğəyrə .... qızı Fatimədir. Allah Rəsulu (s) vəfat edən vaxtı onun on yaşı var idi.Atası Haris bin Hişam h.q. tarixinin on səkkizinci ilində taun xəstəliyindən öldü. Ömər onun arvadı,Vəlid bin Muğəyrənin qızı, Əbd ər-Rəhmanın anası Fatimə ilə evləndi.»*[182]

İbn Həcər əl-Əsqəlani də Əbd ər-Rəhman bin Haris bin Hişamın haqqında buna oxşar şəkildə yazmışdır.[183]

İlk sualmız budur ki, əgər Allah Rəsulunun (s) və Allah düşmənin qızları ilə eyni vaxtda evli olmaq haramdırsa, ikinci xəlifə niyə buna riayət etməmişdir?

Vəlid bin Muğəyrə də, Əbu Cəhl də Allah Rəsulu (s) ilə qəti düşmən olan şəxslərdir. Əbu Cəhlin qızı ilə evlənmək İmam Əli (ə) üçün haramdırsa, Vəlid bin Muğeyrənin qızı ilə evlənmək də ikinci xəlifə üçün haram olmalıdır.

Bir başqa sualımız bundan ibarətdir ki, ikinci xəlifənin Allah Rəsulunun (s) övladı Ümmü Gülsüm ilə evlənməsini iddia edənlər, eyni zamanda onun belə bir harama bais olduğunu da təsdiq edirlərmi?

İmam Əlinin (ə) Əbu Cəhlin qızına elçilik etməsinə gəlincə isə bu iddiannın heç bir tarixi əsası yoxdur. Allah Rəsulu (s) bu əməli haram etməsi doğrudur. Amma bunun səbəbkarı kimi İmam Əlini (ə) göstərmək insafdan uzaq işdir. Biz həmin iddianı edən şəxslərə İmam Əlinin (ə) dilindən bir neçə cümlə ilə qısa cavab vermək istərdik:

وَ لَقَدْ كُنْتُ أَتَّبِعُهُ اتِّبَاعَ الْفَصِيلِ أَثَرَ أُمِّهِ يَرْفَعُ لِي فِي كُلِّ يَوْمٍ مِنْ أَخْلَاقِهِ عَلَماً وَ يَأْمُرُنِي بِالِاقْتِدَاءِ.

---

[182] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.5, s.5*

[183] *İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.5, s.29, r.6204*

*«Dəvənin balası anasının arxasıyca gəzən kimi mən onun (Allah Rəsulunun (s) arxasıyca gəzmişəm. O Həzrət hər gün mənim üçün özünün fəzilətli əxlaqından bir bayrağ ucaldır və məni də ona əməl etməyi tapşırırdı.»*[184]

[184] *Nəhc əl-Bəlağə, 198-ci xütbə (Dr.Subhi əs-Salihin təhqiqi ilə)*

## VII FƏSİL
## Ömər və Ümmü Gülsüm həmtay deyildilər

İkinci xəlifə Ömər bin əl-Xəttab və Ümmü Gülsüm barəsində dini, əxlaqi, mənsubiyyət və şəxsi özəllikləri cəhətindən araşdırma edərkən əldə olunan nəticə göstərir ki, bu ikili heç bir cəhətdən bir-biri ilə münasib deyillər.

Ümmü Gülsüm Allah Rəsulunun (s) övladı idi. Əhli-sünnənin Ümmü Gülsümün anasının xanım Fatimə (ə) olması iddiasını qəbul etsək, deməli, xanım Fatimə (ə) kimi ilahi bir şəxsiyyətin qucağında böyümüşdü. Lakin ikinci xəlifə (əhli-sünnənin nəzərinə görə) ömrünün 2/3-ni bütbərəstlikdə keçirmiş və Huntəmə kimi bir qadının qucağında tərbiyə almışdı.

Onun sərt əxlaqı və zatı xuşunətini əhli-sünnənin böyük alimləri aşkar şəkildə bəyan ediblər. Lakin Ümmü Gülsüm az yaşlı olması ilə bərabər daim əxlaqına xüsusi diqqət ayıran və İslamın ədəb qaydalarına bütün bəşəriyyətə nümunə olacaq tərzdə riayət edən ailədən çıxmışdır.

Ümmü Gülsüm maksimum yeddi-səkkiz yaşda idi. Lakin Ömər bin əl-Xəttabın ən azı əlli yeddi yaşı var idi. Bütün bu cəhətləri göz önündə tutduqda, arada olan fərqi çox aydın şəkildə müşahidə etmək mümkündür. Biz də sizə bu fərqi əhli-sünnəin mənbələri ilə göstərməyə çalışacağıq:

### Haşimi olmaqla olmamağın fərqi

Bir çox əhli-sünnə alimləri evlilikdə dini mənsubiyyət və əsil-nəsəbi zərurət hesab ediblər. Məsələn Qureyşdən olmayan bir şəxs Qureyşdən olan qızla evlənə bilməz. Eyni zamanda, Haşimilərin qızları ilə qeyri-Haşimilərin evlənmsini qəbahət bilirdilər. Çünki Allah Rəsulu (s) Bəni-Haşimdən olduğu üçün digər qəbilələrdən üstün bilinirdilər. Onlardan başqa heç bir qəbilə onlarla müqayisə edilə bilməzdi.

Odur ki, İmam Əli bin Əbi Talib (ə) buyurardı: «Mən qızlarımı Cəfərin övladları üçün saxlamışam. Onlardan başqa heç kimə qız verməyəcəm.»

أَنَّ عُمَرَ خَطَبَ إِلَى عَلِيِّ بْنِ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهُ ابْنَتَهُ أُمَّ كُلْثُومٍ فَقَالَ عَلِيٌّ إِنَّمَا حَبَسْتُ بَنَاتِي عَلَى بَنِي جَعْفَرٍ.

*«Ömər bin əl-Xəttab Əli bin Əbi Talibin (ə) qızı Ümmü Gülsüm üçün elçilik etdi. Əli (ə) cavabında buyurdu: «Mən qızlarımı Cəfərin övladlarına saxladığım üçün (digərləri ilə) evlənmələrini qadağan etmişəm.»*[185]

Əl-Bucəyrəmi əş-Şafei (vəfatı h.q. 1221) yazır ki, Allah Rəsulunun (s) qızı Fatiməni (ə) Əbu Bəkr və Ömərə verməməsinin səbəbi onların Allah Rəsulunun (s) əsil-nəsəbinə münasib olmamaları idi:

وفي شرح الخصائص: وخُصّ أن آله لا يكافئهم في النكاح أحد من الخلق وأما تزويج فاطمة لعليّ، فقيل: إنه لم يكن إذ ذاك كفؤاً لها سواه... وزوّجت له بأمر الله لما رواه الطبراني عن ابن مسعود: أنه لما خطبها منه أبو بكر وعمر ردهما وقال: ( إن الله أمرني أن أُزَوّج فاطِمَةَ مِنْ عَليّ ) وزوجها له في غيبته على المختار ويمكن أنه وكل واحداً في قبول نكاحه فلما جاء أخبره بأن الله تعالى أخبره بذلك فقال رضيت.

*«Şərh əl-Xəsais»-də belə qeyd edilmişdir: Allah Rəsulunun (s) xüsusiyyətlərindən biri budur ki, heç kimin onun ailəsindən olan biri ilə evlənməyə şəni çatmaz. Lakin Əli (ə) və Fatimənin (ə) evlənməsi haqqında deyilmişdir ki, Fatiməyə (ə) ondan (Əlidən) başqa həmtay yox idi. Onlar Allahın əmrinə görə evləndilər. ət-Təbərani İbn Məsuddan rəvayət edib ki, Əbu Bəkr və Ömər Fatimə üçün elçilik edəndə, Allah Rəsulu (s) onların təklifin rədd etdi və buyurdu: «Allah mənə göstəriş verib ki, Fatiməni (ə) Əli(ə) ilə evləndirim.» Odur ki, o, Əlinin (ə) qiyabında evlənmək üçün seçilmişdi. Mümkündür ki, Allah Rəsulu (s) bir şəxsi Əli (ə) tərəfindən nikahın qəbul olmasında vəkil etsin. Allah Rəsulu (s) Əliyə (ə) Allahın onu bu iş üçün vəzifələndirdiyini dedikdə, razılaşdı.»*[186]

Suleyman əl-Bucəyrimi əş-Şafei öz haşiyəsində yazır:

فَالنَّسَبُ مُعْتَبَرٌ بِالْآبَاءِ إلَّا أَوْلَادُ بَنَاتِهِ، صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ فَإِنَّهُمْ يُنْسَبُونَ إلَيْهِ فَلَا يُكَافِئُهُمْ غَيْرُهُمْ ح ل ( قَوْلُهُ وَاصْطَفَانِي مِنْ بَنِي هَاشِمٍ ) فِيهِ دَلَالَةٌ عَلَى بَعْضِ الْمُدَّعَى وَهُوَ قَوْلُهُ وَلَا غَيْرُ هَاشِمِيٍّ وَمُطَّلِبِيٍّ كُفُؤًا لَهُمَا.

*«Əsil-nəsəb Allah Rəsulunun (s) övladlarından başqa hər kəs üçün atadan sayılır. Bu qızlar Allah Rəsuluna (s) mənsub olduqları üçün onlardan başqa heç kim onlarla həmtay deyildir. Allah Rəsulu (s) buyurmuşdur: «Allah məni Bəni Haşimdən seçdi.» Bu kəlamda iddia sahibi üçün az da olsa dəlil var. Yəni, Haşimi və Muttəlibi (Əbdul-Muttəlib Allah Rəsulu (s) və İmam Əli (ə)-ın babasıdır) olmayanlar onlar ilə eyni deyildir.......»*[187]

---

*[185] Səid bin Mənsur, Sunən, c.1, s.172, h.520; Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.463*

*[186] Suleyman əl-Bucəyrimi, Tuhfə əl-həbib əla şərh əl-xətib, c.4, s.89*

*[187] Suleyman əl-Bucəyrimi, Haşiyə əl-Bucəyrimi əla minhac ət-talib, c.3, s.417*

əl-Bucəyrəminin də dediyi kimi, Allah Rəsulu (s) Xanım Fatiməni (ə) qəbilə cəhətdən Əbu Bəkr və Ömərə vermədi. Odur ki, Haşimidən olan bir qızı qeyri-Haşimiyə verməmək Allah Rəsulunun (s) sünnəsidir. Belə olduqda, Əmir əl-möminin İmam Əli (ə) sünnəyə qarşı gələrək Ümmü Gülsümü Ömər bin əl-Xəttaba verə bilərmi?!

əl-Məqdisi əl-Hənbəli Əhməd bin Hənbəldən nəqlən yazır:

وعنه [احمد بن حنبل] أن غير قريش لا يكافئهم وغير بني هاشم لا يكافئهم لقول النبي (ص) إن الله اصطفى كنانة من ولد إسماعيل واصطفى من كنانة قريشا واصطفى من قريش بني هاشم واصطفاني من بني هاشم.

*«Əhməd bin Hənbəldən nəql olunub ki, Qureyşli ilə qeyri-Qureyşli eyni deyildir. Haşimi ilə qeyri-Haşimi eyni deyil. Allah Rəsulu (s) buyurub: «Allah Kənanəni İsmayılın (ə) nəslindən seçmişdir. Qureyşi Kənanədən, Bəni-Haşimi Qureyşdən və məni də Bəni-Haşimdən seçmişdir.»*[188]

Şihab əd-Din əl-Qəlyubi yazır:

قوله: ( وبنو هاشم إلخ ) نعم الأشراف الأحرار منهم لا يكافئهم غيرهم، وخرج بالأحرار ما لو تزوج هاشمي برقيقة بشرطه، وولدت بنتا فهي مملوكة لسيد الأمة وله تزويجها برقيق ودنيء النسب وإن كانت هاشمية لأن تزويجها بالملكية، ولذلك لو زوجها السلطان بذلك لم يصح.

*«Azad seyyidlər ilə onlardan başqaları onlarla həmtay deyildir. «Azad» deyərək belə bir istisna edib ki, bir Haşimi başqa birinin kənizi ilə evlənərkən kənizin sahibi şərt etsə ki, bunun qız övladı olduqda onun kənizi olacaq, o zaman onun ərə verilməsi onun sahibinin ixtiyarındadır.Yəni, nəsəbi aşağı təbəqədə olanlar ilə də evləndirə bilər. Hətta əgər o qız Haşimi olsa belə, çünki o kənizdir. Belə bir şərt olunmasa, hətta Şah da istəsə onu qeyri-Haşimi ilə evləndirmək olmaz (Çünki o Şahın kənizi deyil. Yalnız kənizin sahibi onu evləndirə bilər)»*[189]

Bütün bunları nəzərə alaraq, Ömərin nəsli ilə Ümmü Gülsümün nəslini müqayisə etmək mümkündürmü? Səhhak (Ömərin nənəsi) Xanım Xədicə, Həntəmə behişt qadınlarının seyyidəsi Xanım Fatimə (ə) ilə eyni ola bilərmi? Xəttabın adının iki dünya sərvəri Allah Rəsulu (s), və yaxud Əmir əl-möminin İmam Əli (ə) ilə bir yerdə zikr etmək bir az insafsızlıq olmazmı? Əgər Ümmü Gülsümü İmam Əlinin (ə) qızı belə hesab etsək, yenə də heç bir cəhətdən Ömər bin əl-Xəttab ilə eyni deyillər.

---

[188] *İbn Qudamə əl-Məqdisi, əl-Kafi fi fiqh əl-İmam Əhməd bin Hənbəl, c.3, s.31*

[189] *Şihab əd-Din əl-Qəlyubi, Haşiyətan Qəlyubi əla şərh Cəlaləddin əl-Məhəlli əla Minhac ət-talibin, c.3, s.236*

Daha maraqlısı budur ki, ikinci xəlifənin özü də evlənmədə nəsəbin eyni olmasını şərt hesab edib və səviyyəsi aşağı ailə ilə əsil-nəsəbli ailənin eyni olmadığını vurğulamışdır. Bu haqda Sərəxsi Hənəfi «əl-Məbsut» kitabında yazır:

وبلغنا عن عمر رضي الله عنه أنه قال لأمنعن النساء فروجهن الا من الأكفاء... وفيه دليل أن الكفاءة في النكاح معتبرة.

*«Ömərdən (r.a) rəvayət olunub ki, o dedi: «Mən (əsil-nəsəb cəhətindən) eyni olmayan qadınlarla evlənmənin qarşısın alıram. Bu, evlənmədə həmtay olmağın mötəbər olduğuna bir dəlildir.»*[190]

Əbd ər-Rəzzaq əs-Sənani yazır:

عن إبراهيم بن محمد بن طلحة قال قال عمر بن الخطاب لأمنعن فروج ذوات الأحساب إلا من الأكفاء.

*«İbrahim bin Muhəmməd bin Təlhədən rəvayət olunub ki, Ömər dedi: «Mən bir-birlərinə həmtay olmadıqca, şərafətli ailənin fərdləri ilə evlənməyi qadağan edirəm.»*[191]

## Ümmü Gülsüm ilə Ömərin yaş fərqi

Hər evlilikdə yaş həddinin münasib olması ən çox riayət olunmalı məsələlərdəndir.Evlilikdə yaşın şərt olduğunu önə çəkən və bu məsələyə diqqət olunmasına təkid edən şəxslərdən biri də Ömər bin əl-Xəttabın özüdür. O cavan qızların qoca kişilərlə elənməsinə qarşı olub. Səid bin Mənsur öz «Sünən»ində yazır:

أُتِيَ عُمَرُ بنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ بِامْرَأَةٍ شَابَّةٍ زَوَّجُوهَا شَيْخَاً كَبِيراً فَقَتَلَتْهُ، فَقَالَ: أَيُّهَا النَّاسُ اتَّقُوا اللَّهَ، وَلْيَنْكَحِ الرَّجُلُ لُمَّتَهُ مِنَ النسَاءِ، وَلْتَنْكَحِ المَرْأَةُ لُمَّتَهَا مِنَ الرجَالِ يَعْنِي شِبْهَهَا

*Bir cavan qız qoca bir kişi ilə evləndikdən sonra ərini öldürdü.(Həmin qızı) Ömərin yanına gətirdilər. Ömər dedi: «Ay camaat! Allahdan qorxun! Hər kişi özünə münasib yaşlı qızla evlənsin! Qadın da elə bir kişi ilə evlənsin ki, yaşı münasib olsun!»*[192]

---

[190] *Şəms əd-Din əs-Sərəxsi, əl-Məbsut, c.4, s.196*

[191] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.6, s.152; Əhməd əl-Bəlazuri, Ənsab əl-Əşraf, c.3, s.96; İbn Qudamə əl-Məqdisi, əl-Muğni fi fiqh əl-İmam Əhməd bin Hənbəl, c.7, s.26; Kəmal əd-Din əs-Sivasi, Şərh Fəth əl-qədir, c.3, s.292; İbn Teymiyyə əl-Hərrani, əl-Məcmuat əl-Aliyyə min kitab və rəsail və fətava Şeyx əl-İslam İbn Teymiyyə, c.19, s.28*

[192] *Səid bin Mənsur, Sünən, c.1, s.243, h.809; Cəlal əd-Din əs-Suyuti, Cami əl-əhadis, c.14, s.263; İbn Həcər əl-Heysəmi, əl-İfsah ən əhadis ən-nikah, c.1, s.32*

Ömər bin əl-Xəttabın bu tapşırığı ilə yola çıxaraq gəlin qısa bir araşdırma edək:

Ömər bin əl-Xəttab ilə Ümmü Gülsümün naməlum evlənməsi haqqında əhli-sünnə tarixçiləri yazır ki, bu hadisə hicrətin on yeddinci ilinə təsadüf edir. İbn əl-Əsir əl-Cəziri bu haqda belə yazır:

وفيها أعني سنة سبع عشرة... تزوج عمر أم كلثوم بنت علي بن أبي طالب وهي ابنة فاطمة بنت رسول الله ودخل في ذي القعدة.

*«Hicrətin on yeddinci ili Zilqədə ayında Ömər Əli bin Əbi Talibin (ə) və Allah Rəsulunun (s) qızı Fatimənin (ə) qızı Ümmü Gülsüm ilə evləndi.»*[193]

Ömər onun üçün elçilik edəndə yeddi, və yaxud səkkiz yaşı var idi. İbn Səd bu xüsusə işarə edərək yazır:

تزوجها عمر بن الخطاب وهي جارية لم تبلغ.

*Ömər Ümmü Gülsüm ilə evlənəndə o təklif həddinə çatmamışdı.*[194]

Ömər bin əl-Xəttab hicrətin 23-cü ilində altımış üç yaşında öldürülmüşdür. Bu hesabla hicrətin on yeddinci ilində Ömərin əlli yeddi yaşı olub. Yəni, Ümmü Gülsüm ilə əlli il yaş fərqi olub.

Digər tərəfdən, Əbu Bəkr və Ömər Xanım Fatimə (ə) üçün elçilik etdikdə, Allah Rəsulu (s) qızı ilə onların yaş fərqini münasib görməmişdir. İbn Hibban öz «əs-Səhih», ən-Nəsai «Sünən» əsərində yazır:

أخبرنا الْحُسَيْنُ بن حُرَيْثٍ قال حدثنا الْفَضْلُ بن مُوسَى عن الْحُسَيْنِ بن وَاقِدٍ عن عبد اللَّهِ بن بُرَيْدَةَ عن أبيه قال خَطَبَ أبو بَكْرٍ وَعُمَرُ رضي الله عنهما فَاطِمَةَ فقال رسول اللَّهِ صلى الله عليه وسلم أنها صَغِيرَةٌ فَخَطَبَهَا عَلِيٌّ فَزَوَّجَهَا منه.

*«Bizə əl-Husəyn bin Hurəys xəbər verdi və dedi: əl-Fəzl bin Musa bizə əl-Husəyn bin Vaqiddən, o da Abdullah bin Burəydədən, o da atasından nəql edir ki, Əbu Bəkr və Ömər Fatimə (ə) üçün elçilik etdilər. Allah Rəsulu onlara buyurdu: «Fatimənin yaşı azdır» Sonra Əli (ə) elçilik etdi. Allah Rəsulu (s) onu Əli (ə) ilə evləndirdi.»*[195]

---

[193] *İbn əl-Əsir, əl-Kamil fi ət-tarix, c.2, s.382; Şəhab əd-Din ən-Nuvəyri, Nihayə əl-ərəb fi funun əl-ədəb, c.19, s.215-220; Əbu əl-Fida, əl-Muxtəsər fi əxbar əl-bəşər, c.1, s.162; Əbu əl-Fərəc Əbd ər-Rəhman b. əl-Cəuzi, əl-Muntəzəm fi tarix və əl-muluk və əl-uməm, c.4, s.236-237*

[194] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.463*

[195] *İbn Hibban , əs-Səhih, c.15, s.399; Əhməd bin Şuəyb ən-Nəsai, Xəsais Əmir əl-möminin Əli bin Əbi Talib, c.1, s.136; əl-Muctəba min əs-sünən, c.6, s.62*

Araşdırmada gəldiyimiz son nəticə budur ki, evlənmədə yaş həddinə riayət etmək Allah Rəsulu (s) özü istisna olmaqla, hər kəs üçün bir sünnədir. Bu xüsusa riayət etmək, eyni zamanda, onun sünnəsinə əməl etməkdir. Hətta Ömər bin əl-Xəttab özü belə bu xüsusa işarə edərək camaatı Allahdan qorxmağa və bu sünnəyə riayət etməyə dəvət edib. Lakin başqa bir tərəfdən də əhli-sünnə üləması iddia edirlər ki, Ömər bin əl-Xəttab Ümmü Gülsüm ilə evlənib. Onların arasındakı yaş fərqi isə nə az, nə çox tam əlli ildir. Yəni ola bilərmi ki, Ömər təkidlə başqalarına zəruri bildiyi bir sünnəyə özü əməl etməsin? Camaatdan olan qoca kişinin təklif həddinə çatmış qız ilə evləndiyinə fəryad ilə etiraz edən bir şəxs necə olur ki, özü heç təklif həddinə çatmayan bir qızla evlənib? Ömər bin əl-Xəttabı belə bir vəziyyətə salan əhli-sünnə alimlərinə Qurandan bu ayəni xatırılatmaq istərdik:

أَتَأْمُرُونَ النَّاسَ بِالْبرِّ وَ تَنسَوْنَ أَنفُسَكُمْ وَ أَنتُمْ تَتْلُونَ الْكِتَابَ أَ فَلا تَعْقِلُون

*«(Səmavi) kitabı oxumağınıza baxmayaraq camaata yaxşılığı əmr edir, özünüzü isə unudursunuz?! Heç fikirləşmirsiniz!?»*[196]

## Ömər bin əl-Xəttabın əxlaqi xüsusiyyətləri

İslam dini ailədə əxlaqa ən çox önəm verən tolerant bir dindir. Bu din tərəflərin yaş, nəsəb və digər xüsusiyyətlər kimi əxlaqi dəyərlərə də bərabər sahib olmasını tələb edir. Bu qayda İslam dininə və əziz Peyğəmbərinin (s) sünnəsinə uyğun şəkildə həyata keçirilir. Belə ki, heç bir ağıl sahibi nazını çəkdiyi qızını əxlaqdan uzaq qalan bir şəxsə verməz. Çünki tərəflərin insani şəciyyələri bir-birini tamamlamadığı üçün o ailə səadətlə yürüməz. Mövzumuzn baş qəhrəmanı Ömər bin əl-Xəttab da əhli-sünnənin qaynaqlarına görə ailəyə qarşı çox sərt və əzazil mövqeydə olan bir şəxs olub. Yazılanlara görə, Ömərin bu sərt əxlaqı onu bir çox elçilikdən əli boş qaytarıb. Bu haqda əhli-sünnə mənbələrində rəvayətlər kifayət qədərdir. Biz isə sadəcə bir neçəsinə toxunmaq istərdik.

Əhli-sünnə alimlərindən əl-Bəlazuri, ət-Təbəri, İbn əl-Əsir, İbn Kəsir və sairlərinin yazdığına əsasən, Yəzid bin Əbu Süfyan vəfat etdikdən sonra Ömər onun zövcəsi Utbənin qızı Ummu Əbban üçün elçilik etdi. O isə Ömərin elçiliyi qəbul etmədi və səbəbini belə açıqladı:

---

[196] *əl-Bəqərə surəsi, 44-cü ayə*

لأنّه يدخل عابساً، ويخرج عابساً، يغلق أبوابه، ويقلّ خيره.

*«Ömər bin əl-Xəttab qaraqabaq sifəti ilə evə girir və qaraqab sifəti ilə evdən çıxır. Evin qapısını bağlayır. Zövcəsinə lazımı diqqəti ayırmır.»*[197]

Əbu Bəkrin qızı da Ömərin elçilik təklifini rədd etmişdir. İkinci xəlifənin Əbu Bəkrin qızı Ümmü Gülsüm ilə deyil, İmam Əlinin (ə) qızı Ümmü Gülsüm ilə evlənməsini iddia edənlər, dəlil olaraq deyirlər ki, Əbu Bəkrin qızı Ömər bin əl-Xəttabı sərt xasiyyətinə görə qəbul etmədi. İbn Əbd əl-Birr yazır:

Əbu Bəkrin qızı Ümmü Gülsüm bacısı xanım Aişəyə dedi:

«Sən məni ailə həyatında sərt rəftar edən və tünd xasiyyəli olduğunu bildiyin şəxslə evləndirmək istəyirsən?»

Sonra dedi:

والله لئن فعلتِ لأخرجنّ إلى قبر رسول الله ولأصيحنّ به

*«Allaha and olsun! Əgər məni bu işə vadar etsən, Allah Rəsulunun (s) qəbrinə gedib orda fəryad edərəm.»*[198]

Gördüyünüz kimi, hətta Əbu Bəkrin Ümmü Gülsüm adlı az yaşlı qızı müsəlmanların xəlifəsi və atasının yaxın dostu olmasına baxmayaraq, Ömərlə evlənməyə razı olmadı. O yaşda uşaq Öməri bu qədər tanıyırsa və bacısı, eyni zamanda möminlərin anası Aişə xanım da bu etirazı normal qəbul edirsə, Əmir əl-möminin İmam Əli (ə) necə ola bilər ki, öz qızını belə bir əxlaqın sahibinə versin?

## Ömər bin əl-Xəttabın qadınlarla rəftarı

***<u>Öz zövcəsinə qarşı münasibəti:</u>***

عن الأشعث بن قيس قال تضيفت عمر بن الخطاب رضي الله عنه فقام في بعض الليل فتناول امرأته فضربها ثم ناداني يا أشعث قلت لبيك قال احفظ عنى ثلاثا حفظتهن عن رسول الله صلى الله عليه وآله لا تسأل الرجل فيم يضرب امرأته ولا تسأله عمن يعتمد من إخوانه ولا يعتمدهم ولا تنم الا على وتر.

هذا حديث صحيح الاسناد ولم يخرجاه.

*Əşəs bin Qeysdən belə dediyi rəvayət olunur: «Ömər bin əl-Xəttabın qonağı oldum. Gecənin bir yarısı zövcəsinin yanına getdi və onu döydü. Sonra məni*

*197 Əhməd əl-Bəlazuri, Ənsab əl-əşraf, c.3, s.260; İbn Quteybə əd-Dinəvəri, Uyun əl-əxbar, c.4, s.18; Əbu Cəfər ət-Təbəri, Tarix ər-rusul və əl-muluk və əl-xulafa, c.2, s.564; İbn əl-Əsir, əl-Kamil fi ət-tarix, c.2, s.451; İbn Kəsir əd-Diməşqi, əl-Bidayə və ən-nihayə, c.7, s.139*

*198 İbn Əbd əl-Birr, əl-İstiab fi marifət əl-əshab, c.4, s.1807*

*çağırdı və dedi: «Allah Rəsulundan (s) eşitdiyim üç şeyi məndən öyrən: Zövcəsini döyəndən niyə döydüyünü soruşma, bir kəsdən onun hansı (mömin) qardaşına inanıb-inanmadığını soruşma və bir də Vitr namazını qılmamış yatma!»*

*(əl-Hakim dedi): Bu hədisin sənədi səhihdir, lakin onlar (əl-Buxari və Müslim öz kitablarında) qeyd etməyiblər.*[199]

Bu rəvayətin oxşarı bir neçə başqa mənbədə də qeyd edilmişdir.[200]

***Kənizlərə qarşı münasibəti:***

حدثنا علي بن مسهر عن المختار بن فلفل عن أنس بن مالك قال "دخلت على عمر بن الخطاب أمة قد كان يعرفها لبعض المهاجرين أو، الأنصار، وعليها جلباب متقنعة به، فسألها: عتقت؟ قالت: لا: قال: فما بال الجلباب؟! ضعيه عن رأسك، إنما الجلباب على الحرائر من نساء المؤمنين، فتلكأت، فقام إليها بالدرة، فضرب بها رأسها حتى ألقته عن رأسها."

قلت: وهذا سند صحيح على شرط مسلم.

*Əli bin Mushər bizə əl-Muxtar bin Fulfuldan, o da Ənəs bin Malikdən belə dediyini rəvayət etdi: «Mühacir, yaxud Ənsardan olan kəniz cilbabla*[201] *Ömər bin əl-Xəttabın yanına daxil oldu. Ömər dedi: «Sən azad edilmisənmi?» Kəniz dedi: «Xeyr.» Ömər dedi: «Bəs onda bu cilbab nədir? Onu başından aç. Cilbab azad qadın üçündür.» Kəniz tərəddüd etdi. Ömər yerindən qalxıb qamçı ilə başından çadrası düşənə qədər döydü.»*

*Mən (əl-Albani) deyirəm: Bu hədisin sənədi Müslimin şərtlərinə əsasən səhihdir.*[202]

İbn Həcər əl-Əsqəlani yazır:

والمعروف عن عمر أنه ضرب أمة رآها مقنعة وقال اكشفي رأسك ولا تتشبهي بالحرائر أخرجه عبدالرزاق بإسناد صحيح

---

[199] *əl-Mustədrək əla əs-səhiheyn, c.4, s.194, h.7342; Mustafa Əbd əl-Qadir Ata həmin səhifənin haşiyəsində yazır ki, əz-Zəhəbi «ət-Təlxis»də bu rəvayəti səhih hesab edib.*

[200] *Əhməd bin Hənbəl, əl-Musnəd, c.1, s.20; İbn Macə, Sünən, c.1, s.639, h.1986; Muhəmməd bin Əbd əl-Vahid əl-Məqdisi, əl-Əhədis əl-muxtarə, c.1, s.189; Yusif əl-Zəki əl-Mizzi, Təhzib əl-kəmal, c.18, s.31; İbn Kəsir əd-Diməşqi, Təfisr əl-Quran əl-Əzim, c.1, s.493*

[201] *Ərəb dilçiləri bu sözün «Cəlb – جلب» söz kökündən düzəlmə və «Xumr» (yaylıq) və «Qəms» (geniş köynək) mənasında işləndiyini, onun vasitəsilə qadın başını və sinəsini örtdüyünü və onun əbadan (çiyindən topuğa qədər olan üst örtük) kiçik olduğunu bildirmişlər. Bəziləri də onun əba uzunluğunda olduğuna işarə etmişlər.*

[202] *Nasir əd-Din əl-Albani, İrvə əl-ğəlil, c.6, s.204*

*«Ömərin başında örtük olan kənizi döyməsi və «Örtüyü başından aç və özünü azad qadına oxşatma» deməsi bilinən bir hadisədir. Bu rəvayəti Əbd ər-Rəzzaq səhih sənədlə qeyd etmişdir.*[203]

Bununla bərabər, şiə mənbələrində kənizin başında örtük olmasında ötrü İmam əl-Baqir (ə) tərəfindən döyülməsi hadisəsi iki yolla nəql edilmişdir. Birinci rəvayət «Dəaim əl-islam»[204] və «Mustədrək əl-vəsail»[205] və s. kimi kitablarda sənədsiz şəkildə rəvayət olunduğu üçün, digəri isə «İlal əş-şərai»[206] və s. kimi kitablarda Həmmad əl-Xadəm adlı məchul ravidən nəql edildiyi üçün etibarsızdır. Bu barədə şiə mənbələrində nəql edilmiş səhih hədislərin heç birində kənizin başını örtdüyünə görə döyülməsi barədə məlumat yoxdur.

***<u>Ömər bin əl-Xəttabın Allah Rəsulunun (s) zövcəsinə və Əbu Bəkrin bacısına qarşı münasibəti:</u>***

Allah-Təala Qurani-Kərimdə Allah Rəsulunun (s) evlərinə icazəsiz girilməsini qadağan edərək buyurur:

يأَيُّهَا الَّذِينَ ءَامَنُواْ لاَ تَدْخُلُواْ بُيُوتَ النَّبِىِّ إِلاَّ أَن يُؤْذَنَ لَكُمْ إِلَى طَعَامٍ غَيْرَ نَظِرِينَ إِنَهُ وَلَكِنْ إِذَا دُعِيتُمْ فَادْخُلُواْ فَإِذَا طَعِمْتُمْ فَانْتَشِرُواْ وَلاَ مُسْتَأْنِسِينَ لِحَدِيثٍ إِنَّ ذَلِكُمْ كَانَ يُؤْذِى النَّبِىِّ فَيَسْتَحْيِى مِنكُمْ وَاللَّهُ لاَ يَسْتَحْيِ مِنَ الْحَقِّ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَعاً فَاسْئَلُوهُنَّ مِن وَرَآءِ حِجَابٍ

*Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə dəvət olunmadan) girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada bir-birinizlə) söhbətə qapılmayıb dağılın. Bu (sizin çox oturmağınız), Peyğəmbərə əziyyət verir, amma o sizdən (bunu sizə deməkdən) utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan (Peyğəmbərin zövcələrindən) bir şey soruşduqda, pərdə arxasından soruşun (evlərinə daxil olmayın).*[207]

Lakin təəssüflər olsun ki, bu qadağaya bəzən riayət edilməmişdir. İbn Həcər əl-Əsqəlani «əs-Səhih» kitabının şərhində yazır:

---

*203 İbn Həcər əl-Əsqəlani, əd-Dirayə fi təxric əhadis əl-hidayə, c.1, s.124*
*204 Qazi Numan əl-Məğribi, Dəaim əl-islam, c.1, s.177*
*205 Mirzə Nuri, Mustədrək əl-vəsail, c.3, s.217*
*206 Şeyx əs-Səduq, İlal əş-şərai, c.2, s.345-346*
*207 Əhzab surəsi, 53-cü ayə*

وصله ابن سعد في الطبقات بإسناد صحيح من طريق الزهري عن سعيد بن المسيب قال لما توفي أبو بكر أقامت عائشة عليه النوح فبلغ عمر فنهاهن فأبين فقال لهشام بن الوليد أخرج إلى بيت أبي قحافة يعني أم فروة فعلاها بالدرة ضربات فتفرق النوائح حين سمعن بذلك ووصله إسحاق بن راهويه في مسنده من وجه آخر عن الزهري وفيه فجعل يخرجهن امرأة امرأة وهو يضربهن بالدرة.

*«İbni Səd öz «ət-Təbəqat» kitabında səhih sənədlə əz-Zuhridən, o da Səid bin Musəyyibdən nəql edərək dedi: «Əbu Bəkr öldüyündə Aişə evində əza saxladı və uca səslə ağlayıb fəryad etdi. Ömər bundan xəbər tutdu və Aişənin evinə gələrək ağlayanlara bunu qadağan etdi. Ancaq qadınlar qəbul etmədilər. Ömər Hişam bin əl-Vəlidə dedi: «Əbu Quhafənin qızını, yəni Ümmü Fərvəni evdən çıxarıb yanıma gətir.» Sonra qamçı ilə Ummu Fərvəyə bir neçə zərbə vurdu. Orda toplaşan qadınlar bu xəbəri eşitdikdə dağlışdılar. İshaq bin Rəhaveyh bu rəvayəti öz Müsnədində əz-Zuhridən başqa cür nəql edib: «(Ömər) qadınları bir-biri çölə çıxardıb qamçı ilə döydü»*[208]

Həmçinin ət-Təbəri də səhih sənədlə nəql edir:

حدثني يونس قال أخبرنا ابن وهب قال أخبرنا يونس بن يزيد عن ابن شهاب قال حدثني سعيد بن المسيب قال لما توفى أبو بكر رحمه الله أقامت عليه عائشة النوح فأقبل عمر بن الخطاب حتى قام ببابها فنهاهن عن البكاء على أبى بكر فأبين أن ينتهين فقال عمر لهشام بن الوليد ادخل فأخرج إلى ابنة أبى قحافة أخت أبى بكر فقالت عائشة لهشام حين سمعت ذلك من عمر إني أحرج عليك بيتي فقال عمر لهشام ادخل فقد أذنت لك فدخل هشام فأخرج أم فروة أخت أبى بكر إلى عمر فعلاها الدرة فضربها ضربات فتفرق النوح حين سمعوا ذلك.

*«Mənə Yunus rəvayət etdi və dedi: bizə İbn Vəhb rəvayət etdi və dedi: Yunus bin Yəzid bizə İbn Şihabdan belə dediyini rəvayət etdi: mənə Səid bin Musəyyib rəvayət etdi və dedi: «Əbu Bəkr öldükdə Aişə əza saxladı və uca səslə ağlayıb fəryad etdi. Ömər bundan xəbər tutdu və Aişənin evinə gələrək ağlayanlara bunu qadağan etdi. Lakin qadınlar qəbul etmədilər. Ömər Hişam bin əl-Vəlidə dedi: «(Aişənin evinə) daxil ol və Əbu Quhafənin qızını Əbu Bəkrin bacısını evdən çıxarıb yanıma gətir.» Aişə bu sözləri eşitdikdə Hişama dedi: «Mənim evimin haqqı mənə aiddir.» Ömər Hişama dedi: «Gir, mən sənə icazə verirəm!» Hişam evə girdi və Əbu Bəkrin bacısı Ummu Fərvəni evdən çıxardaraq Ömərin yanına gətirdi. Ömər qırmancla onun*

[208] *İbn Həcər əl-Əsqəlani, Fəth əl-bari şərh Səhih əl-Buxari, c.5, s.74*

*başına bir neçə zərbə endirdi. Orda toplaşan qadınlar bu xəbəri eşitdikdə dağılışdılar.»*[209]

İbn əl-Cəuzi bu rəvayəti nəql etdikdən sonra yazır:

قلت: ابنة أبي قحافة هي أم فروة أخت أبي بكر، فلما لم يمكنه أن يكلم عائشة هيبة لها واحتراما، أدب هذه.

*«Mən deyirəm: Əbu Quhafənin qızı Əbu Bəkrin bacısı Ummu Fərvədir. Ömər qorxu və hörmət səbəbindən Aişəyə bir söz deyə bilmədiyi üçün Əbu Bəkrin bacısını cəzalandırdı.»*[210]

Əmir əl-muminin İmam Əlinin (ə) qızının belə bir şəxsə ərə getməsinə necə razılaşmaq olar?

## Din və ailə

Sadaladığımız ali xüsusiyyətlər kimi ailədə tərəflərin dini bağlılıqlarının bir-birini tamamlaması əsas təməllərdən hesab edilir.

Əbu Talib əl-Məkki Süfyan əs-Səuridən nəql edərək yazır:

وكان الثوري يقول: إذا تزوّج الرجل وقال: أي شيء للمرأة فاعلم أنه لصّ، فلا تزوّجوه، ولا ينكح إلى مبتدع، ولا فاسق، ولا ظالم، ولا شارب خمر، ولا أكل الربا، فمن فعل ذلك فقد ثلم دينه، وقطع رحمه، ولم يحسن الولاية لكريمته، لأنه ترك الإحسان، وليس هؤلاء أكفاء للحرة المسلمة العفيفة.

*«əs-Səuri deyirdi: «Əgər bir kişi elçilik etdikdə qadının nə qədər malı olduğunu soruşsa, bilin ki, oğrudur. Ona qız verməyin! Həmçinin bidət gətirən, fasiq, zalım, şərab içən və faiz yeyən şəxsə qız verməyin! Əgər kimsə belə etsə dinin zay edib, öz qohumluq əlaqəsini kəsib və öz qızına qarşı himayədarlığını düzgün yerinə yetirməmişdir. Çünki o, qızına qarşı səmimiyyətini tərk edib. Bunlar (yuxarıda xüsusiyyətləri sayılan kəslər) azad müsəlman qadın ilə eyni deyillər.»*[211]

Hənbəli məzhəbinin fəqihi İbn Qudamə əl-Məqdisi dini bərabərliyi evlilikdə şərt bilmişdir. Onun nəzərinə görə, fasiq (aşkar günah edən) iffətli qadın ilə evlənə bilməz. Sonra Əhməd bin Hənbəldən nəqlən yazır ki, heç bir tayfa Bəni Haşim ilə bərabər deyildir və onlar ilə evlənə bilməzlər:

---

[209] *Əbu Cəfər ət-Təbəri, Tarix ər-rusul və əl-muluk və əl-xulafa, c.2, s.350*

[210] *İbn əl-Cəuzi, Kəşf əl-muşkil min hədis əs-Səhiheyn, c.1, s.59-60*

[211] *Əbu Talib əl-Məkki, Qut əl-qulub fi muamələ əl-məhbub, c.2, s.414*

فصل: والكفـء ذو الدين والمنصب فلا يكون الفاسق كفـءا لعفيفة لأنه مردود الشهادة... وعنه [احمد بن حنبل] أن غير قريش لا يكافئهم وغير بني هاشم لا يكافئهم لقول النبي (ص) إن الله اصطفى كنانة من ولد إسماعيل واصطفى من كنانة قريشا واصطفى من قريش بني هاشم واصطفاني من بني هاشم.

*«Fəsil: Həmtay olmaq – din və məqamdadır. Ona görə fasiq kəs iffətli qadın ilə həmtay deyildir. Çünki fasiqi şahidliyi qəbul edilməzdir.... Əhməd bin Hənbəldən nəql olunub ki, Allah Rəsulunun (s): «Allah Kənanəni İsmayıln nəslindən seçdi. Kənanədən Qureyşi, Qureyşdən də Bəni-Haşimi seçmişdir. Bəni-Haşimdən də məni seçdi.» sözlərinə əsasən, Qureyşlilər və Qureyşli olmayanlar, Haşimilər və Haşimi olmayanlar bir-birinə həmtay deyildir.»*[212]

**Diqqət:** İbni Qudamənin istidlal etdiyi bu rəvayəti Muslim ən-Nisaburi öz «əl-Cami əs-Səhih»ində Vasilə bin əl-Əsqədən, o da Allah Rəsulundan (s) nəql etmişdir.[213]

İndi isə Ömər bin əl-Xəttabla Ümmü Gülsümün nigahının yuxarıda sadalanan şərtlərə uyğun olub-olmadığını nəzərdən keçirək.

***1. <u>Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) ikinci xəlifə Ömər bin əl-Xəttabı günahkdar, zülmkar, yalançı, xain və... sair şəkildə adlandırması.</u>***

İbn Qudamənin sözlərinə əsasən İmam Əlinin (ə) qızı ilə Ömər bin əl-Xəttabın evlənməsi qeyri-mümkündür. Çünki Bəni-Haşimdən deyil və Ümmü Gülsüm ilə dini cəhətdən həmtay deyillər.

Ömər bin əl-Xəttabın Bəni-Haşimdən olmaması hər kəsə gün kimi aydındır. Lakin Ümmü Gülsüm ilə dini cəhətdən fərqlənməsi güclü dəlil tələb edir. Biz də həmin dəlilləri elə əhli-sünnənin kitablarında öz şərtlərinə uyğun şəkildə səhih sənədlərlə nəql edilən rəvayətlərə istinad edərək göstərə bilərik.

***Birinci rəvayət:***

Əbd ər-Rəzzaq əs-Sənaninin səhih sənədlə nəql etdiyi rəvayətdə ikinci xəlifə Ömər bin əl-Xəttab Abbas və İmam Əliyə (ə) xitab edərək belə deyir:

ثم وليتها بعد أبي بكر سنتين من إمارتي فعملت فيها بما عمل رسول الله (ص) وأبو بكر وأنتما تزعمان أني فيها ظالم فاجر....

[212] *İbn Qudamə əl-Məqdisi, əl-Kafi fi fiqh əl-İmam Əhməd bin Hənbəl, c.3, s.31*
[213] *Müslim bin Həccac ən-Nisaburi, əl-Cami əs-Səhih, c.4, s.1782, h.2276*

*«Mən Əbu Bəkrdən sonra iki il (hökumətə) rəhbərlik etdim. Allah Rəsulu (s) və Əbu Bəkrin sünnəsini davam etdirdim. Lakin siz iki nəfər məni zülmkar və günahkar hesab etdiniz...»*[214]

***İkinci rəvayət:***

Muslim ən-Nisaburi özünün «əl-Cami əs-səhih» adlı əsərində Ömər bin əl-Xəttabdan nəql edərək yazır ki, o, İmam Əli (ə) və əmisi Abbasa xitab edərək belə dedi:

ثُمَّ تُوُفِّىَ أَبُو بَكْرٍ وَأَنَا وَلِىُّ رَسُولِ اللَّهِ -صلى الله عليه وسلم- وَوَلِىُّ أَبِى بَكْرٍ فَرَأَيْتُمَانِى كَاذِبًا آثِمًا غَادِرًا خَائِنًا.

*«Əbu Bəkr öldükdən sonra mən Allah Rəsulunun (s) və Əbu Bəkrin canişini oldum. Siz iki nəfər isə məni yalançı, günahkar, vəfasız və xain adlandırdız.»*[215]

Əmir əl-möminin İmam Əli bin Əbi Talibin (ə) birinci və ikinci xəlifəyə qarşı həqiqi münasibəti bu şəkildə olmuşdur. Ömər bin əl-Xəttabın dediyi bu sözləri İmam Əlinin (ə) inkar etməməsi münasibətlərin həqiqi səviyyəsin önə çıxarır. Maraqlıdır ki, həmin sözlərin işləndiyi məclisdə bir çox səhabə iştirak edirdi. Lakin onlardan da heç kəs bir kəlmə olsun etiraz bildirməyib. Osman bin Əffan, Əbd ər-Rəman bin Auf, Zubeyr bin Əvvam, Səd bin Əbi Vəqqas və sair səhabələrin bu sözləri inkar etməməsi və sadəcə suskunluqla izləməsini, xüsusi ilə də ikinci rəvayətdəki bu sözlərin Ömər bin əl-Xəttabın xilafətinin son illərinə təsadüf etməsini nəzərə alsaq, o zaman İmam Əlinin (ə) ona qarşı olan münasibətinin sona qədər hansı səviyyədə olması daha aydın məlum olur.

İmam Əlinin (ə) öz nazlı qızını yalançı, xain, vəfasız və günahkar bildiyi şəxsə verməsi necə mümkün ola bilər?

Əhli-sünnə nəzərində Qurandan sonra ən mötəbər kitabının müəllifi əl-Buxarinin «əl-Cami əs-səhih» kitabında yazdığı rəvayətə əsasən münafiqin dörd xasiyyəti var:

1) Yalançı, 2) Günahkar, 3) Vəfasız, 4) Xain

Əhli-sünnənin kitablarından təqdim etdiyimiz iki rəvayətə əsasən İmam Əli (ə) ikinci xəlifə Ömər bin əl-Xəttabı bu dörd sifətlələ tanıtmış və hətta xəlifə özü belə bunları dili ilə iqrar etmişdir. Digər bir rəvayətdə isə bu sifətlərə sahib olan şəxsin hökmü müəyyən edilmişdir:

---

[214] *İbn Əbi Şeybə, əl-Musənnəf, c.5, s.469, h.9772*

[215] *Müslim bin Həccac ən-Nisaburi, əl-Cami əs-Səhih, c.3, s.1378, h.1757*

حدثنا سُلَيْمَانُ أبو الرَّبِيعِ قال حدثنا إِسْمَاعِيلُ بن جَعْفَرٍ قال حدثنا نَافِعُ بن مَالِكِ بن أبي عَامِرٍ أبو سُهَيْلٍ عن أبيه عن أبي هُرَيْرَةَ عن النبي صلى الله عليه وسلم قال آيَةُ الْمُنَافِقِ ثَلَاثٌ إذا حَدَّثَ كَذَبَ وإذا وَعَدَ أَخْلَفَ وإذا أؤتمن خَانَ

حدثنا قَبِيصَةُ بن عُقْبَةَ قال حدثنا سُفْيَانُ عن الْأَعْمَشِ عن عبد اللَّهِ بن مُرَّةَ عن مَسْرُوقٍ عن عبد اللَّهِ بن عَمْرٍو أَنَّ النبي (ص) قال أَرْبَعٌ من كُنَّ فيه كان مُنَافِقًا خَالِصًا وَمَنْ كانت فيه خَصْلَةٌ مِنْهُنَّ كانت فيه خَصْلَةٌ من النِّفَاقِ حتى يَدَعَهَا إذا أؤتمن خَانَ وإذا حَدَّثَ كَذَبَ وإذا عَاهَدَ غَدَرَ وإذا خَاصَمَ فَجَرَ تَابَعَهُ شُعْبَةُ عن الْأَعْمَشِ.

*«Bizə Süleyman Əbu Rəbbih rəvayət etdi və dedi: bizə İsmayıl bin Cəfər rəvayət etdi və dedi: Nafi bin Malik bin Əbi Amir Əbu Suheyl bizə atasından, o da Əbu Hureyrədən, o da Allah Rəsulundan (s) rəvayət edib ki, buyurdu: «Münafiqin üç əlməti var: Danışıdıqda yalan söyləyər, söz verib vədinə əməl etməz və ona bi şey əmanət ediləndə xəyanət edər.*

*Bizə Qəbiysə bin Uqbə rəvayət etdi və dedi: Sufyan bizə əl-Aməşdən, o da Abdullah bin Murrədən, o da Məsruqdan, o da Abdullah bin Amrdan, o da Allah Rəsulundan (s) rəvayət edib ki, buyurdu: «Dörd xislət kimdə olarsa, xalis münafiq olar. Hətta bunlardan biri qəlbinə yol tapsa, onu özündən uzaqlaşdırmayınca, nifaqın bir parçasına bulaşmış olar. Bunlar aşağıdakılardır: Əmanətə xəyanət etmək, danışarkən yalan söyləmək, vəd verdikdə sözünün üstündə durmamaq, düşmənçilik edəndə çirkin əmələ əl atmaq.»*[216]

əl-Buxarinin rəvayətinə və Ömərin dediyinə görə Hz.Əli (ə) Əbu Bəkr və Öməri aşağıdakı 4 sifətlə tanıyır.

كَاذِبًا – yalançı.

Münafiqin sifətlərindən: danışarkən yalan söyləmək.

آثِمًا – günahkar.

Münafiqin sifətlərindən: düşmənçilik edəndə çirkin əmələ əl atmaq (günah etmək).

غَادِرًا – vəfasız.

Münafiqin sifətlərindən: vəd verdikdə sözünün üstündə durmamaq.

خَائِنًا – xain.

Münafiqin sifətlərindən: əmanətə xəyanət etmək.

[216] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, Kitab əl-İman, c.1. s.21, h.33 və 34*

Bu rəvayət bizə İmam Əlinin (ə) Ömər bin əl-Xəttaba xitabən sadaladığı bu dörd xüsusiyyətin səbəbini aydınlatdı. Demək ki, Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) bu xüsusiyyətlər ilə Ömərə «sən münafiqsən» demiş olmalıdır. Əgər İmam Əli (ə) Ömər bin əl-Xəttaba qarşı belə bir inancda olubsa, Allah Rəsulunun (s) övladını necə ona verə bilər? Buradan aldığımız nəticə göstərdi ki, ikinci xəlifə və İmam Əlinin (ə) qızı arasında heç bir evlilikdən söhbət gedə bilməz.

**2. *Şərab əhli ilə iffətli qız həmtay deyil***

Bir başqa uyğunsuzluq şərab içən şəxslə möminə xanımın evlənməsidir. Elm əhlinə görə şərab içən şəxs ilə müsəlman qadının evlənməsini caiz deyildir. Əhli-sünnə alimləri şərab içən şəxsə qız verməyi həqiqətdə hətta qohumluq bağnının kəsilməsi kimi qiymətləndirirlər. Əvvəldə qeyd etdiyimiz kimi, Əbu Talib əl-Məkki Süfyan əs-Səuridən nəql edərək yazır:

وكان الثوري يقول: إذا تزوّج الرجل وقال: أي شيء للمرأة فاعلم أنه لصّ، فلا تزوّجوه، ولا ينكح إلى مبتدع، ولا فاسق، ولا ظالم، ولا شارب خمر، ولا أكل الربا، فمن فعل ذلك فقد ثلم دينه، وقطع رحمه، ولم يحسن الولاية لكريمته، لأنه ترك الإحسان، وليس هؤلاء أكفاء للحرة المسلمة العفيفة.

*«əs-Səuri deyirdi: «Əgər bir kişi elçilik etdikdə qadının nə qədər malı olduğunu soruşsa, bilin ki, oğrudur. Ona qız verməyin! Həmçinin bidət gətirən, fasiq, zalım, şərab içən və faiz yeyən şəxsə qız verməyin! Əgər kimsə belə etsə dinin zay edib, öz qohumluq əlaqəsini kəsib və öz qızına qarşı himayədarlığını düzgün yerinə yetirməmişdir. Çünki o, qızına qarşı səmimiyyətini tərk edib. Bunlar (yuxarıda xüsusiyyətləri sayılan kəslər) azad müsəlman qadın ilə eyni deyillər.»*[217]

əl-Buxarinin ustadı hesab edilən Əbd ər-Rəzzaq əs-Sənani «əl-Musənnəf»də yazır:

حدثنا أبو بكر قال حدثنا بن مسهر عن الشيباني عن حسان بن مخارق قال بلغني أن عمر بن الخطاب ساير رجلا في سفر وكان صائما فلما أفطر أهوى إلى قربة لعمر معلقة فيها نبيذ قد خضخضها البعير فشرب منها فسكر فضربه عمر الحد فقال له إنما شربت من قربتك فقال له عمر إنما جلدناك لسكرك.

*«Bizə Əbu Bəkr rəvayət etdi və dedi: İbn Məshur bizə əş-Şeybanidən, o da Həssan bin Muxariqdən rəvayət edir ki, dedi: Ömər bin əl-Xəttab oruc tutan bir şəxs ilə səfərə çıxmışdı. İftar vaxtı (həmin şəxs) Ömərin su tuluğundan içdi və məst oldu. Onun içində şərab var idi və dəvənin belində çalxalanmışdı. Ömər ona hədd vurdu.*

[217] *Əbu Talib əl-Məkki, Qut əl-qulub fi muamələ əl-məhbub, c.2, s.414*

*O kişi dedi: «Mən sənin su tuluğundan içdim axı.» Ömər (cavabında) dedi: «Mən sənə (şərab içdiyinə görə deyil) sərxoş olduğuna görə hədd vurdum.»*[218]

«əl-İqd əl-fərid» kitabının sahibi İbn Əbd Rəbbih əl-Əndəlusi yazır:

وقال الشعبي شرب أعرابي من إداوة عمر فانتشى فحده عمر وإنما حده للسكر لا للشراب.

*«əş-Şəbi deyib ki, çölləri gəzən bir şəxs Ömərin su tuluğundan içdi və sərxoş oldu. Ömər ona hədd vurdu. Ömərin ona hədd vurmasının səbəbi onun şərab içməsi deyil, sərxoş olması idi.»*[219]

Əhli-sünnə qardaşlardan sualımız budur ki, əgər Ömər bin əl-Xəttab şərab əhli deyildisə, onun su tuluğunda şərab nə gəzirdi? Əgər bir nəfər özü ilə səfər çıxarkən su əvəzinə şərab tədarük edirsə, sizcə bu son dərəcə şərabxorluq əlaməti deyilmi? Bir tərəfdən belə görünür ki, Ömər bin əl-Xəttab həmin şəxsə vurduğu şallaqları onun sərxoş olmasına görə deyil, tuluğu tam boşaltdığı üçün olmuşdur. Biz bu iddiaları əhli-şiə mənbələrindən deyil, məhz əhli-sünnə kitablarından nəql edirik.

Nəticə etibarilə, belə bir şəxsə İmam Əli (ə) kimi nurani və ruhani bir şəxsin qız verməsi mümkün deyildir.

***3. <u>Bidət əhli ilə iffətli qız həmtay deyil</u>***

Əhli-sünnə alimlərinin nəzərinə əsasən dində bidət qoyan şəxslə iffət sahibi olan bir xanım həmtay deyildir. Bu səbəbdən onların evlənməsi də qadağandır.

Əbu Talib əl-Məkki Süfyan əs-Səuridən nəql edərək yazır:

وكان الثوري يقول: إذا تزوّج الرجل وقال: أي شيء للمرأة فاعلم أنه لصّ، فلا تزوّجوه، ولا ينكح إلى مبتدع، ولا فاسق، ولا ظالم، ولا شارب خمر، ولا أكل الربا، فمن فعل ذلك فقد ثلم دينه، وقطع رحمه، ولم يحسن الولاية لكريمته، لأنه ترك الإحسان، وليس هؤلاء أكفاء للحرة المسلمة العفيفة.

*«əs-Səuri deyirdi: «Əgər bir kişi elçilik etdikdə qadının nə qədər malı olduğunu soruşsa, bilin ki, oğrudur. Ona qız verməyin! Həmçinin bidət gətirən, fasiq, zalım, şərab içən və faiz yeyən şəxsə qız verməyin! Əgər kimsə belə etsə dinin zay edib, öz qohumluq əlaqəsini kəsib və öz qızına qarşı himayədarlığını düzgün yerinə yetirməmişdir. Çünki o, qızına qarşı səmimiyyətini tərk edib. Bunlar (yuxarıda xüsusiyyətləri sayılan kəslər) azad müsəlman qadın ilə eyni deyillər.»*[220]

---

[218] *Əbd ər-Rəzzaq əs-Sənani, əl-Musənnəf, c.5, s.502, h.28401*

[219] *İbn Əbd Rəbbih, əl-İqd əl-fərid, c.6, s.382*

[220] *Əbu Talib əl-Məkki, Qut əl-qulub fi muamələ əl-məhbub, c.2, s.414*

Başqa bir tərəfdən, ikinci xəlifənin İslam dininə gətirdiyi bidətlər əhli-sünnənin Qurandan sonra ən çox etimad etdiyi mənbələrində, o cümlədən əl-Buxarinin və Muslimin «əs-Səhih» adlandırdıqları kitablarında geniş şəkildə nəql edilmişdir:

Muhəmməd bin İsmayil əl-Buxari öz «əs-Səhih»ində yazır:

وَعَنْ بن شِهَابٍ عن عُرْوَةَ بن الزُّبَيْرِ عن عبد الرحمن بن عَبْدٍ القارىء أَنَّهُ قال خَرَجْتُ مع عُمَرَ بن الْخَطَّابِ رضي الله عنه لَيْلَةً في رَمَضَانَ إلى الْمَسْجِدِ فإذا الناس أَوْزَاعٌ مُتَفَرِّقُونَ يُصَلِّي الرَّجُلُ لِنَفْسِهِ وَيُصَلِّي الرَّجُلُ فَيُصَلِّي بِصَلَاتِهِ الرَّهْطُ فقال عُمَرُ إني أَرَى لو جَمَعْتُ هَؤُلَاءِ على قَارِئٍ وَاحِدٍ لَكَانَ أَمْثَلَ ثُمَّ عَزَمَ فَجَمَعَهُمْ على أُبَيِّ بن كَعْبٍ ثُمَّ خَرَجْتُ معه لَيْلَةً أُخْرَى وَالنَّاسُ يُصَلُّونَ بِصَلَاةِ قَارِئِهِمْ قال عُمَرُ نِعْمَ الْبِدْعَةُ هذه وَالَّتِي يَنَامُونَ عنها أَفْضَلُ من التي يَقُومُونَ يُرِيدُ آخِرَ اللَّيْلِ وكان الناس يَقُومُونَ أَوَّلَهُ.

*«İbn Şihab Urvə bin əz-Zubeyrdən, o da Əbd ər-Rəhman bin Əbd əl-Qaridən rəvayət etdi ki, o dedi: «Bir Ramazan gecəsi Ömər bin əl-Xəttabla məscidə getdim. Camaatı pərakəndə halda, ya tək, ya da ayrı-ayır qruplar şəklində namaz qılan gördük. Ömər dedi: «Mənim fikrimcə, bu insanları bir qarinin (imamın) arxasına cəmləsəm daha yaxşı olar.» Sonra bu barədə qəti qərar verdi və hamını (təravih namazı üçün) Ubəy bin Kəbin arxasına topladı. Başqa bir gecə yenə onunla məscidə getdik. İnsanlar bir imamın arxasında namaz qılırdılar. Ömər dedi: «Bu nə yaxşı bidətdir! Bu namazlarını gecənin sonuna saxlayıb bu namazdan sonra yatanlar indi namaz qılanlardan daha fəzilətlidirlər. Ömər (təravih) namazını gecənin sonunda qılmağı nəzərdə tutur, insanlar isə gecənin əvvəlində qılırdılar.»*[221]

Ömər bin əl-Xəttabın dində yaratdığı bidətlər bu rəvayətlərdə nəql olunanlardan çoxdur. Biz sadəcə sözü uzatmamaq üçün xülasə şəkildə qeyd etdik. Bu barədə daha ətraflı məlumat almaq istəyənlər «ən-Nəss və əl-ictihad» kitabına müraciət edə bilərlər. Bu kitabın müəllifi mərhum Şərəf əd-Din əl-Musəvi xəlifələrin çox saylı müxtəlif bidətlərini elə əhli-sünnə mənbələrindən toplamışdır.

Bütün bunları nəzərə alaraq, əgər İmam Əli bin Əbi Talibin (ə) Ümmü Gülsüm adlı qızının var olduğunu düşünsək belə, onun bu şərtlər altında ikinci xəlifə ilə evlənməsi qeyri mümkündür. Çünki onlar heç bir cəhətdən həmtay və bərabər deyildilər. Bu qeyri-bərabərliyi hər kəsdən daha yaxşı qavrayan bir şəxs kimi İmam Əlinin (ə) öz qızını ikinci xəlifəyə verməsi Hz.Lutun (ə) öz qızlarını günahkar tayfa ilə evlənmələrini qəbul etməsi macərasına bənzəyir. Bu evlilik

[221] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-səhih, Kitab əs-səlah ət-təravih, c.2, s.707, h.1906*

Hz.Lutun (ə) öz qövmü ilə münasibətlərinin yaxşı olduğuna və bu qövmün onun nəzərində hörmətli olmasına əlbəttə ki yozula bilməz. Doğrusunu Allah daha yaxşı bilir!

## VIII FƏSİL
## Zor gücü və təhdid ilə evlənmə

Bu fakt şiə mənbələrində kifayət qədərdir. Söhbət Ömər bin əl-Xəttabın zor gücü və təhdid ilə evlənməsindən gedir. Amma həmin rəvayətləri tək-tək araşdırdıqda məlum olur ki, bu əməl Ömər bin əl-Xəttab ilə Əmir əl-möminin Əli (ə) arasında münasibət yaratmağa deyil bu vasitə ilə öz hədəflərinə çatmağa çalışılır. Mərhum əl-Kuleyni (r) «əl-Kafi» kitabında bir neçə rəvayət nəql edir.

***Birinci rəvayət:***

مُحَمَّدُ بْنُ أَبِي عُمَيْرٍ عَنْ هِشَامِ بْنِ سَالِمٍ عَنْ أَبِي عَبْدِ اللَّهِ (عليه السلام) قَالَ لَمَّا خَطَبَ إِلَيْهِ قَالَ لَهُ أَمِيرُ الْمُؤْمِنِينَ إنها صَبِيَّةٌ قَالَ فَلَقِيَ الْعَبَّاسَ فَقَالَ لَهُ مَا لِي أَ بِي بَأْسٌ قَالَ وَمَا ذَاكَ قَالَ خَطَبْتُ إِلَى ابْنِ أَخِيكَ فَرَدَّنِي أَمَا وَاللَّهِ لَأُعَوِّرَنَّ زَمْزَمَ وَلَا أَدَعُ لَكُمْ مَكْرُمَةً إِلَّا هَدَمْتُهَا وَلَأُقِيمَنَّ عَلَيْهِ شَاهِدَيْنِ بِأَنَّهُ سَرَقَ وَلَأَقْطَعَنَّ يَمِينَهُ فَأَتَاهُ الْعَبَّاسُ فَأَخْبَرَهُ وَسَأَلَهُ أَنْ يَجْعَلَ الْأَمْرَ إِلَيْهِ فَجَعَلَهُ إِلَيْهِ.

*«Muhəmməd bin Əbi Umeyr, Hişam bin Salimdən, o da Əbi Əbdillahdan[222] (ə) nəql edir ki, buyurdu: «Ömər bin əl-Xəttab Ümmü Gülsüm üçün elçilik etdikdə Əmir əl-möminin ona buyurdu: «Ümmü Gülsüm az yaşlıdır.» Əbi Əbdillah (ə) buyurdu: «Ömər Abbas ilə görüşdü və ona dedi: «Nə olub? Mənim nəsə bir problemim var?» Abbas dedi: «Niyə soruşursan ki?» Ömər dedi: «Qardaşın oğlundan qızını istədim, amma məni rədd etdi. Allaha and olsun, Zəm-zəm quyusunu (daş və torpaqla) dolduraram, sizin üçün bir kəramət qoymaram, viran edərəm! Onun (Əlinin) oğurluq etdiyinə dair iki şahid gətirib sağ əlini kəsdirərəm!» Abbas imam Əlinin (ə) yanına gedərək hadisəni ona danışdı və evlilik haqqında qərar verməyi ona tapşırmağını istədi, imam (ə) da razı oldu.»[223]*

***İkinci rəvayət:***

حُمَيْدُ بْنُ زِيَادٍ عَنِ ابْنِ سَمَاعَةَ عَنْ مُحَمَّدِ بْنِ زِيَادٍ عَنْ عَبْدِ اللَّهِ بْنِ سِنَانٍ وَمُعَاوِيَةَ بْنِ عَمَّارٍ عَنْ أَبِي عَبْدِ اللَّهِ (عليه السلام) قَالَ سَأَلْتُهُ عَنِ الْمَرْأَةِ الْمُتَوَفَّى عَنْهَا زَوْجُهَا أَ تَعْتَدُّ فِي بَيْتِهَا أَوْ حَيْثُ شَاءَتْ قَالَ بَلْ حَيْثُ شَاءَتْ إِنَّ عَلِيّاً (عليه السلام) لَمَّا تُوُفِّيَ عُمَرُ أَتَى أُمَّ كُلْثُومٍ فَانْطَلَقَ بِهَا إِلَى بَيْتِه.

*«Humeyd bin Ziyad mənə İbn Səmaədən, o da Muhəmməd bin Ziyaddan, o da Abdullah bin Sinan və Muaviyə bin Əmmardan, onlar da Əbi Əbdillahdan (ə) rəvayət edərək dedilər: «İmamdan (ə) əri ölmüş bir qadının harda iddə saxlaması barədə soruşdum. Evində, yoxsa harada istəsə? İmam (ə) buyurdu: «Harda istəsə.»*

---

[222] *İmam Cəfər əs-Sadiq (ə)*
[223] *Muhəmməd b. Yəqub əl-Kuleyni, Usul min əl-kafi, c.5, s.346*

*Sonra buyurdu: «Ömər öldükdən sonra Əli (ə) Ümmü Gülsümün yanına gəldi və onun əlindən tutub öz evinə apardı.»*[224]

***Üçüncü rəvayət:***

مُحَمَّدُ بْنُ يَحْيَى وَغَيْرُهُ عَنْ أَحْمَدَ بْنِ مُحَمَّدِ بْنِ عِيسَى عَنِ الْحُسَيْنِ بْنِ سَعِيدٍ عَنِ النَّضْرِ بْنِ سُوَيْدٍ عَنْ هِشَامِ بْنِ سَالِمٍ عَنْ سُلَيْمَانَ بْنِ خَالِدٍ قَالَ سَأَلْتُ أَبَا عَبْدِ اللَّهِ (عليه السلام) عَنِ امْرَأَةٍ تُوُفِّيَ زَوْجُهَا أَيْنَ تَعْتَدُّ فِي بَيْتِ زَوْجِهَا تَعْتَدُّ أَوْ حَيْثُ شَاءَتْ قَالَ بَلَى حَيْثُ شَاءَتْ ثُمَّ قَالَ إِنَّ عَلِيّاً (عليه السلام) لَمَّا مَاتَ عُمَرُ أَتَى أُمَّ كُلْثُومٍ فَأَخَذَ بِيَدِهَا فَانْطَلَقَ بِهَا إِلَى بَيْتِهِ.

*«Muhəmməd bin Yəhya və digərləri Əhməd bin Muhəmməd bin İsadan, o da əl-Hüseyn bin Səiddən, o da Nəzr bin Suveyddən, o da Hişam bin Salimdən, o da Süleyman bin Xaliddən belə dediyini rəvayət etdi: «Əba Əbdillahdan (ə) əri ölmüş bir qadının harda iddə saxlaması barədə soruşdum. Evində, yoxsa harada istəsə? İmam (ə) buyurdu: «Harda istəsə.» Sonra buyurdu: «Ömər öldükdən sonra Əli (ə) Ümmü Gülsümün yanına gəldi və onun əlindən tutub öz evinə apardı.»*[225]

***Dördüncü rəvayət:***

عَنِ ابْنِ أَبِي عُمَيْرٍ عَنْ هِشَامِ بْنِ سَالِمٍ وَ حَمَّادٍ عَنْ زُرَارَةَ عَنْ أَبِي عَبْدِ اللَّهِ (عليه السلام) فِي تَزْوِيجِ أُمِّ كُلْثُومٍ فَقَالَ إِنَّ ذَلِكَ فَرْجٌ غُصِبْنَاه.

*«İbn Əbi Umeyrdən, o da Hişam bin Salim və Həmmaddan, onlar da Zurarədən, o da Əba Əbdillahdan (ə) rəvayət edir ki, Ümmü Gülsümün evlənməsi haqqında soruşulduqda, imam (ə) buyurdu: «Bizi qəsb etmək üçün həmin namusu bəhanə etdilər.»* [226]

Bir tərcüməyə görə isə belə səslənir: *«Bu, bizdən qəsb edilmiş namusdur.»* Digər bir tərcümə isə bu cür səslənir: bizi qəsb etmək üçün həmin namusu bəhanə etdilər. Bu da evliliyin baş tutmasını sual altına salır. Bu rəvayətdə önməli nöqtə budur ki, İmam (ə) kimi fəsahətli söz sahibi «ذلك فرج غصب منا» buyurmadı, bu namus ilə özlərini qəsb edilmiş kimi ifadə edərək «غصبناه» buyurur. Yəni, bununla Əhli-beytə (ə) zülm olunduğunu bildirməyə çalışmışdır.

Başqa mənbələrdə isə bu ifadənin «غصبنا عليه» şəklində qeyd edilməsi də bu fikri dəstəkləyir. Yəni, İmam Cəfər əs-Sadiq (ə) Ümmü Gülsümün onlardan

---

[224] *Muhəmməd bin Yəqub əl-Kuleyni, Usul min əl-kafi, c.6, s.115*

[225] *Muhəmməd bin Yəqub əl-Kuleyni, Usul min əl-kafi, c.6, s.115*

[226] *Muhəmməd bin Yəqub əl-Kuleyni, Usul min əl-kafi, c.5, s.346*

alındığını demir, Ümmü Gülsümü bəhanə edərək özlərinin qəsbə uğradığını, Əhli-beytə (ə) zülm edildiyini bildirir.

**Şərh:**

1. Əvvəldə də dediyimiz kimi, bu rəvayətlər İmam Əlinin (ə) xanım Fatimədən (ə) Ümmü Gülsüm adlı qızının olmasına dəlalət etmir. Ümmü Gülsüm deyildikdə, Əbu Bəkrin qızı, və yaxud Əmir əl-mömininin (ə) digər xanımlarından olan qızı nəzərdə tuta bilər. Bunların üçü də yalnız ehtimaldır.
2. Ümumiyyətlə, əhli-sünnə bu rəvayətlərlə istidlal etmirlər. Etsələr belə, yenə bu rəvayətlərdə İmam Əli (ə) ilə Ömər bin əl-Xəttab arasında hər hansı bir xoş münasibətdən söhbət gedə bilməz. Əksinə, bu rəvayətlər onların bir-birinə qarşı olan nifrətini bəyan etməkdədir. Bu rəvayətlərdən ən yaxşı halda əldə olunan nəticə budur ki, bu evlilik baş tutmuşdursa da, zor gücü və təhdid ilə olmuşdur. Həmçinin rəvayətlərdə sözügedən qızın azyaşlı olması nə özünün, nə də atasının bu evliliyə razı olmadığını göstərir.

Belə bir evlilik Ömər bin əl-Xəttab üçün necə fəzilət hesab edilə bilər? Seyyid Murtəza Ələm əl-Huda bu haqda deyir:

فأما انكاحه عليه السلام إياها، فقد ذكرنا في كتابنا الشافي، الجواب عن هذا الباب مشروحا، وبينا انه عليه السلام ما أجاب عمر إلى انكاح بنته إلا بعد توعد وتهدد ومراجعة ومنازعة بعد كلام طويل مأثور....

والذي يجب أن يعتمد في نكاح أم كلثوم، أن هذا النكاح لم يكن عن اختيار ولا إيثار، ولكن بعد مراجعة ومدافعة كادت تفضي إلى المخارجة والمجاهرة....

وقد تبيح الضرورة أكل الميتة وشرب الخمر، فما العجب مما هو دونها؟

*«Ömərin Ümmü Gülsüm ilə evlənməsinə gəlincə biz "əş-Şafi" kitabında bu şübhənin cavabın geniş surətdə bəyan etmişik ki, İmam Əli (ə) qızının Ömərlə evlənməsinə razı olmadı. Lakin təhdidlərdən, təkrar elçiliklərdən, qalmaqallardan və uzun söhbətdən sonra rəvayətlərdə də gəldiyi kimi....*

*Ümmü Gülsümün evlənməsində diqqət olunmalı məqam bu evliliyin ixtiyari seçim və xoşluqla olmamasıdır. Təkrar elçilik və müdafiə olunmadan sonra az qalmışdı ki, (bu məsələ) aşkar münaqişəyə səbəb olsun....*

*Zərurət halında murdar ölmüş (heyvan əti) yemək və şərab içmək belə icazəlidir. Bu hökmün bunlardan da pis şeylərə aid olması niyə təəccüb doğurur ki?»*[227]

## Zərurət halında müsəlmanın kafir ilə evlənməsi

Məşhur şiə alimi Şeyx Mufid (r) bu haqda yazır:

ثم إنه لو صح لكان له وجهان لا ينافيان مذهب الشيعة في ضلال المتقدمين على أمير المؤمنين عليه السلام: أحدهما: أن النكاح إنما هو على ظاهر الإسلام الذي هو: الشهادتان، والصلاة إلى الكعبة، والاقرار بجملة الشريعة. وإن كان الأفضل مناكحة من يعتقد الإيمان، وترك مناكحة من ضم إلى ظاهر الإسلام ضلالا لا يخرجه عن الإسلام، إلا أن الضرورة متى قادت إلى مناكحة الضال مع إظهاره كلمة الإسلام زالت الكراهة من ذلك، وساغ ما لم يكن بمستحب مع الاختيار.

وأمير المؤمنين عليه السلام كان محتاجا إلى التأليف وحقن الدماء، ورأي أنه إن بلغ مبلغ عمر عما رغب فيه من مناكحته ابنته أثر ذلك الفساد في الدين والدنيا، وأنه إن أجاب إليه أعقب صلاحا في الأمرين، فأجابه إلى ملتمسه لما ذكرناه.

والوجه الآخر: أن مناكحة الضال – كجحد الإمامة، وادعائها لمن لا يستحقها – حرام، إلا أن يخاف الإنسان على دينه ودمه، فيجوز له ذلك، كما يجوز له إظهار كلمة الكفر المضاد لكلمة الإيمان، وكما يحل له أكل الميتة والدم ولحم الخنزير عند الضرورات، وإن كان ذلك محرما مع الاختيار.

وأمير المؤمنين عليه السلام كان مضطرا إلى مناكحة الرجل لأنه يهدده ويواعده، فلم يأمنه أمير المؤمنين عليه السلام على نفسه وشيعته، فأجابه إلى ذلك ضرورة كما قلنا إن الضرورة تشرع إظهار كلمة الكفر، قال تعالى: (إِلاَّ مَنْ أُكْرِهَ وَ قَلْبُهُ مُطْمَئِنٌّ بِالْإِيمانِ.)

*«Əgər bu evlilik doğru hesab edilsə belə, şiə məzhəbinin Əmir əl-möminindən (ə) qabaq olan xəlifələrin zəlalətdə olduqları barədə inancına ziddiyət təşkil etməməsi iki yolla izah edilə bilər.*

*Əvvəla, (hər hansı bir) nigah zahiri islama əsasən baş tutur. O da bunlardan ibarətdir: iki şəhadət,*[228]*Kəbə evinə tərəf namaz qılmaq və şəriətin bütün hökmlərini qəbul etmək (yəni, bunları edən şəxs zahirən müsəlman olur – müt.). Mömin bir şəxslə evlənmək daha layiqlidir. Yaxşı olar ki, zahirdə müsəlman olan və onun zəlaləti İslamdan çıxmasına səbəb olmayan bir şəxs ilə evlənilməsin. Bununla belə,*

[227] *Seyid Murtəza Ələm əl-Huda, Rəsail əl-Murtəza, c.3, s.149*

[228] *Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah*

*zəlalətdə olan, lakin İslamı qəbul etmiş şəxslə zərurət üzündən evlənsə, bu işin kərahəti aradan gedər və caiz olar.*

*Əmir əl-möminin (ə) o zaman canları qorumaq üçün yaxınlıq etməyə ehtiyac duydu. O gördü ki, Ömər kimi bir şəxsin Əlinin qızı ilə evlənmək istəyi qarşısında israr edərsə, bu mətləb dini və dünyəvi fəsad törədəcək. Əgər qəbul edərsə, dini və dünyəvi sülhə nail olacaq. Bəlkə də bu səbəbdən qəbul etmişdir.*

*2. Belə deyək ki, İmaməti inkar edən və ona layiq olmayanın öz haqqı bilən bir azğın ilə evlənmək haramdır. Lakin insanın canını və dinini qorumaq kimi fərz məqsədi ilə bu işi yerinə yetirməsi caizdir. Necə ki, ixtiyar halında haram olmasına baxmayaraq ,təqiyyə zamanında tovhid ilə uyğun olmayan şirk sözləri dilə gətirmək və yaxud zəruriyyətdən (acından ölməmək üçün) murdar olmuş heyvan və donuz ətini də yemək caizdir.*

*Əmir əl-möminin (ə) da o dövrdə Ümmü Gülsümün Ömər ilə evlənməsini qəbul etməsi məcburiyyətdən oldu. Çünki o Həzrəti təhdid etmişdir. Əmir əl-möminin (ə) özünün və şiələrinin can qorxusu kimi zəriyyəti yaranması səbəbindən onun istəyini qəbul etdi.*

*Necə ki, zərurət səbəbindən ləkələnmiş şirk sözlər danışmağa icazə var. Allah təbarək və təala Quranda buyurub: «Qəlbi imanla rahatlıq tapdığı (və imana bağlı) halda (küfr deməyə) məcbur olan şəxs istisna olmaqla,..» (Nəhl-106).»*[229]

Şeyx digər kitabı «əl-Məsailul-ukbəriyyə»-də yazır:

وبالجملة إنّ مناكحة الضّال قد وجدت من الأنبياء عليهم السلام عملا وعرضاً ودعاءً، ولم يمنع من ذالك ضلالهم، ولا أوجب موالاة الأنبياء لهم، ولا دل علي ذلك. ألا تري أن النبي صلي الله عليه وآله قد أنكح ابنتيه برجلين كافرين، وهما عُتبة بن أبي لهب وأبو العاص بن الرّبيع، ولم يقض ذلك بضلاله صلي الله عليه وآله ولا هداهما، ولا منعت المناكحة بينها من براءة منهما في الدين. وقد قال الله تعالي مخبراً عن لوط عليه السلام: « يا قَوْمِ هؤُلاءِ بَناتي هُنَّ أَطْهَرُ لَكُم» فعرض بناته علي الكفّار من قومه، وقد اذن الله في إهلاكهم، ولم يقض ذلك بولايته لهم، ولا منع من عداوتهم في الدين.

و قد اقرّ رسول الله المنافقين علي نكاح المؤمنات، وأقرّ المؤمنين علي نكاح المنافقات، ولم يمنع ذلك من تباين الفريقين في الدّين.

و حتى ازدواج دو دختر پيامبر با آنها، سبب جلوگيرى از بيزارى پيامبر از دين آن‌ها نگرديد.

---

[229] *Şeyx əl-Mufid, əl-Məsail əs-sərəviyyə, s.92-93*

*«Zəlalət əhli ilə evlənmək; Peyğəmbərlərin (ə) vasitəsi ilə zəlalət əhli ilə əməli surətdə izdivaclar olmuşdur. Onlardan bəziləri möminələri azğınlar ilə evləndirib. Bəziləri isə bu işi təklif ediblər. Zəlalət əhlinin azğınlığı bu evliliklərə maneçilik törətməmişdir. Həmçinin bu (evliliklər)Peyğəmbərlərin (ə) onlarla dost olmasına səbəb olmayıb. Heç bunlar ümumiyyətlə dostluğa dəlil hesab edilə bilməz. Məgər bilmirsiz ki, Allah Rəsulu (s) iki qızını kafirlərlə, yəni Utbə bin Əbi Ləhəb və Əbu əl-As bin Rəbi ilə evləndirdi? Lakin bu əməl nə Allah Rəsulunu (s) azğınlığa uğratdı, nə də onları hidayət etdi. Heç onların bu evlilikləri onların dindən kənarda qalmalarına mane olmadı.*

*Allah - təbarək və təala - da Quranda Lut (ə) barədə xəbər verərək buyurmuşdur: «Dedi: Ey mənim qövmüm, bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha pakdırlar.»*

*Həzrət Lut (ə) qızlarını Allah təbarək və təala qovmunun həlak olması izni verdiyi vaxtda öz qovmundan olan kafirlər ilə evləndirmək vəziyyətinə gətirdi. Lakin bu iş də Həzrət Lut (ə) ilə qovmu arasında dostluğuna və onların dinə qarşı düşmənçiliklərini aradan qaldırmağa səbəb olmadı.*

*Allah Rəsulu (s) münafiqlərin mömінə qadınlar ilə evlənməsini caiz edib. Eyni halda mömin kişilərin də münafiq qadınlar ilə evlənməsinə icazə verib. Lakin bu iş hər iki tərəfin öz dinlərindən ayrılmasına mane olmadı.»*[230]

Aşağıdakı iki ayə bu mövzuda bəziləri tərəfindən tez-tez dəlil gətirilir ki, İmam Əli (ə) təmiz qızını napak hesab etdiyi şəxsə necə ərə verə bilər? Quran ayəsinə zidd deyilmi?:

الْخَبِيثَاتُ لِلْخَبِيثِينَ وَالْخَبِيثُونَ لِلْخَبِيثَاتِ وَالطَّيِّبَاتُ لِلطَّيِّبِينَ وَالطَّيِّبُونَ لِلطَّيِّبَاتِ أُوْلَئِكَ مُبَرَّؤُونَ مِمَّا يَقُولُونَ لَهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ

*«Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. Bunlar iftiraçıların söylədiklərindən uzaqdırlar. Onları bağışlanma və bolluca ruzi gözləyir.»*[231]

وَلا تُمْسِكُوا بِعِصَمِ الْكَوَافِرِ

*«Kafir qadınlarınızı kəbin altında saxlamayın.»*[232]

---

[230] *Şeyx əl-Mufid, əl-Məsail əl-ukbəriyyə, c.6, s.62*
[231] *Nur surəsi, 26*
[232] *Mumtəhənə surəsi, 10*

Bu ikinci ayəni ümumiyyətlə niyə istifadə etdiklərini isə heç anlamırıq. Bu ayələrin təfsiri üçün öz əhli-sünnə kitablarına müraciət etmələrini xahiş edirik. Qoy özləri şahid olsunlar ki, bu ayələrin nüzul səbəbləri nədən ibarətdir və Ömərlə Ümmü Gülsümün nigahının səhihliyi üçün dəlil gətirilməsi boş bir işdir.

Bununla belə, Qurani-Kərimin digər ayələrini də yaddan çıxarmaq lazım deyil:

ضَرَبَ اللَّهُ مَثَلا لِّلَّذِينَ كَفَرُوا امْرَأَةَ نُوحٍ وَامْرَأَةَ لُوطٍ كَانَتَا تَحْتَ عَبْدَيْنِ مِنْ عِبَادِنَا صَالِحَيْنِ فَخَانَتَاهُمَا فَلَمْ يُغْنِيَا عَنْهُمَا مِنَ اللَّهِ شَيْئًا وَقِيلَ ادْخُلا النَّارَ مَعَ الدَّاخِلِينَ

*«Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim əməlisaleh qullarımızdan iki qulun nikahı altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bunlar onları Allahdan heç cür xilas edə bilmədilər. Onlara: "Girənlərlə birgə ikiniz də oda girin!"– deyildi.»*[233]

Həmçinin:

وَضَرَبَ اللَّهُ مَثَلا لِّلَّذِينَ آمَنُوا امْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِندَكَ بَيْتًا فِي الْجَنَّةِ وَنَجِّنِي مِن فِرْعَوْنَ وَعَمَلِهِ وَنَجِّنِي مِنَ الْقَوْمِ الظَّالِمِينَ

*«Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!"– demişdi.»*[234]

## Ömərin Atikə ilə məcburi evliliyi

Əmir əl-möminin İmam Əlinin (ə) Ümmü Gülsüm adlı qızının olmasını və məcburiyyət üzündən Ömər bin əl-Xəttab ilə ailə qurmasını fərz etsək belə heç bir təəccüb doğurmaz. Hətta belə bir şey baş veribsə, bu heç də Ömərin evlilik tarixində ilk deyil. Onun Atikə bint Zeyd ilə evlənməsi tarixi bir nümunədir.

Muhəmməd bin Səd «Təbəqat əl-Kubra»-da yazır:

أَنَّ عَاتِكَةَ بِنْتَ زَيْدٍ كَانَتْ تَحْتَ عَبْدِ اللَّهِ بنِ أَبي بَكْرٍ، فَمَاتَ عَنْهَا وَاشْتَرَطَ عَلَيْهَا أَلاَّ تَزَوَّجَ بَعْدَهُ، فَتَبَتَّلَتْ وَجَعَلَتْ لاَ تَزَوَّجُ، وَجَعَلَ الرجَالُ يَخْطِبُونَهَا وَجَعَلَتْ تَأْبَى، فَقَالَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ لِوَلِيهَا: اذْكُرْنِي لَهَا، فَذَكَرَهُ لَهَا فَأَبَتْ عَلى عُمَرَ أَيْضاً، فَقَالَ عُمَرُ: زَوجْنِيهَا: فَزَوَّجَهُ إِيَّاهَا، فَأَتَاهَا عُمَرُ فَدَخَلَ عَلَيْهَا فَعَارَكَهَا حَتَّى غَلَبَهَا عَلى نَفْسِهَا فَنَكَحَهَا، فَلَمَّا فَرَغَ قَالَ: أُف أُف أُف، أَفَّفَ بها ثُمَّ خَرَجَ مِنْ عِنْدِهَا وَتَرَكَهَا لاَ يَأْتِيهَا، فَأَرْسَلَتْ إِلَيْهِ مَوْلاَةً لَهَا أَنْ تَعَالَ فَإِني سَأَتَهِيَّأُ لَكَ.

---

[233] Təhrim surəsi, 10

[234] Təhrim surəsi, 11

*Zeydin qızı Atikə Abdullah bin Əbu Bəkrin zövcəsi idi. Abdullah öldü, ancaq o, ölümündən əvvəl Atikə ilə şərtləşmişdi ki, ondan sonra başqası ilə ailə qurmasın. Atikə də (şərtinə əsasən) heç kimlə evlənmədi, elçiliyinə gələn heç bir kəsi qəbul etmədi. Ömər (r.a) Atikənin vəlisinə dedi: «Ona mənim haqqımda danış.» Atikənin vəlisi onunla danışdı, lakin Atikə etiraz etdi. Sonra Ömər dedi: «Sən onu mənə ərə ver.» Beləliklə, o, Atikəni Ömərə ərə verdi. Ömər onun yanına daxil oldu və onunla yaxınlıq edənə qədər çox çalışdı. Ömər işi bitdikdən sonra bir neçə dəfə «Uf!Uf!....» deyə çölə çıxdı. Ömər ordan ayrıldı və geri qayıtmadı. Atikə göndərdiyi vəlisi vasitəsi ilə Ömərə «Gəl, mən sənin ixtiyarındayam» dedi.*[235]

## Əhli-beytdən (ə) olan qadınların məcburi evlilikləri

Çox təəssüf ki, tarixdə Əhli-beytə (ə) mənsub qadınların zalım və sitəmkar şəxslər ilə arzu olunmaz evlənmə faktları inkar olunmazdır. Onlar Allah Rəsulunun (s) övladlarına və ona yaxın olan qohumlarına əziyyət vermək üçün onların qızları, yəni Allah Rəsulunun (s) nəvələri üçün elçilik edirdilər. Onlar bu təklifi rədd etdikdə isə təhdid və zor gücü ilə öz niyyətlərini həyata keçirirdilər. Belə evliliklərə ən bariz nümunə Həccac bin Yusifin qəsbkarlıq yolu ilə xanım Zeynəbin (ə) Abdullah bin Cəfərdən olan Ümmü Gülsüm adlı qızı ilə evlənməsidir. Heç şübhəsiz ki, onun bu evlilikdə məqsədi Allah Rəsulunun (s) Əhli-beytinə sataşmaq və Haşimilərin namusunu qəsb etmək idi. Əhli-sünnə alimlərindən İbn Həzm əl-Əndəlusi yazır:

وتزوجت زينب بنت علي من فاطمة بنت رسول الله – صلى الله عليه وسلم – عبد الله بن جعفر بن أبي طالب؛ فولدت له ابنة تزوجها الحجاج بن يوسف.

*«Əlinin (ə) Allah Rəsulunun (s) qızı Fatimədən (ə) olan qızı Zeynəb Abdullah bin Cəfər bin Əbi Talib ilə evləndi. Ondan bir qız sahibi oldu və Həccac bin Yusif həmin qızla evləndi.»*[236]

Bu haqda İbn Əbi Təyfur, əl-Əbi və s. yazırlar ki:

لما زفت ابنة عبد الله بن جعفر " وكانت هاشمية جليلة " إلى الحجاج بن يوسف ونظر إليها في تلك الليلة وعبرتها تجول في خديها فقال لها بأبي أنت وأمي مما تبكين قالت من شرف اتضع ومن ضعة شرفت.

[235] *Muhəmməd bin Səd, ət-Təbəqat əl-kubra, c.8, s.265*
[236] *İbn Həzm əl-Əndəlusi, Cəmhərət ənsab əl-ərəb, c.1, s.38*

*«Abdullah bin Cəfərin qızını yaxınlıq üçün Həccacın yanına apardılar. O, çox izzətli Haşimi xanım idi. Ona baxdıqda gözlərindən yaş axıtdığını gördü. Dedi: «Atam və anam sənə fəda olsun niyə ağlayırsan?» (Cavabında dedi): «Şərəfin alçalmasına, alçağın ucalmasına.»*[237]

İbn Kəsir yazır:

حتى زوج الحجاج بنت رسول الله صلى الله عليه وسلم، وكان الحجاج يقول: إنما تزوجتها لأذل بها آل أبي طالب، وقيل إنه لم يصل إليها، وقد كتب عبد الملك إليه أن يطلقها فطلقها.

*«Nəhayət Həccac Rəsulullahın (s) qız nəvələrindən biri ilə evləndi. Həccac belə deyirdi: «Əbu Talib ailəsini alçaltmak üçün bu qızla evləndim.» Deyildiyinə görə, Həccac o qızla yaxınlıq edə bilməmişdi. Əbd əl-Məlik Həccaca bir məktub yazaraq o qadını boşamasını əmr etmiş, Həccac da onu boşamışdı.»*[238]

Həccac bin Yusifin Allah Rəsulunun (s) Əhli-beyti (ə) və Bəni-Haşimə qarşı aşkar düşmənçilik etməsi danılmaz bir faktdır. Bəs görəsən bu evlilik onun cinayətlərinə bəraət qazandıra bilərmi? Xanım Zeynəbin (ə) qızı ilə evləndiyi üçün onun cinayətlərini görməzdən gəlmək və olmamış kimi qəbul etmək nə dərəcədə doğrudur?

Sibt bin Cəvzi Musəb bin Zubeyrin İmam Hüseynin (ə) qızı Səkinə xanım ilə evlənməsi haqqında belə yazır:

وأما سكينة: فتزوجها مصعب بن الزبير فهلك عنها... وأول من تزوجها مصعب بن الزبير قهراً....

*«Musəb bin Zubeyr Səkinə ilə evləndi və onun arvadı olaraq da vəfat etdi... Səkinə ilə ilk evlənən şəxs Musəb idi. Bu evlilik məcburi şəkildə olmuşdu.»*[239]

## «Qeyrət»dən dəm vuranlar üçün

Bəzi cahil kütlə bu mövzuda söhbət edərkən tez-tez qeyrət mövzusuna müraciət edir. Bu da onların sadəcə olaraq, Quran və hədis bilgisindən çox uzaq olduqlarından xəbər verir. Əgər sələfi və sələfikimilərin iddia etdiyi «Əli öz qızını müdafiə edə bilmədi ki, Ömər onu zor gücü ilə aldı?», yaxud «Deyirsiz ki, Ömər Fatimənin ölümünə səbəb oldu, bəs niyə Əli Fatiməni müdafiə etmədi?» kimi suallar İslamda düzgün məntiq sualı hesab edilsə, bir çox şəxslərə bu sualı

---

[237] *İbn Təyfur, Baləğat ən-nisa, c.1, s.51; Mənsur b. əl-Huseyn əl-Əbi, Nəsr əd-durar fi əl-muhazərat, c.4, s.39; İbn Həmdun, ət-Təzkirət əl-Həmduniyyə, c.2, s.48*

[238] *İbn Kəsir əd-Diməşqi, əl-Bidayə və ən-nihayə, c.9, s.34*

[239] *Sibt bin əl-Cəuzi, Təzkirət əl-xəvvas, s.288-289*

ünvanlamalı olacaqlar. Bu siyahının da başında İbrahim Peyğəmbər (ə) gəlir. Muhəmməd əl-Buxari öz «əl-Cami əs-Səhih» kitabında aşağıdakı hədis nəql edir:

حَدَّثَنَا مُحَمَّدُ بْنُ مَحْبُوبٍ، حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ أَيُّوبَ، عَنْ مُحَمَّدٍ، عَنْ أَبِي هُرَيْرَةَ . رضى الله عنه . قَالَ لَمْ يَكْذِبْ إِبْرَاهِيمُ . عَلَيْهِ السَّلاَمُ . إِلاَّ ثَلاَثَ كَذَبَاتٍ ثِنْتَيْنِ مِنْهُنَّ فِي ذَاتِ اللَّهِ عَزَّ وَجَلَّ، قَوْلُهُ {إِنِّي سَقِيمٌ } وَقَوْلُهُ {بَلْ فَعَلَهُ كَبِيرُهُمْ هَذَا}، وَقَالَ بَيْنَا هُوَ ذَاتَ يَوْمٍ وَسَارَةُ إِذْ أَتَى عَلَى جَبَّارٍ مِنَ الْجَبَابِرَةِ فَقِيلَ لَهُ إِنَّ هَا هُنَا رَجُلاً مَعَهُ امْرَأَةٌ مِنْ أَحْسَنِ النَّاسِ، فَأَرْسَلَ إِلَيْهِ، فَسَأَلَهُ عَنْهَا. فَقَالَ مَنْ هَذِهِ قَالَ أُخْتِي، فَأَتَى سَارَةَ قَالَ يَا سَارَةُ، لَيْسَ عَلَى وَجْهِ الأَرْضِ مُؤْمِنٌ غَيْرِي وَغَيْرُكِ، وَإِنَّ هَذَا سَأَلَنِي، فَأَخْبَرْتُهُ أَنَّكِ أُخْتِي فَلاَ تُكَذِّبِينِي. فَأَرْسَلَ إِلَيْهَا، فَلَمَّا دَخَلَتْ عَلَيْهِ ذَهَبَ يَتَنَاوَلُهَا بِيَدِهِ، فَأُخِذَ فَقَالَ ادْعِي اللَّهَ لِي وَلاَ أَضُرُّكِ. فَدَعَتِ اللَّهَ فَأُطْلِقَ، ثُمَّ تَنَاوَلَهَا الثَّانِيَةَ، فَأُخِذَ مِثْلَهَا أَوْ أَشَدَّ فَقَالَ ادْعِي اللَّهَ لِي وَلاَ أَضُرُّكِ. فَدَعَتْ فَأُطْلِقَ. فَدَعَا بَعْضَ حَجَبَتِهِ فَقَالَ إِنَّكُمْ لَمْ تَأْتُونِي بِإِنْسَانٍ، إِنَّمَا أَتَيْتُمُونِي بِشَيْطَانٍ. فَأَخْدَمَهَا هَاجَرَ فَأَتَتْهُ، وَهُوَ قَائِمٌ يُصَلِّي، فَأَوْمَأَ بِيَدِهِ مَهْيَا قَالَتْ رَدَّ اللَّهُ كَيْدَ الْكَافِرِ . أَوِ الْفَاجِرِ . فِي نَحْرِهِ، وَأَخْدَمَ هَاجَرَ. قَالَ أَبُو هُرَيْرَةَ تِلْكَ أُمُّكُمْ يَا بَنِي مَاءِ السَّمَاءِ.

*Bizə Muhəmməd bin Məhbub rəvayət etdi (və dedi): Həmmad bin Zeyd bizə Əyyubdan, o da Muhəmməddən, o da Əbu Hureyrədən (r.a) onun belə dediyini rəvayət etdi: Hz.İbrahim (ə.s) sadəcə 3 dəfə yalan söyləmişdir: Bunlardan ikisi Allahın (ə.c) rızası üçün bütə ibadət edənlərə «mən xəstəyəm» deməsi və «bu işi böyük büt etdi» deməsidir. (Allah Rəsulu (s) üçüncüsü barədə) dedi: Bir gün İbrahim (zövcəsi) Sara ilə zalım tayfadan olan bir zalımın diyarına gəldi. Adamları o zalım hökmdara dedilər: «Bu kişinin yanında insanların ən gözəli olan bir qadın var.» Beləliklə, o İbrahimin arxasınca adam göndərir. Həmin şəxs Sara barədə söz açaraq: «Bu qadın kimdir?» – deyə sual edir. İbrahim dedi: «O mənim bacımdır.» Sonra İbrahim Saranın yanına gəldi və dedi: «Ey Sara, Yer üzündə ikimizdən başqa iman etmiş şəxs yoxdur. O şəxs məndən sənin barəndə soruşdu və sənin mənim bacım olduğunu dedim. Mənim sözümü yalan çıxarma.» Sonra zalım şah Saranı çağırtdırdı. Sara onun yanına gəldikdə zalım şah əli ilə Saranı tutmaq istədi, lakin bu anda nəfəsi boğuldu. Saraya dedi: «Mənim üçün Allaha dua et, sənə zərər verməyəcəyəm.» Sara Allaha dua etdi və o düzəldi. Sonra Saraya ikinci dəfə əl atdı. Bu dəfə də birinci dəfə olduğu kimi, və ya ondan daha şiddətli hala düşdü. Yenə Saraya: «Mənim üçün Allaha dua et, sənə zərər verməyəcəyəm.» – dedi. Sara yenə dua etdi və o yenə düzəldi. Gözətçilərdən bəzilərini yanına çağıraraq dedi: «Siz mənə insan yox, şeytan gətirmisiniz.» Bu zalım şah Həcəri Saraya xidmətçi olaraq hədiyyə etdi. Sara İbrahimin yanına gəldi, bu zaman İbrahim namaz qılırdı.*

*Əli ilə işarə etməklə «nə olub?» deyə xəbər aldı. Sara dedi: «Allah kafirin, yaxud facirin tələsini öz sinəsinə qaytardı və Həcəri də mənə xidmətçi verdi.» Əbu Hureyrə dedi: «Həmin Həcər sizin ananızdır, ey Bəni Ma əs-Səma.»*[240]

İbn Həcər əl-Əsqəlani bu hədisin şərhində məsələni daha da aydınlaşdıraraq yazır:

واختلف في السبب الذي حمل إبراهيم على هذه الوصية مع أن ذلك الظالم يريد اغتصابها على نفسها أختا كانت أو زوجة فقيل كان من دين ذلك الملك ان لا يتعرض الا لذوات الأزواج كذا قيل ويحتاج إلى تتمة وهو ان إبراهيم أراد دفع أعظم الضررين بارتكاب اخفهما وذلك أن اغتصاب الملك إياها واقع لا محالة لكن ان علم أن لها زوجا في الحياة حملته الغيرة على قتله واعدامه أو حبسه واضراره بخلاف ما إذا علم أن لها أخا فان الغيرة حينئذ تكون من قبل الأخ خاصة لا من قبل الملك فلا يبالي به

*Həzrət İbrahimi belə bir tövsiyəyə vadar edən səbəb barəsində fikir ayrılığı mövcuddur. O zalım şah həmin qadını - o, İbrahimin bacisi da olsa, zövcəsi də olsa - zorla onun əlindən almaq istəyirdi. Bəziləri deyib ki, həmin şah ancaq əri olan qadınlara əl uzadirdi. Həmçinin bəziləri deyiblər ki, bu məsələnin izaha ehtiyacı var. Və o, bundan ibarətdir ki, İbrahim mövcud iki zərərdən daha yüngülünə mürtəkib olmaqla onların daha böyüyünü dəf etmək istəyib. Belə ki, şahın həmin qadını onun əlindən alması labüd idi. Lakin əgər şah həmin qadının ərinin sağ olduğunu bilsəydi, qısqanclıq hissi onu qadının ərini öldürməyə, edam etməyə, yaxud həbs etməyə və ona (hər hansı bir şəkildə) ziyan vurmağa sövq edəcəkdi. Bunun əksinə olaraq əgər şah onun qardaşının olduğunu bilsəydi, bu halda qısqanclıq hissi şah tərəfindən deyil ancaq qadının qardaşı tərəfindən olacaqdı və o, bundan çıkinmirdi.*[241]

Təbii ki, bu hədis elə əvvəlindən batildir. İbrahim Peyğəmbərin (s) 3 dəfə yalan danışdığını iddia etmək özü ən böyük yalanlardandır. Sələfilərin səhih hesab etdiyi bu hədisdən belə çıxır ki, İbrahim Peyğəmbər (ə) canının qorxusundan zövcəsini zalım şaha təslim etmək bahasına onun bacısı olduğunu söyləyib. Sələfi məntiqi ilə onlar İbrahim Peyğəmbərə (ə) qeyrətsiz damğası vurmalıdırlar.

---

240 *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, Kitab Əhadis əl-Ənbiya, c.4. s.140, h.3358*

241 *İbn Həcər əl-Əsqəlani, Fəth əl-bari şərh Səhih əl-Buxari, c.6, s.393*

Ancaq burada bir hiyləyə ataraq deyirlər ki, Allah Saranı zalım şahdan qorudu. Bəs o zaman biz onlara «İmamət missiyasını qorunub davam etməsi üçün Hz.Əlinin (ə) səbr etməsi lazım idi» deyəndə, nə üçün qəbul etmirlər?

Onlar təkəbbürdən başqa bir hiyləgər suala əl ataraq deyirlər: «Allah imamət funksiyasını mütləq Əli ilə davam etdirməli idi? Ondan sonra gələn imamlara davam etdirmək qüdrətində deyildi?» Bunlar çox cılız, imamət funksiyasını anlamamış bir şəxsin sualları olsa da, biz onların başa düşəcəyi dildə bu suala elə bu hədisdəki başqa bir məqamla cavab verəcəyik: «Məgər Allah Hz.İbrahimi (ə) qoruya bilmirdi ki, Saranı qorudu? Yoxsa, Hz.İbrahim (ə) özündən sonra Allahın insanlara hidayət çırağı göndərə bilmə qüdrətinə şəkk edirdi?»

Ayrıca, qeyrətdən dəm vuranlar əvvəldə qeyd etdiyimiz «Muğəyrənin xəyanətinə Ömərin münasibəti» başlığı altındakı rəvayətlərə, o cümlədən Hz.Lutun (ə) misalına da göz atsalar, daha yaxşı olar.

Növbəti misalı Hz.Muhəmmədin (s.ə.a) həyatından çəkmək istərdik. Sələfi məntiqi ilə düşünsək, belə bir sual yaranır:

> ***«Allah Rəsulu (s.ə.a) Məkkədə yaşadığı 13 il ərzində zülmə məruz qalan müsəlmanları niyə müdafiə etmirdi?»***

Peyğəmbər səhabəsi Əmmarın anası Süməyyə Kəbə kənarında İslamdan üz çevirmək tələblərinə boyun əyməyərək, Əbu Cəhlin nizə zərbəsi ilə dünyasını dəyişdi və İslamın ilk şəhidi oldu.

İbn Həcər əl-Əsqəlani özünün «əl-İsabə» kitabında yazır:

> سمية بنت خباط... والدة عمار بن ياسر كانت سابعة سبعة في الاسلام عذبها أبو جهل وطعنها في قبلها فماتت فكانت أول شهيدة في الاسلام... عذبها آل بني المغيرة على الاسلام وهي تأبى غيره حتى قتلوها وكان رسول الله صلى الله عليه وسلم يمر بعمار وأمه وأبيه وهم يُعذّبون بالأبطح في رمضاء مكة فيقول صبرا يا آل ياسر موعدكم الجنة.
>
> *Süməyyə bint Xəbbat... Əmmar bin Yasirin anası İslamı qəbul etmiş yeddinci şəxs idi. Əbu Cəhl ona ölənə qədər qarın nahiyyəsinə nizə ilə vuraraq əzab verdi. O, İslamda şəhid olan ilk qadın idi. O, İslamı qəbul edərək dinindən dönmədiyi üçün Bəni-Müğeyrə ailəsi də ona ölənə kimi işgəncə verdilər. Allah Rəsulu (s) Məkkədə Əmmar və onun ana-atasına işgəncə verilməsini görmüş və belə buyurmuşdu: «Ey Yasir ailəsi! Səbirli olun, sizə cənnət vəd edilmişdir.»*[242]

---

[242] *İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyiz əs-səhabə, c.7, s.712, r.11342*

Deməli, Allah Rəsulu (s.ə.a) müsəlman bir qadının Əbu Cəhl və onun kimi müşriklər tərəfindən əziyyətə düçar olduğunu görmüş və sadəcə səbr etmələrini məsləhət bilmişdir.

Məgər Allah Rəsulu (s.ə.a) dünyanın ən cəsur şəxsi deyildimi? Nə üçün müsəlman qadını müdafiə etmədi? Nə üçün qılıncı ilə Əbu Cəhlin boynun vurmadı? Allah-Təala ona bu işdə kömək etməzdimi?

Bu suala verilən cavablar nədirsə, İmam Əlinin (ə) Fatiməyə (ə) zülm edənlərə qarşı çıxmamasının, Ümmü Gülsümü Ömərə ərə verməsinin (əgər bu nigahın baş tutduğunu qəbul etsək) izahı da ondan ibarətdir.

## «Cinniyyə» haqqında rəvayətlər

Əhli-sünnə kitablarında öz şərtlərinə əsasən səhih sənədlər ilə nəql olunan rəvayətlər ilə sabitddir ki, Əmir əl-möminin İmam Əli bin Əbi Talib (ə) ikinci xəlifə Ömər bin əl-Xəttabı «facir, sitəmkar, yalançı, cinayətkar, xain, günahkar və əhdini pozan» kimi tanıyırdı. Bundan əlavə onun sərt əxlaqı və daxili xüşunəti, şərab içməsi və bitədlər gətriməsi haqqında da əhli-sünnə kitablarında möhkəm dəlillər mövcuddur.

Onun iki aləmin xanımı və dünya xanımlarının seyyidəsi Xanım Fatimə (ə)-ın şəhid etməsi də eyni şəkildə səhih sənənədə malik rəvayətlər ilə məhz əhli-sünnə kitablarında sübut olunmuşdur.

Belə olduqda Ömər bin əl-Xəttabın İmam Əli (ə)-ın xanım Fatimə(ə)-dan olan qızı ilə təhdid və zor yolu ilə olsa belə evlənməsi və Allah Rəsulunun (s) namusuna əl tapmasına İmam Əli (ə)-ın icazə verməsi mümkün deyildir.

Əhli-sünnə üləması «Züleyxa xanım və Misirin Əzizi» və «Asiya xanım və Firon» evlilikləri haqqında çox maraqlı bir mövzu haqqında rəvayətlər nəql ediblər. Deyilənlərə görə, Asiya xanım (Fironun arvadı) cənnətdə əziz İslam Peyğəmbərinin (s) zövcəsi olacaq. Odur ki, Firon evli olduğu müddətdə heç vaxt Asiya xanım ilə yaxınlıq edə bilməmişdir. Yazırlar ki, Fironun Asiya xanıma yaxınlaşmaq niyyəti olduqda, Allah təbarək və təala bir cinniyəni (cin qadın) Asiya xanımın surətində Firona göndərirmiş. Eyni halın Züleyxa xanımın (Misirin əzizinin arvadı) haqqında da baş verdiyini yazırlar. Züleyxa xanım bir zaman Həzrət Yusifin (ə) zövcəsi olacağı üçün Misirin Əzizi onunla cinsi münasibətə

girdiyində Allah təbarək və təala onun da surətində bir cinniyəni onun yatağına göndərib. Bu haqda Əbd ər-Rəhman əs-Səfuri «Nuhzət əl-məcalis»-də yazır:

......وكان إذا أراد النوم معها مثل الله له جنية في صورتها وحفظها ليوسف فلما اجتمع بها وجدها بكرا كما حفظ آسية بنت مزاحم رضي الله عنها من فرعون لأنها من زوجات النبي صلى الله عليه وسلم في الجنة.

*«(Misirin Əzizi Züleyxa xanım) ilə yatmaq istədikdə Allah bir cinniyənin onun surətində göndərərək Züleyxanı Yusif üçün saxlamışdı. Yusif Züleyxa ilə evlənəndə bakirə olduğunu bildi. Eyni ilə Muzahimin qızı Asiyanı Firondan qoruduğu kimi.... Çünki o, Allah Rəsulunun (s) cənnətdəki zövcələrindən olacaqdır.»*[243]

Bu rəvayəti yazmaqdan məqsədimiz budur ki, dünya tarixində də məcburiyyətlər bir çox pak və iffətli qadınları zalım və sitəmkarlara arvad edib. Lakin zalımların zülmünün qarşısı Allah təbarək və təala tərəfindən çox məharətlə alınmışdır. Allah təbarək və taəalanın xüsusi inayəti ilə onlar yenə də öz iffətlərini qoruya bilmişlər. Kim deyə bilər ki, əgər xanım Fatimənin (ə) qızı Ömər bin əl-Xəttab kimi şəxsin arvadı olubsa, Allah təbarək və taəla onların arasında bir cinniyyə salmamışdır? Bu barədə rəvayətlər də mövcuddur.[244]

Bəziləri bunu gülünc və əqlən mümkünsüz hesab edə, cinlə insan arasında münasibətləri sual altına almaq üçün şübhələr ortaya ata bilər. Ona görə də məhz əhli-sünnə alimlərindən bir neçə məsələni diqqətinizə çatdırmaq istərdik.

Şeyxul-İslam İbn Teymiyyə əl-Hərrani yazır:

وقد يتناكح الإنس والجن ويولد بينهما ولد وهذا كثير معروف.

*«İnsanlar və cinlər bir-birlərilə evlənə bilərlər, onlardan övlad da dünyaya gələ bilər. Bu, çox baş vermiş və hamı tərəfindən bilinən bir şeydir.»*[245]

əl-Qurtubi öz təfsirində yazır:

ويروى أن أحد أبويها كان من الجن.
قال ابن العربي : وهذا أمر تنكره الملحدة , ويقولون : الجن لا يأكلون ولا يلدون ; كذبوا لعنهم الله أجمعين ; ذلك صحيح ونكاحهم جائز عقلا فإن صح نقلا فبها ونعمت.
وقال ابن العربي المالكي : نكاحهم جائز عقلاً ، فإن صح نقلاً : فبها ونعمت.

*«Rəvayətə görə, onun (Bəlqisin) valideynlərindən biri cinlərdən idi. İbn əl-Ərəbi dedi: «Bu, inkarçıların rədd etdiyi bir məsələdir. Onlar deyirlər ki, cinlər yemir və*

---

[243] *Əbd ər-Rəhman əs-Səfuri, Nuzhət əl-məcalis və muntəxəb ən-nəfais, c.2, s.262*
[244] *Nemətullah əl-Cəzairi, əl-Ənvar ən-numaniyyə" c.1, s.83-84*
[245] *İbn Teymiyyə əl-Hərrani, əl-Məcmu əl-fətava, c.19, s.39*

*doğmurlar. Allah onların (inkarçıların) hamısına lənət eləsin, yalan deyirlər. Belə bir şey doğrudur və əqlən caizdir. Nəqlən də səhih olaraq sabit olsa, daha yaxşı olardı.»*[246]

əl-Qurtubi daha sonra cinlərin qidalandıqları barədə səhih rəvayətləri təqdim etdikdən sonra yazır:

وهذا كله نص في أنهم يطعمون . وأما نكاحهم فقد تقدمت الإشارة إليه في " الإسراء " عند قوله : " وشاركهم في الأموال والأولاد " [ الإسراء : 64. ]

وروى وهيب بن جرير بن حازم عن الخليل بن أحمد عن عثمان بن حاضر قال : كانت أم بلقيس من الجن يقال لها بلعمة بنت شيصان.

وسيأتي لهذا مزيد بيان إن شاء الله تعالى.

*«Bütün bunlar onların yemək yedikləri barədə açıq nəsslərdir. Onlarla evlənməyə gəldikdə isə buna dair işarəyə də daha əvvəl «əl-İsra» surəsində uca Allahın «Mallarına və övladlarına şərik ol» buyuruğu açıqlanarkən toxunulmuşdu. Buheyb bin Cərir bin Hazim də əl-Xəlil bin Əhmədən, o da Osman bin Hazirdən belə dediyini rəvayət edib: Bəlqisin anası cinlərdən idi, adı da Şeysan qızı Bəlamə idi. Uca Allahın iznilə buna dair daha geniş açıqlamalar irəlidə gələcəkdir.»*[247]

Müasir sələfi alimlərindən olan Muqbil bin Hadi əl-Vadii «Tuhfə əl-mucib» kitabında insan və cin arasında evliliyə şəriət qanunları ilə qadağanın olmadığını, lakin öz fikrinə görə belə bir halın (insan və cin arasında münasibətlərin) zinaya və günaha yol aça biləcəyini deyir.[248]

Digər bir sələfi alimi İbn Cibrin isə cin və insan arasında münasibətin mümkünlüyü barədə fətva vermiş, ancaq bu münasibətdən övlad dünyaya gəlib-gəlmədiyini bilmədiyini söyləmişdir.[249]

---

[246] *Muhəmməd bin Əhməd əl-Qurtubi, əl-Cami əl-Əhkam əl-Quran, c.13, s.182*

[247] *Muhəmməd bin Əhməd əl-Qurtubi, əl-Cami əl-Əhkam əl-Quran, c.13, s.183*

[248] *Muqbil bin Hadi əl-Vadii, Tuhfə əl-mucib, s.343*

[249] http://ibn-jebreen.com/?t=fatwa&view=vmasal&subid=12820

# IX FƏSİL

## Bu mövzu haqqında əhli-sünnə hədislərinin araşdırılması

Şahid olduğunuz kimi, bu mövzu haqqında əhli-sünnə mənbələrində çox sayda rəvayətlər nəql edilib. Bununla belə, rəvayətlərin demək olar ki hamısı sənəd cəhətdən qüsurludur.

Digər bir tərəfdən, bu rəvayətləri bir-biri ilə yanaşı gətirdikdə aralarında olan təzadlar sonu görünməyən uçurumlar kimi özünü büruzə verir. Belə ki, bir rəvayət digər rəvayətlərin mətnini təsdiq etmir. Seyid Əli əl-Milani «Təzvicu Ummu Kulsum min Umar» kitabında bütün bu rəvayətləri araşdırmış və üsuli qaydada rədd etmişdir. Biz isə xülasə şəkildə yazmaq məcburiyyətində olduğumuz üçün yalnız ən mühümlərini qeyd edirik.

İlk növbədə əl-Buxarinin «əl-Cami əs-səhih» kitabında nəql etdiyi rəvayətə diqqət edin. əl-Buxari yazır:

حَدَّثَنَا عَبْدَانُ، أَخْبَرَنَا عَبْدُ اللَّهِ، أَخْبَرَنَا يُونُسُ، عَنِ ابْنِ شِهَاب [ زهري ]، قَالَ ثَعْلَبَةُ بْنُ أَبِي مَالِكٍ إِنَّ عُمَرَ بْنَ الْخَطَّابِ . رضى الله عنه . قَسَمَ مُرُوطًا بَيْنَ نِسَاء مِنْ نِسَاءِ الْمَدِينَةِ، فَبَقِيَ مِرْطٌ جَيِّدٌ فَقَالَ لَهُ بَعْضُ مَنْ عِنْدَهُ يَا أَمِيرَ الْمُؤْمِنِينَ أَعْطِ هَذَا ابْنَةَ رَسُولِ اللَّهِ صلى الله عليه وسلم الَّتِي عِنْدَكَ. يُرِيدُونَ أُمَّ كُلْثُوم بِنْتَ عَلِيّ. فَقَالَ عُمَرُ أُمُّ سَلِيط أَحَقُّ. وَأُمُّ سَلِيط مِنْ نِسَاءِ الأَنْصَارِ، مِمَّنْ بَايَعَ رَسُولَ اللَّهِ صلى الله عليه وسلم. قَالَ عُمَرُ فَإِنَّهَا كَانَتْ تَزْفِرُ لَنَا الْقِرَبَ يَوْمَ أُحُد.

*«Bizə Əbdan rəvayət etdi (və dedi): bizə Abdullah xəbər verdi (və dedi): Yunus bizə İbn Şihabdan [Zühri] rəvayət etdi ki, Sələbə bin Əbi Malik dedi: «Ömər Mədinə qadınları arasında bəzi paltarı bölüşdürürdü və sonda yaxşı bir paltar qaldı. Yanındakılardan bəziləri dedilər: «Ya Əmir əl-möminin! Bunu sənin yanındakı Allah Rəsulunun (s) qızına ver.» Bununla Əlinin qızı Ümmü Gülsümü nəzərdə tuturdular. Ömər dedi: «Buna Ümmü Səlit daha layiqdir. O, Allahın Rəsuluna (s) beyət etmiş Ənsar qadınlarındandır.» Və əlavə etdi: «O «Uhud» döyüşündə bizə su daşıyardı.»*[250]

***Birincisi:***

Bu rəvayətin sənədində adı çəkilən Yunus bin Yəzid əl-Əyli adlı ravi əl-Buxarinin özü də daxil olmaqla, bir sıra əhli-sünnə alimlərinin nəzərinə görə zəif yaddaşa malik idi və İbn Şihab əz-Zühridən nəql etdiyi rəvayətlərdə səhv edirdi.

əl-Mizzi «Təhzib əl-kəmal» kitabının tərcüməsində yazır:

[250] *Muhəmməd b. İsmayıl əl-Buxari, əl-Cami əs-səhih, Kitab əl-cihad və əs-siyər, c.3, s.1056, h.2725*

وقال محمد بن عوف، عن أحمد بن حنبل: قال وكيع: رأيت يونس بن يزيد الايلي وكان سيئ الحفظ.

قال أبو عَبد الله: يونس كثير الخطأ عن الزُّهْرِيّ، وعقيل أقل خطأ منه.

وقال أبو زُرْعَة الدمشقي: سمعت أبا عَبد الله أحمد بن حنبل يقول: في حديث يونس بن يزيد منكرات عن الزُّهْرِيّ.

وَقَال أبو الحسن الميموني: سئل أحمد بن حنبل: من أثبت في الزُّهْرِيّ؟ قال: معمر. قيل له: فيونس؟ قال: روى أحاديث منكرة.

وقال محمد بن سعد: كان حلو الحديث، كثيره، وليس بحجة، ربما جاء بالشئ المنكر.

*«Muhəmməd bin Auf Əhməd bin Hənbəldən onun belə dediyini xəbər verdi: Vəki dedi: «Yunus bin Yəzid əl-Əylini gördüm, onun yaddaşı zəif idi.»*

*Əbu Abdullah (Əhməd bin Hənbəl) dedi: «Yunusun əz-Zühridən (etdiyi rəvayətlərdə) çox səhvləri var. Əqil ondan daha az səhv edib.»*

*Əbu Zurə əd-Diməşqi dedi: Əbu Abdullah Əhməd bin Hənbəldən belə dediyini eşitmişəm: «Yunus bin Yəzidin əz-Zühridən nəql etdiyi rəvayətlərdə inkar edilmiş şeylər var.»*

*Əbul-Həsən əl-Məymuni: Əhməd bin Hənbələ sual verildi: «əz-Zuhridən nəql edən ravilərin hansı üstündür?» Dedi: «Muamər» Soruşuldu: «Bəs Yunus necə?» Dedi: «Munkər hədislər nəql edir.»*

*Muhəmməd bin Səd deyib: «Onun rəvayətləri xoşagələndir, çoxdur, amma höccət deyildir. Çünki bəzən munkər rəvayətlər nəql edir.»*[251]

İbn Həcər əl-Əsqəlani onun tərcümeyi-halında yazır:

يونس بن يزيد بن أبي النجاد الأيلي بفتح الهمزة وسكون التحتانية بعدها لام أبو يزيد مولى آل أبي سفيان ثقة إلا أن في روايته عن الزهري وهما قليلا وفي غير الزهري خطأ.

*«Yunis bin Yəzid bin Əbi Nicad əl-Əyli, Əbi Sufyan ailəsinin azad edilmiş köləsidir, siqadır. Lakin onun əz-Zuhridən nəql etdiyi rəvayətlərdə az da olsa səhvləri var. əz-Zühridən (nəql etdiklərindən) başqa da xəta var.»*[252]

***İkincisi:***

əz-Zühri Bəni-Üməyyənin təşkil etdiyi saxta hədis hazırlayan dəstənin üzvlərindəndir. Əhli-sünnənin böyük alimlərindən olan İbn Əsakir «Tarixi mədinəti Diməşq» kitabında yazır:

[251] *Yusif b. Zəki əl-Mizzi, Təhzib əl-kəmal, c.32, s.554*

[252] *İbn Həcər əl-Əsqəlani, Təqrib ət-təhzib, c.1, s.614, h.7919*

حَدَّثَنَا جعفر بن إبراهيم الجعفري قال كنت عند الزهري أسمع منه فإذا عجوز قد وقفت عليه فقالت يا جعفري لا تكتب عنه فإنه مال إلى بني أمية وأخذ جوائزهم فقلت من هذه قال أختي رقية خرفت قالت خرفت أنت كتمت فضائل آل محمد.

*«Cəfər bin İbrahim əl-Cəfəri dedi: «əz-Zühridən hədis dinlədiyim vaxt birdən yaşlı bir qadın gəldi və dedi: «Ey Cəfəri! əz-Zühridən hədis nəql etmə! Çünki o, Bəni-Üməyyəyə meyllidir və onlardan mükafat alır.» Dedim: «Bu qadın kimdir?» əz-Zühri dedi: «Mənim bacım Rüqəyyədir, dəli olub.» O (qadın əz-Zührinin sözünə cavab olaraq) dedi: «Dəli olan sənsən! Çünki Ali Muhəmmədin fəzilətlərini gizlədirsən!»*[253]

İbn Həcər əl-Əsqəlani əl-Aməşin tərcümeyi-halında yazır:

وحكى الحاكم عن ابن معين أنه قال أجود الأسانيد الأعمش عن إبراهيم عن علقمة عن عبد الله فقال له انسان الأعمش مثل الزهري فقال برئت من الأعمش أن يكون مثل الزهري الزهري يرى العرض والإجازة ويعمل لبني أمية والأعمش فقير صبور مجانب للسلطان ورع عالم بالقرآن.

ابن معين گفت: بیزارم از این که اعمش مثل زهری باشد؛

*Hakim (ən-Nisaburi) İbn Muindən onun belə dediyini nəql etmişdir: «Ən yaxşı sənəd Aməşin İbrahimdən, onun da Əlqəmədən, onun da Abdullahdan nəql etdiyi sənəddir.» Bir şəxs soruşdu: «əl-Aməş də əz-Zühri kimidir?» İbn Muin dedi: «əl-Aməşi əz-Zühriyə oxşatmaqdan Allaha sığınıram. Çünki əz-Zühri dünya malı və mükafat almaq üçün Bəni-Ümməyyənin işini görürdü. Lakin əl-Aməş kasıb və səbr edən idi. Hökmdardan uzaq gəzərdi. Vəra əhli və Quran alimi idi.*[254]

əz-Zəhəbi «Siyər əlam ən-nubəla»-da yazır:

كان رحمه الله محتشما جليلا بزي الأجناد له صورة كبيرة في دولة بني أمية.

*«əz-Zühri (r) çoxlu mal və sərvət sahibi idi. Bəni-Üməyyə hökümətində əhəmiyyətli dərəcədə ad-sanı var idi.»*[255]

İbn Əsakir yazır:

عن عمر بن رديح قال كنت مع ابن شهاب الزهري نمشي فرآني عمرو بن عبيد فلقيني بعد فقال ما لك ولمنديل الأمراء يعني ابن شهاب

[253] *İbn Əsakir, Tarix mədinəti Diməşq, c.42, s.228*

[254] *İbn Həcər əl-Əsqəlani, Təhzib ət-təhzib, c.4, s.196*

[255] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.5, s.337*

*«Ömər bin Rədihdən rəvayət olunub ki, dedi: «Bir gün İbn Şihab əz-Zuhri ilə birgə yol gedirdim. Əmr bin Ubeyd məni gördü və sonra mənimlə görüşəndə dedi: «Padşahların dəstmalı, yəni İbn Şihab ilə nə edirdiniz?»*[256]

Başqa bir tərəfdən əhli-sünnə alimləri, o cümlədən əz-Zəhəbi və əl-Mizzi İmam Cəfər əs-Sadiqdən (ə) nəql edirlər ki, o həzrət buyurub:

هشام بن عباد، قال: سمعت جعفر بن محمد، يقول: الفقهاء أمناء الرسل، فإذا رأيتم الفقهاء قد ركنوا إلى السلاطين فاتهموهم.

*Hişam bin İbad deyir: Cəfər bin Muhəmməddən (İmam Cəfər Sadiq ələyhis-səlam) eşitdim ki, buyurdu: «Fəqihlər Peyğəmbərlərin qəyyumlarıdır. Odur ki, onların sultanlara arxalandığını görsəniz onlara qarşı bədbin olun!»*[257]

***Üçüncüsü:***

«Kəsirul-idrac»[258] olaraq tanınan əz-Zuhrinin əlavə və uydurmalarına heç bir alim, o cümlədən əhli-sünnə alimləri etibar etmir. əz-Zuhrinin «kəsirul-idrac»-dan olması o deməkdir ki, o özündən qabaq Allah Rəsulundan (s) nəql olunan hədislərə əlavələr etmiş və öz sözünü Allah Rəsulunun (s) ruhani kəlamları ilə qarışdırmışdır. Bu rəvayətin də mətninə diqqət etdikdə *«Yuriydunə Ummə Kulsum bintə Əli»* - « *Bununla Əlinin qızı Ümmü Gülsümü nəzərdə tuturdular.*» cümləsinin əz-Zuhrinin öz əlavəsi olduğu aşkar görünür. Çünki rəvayətin əslində belə bir cümlə olmayıb.

Əhli-sünnə alimlərindən Həsən bin əs-Səqqaf «Tənaquzat əl-Albani» kitabında yazır:

ثم إن الزهري كان يدرج ألفاظا في الأحاديث النبوية هي من فهمه أو تفسيره نبه على ذلك بعض الأئمة كالبخاري وربيعة شيخ الامام مالك... وكم في الفتح وغيره من جمل وكلمات وعبارات نبه عليها الحفاظ أنها من مدرجات وزيادات الزهري والله الهادي.

*«əz-Zuhri Peyğəmbər hədislərinin sözlərinə əlavə edir, yaxud başa düşdüyü kimi yozur və təfsir edirdi. Necə ki, bəzi imamlar, məsələn əl-Buxari, və İmam Malikin şeyxi ər-Rəbiyyə də bu məsələyə işarə ediblər...*

---

[256] *İbn Əsakir, Tarix mədinəti Diməşq, c.55, s.370*

[257] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.6, s.262*

[258] *İdrac – hədis termini olmaqla, ravinin rəvayət etdiyi hədisə mətnə, və ya sənədə əslində olmayan sözlər əlavə etməsinə deyilir. «Kəsirul-idrac», yəni bu əməli çox təkrar etmiş şəxs deməkdir.*

*«Fəthul-bari» və digər kitablarda çox cümlələr, kəlmələr və ibarələr var ki, hədis hafizləri onların əz-Zuhrinin idrac və əlavələrindən olduğuna işarə ediblər.»*[259]

İbn Həcər əl-Əsqəlani əz-Zuhrinin əlavələrinə bir çox yerdə işarə etmişdir:

قوله «وبعض العوالي الخ» مدرج من كلام الزهري في حديث أنس بينه عبد الرزاق عن معمر عن الزهري… فقال هو إما كلام البخاري أو أنس أو الزهري كما هو عادته.

«وبعض العوالي الخ» *hissəsi əz-Zuhrinin əlavələrindəndir... Bu əlavə ya əl-Buxari, ya Ənəs, ya da əz-Zuhri tərəfindən edilmişdir. Necə ki, (əlavə etmək) onun (Zuhrinin) adətidir.»*[260]

قال الخطابي هذه الزيادة يشبه أن تكون من كلام الزهري وكانت عادته أن يصل بالحديث من كلامه ما يظهر له من معنى الشرح والبيان.

